
ZƏLİMXAN YAQUB

ƏSƏRLƏRİ

ON ÜÇ CİLDDƏ



“Şərq-Qərb”
Bakı – 2011



Ömrümün bir günü sərf əz, ey tazi,
Əzmimizin barətini ləğv etmək üçün.
Yazsam dünyanı, min qazi-qazi,
Vətni qəlbimə köçürmək üçün.

Əlimdən
Yaqub

Tərtib edəni və
redaktoru: **Musa NƏBİOĞLU**

Zəlimxan Yaqub. Əsərləri, 13 cilddə, III cild.
Bakı, "Şərq-Qərb" Nəşriyyat evi, 2011, 440 səh.

Xalq şairi Zəlimxan Yaqubun 13 cildlik "Əsərləri"nin 3-cü cildində şairin müxtəlif mövzularda yazılmış şeirləri toplanmışdır

ISBN 978-9952-34-704-3

© Zəlimxan Yaqub, 2011
© "Şərq-Qərb" Nəşriyyat evi, 2011

BU XALQIN

Oymaq-oymaq eli gəzdim, dolandım,
Fikir verdim xislətinə bu xalqın.
Yatardımı əl qələmə, dil sözə,
Vurulmasam söhbətinə bu xalqın.

Oylağımdı qarlı dağlar, binələr,
Sərvətimdi söhbət dolu sinələr.
Eşqi dastan, özü nağıl nənələr,
Nur yağdırıb ismətinə bu xalqın.

Gərək hər gün əzizlənə, qoruna,
Baş əyəsən ocağına, qoruna,
Qurban olum babaların goruna,
Naxış vurub şöhrətinə bu xalqın.

Dədələşib Salur Qazan oğullar,
Tüp dağıdan, Halay pozan oğullar.
Al qanıyla tarix yazan oğullar,
Heykəl qoyub qeyrətinə bu xalqın.

Sevdiyinə əyri baxmaz dünyada,
Verdiyini başa qaxmaz dünyada.
Otum bitib, suyum axmaz dünyada,
Düçar olsam nifrətinə bu xalqın.

Qanad açıb səmalara uçan da,
Şöhrət tapıb zirvələri qucan da.
Günəş olub yerə işıq saçan da,
Arxalanıb zəhmətinə bu xalqın.

Zirvə qardı, yüksəklərdə qara bax,
Göl güzgüdü, saçlarını dara, bax.
Nərmə-nazik bayatılı Qarabağ,
Bir misaldı cənnətinə bu xalqın.

Min nemətlə dolar qoynu, qucağı,
Qonaqlı ev heç söndürməz ocağı.
Hər kim olsa bu yerlərin qonağı,
Səcdə qılar adətinə bu xalqın.

İlhamıdı coşqun çaylar, dənizlər,
Saflığıdı müqəddəslər, təmizlər.
El sevəni aləm sevər, əzizlər,
Zaval yoxdu qiymətinə bu xalqın.

Yaxşını da, yamanı da tez görür,
Gördüyünü düz tanıyır, düz görür.
Ağıl kəsir, könül duyur, göz görür.
Sözmü çatar hikmətinə bu xalqın.

Ağrımayan ürək ola, baş ola,
Can sirdaşım torpaq ola, daş ola.
Arzuların sayı qədər yaş ola,
Ömür verəm xidmətinə bu xalqın.

MƏHƏBBƏT

Bu torpaqda zəmi olmaq bərəkət,
Bu zəmidə sünbül olmaq səadət,
Bu sünbüldə dəni görüb sevinmək,
Ləyaqətdi, ləyaqətdi, ləyaqət!

Yaraşığı yazda çiçək, qışda qar,
Şan-şöhrəti budaqları əyən bar.
Ana torpaq babalardan yadigar,
Əmanətdi, əmanətdi, əmanət!

Çiçəklərin yerə işıq saçması,
Gülü görüb gül dodağın qaçması,
Səhər çağı qönçələrin açması,
Təravətdi, təravətdi, təravət!

Şirvanım da, Muğanım da, Milim də,
Könül açan bir nəğmədi dilimdə.
Qarabağın havası var zilimdə –
Məlahətdi, məlahətdi, məlahət!

Əl becərə, ətək dola, üz gülə,
Şair deyə, qələm yaza, söz gülə.
Bir salxımda saçaqlanıb yüz gilə,
Səxavətdi, səxavətdi, səxavət!

Gecə keçdi, yavaş-yavaş dan atdı,
Zəhmət oğlu tarlalara can atdı.
Hər qələbə uçmaq üçün qanaddı,
Cəsarətdi, cəsarətdi, cəsarət!

Bir şərəfdi xalqa şöhrət, şan olmaq,
Beyin olmaq, ürək olmaq, can olmaq.
Bu görüşdə kənar gəzib, yan olmaq,
Xəyanətdi, xəyanətdi, xəyanət!

Ürəyimdə od yurdunun odu var,
Odu dövlət, odu sərvət, odu var.
Bu istəyin bir müqəddəs adı var –
Məhəbbətdi, məhəbbətdi, məhəbbət!

YAŞAMAQ HƏVƏSİ

Nə eldən doyan var, nə gözdən qoyan,
İnsanlar yaşamaq həvəsindədi.
Dolana-dolana bağın başına,
Bağbanlar yaşamaq həvəsindədi.

Təbiət istəyir al-əlvan geyə,
Könül vurğun ola nəğməyə, neyə.
Ovçu nişan alır öldürüm deyə,
Ceyranlar yaşamaq həvəsindədir.

Günəşli səhəri, aylı axşamı,
Zəlimxan, doymadan seyr edir hamı.
Ey fələk, söndürmə odlanan şamı,
Yananlar yaşamaq həvəsindədi.

BURDA

Gəldim Qarabağa bahar çağında,
Öpdüm, əzizlədim torpağı burda.
Hayana baxdımsa nəğməli gördüm,
Hər otu, ağacı, yarpağı burda.

Hansı obasına düşdüsə yönüm,
Çiçək sərgisiylə bəzəndi yönüm.
Nənələr deyəndə "başına dönüm",
Alışdı ömrümün çırağı burda.

Səsini zamanın səsinə qatıb,
Hər sözü ellərin qəlbinə yatıb.
Vaqiflər yandırıb, Zakirlər çatıb,
Sönərmi sənətin ocağı burda.

Könlü min arzuda, min həvəsdədi,
Kimi zildən gedir, kimi pəsdədi.
Şirin nəfəsdədi, qaynar səsdədi,
Axtarmaq nə lazım bulağı burda.

Yüz dərdə dərmandı bir çiçək ətri,
Duydum hər qarışda duz-çörək ətri.
Ağsaqqal nəfəsi, ağbirçək ətri,
Şairə döndərdi qonağı burda.

DAYANMAZ

Gözə baxdım, gözəlliyə can dedim,
Heyf, o da gözdə, qaşda dayanmaz.
Günlərimiz axıb gedər çay kimi,
Selə dönər, dağda, daşda dayanmaz.

Yaz açılar, çiçək bitər, gül gələr,
Fəsillərin səcdəsinə el gələr.
Ay dolanar, il üstünə il gələr,
İnsan ömrü bircə yaşda dayanmaz.

Ay Zəlimxan, bağlar töksə xəzəli,
Yaddan çıxmaz eşqin ilki, əzəli.
Dindirəndə könül sevən gözəli,
Ruh bədəndə, ağıl başda dayanmaz.

SALAM YETİR

Gedirsən, ay eloğlu, dinlə məni ürəkdən,
Orda mənsiz ömr edən illərə salam yetir.
Qarayazı, Başkeçid, Sınıq körpü arası,
Öp suların gözündən, güllərə salam yetir.

Gedişinlə torpağın hər daşını ləl elə,
Düzlərinə baş endir, dağlarına əl elə.
Dost sözünə könül ver, əhdinə əməl elə,
Şəlaləni qucaqla, sellərə salam yetir.

Nəğməsinə oyanıb, laylasına yatdığım,
Çəmənində, çölündə şehə, suya batdığım,
Qucağında hər gecə ocağımı çatdığım,
Təbiətə salam de, çöllərə salam yetir.

Neçə nəğməkarım var, mənim nə dərdim daha,
Sazı elin şöhrəti, sözü gövhərdən baha.
Salam apar Hüseynə, Kamandara, Əmraha,
Ürəyimə calanmış tellərə salam yetir.

El məclisi görməsə, şair könlü saz olmaz,
Gözündə həyat eşqi, ürəyində yaz olmaz.
Borçalıda oğlunu soruşanlar az olmaz,
Şeirimi əzbər deyən dillərə salam yetir.

Tapşırığım, söhbətim qoy çıxmasın yadından,
Üzünü tut torpağa Zəlimxanın adından.
Gözümün işığından, ürəyimin odundan,
Bərəkətim, qüdrətim ellərə salam yetir!

GETMƏRƏM

Su içmişəm bulağından dağların,
Bulaq olub süzülməmiş getmərəm.
Yazın xeyli həsrətini çəkmişəm,
İntizardan üzülməmiş getmərəm.

Gözüm qalıb naxışında, zehnində,
Dayanmışam küləyində, mehində,
Qoy islanım yağışında, şehində,
Dolusunda əzilməmiş getmərəm.

Vurulmuşam şimşəklərin oynuna,
Sığınmışam çəmənlərin qoynuna.
Misralarım çiçəklərin boynuna,
Muncuq kimi düzülməmiş getmərəm.

Aran anam, yaylaq bacım, dağ atam,
Gərək hər gün şirə çəkəm, tağ atam.
Şeirim olub düzə ləzzət, dağa tam,
Bu yerlərə yazılmamış getmərəm.

XOŞBƏXTƏM

Bu gecə dünyanın ən xoşbəxtiyəm,
Bulaq bir yanımda, çay bir yanımda.
Təbiət nazımla oynayır mənim,
Ulduz bir yanımda, ay bir yanımda.

Həyat hər insana bir həvəs verir,
Od ürək, od baxış, od nəfəs verir.
Dinirəm, səsimə çöllər səs verir,
Sükut bir yanımda, hay bir yanımda.

Dağlar nə möhtəşəm, nə vüqarlıdır,
Zəlimxan, kainat necə varlıdır.
Ətək çiçəklidir, zirvə qarlıdır,
Qış bir yanımdadı, yay bir yanımda.

DÜNYADI

A bostançı, bostanına güvənmə,
Dünya özü bostan əkən dünyadı.
Ağlar qoyub anasını torpağın,
Bərəkəti göyə çəkən dünyadı.

Əyrisi də, doğrusu da yalandı,
Yolu kəsən bəxti əldən alandı.
İlan kimi qıvrılandı, çalandı,
Leylək kimi tez-tez səkən dünyadı.

Sən göynəmə, özü çəksin dərdini,
Şeş də versə, gəl oynama nərdini.
Yaşatmadı qoçağını, mərdini,
Baş aparan, zəhlə tökən dünyadı.

Şahlar hanı, sarayları dam oldu,
Şərbət döndü zəhər dolu cam oldu.
Süleyman da, İsgəndər də xam oldu,
Elə bildi dizə çökən dünyadı.

Soraq itər, sirr gizlənər, söz batar,
Doğan günü tez quylanar, tez batar.
Ay Zəlimxan, diş tökülər, üz batar,
Qurduğunu bir-bir sökən dünyadı.

SARILDIĞIM SAZDI MƏNİM

Əzizlərəm ana kimi,
Sarıldığım sazdı mənim.
Sığallaram sona kimi,
Sarıldığım sazdı mənim.

O, çiçəkdi, arı mənəm,
O, zirvədi, qarı mənəm,
O, bağbandı, barı mənəm,
Sarıldığım sazdı mənim.

Dillənmişəm dili kimi,
Danışmışam teli kimi,
Yüksəlmişəm zili kimi,
Sarıldığım sazdı mənim.

Həqiqətim, doğrum odur,
Məşəqqətim, ağrım odur,
Köz-köz olan bağrım odur,
Sarıldığım sazdı mənim.

Bir Qəribəm, qürbətimdi,
Bir Məcnunam, həsrətimdi.
Bir Kərəməm, hicrətimdi,
Sarıldığım sazdı mənim.

Ağrıdı, ah vergisidi,
Tanrının şah vergisidi.
Ruhu Allah vergisidi,
Sarıldığım sazdı mənim.

Odum orda, qorum orda,
Gücüm orda, zorum orda.
Qəbrim orda, gorum orda,
Sarıldığım sazdı mənim.

Qorqud quran bir yuvadı,
Yunusdan qalan havadı,
Dərk etməyən binəvadı,
Sarıldığım sazdı mənim.

Çiçəklər yazdan doğulub,
Gözəllər nazdan doğulub,
Zəlimxan sazdan doğulub,
Sarıldığım sazdı mənim.

ARALI

Dolansa da sinəsində göylərin,
Yuva qurmaz quş budaqdan aralı.
Nəğmələr var ürəyimdə, qanımda,
Bulaq olmaz gur bulaqdan aralı.

Bağçamızın beşi heyva, üçü nar,
Yada düşdü o kölgəlik, o çinar.
Könlüm yenə yarpaq kimi uçunar,
O çiçəkdən, o yarpaqdan aralı.

El-obadan çəkilərmi nəzərim,
Onsuz mənim nə bəxtim var, nə zərim.
Eldən ayrı necə yanım, közərim,
Göz olarmı gur ocaqdan aralı?!

Divar nədir, özül bilər, him bilər,
Mizrab nədir, pərdə bilər, sim bilər.
Zəlimxanı kim tanıyar, kim bilər,
Bu Vətəndən, bu torpaqdan aralı!

BƏNZƏYƏ

Ana yurdun hər daşına bələdəm,
Bulaq varmı bulağına bənzəyə.
İnanmıram, yad ocağı yüz olsa,
Bir ananın qucağına bənzəyə.

Gülə bilməz nəsillərin üzünə,
Quru yerin astarı nə, üzü nə.
Düz istərəm Qarabağın düzünə,
Dağ istərəm Şahdağına bənzəyə.

Bir bağbanam, damağımda bar dadı,
Bərəkətim torpaq verən bardadı.
Elə dəniz, elə sahil hardadı,
Göy Xəzərin qırağına bənzəyə.

Hər gözəllik qanadıdır sənətin,
Görüşü xoş, ayrılığı çox çətin.
Nə həddi var əfsanəvi cənnətin,
Azərbaycan torpağına bənzəyə!

ARXALANMIŞAM

Ana qucağına bala sığınar,
Dağların döşünə qala sığınar,
Arılar pətəyə, hala sığınar,
Torpağım, mən sənə arxalanmışam!

Ümiddən, qayğıdan çəkim var mənim,
Çiynimdə dağ boyda yüküm var mənim,
Gövdəyəm, dərində köküm var mənim,
Budağım, mən sənə arxalanmışam!

Gözünə işıq ver doğulan kəsin,
Nurun azalmasın, odun sönməsin,
Boranlı günlərdə üzün dönməsin,
Çırağım, mən sənə arxalanmışam!

Şeirim gözün kimi duru görünsün,
Sözümdə dünyanın nuru görünsün.
Qoyma kəlmələrim quru görünsün,
Bulağım, mən sənə arxalanmışam!

Arzu yollarında qalmayım geri,
İlhamla yaradım nəğməni, şeiri.
Nəslimin ən qədim ziyarət yeri,
Ocağım, mən sənə arxalanmışam!

NİŞAN VERƏR

Payızın sorağı xəzəldən gələr,
Qışın bəyliyini buz nişan verər.
Yazın qız vaxtını, oğlan çağını,
Çiçəyi sayrışan düz nişan verər.

Gücündən bilinər səmti küləyin,
Rəngindən bilinər ətri çiçəyin,
Sevinci, şadlığı varsa ürəyin,
Yanaqlar allanar, üz nişan verər.

Versən öz qəlbini təmiz bir ada,
Hər zaman hörmətlə düşərsən yada.
Nə qoyub gedirsən qoca dünyada,
Zəlimxan, açdığın iz nişan verər.

GÖZƏLLƏŞDİRƏR

Baxarsan bağ olar quru səhralar,
Eşqimiz bu bağı gözəlləşdirər,
Qəlbimiz qələmə təpər gətirər,
Sözümüz varağı gözəlləşdirər.

Dünya dilimizə danışıq verər,
Axşam od paylayar, dan işıq verər,
Şəvə saçımıza dən işıq verər,
Yüz qara bir ağı gözəlləşdirər.

Durular, saflaşar qəlbin aləmi,
Heç olar kədəri, puç olar qəmi,
Yerdə şehə dönər buludun nəmi,
Damlası yarpağı gözəlləşdirər.

Duyğular köklənər inamın üstə,
Gecə də gün doğar ilhamın üstə,
Ürək yandırarıq hər şamın üstə,
Nurumuz çırağı gözəlləşdirər.

Yer bizim, göy bizim, neçə ki varıq,
Ətəkdə çiçəyik, zirvədə qarıq.
Dünyadan köçəndə yaddan çıxmarıq,
Ruhumuz torpağı gözəlləşdirər!

HEÇ NƏDİR

Xoş arzular bəzəyidir dünyanın,
İnsan ömrü saf diləksiz heç nədir.
Od Günəşin, su torpağın şöhrəti,
Bağça gülsüz, bağ bəzəksiz heç nədir.

Könül doymaz gözəllikdən, gözəldən,
Qara saça yaraşıqdı gözəl dən.
Çılpaq dağa yazıq dedik əzəldən,
Zirvə qarsız, döş çiçəksiz heç nədir.

Ağıl gərək ürəkləri eşidə,
Ömür verə hər naxışa, çeşidə.
Qızıl olsa beş barmağın beşi də,
Ürək əlsiz, əl ürəksiz heç nədir.

İnsan üçün az yanmadı canım, az,
İstəmərəm el yolunda yanım az.
Bağlı qapı bin-bərəkət tanımaz,
Yurd qonaqsız, ev çörəksiz heç nədir.

Ha alışa, ha sızlaya, ha yana,
Çox çətin ki, yatan bəxtlər oyana.
İgid gərək arxasında dayana,
Ağır gündə el köməksiz heç nədir.

Sev, əzizlə budağını, kökünü,
Daşı ömrün qayğısını, yükünü.
Ay Zəlimxan, dərk eləsən bu günü,
O, sabahsız, gələcəksiz heç nədir.

GÖYÇƏDƏ

Könlüm söz eşqinə yaşıl tağ atdı,
Köküm Borçalıda, özüm Göyçədə.
Sinəmdə bir sönməz ocaq çatmışam,
Odum Borçalıda, közüm Göyçədə.

Bu ellər Lələdi, mən də bir Kərəm,
Gərək arzuların barını dərəm.
Yüz il təbiətdən ömür istərəm,
Qoşum Borçalıda, düzüm Göyçədə.

Nə qələmi oldu, nə mürəkkəbi,
Yetişdi Ələsgər, yarandı Nəbi.
Göylərə qaldırdı ilhamı, təbi,
Sazım Borçalıda, sözüm Göyçədə.

Zəlimxan, sözümdən ayrılammaram,
Odumdan, közümdən ayrılammaram,
Canımdan, gözümdən ayrılammaram,
Odum Borçalıda, közüm Göyçədə.

QOŞALAŞDIRIB

Yaradan heç nəyi tək yaratmayıb,
Çəməni bulaqla qoşalaşdırıb.
İlhamı şeirlə, ürəyi sözlə,
Nəğməni dodaqla qoşalaşdırıb.

Yerləşmir otağa, sığışmır evə,
Baxırsan, saçları qapqara şəvə.
Babanın yanında darıxmır nəvə,
Qocanı uşaqla qoşalaşdırıb.

Dünyanın hesabı yazılmalıymış,
Sevinci, əzabı yazılmalıymış,
Tarixin kitabı yazılmalıymış,
Qələmi varaqla qoşalaşdırıb.

Həyata can verib qəlbin səsləri,
Dünya unutmayıb duyan kəsləri.
Ürəkdə yaşayan müqəddəsləri
Alışan ocaqla qoşalaşdırıb.

Zəlimxan, yurdundu bu doğma diyar,
Burda beşiyin də, məzarın da var.
Təbiət özüdür böyük sənətkar,
İnsanı torpaqla qoşalaşdırıb.

KÖNLÜMÜ

Bircə diləyim var, ey qoca dünya,
Qırma bu incədən incə könlümü.
Yandır ömür boyu, yandır şam kimi
Qocaya, cavana, gəncə könlümü.

Durmasa əməlim zirvələrlə tən,
Canıma dərd olar saçımdakı dən.
Ömür, nə vermisən özün bilərsən,
Salma istəyindən gencə könlümü.

Məni Vətən adlı butaya tapşır,
Bir tay tapılarmı bu taya, tapşır.
Öləndə o taya, bu taya tapşır,
Bu Təbriz könlümü, Gəncə könlümü.

TORPAQ KİMİ

Təbiətin min nəğməli səsiyəm,
Bulaq eşqim, çay həsrətim, göl məzəm.
Demək hələ yer üzündə tufan var,
Nə zaman ki danışmazam, dinməzəm.

Toya, yasa, dərdə, kefə gəlmişəm,
Bir şərəfdi, bu şərəfə gəlmişəm.
Mən dünyaya bircə dəfə gəlmişəm,
Bir də daha gəlməzəm ki, gəlməzəm.

Çiçək oldum, çəmənimi böldülər,
İnsan oldum, bədənimi böldülər,
Çox da mənim Vətənimi böldülər,
Mən özümü bölməzəm ki, bölməzəm.

Nələr salır ömür yada, gün yada,
Bizlə enir, bizlə qalxır dünya da.
Dağlar kimi ucaldımsa dünyada,
Torpaq kimi ölməzəm ki, ölməzəm!

ÜRƏYİM

Havalanıb nə həvəsə düşmüsən,
Şair olmaq deyil asan, ürəyim.
Əriməsən, əritməsən ömrünü,
Kimdi sənə qulaq asan, ürəyim.

Söz becərib, varaq adlı yer əksən,
Bir arzumu tez duyasan gərək sən.
Bu dünyaya hikmətinlə gərəksən,
Şöhrətini halal qazan, ürəyim.

Vurğun oldum söz adlanan butama,
Kim vurulmaz bu ləzzətə, bu tama.
Ağrı çəkib məni tez-tez budama,
Qoy gəlməsin hələ xəzan, ürəyim.

Qoyma ilham səfərindən boş gəlsin,
Elə yarat, el sevincə tuş gəlsin,
Yaratdığın Yaradana xoş gəlsin,
Yazılanı haqdan yazan ürəyim!

GİLEYLİ DOSTUMA

Küsmə təbiətin şıltaqlığından,
Duman bu dağlardan getmir, getməsin.
Torpaq yanımızda, su yanımızda,
Əlimiz bir yana yetmir, yetməsin.

Cana dərd eləmə çəni, dumanı,
Nə ahı yaxın qoy, nə də amanı.
Mən sazı götürüm, sən də kamanı,
Bülbül özü bilər ötmür, ötməsin.

Əgər ağıl varsa, başın içində,
Diləklər gül açar daşın içində.
Zəlimxan yaz tapar qışın içində,
Tək arzu tükənib, ömür bitməsin!

DÜNYANIN YAŞI

Nə bağça təzədi, nə bar təzədi,
Nə çiçək təzədi, nə qar təzədi,
Nə könül ovlayan bahar təzədi,
Qədimdi, dünyanın yaşı qədimdi.

Nə qədər köz üstə yananlar olub,
Nə qədər buz üstə donanlar olub,
Nə qədər başdaşı yonanlar olub,
Qədimdi, dünyanın yaşı qədimdi.

Nə qədər qan düşüb, nə qədər dava,
Nə torpaq sirr açır, nə su, nə hava.
Dünənin işidi Adəmlə Həvva,
Qədimdi, dünyanın yaşı qədimdi.

Gəmini daşqında Nuha veribdi,
Qanadı xəyala, ruha veribdi,
Bəşərə nə qədər düha veribdi,
Qədimdi, dünyanın yaşı qədimdi.

Yeyilib dənindən ununa qədər,
Geyilib ipəkdən yununa qədər.
Baxılıb əvvəldən sonuna qədər,
Qədimdi, dünyanın yaşı qədimdi!

MƏRD ELƏ MƏNİ

Allahım, qarşıdan bir tufan gəlir,
Yükü qırğın gəlir, yükü qan gəlir.
Ömrümə-günümə imtahan gəlir,
Mərd elə, mərd elə, mərd elə məni!

Qoyma can üzülə, ürək sıxıla,
Duyğular sinədə yana, yaxıla.
Qoyma dağ əyilə, palıd yıxıla,
Sərt elə, sərt elə, sərt elə məni!

Poladdan möhkəməm, ipəkdən həlim,
Verdiyin ilhamdı mirvarim, ləlim.
Bir gün ətəyindən üzülsə əlim,
Bütün ömrüm boyu pərt elə məni!
Pərt elə, pərt elə, pərt elə məni!

Ümidə çevrilsin ünvanım, adım,
Güvənsin eşqimə yaxınım, yadım.
Görsən bir şərəfsiz ömür yaşadım,
Özünə ən böyük dərd elə məni!
Dərd elə, dərd el, dərd elə məni!

OXU

Aşıq, şirin eylə söz-söhbətini,
Şirindən kəlmə kəs, şirindən oxu.
Bas yenə bağrına telli sazını,
Canı yanmışların birindən oxu.

Bir düşün nələr var səsdə, avazda,
Min aləm var olub bir telli sazda,
Əgər oğulsansa üzmə dayazda,
Baş vur dərinlərə, dərindən oxu.

Könlümün evini uçurma, yıxma,
Qəlbimi göynətmə, canımı sıxma,
Kövrələn vaxtımda çox zilə çıxma,
Havanı asta çal, sərindən oxu.

Yaddaşa yazılmaz qəlbə yatmayan,
Ürəyə yol tapmaz beynə batmayan,
Vaxtında Fərhada əli çatmayan,
Yarası qan verən Şirindən oxu.

Gör sənə nə deyir gözümdəki yaş,
Qarpızdı əslinə əyilməyən baş,
Köhnə kişiləri yad elə, qardaş,
Kamil ustadların pirindən oxu.

Ruhu cana qaytar, bədənə qaytar,
Arını çiçəyə, çəmənə qaytar,
Qəribi qürbətdən Vətənə qaytar,
Dastanın ən şirin yerindən oxu!

YANDI

Dünyanın dərdini çəkdi duyanlar,
Belində zamanın şələsi yandı.
Əridi, töküldü, əsdi, titrədi,
Yananda hər zaman beləsi yandı.

Ağardı ahından dağların başı,
Dindirdi naləsi torpağı, daşı,
Axdı sinəsinə Əslinin yaşı,
Qara gözlərinin giləsi yandı.

Zəlimxan, meydanı genişdir qəmin,
Çalış azalmasın söhbətin, dəmin,
Özü yad ellərdə yanan Kərəmin,
Ərzurum dağında Lələsi yandı.

TELLƏR

Yenə nə nalədi, yenə nə səsdi,
Nədir o çəkdiyin haray, a tellər.
Yenəmi ayrıldı Gəncədən Kərəm,
Yenəmi dağıldı saray, a tellər.

Əslinin həsrəti, Qəribin qəmi,
Yükünü kədərdən götürmüş gəmi.
Məcnun intizarı, Leyli sitəmi,
Haraya sığışar, haraya, tellər.

Şair Zəlimxana doğmadır adın,
Qəddar düşmənisən sənətə yadın.
Sən bizi Allahdan az yandırmadın,
İnsafı gətirsək araya, tellər.

BƏLKƏ

Aşıq, ağrın alım, bir “Qaytarma” çal,
İnciyən gözəlim qayıda, bəlkə.
Sazda “Müxəmməs”im, tarda segahım,
Bayatım, qəzəlim qayıda, bəlkə.

Boranı əylənə, qışı dayana,
Tökə ətəyindən daşı, dayana,
Ağlayan gözünün yaşı dayana,
Axırım, əzəlim qayıda, bəlkə.

Gəlişi qaytara ötən çağları,
Sağala aşiqin sinə dağları
Gəzə Zəlimxanla yaşıl bağları,
Söhbəti məzəlim qayıda, bəlkə.

DİNDİRƏ

Mənim bu yerimdə bir Günəş doğa,
Əridə atəşi, qarı dindirə.
Güllərin gözündən bir öpüş ala,
İncə çiçəkləri arı dindirə.

Eşqimin başında duman olmaya,
Bir də ayrılığa güman olmaya,
Arada-bərədə yaman olmaya,
Nola, Yaxşısını Sarı dindirə.

Çəkilə qapımdan qışın ayazı,
Dərinlər batıra eşqi, dayazı.
Habil kamançanı, Kamandar sazı,
Əhsən asta-asta tarı dindirə.

Qəlbə sevinc adlı bircə yol gələ,
Dolana boynuma, qoşa qol gələ,
Budaqlar sallana, payız bol gələ,
Bağbanı bağların barı dindirə.

Zəlimxan, həsrətin ömrü az ola,
Saz şahlıq eyləyə, aşıq saz ola,
Yerlə göy birləşə, bir avaz ola,
Bəlkə küsdürdüyün yarı dindirə.

LAYLA

Şair anaların uzanar ömrü,
Deyəndə oğluna, qızına layla.
Silinməz ürəkdən, düşməz dodaqdan,
Dözər körpələrin nazına layla.

İnsana nəğməni təbiət verib,
Bitib-tükənməyən məhəbbət verib,
Dünyaya sığmayan bir şöhrət verib,
Dədəmiz Qorqudun sazına layla.

Zəlimxan, itərmi dünyadan izi,
Ona can verənin titrəməz dizi,
Payızda nağıllar oxşayar bizi,
Düşər ömrümüzün yazına layla.

VAR

Dədə Qorqud, Xəstə Qasım, Qul Abbas,
Torpağımda ustad da var, el də var.
Saza dədə, sözə xəstə, eşqə qul,
Ömür də var, könül də var, dil də var.

Duyan bilər zildə nə var, pəs nədir,
Zərif xallar aləm deyil, bəs nədir?
Kim bilməsə hava nədir, səs nədir,
Qandırmağa mizrab da var, tel də var.

Əziz tutdum babaların xətrini,
Dünya bildim kəlməsini, sətrini.
Qış günü də qoxlamışam ətrini,
Söz bağında çiçək də var, gül də var.

QƏHƏTDİMİ

Aşıq, oxuyursan yaxşı söz oxu,
Deməyə mənalı söz qəhətdimi?
Yoxsa kəramətin, çıxma məclisə,
Başına bükməyə bez qəhətdimi?

Ustad meydanına girməsin çağa,
Aşığın dilindən gərək dürr yağa.
Çıxmağı bilmirsən, dırmaşma dağa,
Yeriş yeriməyə düz qəhətdimi?

Zəlimxan sevəndi kamil ustadı,
Kamil ki deyilsən, batırma adı.
Yoxdu sözlərinin ləzzəti, dadı,
Gözünə qatmağa duz qəhətdimi?

"MANSIRI" HAVASI ÜSTÜNDƏ

Yenə, a Saraçlı, nə yandırırsan,
Qəlbində sızlayan kamanınmı var?
Sən ki ağ gündəsən, şükür Allaha,
Üzünə gülməyən zamanınmı var?

Çöllərdə qızaran qanmı, laləmi,
Hönkürək gözəlmi, gur şəlaləmi.
Od olub yandırır ahın aləmi,
Dağlardan çəkilməz dumanınmı var?

Zəlimxan, insanda o qüdrət hanı,
Yolundan qaytara gedən karvanı,
Torpağın qoynunda çürüyən canı,
Yoxsa sağaltmağa gümanınmı var?

DUR AYAĞA, MƏMLƏKƏTİM!

Düşmən bilir bu torpağın altı nədir, üstü nə,
Onunçün də od yağdırır gecə-gündüz üstünə.
Qurban olum dumanına, qurban olum tüstünə,
Qılınca dön həqiqətim, qalxana dön qeyrətim,
Dur ayağa, məmləkətim, qalx ayağa, millətim!

Şuşa, Laçın, Xocalı qovrulur öz yağında,
Yetmiş yeddi yara var sinələrin dağında.
Vaqif, Şəmşir, Ələsgər düşmənin tapdağında,
Dağ yandırar intizarım, daş yandırar həsrətim,
Dur ayağa, məmləkətim, qalx ayağa, millətim!

Məzarsızdı meşələrdə qaçqın olub ölənlər,
Kəfənsizdi son tikəni körpəsiylə bölənlər.
Qismətimiz uçurumlar, aşırımlar, bələnlər,
İçərimi yedi-tökdü hirsim, kinim, nifrətim,
Dur ayağa, məmləkətim, qalx ayağa, millətim!

İtkinlərim tapılsa da, ölənlərim dirilməz,
Baltalanıb budanmışam, budaqlarım gərilməz.
Ağac əkdim, meyvələri öz əlimlə dərilməz,
Yağıların pəncəsində cəhənnəmdi cənnətim,
Dur ayağa, məmləkətim, qalx ayağa, millətim!

Haqsız meydan suladıqca əlimizdən haqq gedir,
Gözümüzdən arx açılır, çay gedir, bulaq gedir.
Qarış-qarış, parça-parça yurd gedir, torpaq gedir,
Mən ki əsir olmamışdım, nədir bu əsarətim?
Dur ayağa, məmləkətim, qalx ayağa, millətim!

Nifrətini silah elə, gəl silahı gözləmə,
Sarıl bu gün inamına, gəl sabahı gözləmə,
Haqqa güvən – nə gədanı, nə də şahı gözləmə,
Ona-buna göz dikənə yoxdu mənim rəğbətim,
Dur ayağa, məmləkətim, qalx ayağa, millətim!

Torpağımız neçə dəfə tapdalanmış, talanmış,
Duru gözlü çeşmələrə qızıl qanlar calanmış.
Babəkim də, Koroğlum da, Xətaim də yalanmış,
Haqqımızı qaytarmasaq, sən arxasız, mən yetim,
Dur ayağa, məmləkətim, qalx ayağa, millətim!

Mənim qızıl üzüyümdə yaqut qaşdı Kəlbəcər,
Mənim ağlar gözlərimdə qanlı yaşdı Kəlbəcər,
Öz əlimlə öz başıma dəyən daşdı Kəlbəcər,
Daha bəsdi yad əllərdə talan oldu sərvətim,
Dur ayağa, məmləkətim, qalx ayağa, millətim!

Nə Tərtərdə ləzzət qaldı, nə Qarqarda, Xaçında,
Oğul qanı xınalandı anaların saçında.
Şəhid oldum Xocalıda, şəhid oldum Laçında,
Bu yolların son ucunda şəhidlikdi qismətim,
Dur ayağa, məmləkətim, qalx ayağa, millətim!!!

QƏLƏBƏ

Baxdım baxışlara, baxdım gözlərə,
Alışan gözlərdə qələbə gördüm.
Dodağa od saçan, dilə od vuran,
İşıqlı sözlərdə qələbə gördüm.

Kimə boylanırdım, kimə baxırdım,
Hamı qələbədən xəbər verirdi.
Kəsilən çörəyin, içilən suyun,
Tamı qələbədən xəbər verirdi.

Qələbə – tarzənin barmağındakı
Xaldan süzülürdü, səsdən gəlirdi.
İllərdi ah çəkib ağlayan Vətən,
İlk dəfə silkinib yasdan çıxırdı.

Ömür kitabında ömrə dağ çəkən,
Pis illər, pis aylar, pis günlər oldu.
Qırılan qırıldı, vurulan öldü,
Nə qədər həyatdan küskünlər oldu.

Bu günün başqa cür havası vardı,
Nə matəm günüydü, nə yas günüydü.
Yumruqlar havanı dəlib-deşirdi,
Qana – qan, qisasa – qisas günüydü!

Hamının üzündə gəzən sevinci,
İlk dəfə görürdüm illərdən bəri.
Elə bil ən igid bir əsgər kimi,
Mən özüm almışdım yüksəklikləri!

Vida demək üçün qanlı günlərə,
Nöqtə qoymaq üçün xalqın ahına,
Səngərə çevrilib, qalaya dönüb,
Hər kəs sarılmışdı öz silahına.

Oxunan mahnılar dağ oynadırdı,
Cərgələr sıx idi, addımlar mətin.
Adı ayaqlara düşməsin gərək,
Şeiri qılınctək kəsən millətin!

Heç kəsin haqqını itirməz zaman,
Kimin kimliyindən tarix halıdır.
Bu günün yenilməz hər döyüşçüsü,
Sabahın ən məşhur generalıdır!

Qoy bu gün qazılan Vətən səngəri,
Yurdun toxunulmaz səddinə dönsün.
Hər ucalan palıd, hər məğrur qaya,
Vətənin əyilməz qəddinə dönsün!

Baxma ki, yollarda duman var, toz var,
Qəlbimdə atəş var, dilimdə köz var.
Bu gün dodağımda tək bircə söz var:
Qələbə!
Qələbə!
Ancaq Qələbə!

Kimin dərdi birdi, kimin dərdi min,
Qəbri tapdanmasın gərək mərdimin.
Bircə dərmanı var mənim dərdimin:
Qələbə!
Qələbə!
Ancaq Qələbə!

Yaşlı yanaqların quruyan nəmi,
Qəmli ürəklərin silinən qəmi,
Bütün könüllərin gücü, məlhəmi –
Qələbə!
Qələbə!
Ancaq Qələbə!

Haqsızın gücü var, haqqın Allahı,
Allah yerdə qoymaz çəkilən ahı.
Bu gün millət üçün sözlərin şahı –
Qələbə!
Qələbə!
Ancaq Qələbə!

Doğan Günəşidir sökülən danın,
Alar qisasını tökülən qanın,
Ucaldar başını Azərbaycanın,
Qələbə!
Qələbə!
Ancaq Qələbə!

GORANBOYDAN GƏLİRƏM

Goranboydan gəlirəm, yuxulu, səksəkəli,
Yatammıram, yuxumu səngər ərşə çəkəli.
Tarixlərdə qalmasın vicdanımız ləkəli,
İşığı sönmüşlərə ulduz verin, ay verin,
Goranboydan gəlirəm, Goranboya hay verin!

Qəfil düşmən hiyləsi qoy gəlməsin eyninə,
Vətən eşqi doldurun ürəyinə, beyninə.
Papaq olun başına, paltar olun əyninə,
Səngərdə üşüyənə bir stəkan çay verin,
Goranboydan gəlirəm, Goranboya hay verin!

Düşmən yeyir torpağı, dağ doğrayır, daş kəsir,
Düşmənidir millətin, kim pambıqla baş kəsir.
İndi orda əsgəri şaxta kəsir, qış kəsir,
Siz ora qəlbinizdə yaz aparın, yay verin,
Goranboydan gəlirəm, Goranboya hay verin!

Düşmən qalxıb gəlsə də, sel kimi axın-axın,
Gərək bir addım belə yurda gəlməsin yaxın.
Torpağın taleyinə xalqın gözüylə baxın,
Üstündə yaşamağa halal haqqı-say verin,
Goranboydan gəlirəm, Goranboya hay verin!

Torpağa oğul gərək öz canından keçməyə,
Tarlasını becərib, zəmisini biçməyə.
Çayı var suvarmağa, bulağı var içməyə,
Demirəm ki, siz ona bulaq verin, çay verin,
Goranboydan gəlirəm, Goranboya hay verin!

Qoy sevinib baxmasın kəfən olmuş rəngimə,
Mat qalsın qaniçənlər döyüşümə, cəngimə.
Ləngimə, Vətən oğlu, bu yollarda ləngimə,
Möhlət üçün düşmənə nə gün, nə də ay verin,
Goranboydan gəlirəm, Goranboya hay verin!

Çalbayır əsir düşüb, Qarabağ əsir qalıb,
Tülkülər caynağında Laçın kimi şir qalıb.
Şuşanın verilməyi millət üçün sirr qalıb,
Düşmənin tapdağında görün neçə pir qalıb.
Anamı ağladanın anasına vay verin,
Goranboydan gəlirəm, Goranboya hay verin!

Bir aslan yatağıdı burda hər dağ, hər dərə,
Qələbə güllərini xalqım gərək tər dərə.
Qala kimi söykənin Goranboya, Tərtərə,
Palıd kimi bərkiyin, çinar kimi boy verin,
Goranboydan gəlirəm, Goranboya hay verin!

TABUT KİMİ

Çiynimizdə nə qədər şəhidlər yola saldıq,
Heç vaxtımız qalmadı toylara, düyünlərə.
Yas saxlaya-saxlaya qaldıq yaslar içində,
Qara gün paltar kimi geyildi əyinlərə.

Varmı elə bir torpaq, dərd ilə əkilməsin?
Varmı elə bir saray, kərpici sökülməsin?
Varmı elə bir insan, kəfənə bükülməsin?
Fələk zəhər yeritdi başlara, beyinlərə.

Gəncliyimiz göyləri dolansa da quş kimi,
Qocalıq qarşımızı kəsir sərt yoxuş kimi.
Keçib gedir ömrümüz yuxu kimi, duş kimi,
Axırda tabut kimi qonuruq çiyinlərə!

AXMAYIN, GÖZ YAŞLARI

Duzlu sular od vurub yanaqları yandırar,
Dərddən, qəmdən, kədərdən süzülüb axarsınız.
Yoxsulun nəzərində, yetimin xəyalında,
İlikləri göynədən yağışsınız, qarsınız,
Axmayın, göz yaşları, Allaha baxarsınız!

Baxışlar buludlaşıb, başda duman olanda,
Bağrımız parçalanıb, qəlbimiz qan olanda,
Ağrılar pəncəsində çırpınan can olanda,
Kirpikləri, gözləri yandırıb-yaxarsınız,
Axmayın, göz yaşları, Allaha baxarsınız!

İztirablar, əzablar beyin yarar, baş dələr,
Dərd dağıdan olmasa, "ahım oxu daş dələr".
Oxlar dəlməyən yeri gözdən axan yaş dələr,
Qaya olsa əridər, dağ olsa yıxarsınız,
Axmayın, göz yaşları, Allaha baxarsınız!

KƏLBƏCƏRDƏN GƏLƏN QARI

Ərişindən, arğacından,
Sürüsündən, arxacından,
Meşəsindən, ağacından
ayrı düşən,
Allı-güllü alçasından,
Lilparından, dolçasından,
Xanasından, xalçasından
ayrı düşən,
Barını yellər aparan,
Baxtını sellər aparan,
Qazancını-irəncini,
Fitnələr, fellər aparan,
Canı üzgün, rəngi sarı –
Kəlbəcərdən gələn qarı.

Üzündə rüzgarın nəmi,
Gözündə dünyanın qəmi,
Kürəyində əsrin yükü,
Ürəyində dərdin kökü,
Çiynində evi, şələsi,
Beynində topların səsi,
Tökülən gözünün yaşı,
Sökülən bağrının başı,
Canında qışın sazağı,
Saçında dağların qarı,
Bir yuvanın uçan quşu –
Kəlbəcərdən gələn qarı.

Təzəsi, köhnəsi gedən,
Çörəyi, təhnəsi gedən,

Arxının suyu dağılan,
Sökülüb dəhnəsi gedən,
Bir zamanlar çox sevdiyi,
Dünyadan zəhləsi gedən,
Pətəyindən ayrı düşüb,
Səs-səmirsiz ölən arı –
Kəlbəcərdən gələn qarı.

Dan atmamış yerdən durub,
Günəşdən tez doğasıydı.
Buzovunu əmizdirib,
İnəyini sağasıydı.
Bişirməyin, düşürməyin,
Dilbiləni, anasıydı.
Sərnici dolub-boşalıb,
Nehrəsi çalxanasıydı.
Ondan ötrü bülbüllərin,
Yuvasını hardan alım.
Ondan ötrü Kəlbəcərin,
Havasını hardan alım.
Bağbanına güllə dəymiş,
Bir bağçanın solan barı –
Kəlbəcərdən gələn qarı.

Dağ-dağ olmuş dağımdımı,
Talan olmuş binəmdimi?
Zülüm çəkmiş başımdımı,
Yaralanmış sinəmdimi?
Oğlu ölmüş anadımı,
Yurdu itmiş nənədimi?
Birdən-birə dərəsi düz,
Dağı dönüb aran olan,
Eşqi sönən, çarxı dönən,
Od-ocağı viran olan,
Qapısına-bacasına,

Məhləsinə qırğın düşən,
Qaçaqaçda, qovhaqovda,
Tor-top olub yorğun düşən,
Dərdin dostu, qəmin yarı –
Kəlbəcərdən gələn qarı.

Yanğın düşən bir meşədi,
Boyun bükən bənövşədi.
Qəlbi qara daşa dəymiş,
Pul-pul olan bir şüşədi.
Bəxti düyünə düşəndə,
Ağlamaq da bir peşədi.
İlin, günün bu vaxtında,
Onu belə duran görsə,
Şəmşir ağlar zarı-zarı,
Saz üstündə qan-yaş tökər,
Kəlbəcərdən gələn qarı!

Ömrümüzdən ömür kəsən,
O qarının baxışı da,
Baxışdakı buludu da,
Buluddakı yağışı da,
Onu yurda qaytarmağa,
Qeyrət gəzir, ağıl gəzir.
Onu yurda qaytarmağa,
Bir xilaskar oğul gəzir.
Onu yurda qaytarmasaq,
O qarının baxışları,
Üzümüzə dəyən şillə!
Başımıza enən qapaz,
Gözümüzə dəyən güllə!
Daha bəsdi durmağımız,
Daha bəsdi yatmağımız.
Daha bəsdi bu millətin,
Günahına batmağımız.

Gəlin, bir az silkələnək!
Gəlin, bir az heyrətlənək!
Gəlin, bir az qeyrətlənək!
Əlimizi yalın görüb,
Gönümüzü qalın görüb,
Tüpürməsin bizə barı,
Kəlbəcərə qayıdanda,
Öpsün bizim alnımızdan,
Kəlbəcərdən gələn qarı!!!

ƏSGƏR QARDAŞIMA MƏKTUB

Arxaya çəkilsən, arxa – uçurum,
Kənara dayansan, kənar – ölümdü.
Kişinin qeyrəti coşar – qələbə,
Kişinin vüqarı sınar – ölümdü!

Yurdun iti hürməz, atı kişnəməz,
Keşikdə igidi, əri yoxdusa.
Torpağın altında rahat yatammaz,
Torpağın üstündə yeri yoxdursa!

Unutma amansız bir həqiqəti,
Vətəndaş yoxdursa, Vətən də yoxdur.
Torpaq olmayanda, daş olmayanda,
Köklü ağac olub bitən də yoxdur!

Yadların yeminə, suyuna döndük,
İçilə-içilə gedirik elə.
Böyüyə-böyüyə tarixə gəldik,
Kiçilə-kiçilə gedirik elə!

Tüstü burum-burum yüksəlir göyə,
Duman içindədir Azərbaycanım.
Şübhələr, gümanlar yedi, doğradı,
Güman içindədir Azərbaycanım!

Özün qaz səngəri, özün aç yolu,
Dumandan, gümandan çıxart milləti!
Ən güclü ordunun zərbəsinə dön,
Ən ağır zamandan çıxart milləti!

Qələbə pay deyil, hədiyyə kimi,
Gətirib hardansa verələr sənə.
Özün qazanmasan lənət oxuyar,
Bu dağlar, bu düzlər, dərələr sənə!

Güvənə bilməsən öz qüdrətinə,
Oyuncaq əllərdə oyun olarsan.
Ordunun içində məğrur bir kişi,
Sürünün içində qoyun olarsan!

Gördük qazancını qoyun olmağın,
Mən bu gün möhtacam şir oğlu şirə.
Torpağı silkələ, göyü parçala,
Döndər məmləkəti ocağa, pirə!

Zaman göstərəcək öz aynasında,
Neylədi, kim hansı tərəfə döndü.
Kim xalqı tapşırdı şərəfsizlərə,
Kim xalqın yolunda şərəfə döndü!

Mənim şah damarım, mənim sağ gözüm,
Mənim dağ tərəfim sən olmalısan.
Millət taleyini tapşırıb sənə,
Ən böyük şərəfim sən olmalısan!

Satqına, alçağa, xainə dönsən,
Düşmənin oxuna, yayına dönsən,
İblisin, şeytanın tayına dönsən,
Sən də qurtarmasan Vətəni dardan,
"Yoxdur umacağım pərvərdigardan!!!"[1]

[1] Misra Səməd Vurğunundur.

ŞEİRİM

Haqqın var baş olub, başda durmağa,
Qaldır məmləkəti ayağa, şeirim!
Misralar meydanda mərmiyə dönsün,
Kəlmələr gülləyə, darağa, şeirim!

Neçə ki oğlunu itirir ana,
Neçə ki körpələr bələnir qana,
Hay vurub, qıy vurub Azərbaycana,
Sarıl təpə-dırnaq yarağa, şeirim!

Dərk etməz budağı, anlamaz kökü,
Biganə kəslərin tərpənməz tükü,
Sən götür çiyninə ən ağır yükü,
Gəl çəkmə yaxanı qırağa, şeirim!

Ən güclü silahım yar olsun sənə,
Açılan sabahım yar olsun sənə,
Üstümdə Allahım yar olsun sənə,
Dön millət yolunda çırağa, şeirim!

Kim necə aparır özünü, sən de,
Doğrunu sən danış, düzünü sən de.
Yaralı günümdə sözünü sən de –
Sümüyə dirənən bıçağa, şeirim!

Axmasın gözlərdən yaş, necə dözsün,
Yanıb qaralmasın, daş necə dözsün,
Can necə tablasın, baş necə dözsün,
Bu qədər qaçqına, qaçağa, şeirim!

İndidən yaxşıca hesabını çək,
Yerimiz, yurdumuz bilinməyəcək,
Ləkəmiz tarixdən silinməyəcək,
Biz layiq olmasaq bu çağa, şeirim!

İşimiz ağırdı, yolumuz çətin,
Güclüdən güclü ol, mətindən mətin.
Sən ki sahibisən bu məmləkətin,
Dönmə öz evində qonağa, şeirim!

Durma ortalıqda – ya ucal, ya en,
Boş-boş tüstüləmə – ya alış, ya sön,
Döyüşçü qəlbində əqidəyə dön,
Sınmasın düşəndə sınağa, şeirim!

Qızıldan bahadır hər gün, hər saat,
Gözləmir, heç kəsi gözləmir həyat.
Torpağı silkələ, göyləri oyat,
Sığışma dəftərə, varağa, şeirim!

Aranın gülü ol, dağın çiçəyi,
Yerin tufanı ol, göyün şimşəyi.
Od tutub yananda əsgər ürəyi,
Bənzə durnagözlü bulağa, şeirim!

Çiynində dərd yükü daşıyan olsa,
Qəmli bir ev olsa, aşiyan olsa,
Harda bir ağrıyan, üşüyən olsa,
Dön orda alışan ocağa, şeirim!

Nə qədər od yağır, nə qədər dolu,
Yenə də eşq ilə dolusan, dolu.
Özün sal cığırı, özün aç yolu,
Baxma bu şaxtaya, sazağa, şeirim!

Yerində danışdır, yerində dindir,
Düşmənin suçunu boynuna mindir.
Haqq da, ədalət də, yer də sənindir,
Haray sal yaxına, uzağa, şeirim!

Sev güllü yazını, qarlı qışını,
Səslə kotanını, hayla xışını.
Qoru bu torpağın hər qarışını,
Baş əy bu müqəddəs torpağa, şeirim!

Daşan dənizə bax, coşan selə bax,
Kükrəyən tufana, əsən yelə bax.
Allah necə baxır, sən də elə bax,
Çiçəyə, ağaca, yarpağa, şeirim!

Parla Günəş kimi, gəl səhər kimi,
Qarşıla zəfəri sən zəfər kimi.
Yazıl misra-misra şah əsər kimi,
Qələbə günündə bayrağa, şeirim!!!

ÇIXIŞ EDİR XƏLİL RZA

Şəhid oğulun yasında şair atanın çıxışı
Xəlil Rzanı sağlığında ölməz elədi. Qanla yazılan
Azərbaycan tarixinin bir parçasına çevirdi.

Əyilməzlik Ulutürkün əslindədi, soyundadı,
Palıd kimi qamətində, çinar kimi boyundadı.
Elə bil ki, öz oğlunun yasında yox, toyundadı,
Azadlığın, istiqlalın tarixini yaza-yaza,
Çıxış edir Xəlil Rza!

Oğlun ölə, sən kədərin ayağına enməyəsən,
Çırağını söndürələr, sən yenə də sönməyəsən,
İlqarından, imanından, məsləkindən dönməyəsən.
Bu qüdrətə qıyanlara Allah özü versin cəza,
Çıxış edir Xəlil Rza!

O ağlamır, əvəzində yer ağlayır, göy ağlayır,
Saz dil deyir, tar oxuyur, kaman yanır, ney ağlayır.
Bu gün ona qulaq asan nə varsa, hər şey ağlayır,
Ürəyindən, baxışından qızıl qanlar sıza-sıza,
Çıxış edir Xəlil Rza!

Təbriz təkcə onun deyil, bu millətin balasıdır,
O, tarixin yaddaşında şəhid kimi qalasıdır.
Dünya boyda ata qəlbi dözüm, səbir qalasıdır,
Dinlədikcə düşünürəm, gərək deyil cəza-fəza,
Çıxış edir Xəlil Rza!

Dedim, bu gün səsi çıxmaz, gördüm daha gurdu Xəlil,
Şəhidlərin başı üstə şölələnən nurdu Xəlil.
Bəlkə elə İsrafilin özü çalan surdu Xəlil,
Silkələyir yer üzünü qopan tufan, gələn qəza,
Çıxış edir Xəlil Rza!

Bir şairin əqidəsi bir millətə çələng olur,
Böyüdükcə gözümüzdə nəhənglərdən nəhəng olur.
Nifrət ilə, qəzəb ilə doldurulmuş tüfəng olur,
Gözü kora, qəlbi daşa, beyni kütə, ağlı aza,
Çıxış edir Xəlil Rza!

Qollarında el gücü var, xəyanəti boğmaq üçün,
Himə bənddi düşmən üstə atəş olub yağmaq üçün.
Günəş kimi baş-başadır dan yerindən doğmaq üçün,
Ocaq kimi yana-yana, dəmir kimi qıza-qıza,
Çıxış edir Xəlil Rza!

Təpəsindən çıxan tüstü burum-burum qalxır göyə,
Həmi yanır, həm yandırır Azərbaycan deyə-deyə.
Qara dağlar yıxılsa da, çətin şair boyun əyə,
Köləliyin, xəyanətin məzarını qaza-qaza,
Çıxış edir Xəlil Rza!

Əyri düzü, pis yaxşını, nahaq haqqı yıxa bilməz,
Şər xeyiri sona kimi sıxışdırıb sıxa bilməz.
Əqidəsi olan kəsin axırına çıxa bilməz,
Heç bir zindan, heç bir məhbəs, heç bir ölüm, heç bir qəza,
Çıxış edir Xəlil Rza!

Şəhid oğul, şair ata, hər ikisi zərif, həssas,
Toyu dünən eləmişdik, nə tez düşdü, tez gəldi yas.
Ana torpaq, şəhidini sevgilərlə bağrına bas,
Yenə üzü baharadı, yenə yolu qışdan yaza,
Çıxış edir Xəlil Rza!
Qoy dinləsin qoca dünya,
Çıxış edir Xəlil Rza!
Qoy inləsin qoca dünya,
Çıxış edir Xəlil Rza!!!

SƏN QALİB GƏLƏCƏKSƏN

Addımbaşı ölümlə çarpışan şirim mənim,
Ölümsüzüm, ölməzim, əbədi dirim mənim,
Gur ocaqlar yandıran ocağım, pirim mənim,
Yüz minlərin içində minim yox, birim mənim,
Allah özü də təkdir, baxma meydanda təksən,
Sən qalib gələcəksən!

Haqsızlığın içində boğulan haqlar da var,
Səddi keçilməz olan ağır sınaqlar da var,
Kürəyinə sancılan qanlı bıçaqlar da var,
Əlindən, ayağından çəkən alçaqlar da var,
Ağrıların, dərdlərin olsa da dağlarla tən,
Sən qalib gələcəksən!

Qoşqar, Kəpəz ağrıdan qamətini əysə də,
Halal bərəkətinə haram əllər dəysə də,
Qapını axşam-səhər qara yellər döysə də,
Bu torpaq başdan-başa qara libas geysə də,
İşıqlı yollarını tutsa da dumanla çən,
Sən qalib gələcəksən!

Yerlə göy sənə qarşı silaha sarılsa da,
Müqəddəs sərhədlərin min yerdən yarılsa da,
Yeddi milyon əsgərin yarısı qırılsa da,
Qəhrəman oğulların alnından vurulsa da,
Gülüb nahaq qanlara, olsa da düşmənin şən,
Sən qalib gələcəksən!

Bir gecənin içində ağaran saçın da var,
Suları qan axıdan Qarqar da, Xaçın da var,
Sızlayan Qarabağ da, inləyən Laçın da var,
Min dəfə ağır olan çəkilməz dərdlər də var,
İçimizi qurd kimi yeyən namərdlər də var.
İstiqlalın yolunda zülüm, zillət də çəksən,
İstiqlala çatmağa xeyli həsrət də çəksən,
Sən qalib gələcəksən!
Sən qalib gələcəksən!

ŞAİRLİK

Ətəklərin genişi, zirvələrin ucası,
Çinarların nəhəngi, palıdların qocası,
Qartalların uçuşu, qayaların haçası,
Yerin, göyün ləngəri məni şair eylədi!

Sözünü, söhbətini şirin dedi, xoş dedi,
Ömrün bircə anı da qoy keçməsin boş dedi.
Dəniz kimi dalğalan, çaylar kimi coş dedi,
Haqqın eşqi, əsəri məni şair eylədi!

Bir yaxşılıq görəndə yumşaldım, mehə döndüm,
Bir gözəllik görəndə duruldum, şehə döndüm,
Bir xəyanət görəndə polad zirehə döndüm,
Sözün hökmü, kəsəri məni şair eylədi!

Dağlar üçün qəlbimin titrəməsi, əsməsi,
Yüz bələnin başını bir bələnin kəsməsi,
Səhər-səhər ruhumun çöllərə tələsməsi,
Ömrün neçə səfəri məni şair eylədi!

Ünü göylərdən gəlir qəlbə daman səslərin,
Qarşısına haqq çıxar haqq axtaran kəslərin,
Əqidə cəfakeşi əsil müqəddəslərin,
Haqdan gələn xəbəri məni şair eylədi!

Minillik kədər yatır hər havanın bəmində,
Dünyaların dərdi var bir insanın qəmində,
Hönkürüb ağlamışam yasında, matəmində,
Elin dərdi, kədəri məni şair eylədi!

Sazdan qopan haraydı, tardan qalxan nalədi,
Göz yaşlarım könlümə tökülən şəlalədi.
Solan hər insan ömrü bağrı yanmış lalədi,
Könüllərin qəhəri məni şair eylədi!

Alçağın, kəmfürsətin həzər, əlindən həzər,
Addımbaşı susdurub vurmağa fürsət gəzər.
Didərdi pəncəsində, parçalardı bəd nəzər,
Tanrının xoş nəzəri məni şair eylədi!

ŞEİR

Şeir – haqqın duasıdır,
Şeir – için aynasıdır.
Şeir – qəlbin ziyasıdır,
Şeir – ziyadan doğulur.

İynəylə gor qazıb çıxır,
Yazdığını yazıb çıxır.
Damla-damla sızıb çıxır,
Daşdan, qayadan doğulur.

Ürəklərin ahı – şeir,
Könüllərin şahı şeir,
Şairin Allahı şeir,
Kökdən, mayadan doğulur.

ULU SÖZ

Ev tik, elin-oban qalsın,
Ev tik, atan-baban qalsın.
Ev tik, yurdun-yuvan qalsın,
Ev tikmə, özün qalası!

Ulu sözün dilini tap,
Ulu sözdən bir qala yap.
Ulu sözdən bağla kitab,
Dalınca gözün qalası...

Əgər düşsə söz düyünə,
Döz bu dağa, döz düyünə.
Ulu sözün dözdüyünə,
Dözməz hər dözüm qalası!

Yaddaşlarda təzə dursan,
Yaddaşlarda yanan nursan.
Yaddaşlarda qala qursan,
Dağılmaz sözün qalası!

YAZDIRIR

Kimi savab üçün gəlir dünyaya,
Kimi ömrü boyu günah yazdırır.
Ömrün tarixini, vaxt olur qələm,
Vaxt olur, qan tökən silah yazdırır.

Dağıdır bütövü, bölür paranı,
Zaman qarışdırır ağı, qaranı.
Şər axşam qarışıb qatır aranı,
Xeyrin dastanını sabah yazdırır.

Mənası ölümsüz, mətləbi dərin,
Sözdü bu dünyada hər şeydən şirin.
Yaxşı bir əsəri varsa şairin,
Onu şair yazmır, Allah yazdırır!

BU QATARLA MƏN GEDƏSİ OLMADIM

Yox, deyəsən baş tutmadı bu səfər,
Bu qatarla mən gedəsi olmadım.
Tapılmadı könül açan bir nəfər,
Bu qatarla mən gedəsi olmadım.

Xidmətçisi yetmiş ilin xəstəsi,
Dilənçisi əl açmağın ustası.
Meydan açıb lotuların dəstəsi,
Bu qatarla mən gedəsi olmadım.

Ağıllıdan dəlisi çox bu yolun,
Qan soranı, zəlisi çox bu yolun.
Əlisi çox, Vəlisi çox bu yolun,
Bu qatarla mən gedəsi olmadım.

Durduğu yer lap yarğanın qaşıymış,
Bələdçisi nabələdmiş, naşıymış.
Sürücüsü oğruların başıymış,
Bu qatarla mən gedəsi olmadım.

Bu yollarda kim çapılar, kim çapar,
Allah bilir, kim itirər, kim tapar.
Bilet verən, biletini gəl apar,
Bu qatarla mən gedəsi olmadım.

EY DÜNYA

Ey dünya, qovğadan açılmır başın,
Gündə bir savaşın, barışığın var.
Qocasan, cavansan – anlamaq olmur,
Alnında nə qədər qırışığın var.

Yüklədin ürəyə qəm üstən qəmi,
Qurumaq bilmədi gözlərin nəmi.
Adəmin buğdası qatıb aləmi,
Çox yerdə haramnan qarışığın var.

Açılmır insanın qanadı, qolu,
Yüzdən o tərəfə bağlanıb yolu.
Vaxt gəlib çatanda zəhərlə dolu,
Hər insan ömrünə bir qaşığın var.

Düzlərin genişdi, dağların uca,
Qol çatmaz başabaş dünyanı quca.
Doymadım baxsam da, yollar boyunca,
Maşallah, nə gözəl yaraşığın var.

Sevgin başımızın qızıl tacıdı,
Ruhların əbədi ehtiyacıdı.
Hər oğlun görkəmdə sərv ağacıdı,
Hər qızdan bir yaşıl sarmaşığın var.

Dəryalar qoynunda düşdüm üzməyə,
Vayda ağlamağa, toyda süzməyə.
Sənin dərdlərini sapa düzməyə,
Zəlimxan adında bir aşığın var.

XOŞBƏXT EYLƏ

Bir səfərdi çıxmışam,
Yol, məni xoşbəxt eylə!
Uğur söylə ürəkdən,
El, məni xoşbəxt eylə!

Azdı hələ barım, az,
Zirvəm təzə, qarım az.
Yaratmayan – yarımaz,
Əl, məni xoşbəxt eylə!

Nə göyərər, nə bitər,
Susmaq ölümdən betər,
Bəmdə çaldığın yetər,
Zil, məni xoşbəxt eylə!

Sən çiçək, mən ac arı,
Sənsiz kim nə bacarı?!
Xəzinələr açarı,
Dil, məni xoşbəxt eylə!

Çeşmə – ilham, çay – ilham,
Ən müqəddəs pay – ilham.
De, hardasan, ay ilham,
Gəl, məni xoşbəxt eylə!

HƏR ŞEY GÖZƏL OLACAQ

Sıxılma, ey ürəyim,
Təngimə, ey nəfəsim.
Solma, ömür çiçəyim,
Enmə, ucalan səsim.
Heç nəyi istəmirəm,
Həyata, insanlığa
İnam bəsimdir, bəsim.
Nur verirsə gözümə
Vətən adlı gur ocaq,
Hər şey gözəl olacaq!

Bilmirəm səndə yenə,
Yersiz darılmaq nədir?
Düşüb dumana, çənə,
Yolda yorulmaq nədir?
Sevincdən üz döndərib,
Qəmə vurulmaq nədir?
Kökdən düşüb susmağın,
Vallah, nahaqdır, nahaq,
Hər şey gözəl olacaq!

Güvən yaratdığına,
Gücü ver ilhamına.
O çatdırır insanı,
Arzusuna, kamına.
Səsini qoş ellərin,
Toyuna, bayramına.
Yaz bu günün şeirini,
Al, bu qələm, bu varaq,
Hər şey gözəl olacaq!

Sinənə çək ətrini,
Çiçəyə dön tağında.
Bil torpağın qədrini,
Nemət ol qucağında.
Havalan qartal kimi,
Aranında, dağında.
Oğlusansa bu yurdun,
Sənindirsə bu torpaq,
Hər şey gözəl olacaq!

Nəğmə deyən dilin var,
Daha nə istəyirsən?
Arxa duran elin var,
Daha nə istəyirsən?
Dildən, eldən, Vətəndən,
Qiymətli nə gəzirsən.
Baha nə istəyirsən?
Bu el sənin elindir.
Ellərin yaratdığı,
Bu dil sənin dilindir.
Hər sinənin altında
Çatılırsa gur ocaq,
Hər qayanın döşündə
Çağlayırsa gur bulaq,
Sayma özünü qonaq,
Düşmə həyatdan uzaq,
Hər şey gözəl olacaq!
Hər şey gözəl olacaq!

MƏN BAŞIDAŞLI

Yüz ildi qar yağır, tufan gəlirmiş,
Qışı görməmişəm mən başıdaşlı.
Üzümdə sel olub gözümün yaşı,
Yaşı görməmişəm mən başıdaşlı.

Bir yas var hər toyun, düyünün altda,
Əzildim Allahın göyünün altda.
Töküblər zəhəri düyünün altda –
Aşı görməmişəm mən başıdaşlı.

Qarışır fikrimdə dağ ilə aran,
Canımdan od getməz, başımdan duman,
Gündə yeddi dəfə başımı yaran,
Daşı görməmişəm mən başıdaşlı.

Dərdin tikanıdı bağrımı deşən,
Çəmənim ot oldu, sünbülüm həşən.
Top kimi ayaqlar altına düşən,
Başı görməmişəm mən başıdaşlı.

Məkri duymamışam şeytan sözündə,
Mələk axtarmışam iblis gözündə.
Hələ mənim kimi bu yer üzündə,
Naşı görməmişəm mən başıdaşlı.

ŞAİR ÖMRÜ

Şair olan öz ömrünü yaşamır,
Dərdin, qəmin bol ömrünü yaşayır.
Yolçuların yoldaşına çevrilir,
Cığır açır, yol ömrünü yaşayır.

Göy üzündə ulduzlanır, aylanır,
Yer üzündə çeşmələnir, çaylanır.
Çəmənlərdə çiçək-çiçək paylanır,
Bağçalarda gül ömrünü yaşayır.

Təmizlikdə zirvələrin qarıdı,
Təbiətin ən vəfalı yarıdı,
Ləçəklərdən şirə çəkən arıdı,
Pətəklərdə bal ömrünü yaşayır.

Haqdan deyər danışanda, dinəndə,
Haqqa baxar ucalanda, enəndə.
Qeyzə gəlib Koroğluya dönəndə,
Saz kökündə zil ömrünü yaşayır.

İgid olur, millətinə şan verir,
Şəhid olur, yarasından qan verir.
Məcnun olur, səhralarda can verir,
Kərəm kimi kül ömrünü yaşayır.

Sınaqlarda polad kimi sərt olur,
Mərd doğulur, mərd böyüyür, mərd ölür.
Ömrü boyu daşıdığı dərd olur,
Ömrü boyu fil ömrünü yaşayır.

İşıq olur, yerə zülmət çökəndə,
Ana olur, el qayğısı çəkəndə.
Haqsızlığın sarayını sökəndə,
Çay ömrünü, sel ömrünü yaşayır.

İldən-ilə, aydan-aya bağlanır,
Çeşmə kimi axıb çaya bağlanır.
Bir dünyadı, min dünyaya bağlanır,
Xalq ömrünü, el ömrünü yaşayır.

DOĞULDU

Qadın ağrı çəkdi, anaya döndü,
Köksündə müqəddəs dilək doğuldu.
Körpəsi, əzizi gəldi dünyaya,
Beşik yırğalandı, bələk doğuldu.

Sevinci tapanda qəmi itirdi,
Qəlbin istəyini Allah yetirdi.
Torpaq ağrı çəkdi, palıd bitirdi,
Baharın eşqindən çiçək doğuldu.

Ömür qovuşanda sevgi çağına,
Qaldırdı sevəni Tanrı dağına.
Qurd elə sarıldı tut yarpağına,
Barama bətnindən ipək doğuldu.

Tufanlar qılıncı qoymadı qına,
Dağlara qan yaxdı, daşlara xına.
Dəniz qabaranda qopdu fırtına
Bulud çaxnaşanda şimşək doğuldu.

İnsanda bu qüdrət hardandı, hardan,
Sınaqdan, səbirdən, çətindən, dardan.
Elə ki, cəsarət axdı damardan,
Kişilik yarandı, məslək doğuldu.

ŞEYTANA UZAĞAM, ALLAHA YAXIN

Mənim içərimdə od var, haray var,
Gündüzlər Günəş var, gecələr Ay var.
Qanımda çağlayan, qanımda axan,
Damara sığmayan bir dəli çay var.
Xəbislik, xəyanət, şər-böhtan, tamah,
Gündə bir iftira, gündə bir günah
Gəlsə də üstümə hey axın-axın,
Şeytana uzağam, Allaha yaxın!

Yaxınlar, doğmalar, yadlar, əzizlər,
Könlü havalılar, eşqi dənizlər,
Paşalar, ağalar, qullar, kənizlər,
Baxın, gözlərimin içinə baxın,
Gün kimi aydınca görəcəksiniz,
Şeytana uzağam, Allaha yaxın!

Vicdanı su kimi durular, gəlin,
Çəmənlər, çiçəklər, arılar, gəlin.
Sizsiz bir addım da ata bilmərəm,
Köhlənim yollarda yorular, gəlin.
Yığılın başıma paklar, halallar,
Ruhuma süzülün, qəlbimə axın.
Yeriniz yanımda yersiz görünməz,
Şeytana uzağam, Allaha yaxın!

İMAN GƏTİRİN

Qəlbinin nurudu hər odlu baxış,
Gözünün yaşıdı hər yağan yağış.
Nə onun ömrünə qar-boranlı qış,
Nə onun gözünə duman gətirin,
Şair varlığına iman gətirin!

Haqqın vergisidi, xalqın səsidi,
Bircə xoş təbəssüm onun bəsidi.
Çiçək ölüsüdü, gül dəlisidi,
Dərdinə dağlardan dərman gətirin,
Şair varlığına iman gətirin!

Dostudu böcək də, quş da, arı da,
Dağın çiçəyi də, bağın barı da.
Nə onun ömrünü kəsin yarıda,
Nə onun qətlinə fərman gətirin,
Şair varlığına iman gətirin!

Qoy dəli Kür olsun, qoy Araz olsun,
Görüşü ən şirin bir muraz olsun.
Ruhunu oynadan telli saz olsun,
Qəlbini dindirən kaman gətirin,
Şair varlığına iman gətirin!

Demirəm Adəmdən, Nuhdan ucadı,
Çəkdiyi ağrıdan, ahdan ucadı.
Allahdan aşağı, şahdan ucadı,
Onu dərk etməyə insan gətirin,
Şair varlığına iman gətirin!

İnanın əbədi nur olmağına,
Daşqın çaylar kimi gur olmağına.
Siz onun əbədi var olmağına,
Nə şübhə, nə də ki, güman gətirin,
Şair nəfəsində Tanrı hökmü var,
Şair varlığına iman gətirin!

SƏHNƏ

Min illərdi qış gələndə qar yağır,
Min illərdi leysan yağışlar yağır.
Yağıb,
Yağır,
yağacaq yenə!

Min illərdi güllər öpür şəfəqdən,
Min illərdi, Günəş doğur üfüqdən.
Doğub,
doğur,
doğacaq yenə!

Min illərdi şimşək pozur sükutu,
Min illərdi torpaq sağır buludu.
Sağıb,
sağır,
sağacaq yenə!

Min illərdi atmaq olmur həsrəti,
Min illərdi işıq boğur zülməti.
Boğub,
boğur,
boğacaq yenə!

Nə gördümsə, təzə heç nə görmədim,
Yer üzündə hər nə varsa köhnədi.
Bu qədimlik, bu köhnəlik içində,
Dünya hər gün təzələnən səhnədi!

İNSAN

İnsanı qoysalar insan olmağa,
İnsanı qoysalar özündə qalmağa,
İnsan özünün olsa,
Özünə qayıda bilsə,
Kökünə tapına bilsə,
Vaxtında yağışı yağsa,
Vaxtında toxumu səpilə bilsə,
Gülüş istəyəndə gülə bilsə,
Öpüş istəyəndə öpülə bilsə,
İnsan peyğəmbər olar,
Şah olar, Allah olar.
Yox, insana Allah demək günah olar.
Sevər, sevilər,
Hamıyla bir ürək, bir can olar.
İnsanı qoysalar yaşamağa,
İnsan elə əsl insan olar!

MƏN GEDƏRƏM

Beş-on günlük qonağıyam bu dünyanın,
Dərə qalar, təpə qalar, mən gedərəm.
Nəsil-nəsil dəniz çalar laylasını,
Dalğa qalar, ləpə qalar, mən gedərəm.
Çox baxmışam dalğaların vuruşuna,
Boylanmışam zirvələrin duruşuna.
Zirvə qalar, qaya qalar, mən gedərəm.
Dünya boyda dünya qalar, mən gedərəm,
Gen ətəkli dağlar qalar, mən gedərəm.

Min il əvvəl durduğutək durur qaya,
Bu əbədi sağlar qalar, mən gedərəm.
Mən getsəm də, sən qalarsan, adım mənim,
Sən qalarsan eşqim mənim, odum mənim.
Sözüm qalır körpələrin dodağında,
Səsim qalır qayaların qulağında,
Arzularım, diləklərim çiçək-çiçək,
Mən getsəm də, torpaq anam min yaşasın,
Sabah məni çəmən kimi göyərdəcək!

ŞAİRİ QOYSALAR ŞAİR OLMAĞA

Şairi qoysalar şair olmağa,
Çeşməyə çevrilib axar doyunca,
Yağışa çevrilib yağar doyunca.
Dünyanın ilahi lövhələrini,
Gözünə, könlünə yığar doyunca.
Bilər qiymətini vaxtın, zamanın,
Gecə yuxusundan, gündüz günündən,
Canından, qanından kəsər, yaradar!
Şairi qoysalar şair olmağa,
Tanrı qüdrətində əsər yaradar!

Şairi qoysalar şair olmağa,
Əzib vüqarını sındırmasalar,
Paxıllıq buzunda dondurmasalar,
Ögeylik odunda yandırmasalar,
Ara qarışdırıb, su bulandırıb,
Yaxşını yamantək qandırmasalar,
Səpər toxum kimi arzularını,
Quru səhralarda gülzar yaradar!
Allahın eşqindən alıb gücünü,
Allah kəlamını yazar-yaradar!

Şairi qoysalar şair olmağa,
Əlini dünyadan soyutmasalar,
Böyük işlərini danıb, gizləyib,
Xırda nöqsanını böyütməsələr,
Sürgünə göndərib, gülləyə verib,
Ağ olub üzünə qayıtmasalar,
Şairi qoysalar şair olmağa,
Gecənin bağrında səhər yaradar,

Qışın ortasında bahar yaradar!
Allahın yolları atişləməzdi,
Nə qədər çəkilməz azar yaradıb.
Müştəri dolaşıq, tərəzi çaşqın,
Günahı daşınmaz bazar yaradıb.

Umduğu alqışla çəpik olanlar,
Aldığı yumruqla təpik olanlar.
Mənliyi bir qara qəpik olanlar,
Siyasət, rəyasət alverçiləri,
Dünyanı şairə məzar yaradıb.

Zaman şairlərin üzünə gülməz,
Oda atmaq üçün təndir hazırlar.
Böhtanlar çevrilər dar ağacına,
Boğazdan asmağa kəndir hazırlar.
Hər gün içərimdən yeyilməsəydi,
Köntöy baxışlarla döyülməsəydi,
Qeyrəti Araza körpülər salar,
İlhamı təzə bir Kür yaradardı.
Qoymazdı bir damla qaranlıq qala,
Dünyanı başabaş nur yaradardı,
Şairi qoysalar şair olmağa!

Qanqallar qanadar əl-ayağını,
Çiçəklər şairin xətrinə dəyməz.
Gözəllik sevdirər, gözəllər sevər,
Mələklər şairin xətrinə dəyməz.
İşıqdı, həyatdı, nurdu, sevgidi,
Dünyası, vətəni, yurdu sevgidi,
Allahı, Tanrısı, piri sevgidi.
Dünyanın ikicə neməti qalsa,
Onun ikisindən biri sevgidi.
Duru könüllərdə dönər bulağa,
Sevgisi insanı döndərər dağa,
Şairi qoysalar şair olmağa!..

DÜNYA ÖZ İŞİNDƏDİR

Kim söyülür söyülsün,
Kim döyülür döyülsün.
Kim kimi tərifləyir,
Kim kimi hərifləyir,
Dünya öz işindədir!

Taxtı yıxana baxmır,
Taxta çıxana baxmır.
Yerdə düşüb qalana,
Yerdən qalxana baxmır,
Dünya öz işindədir!

Qarı yağır, əriyir,
Suyu axır, yeriyir.
Kiriyəni ağlayır,
Ağlayanı kiriyir,
Dünya öz işindədir!

Yüz yaşa, bəsin deyil,
Yüz səslə, səsin deyil.
Hamı bu dünyanındır,
Dünya heç kəsin deyil,
Dünya öz işindədir!

GEDİR

Vaxt deyilən axar sudu, dayanmağı, durmağı yox,
Düşür axşam, gəlir gecə, sökülür dan, keçib-gedir.

İnsan ulu, insan böyük, çiyinlərdə dağ boyda yük,
Haqq yolunda igid başdan, oğul candan keçib-gedir.

Qanın yoxsa, ruhun yoxdur, ruhun yoxsa, özün yoxsan,
Coşub-daşan duyğuların yolu qandan keçib-gedir.

Qəm yeriyir axın-axın, istədiyin gəlmir yaxın,
Kədər qalır içəridə, sevinc yandan keçib-gedir.

Ağzıgöyçək deməsin ki, dünya onun nə vecinə,
Bu dünyanın hər ağrısı Zəlimxandan keçib-gedir.

SALAVAT ÇEVİR

Oyan, tər çiçəklər oda düşəndə,
Oyan, saf duyğular yada düşəndə,
Oyan, dan yerinə səda düşəndə,
Gör necə sevilir, gör necə sevir,
Hər səhər Günəşə salavat çevir.

Şöhrətçün yaşamır, ad üçün ölmür,
Dünyanı yaxşıya, yamana bölmür,
Tikanı da sevir, gülü də sevir,
Əzizlə ilahi ədalətini,
Hər səhər Günəşə salavat çevir.

Baxma ki, başında nurdan tacı var,
Baxma ki, bir dərdə min əlacı var,
Onun da sevgiyə ehtiyacı var,
O da insan kimi sevilir, sevir,
Hər səhər Günəşə salavat çevir.

Fəxr elə bu nurla, ey insan oğlu,
Yaşa bu qürurla, ey insan oğlu,
Qara fikirlərin taxtını devir,
Hər səhər Günəşə salavat çevir!

ÜRƏKDƏ

Elə ki, tuş gəldin od baxışlara,
Əriyər, sellənər buzlar ürəkdə.
Tahirə çevrilər, Zöhrəyə dönər,
Baş-başa dillənər sazlar ürəkdə.

Yerə də, göyə də ətrini saçar,
Yanaqlar allanar, dodaqlar qaçar.
Qönçə dodaqlanar, tumurcuq açar,
Sevgi yavaş-yavaş sızlar ürəkdə.

Sevgi yağışında göy çəmən oldu,
Gəlin bulaq oldu, qız çəmən oldu.
Elə ki, duyğular göy çəmən oldu,
Gəzər dəstə-dəstə qızlar ürəkdə.

OYNAMA, BALA!

Mən sazın ruhundan qopan adamam,
Mən sazın ruhuna hopan adamam,
Mən sazı özündə tapan adamam,
Sən mənim sazımla oynama, bala!

Günəş parçasıdı, bulud layıdı,
Könüldən-könülə gedir, qayıdır.
Az-çox nə varımsa, Tanrı payıdı,
Çoxumnan, azımnan oynama, bala!

Çiçəyin ətridi, gülün nazıdı,
Loğman təbiətin gülən yazıdı,
Nə desəm, avazım haqq avazıdı,
Coşan avazımnan oynama, bala!

Yolsuzlar həmişə yoldan azandı,
Düzü tərsə çəkən, tərsə yozandı,
Alnımda yazılan Allah yazandı,
Sən alın yazımnan oynama, bala!

TƏZƏ XƏBƏR

Yarın yardan inciməyi, gülüm, təzə xəbər deyil,
Səndən ayrı çəkmişəmsə zülüm, təzə xəbər deyil.

Məndən əvvəl yana-yana gəldi-getdi neçələri,
Sənsiz yanıb külə dönsəm, külüm təzə xəbər deyil.

Neyləyəsən, həsrət elə sevənlərlə bir doğulur,
Dodağına toxunmasa dilim, təzə xəbər deyil.

Eşqim ilə nələr dedim, gecə-gündüz gələr dedim,
Əllərinə yetişməsə əlim, təzə xəbər deyil.

Desələr Zəlimxan ölüb, göz yaşını car eyləmə,
Tamaşa qıl bu karvana, ölüm təzə xəbər deyil.

GETMƏ

Dayan, zaman, dayan vaxt,
Su kimi axıb getmə.
Gurla, şimşəyim gurla,
Bir anda çaxıb getmə.

Ruha süzül, qəlbə ax,
Günəş kimi oda yax.
Baxırsan, əbədi bax,
Ötəri baxıb getmə.

Mən zərrə, sən Kainat,
Sənինləyəm hər saat.
Ey gözəllik, ey həyat,
Məni buraxıb getmə!

KEFLİ

Niyə bu gündədi görəsən, Allah,
Niyə bir bu qədər içib görəsən?
Başının altında daş buza dönüb,
Niyə öz başından bezib görəsən?

Bu qədər içkiyə pul hardan tapıb,
İçdiyi pulsuzdu, müftədi, bəlkə.
Niyə yazığımız gəlir onlara,
Keflilər həmişə kefdədi, bəlkə.

Yox, belə yatmağa kef demək olmaz,
Kef çəkən taxt üstə uyuyub yatar.
Bədbəxt öz yerini daş üstə tapar,
Bədəni buz kimi soyuyub yatar.

Kasıblar həmişə kasıbdan kasıb,
Yazıqlar həmişə yazıqdan yazıq.
Alnında əzabın xəritəsi var,
Sifət qırış-qırış, üz qazıq-qazıq.

Kimin atasıdı, kimin əridi,
Kimin qardaşıdı, görəsən, Allah?!
Dünyanın daşınmaz əzablarını,
Nə qədər daşıdı, görəsən, Allah?!

Yerdən də, göydən də əli çıxanlar,
Belə yata bilər, yuxlaya bilər.
Onu innən belə nə ulu Tanrı,
Nə bəndə ayaqda saxlaya bilər.

Kimi dərddən gedir, kimi içkidən,
Beləcə seyrəlir səfimiz bizim.
Hər gün aşımıza soğan doğranır,
Beləcə pozulur kefimiz bizim.

Qulağı pas tutur, ürəyi qubar,
Beynimiz kiflənir, kifdən ölürük.
Aqillər bilir ki, nələr çəkmişik,
Cahil elə bilir kefdən ölürük.

NEYLƏSİN

Mənim qayğılarım fil dizi bükər,
Buna diz neyləsin, ayaq neyləsin?
Üstünə daş yağıb, dağ yığılmışa,
Dəmirdən, palıddan dayaq neyləsin?

Dərdin tüstüsü var, bacası yoxsa,
Dərdin dərdbiləni, xocası yoxsa,
Həsrətin gündüzü, gecəsi yoxsa,
Mürgülü neyləsin, oyaq neyləsin?

Dönsə dumanına, dönsə tüstünə,
Tanrı hər addımda dursa qəsdinə,
Göylərin qəzəbi ensə üstünə,
Ayağın altında torpaq neyləsin?

NİYƏ

Ağlım, məni niyə çəkdin,
Çiçəklər bitməyən yerə?
Ruhum necə qanadlansın,
Bülbüllər ötməyən yerə?

Gül üstündə ölər arım,
Donar qəlbim, yağar qarım.
Necə getsin ayaqlarım,
Ürəyim getməyən yerə?

Yüz də mərd ol, yüz də mətin,
Yollar ağır, yollar çətin.
Yetir məni xəyanətin,
Əlləri yetməyən yerə.

KİM SAĞALDAR

Bu evləri kim dağıtdı,
Kim uçurdu barısını?
Kim ağlatdı bu evlərin,
Qocasını, qarısını?

Əlacını axtar, ara,
Söz yaralı, xəbər qara.
Kim qaytarsın bu dağlara,
Çiçəklərin arısını?

Yaman sındı kərən, Allah,
Düşdük pərən-pərən, Allah.
Kim sağaldar görən, Allah,
Qəlbimizin yarasını?

HARA QAÇIM

Hara qaçım dünyadan,
Bu dünya dərdnən dolu.
Dərdnən dolu dünyanın,
İçi namərdnən dolu.

Kökünə bax ağacın,
Gövdəsi qurdnan dolu.
Millətin içinə bax,
İçi manqurtnan dolu.

Dünya barıt çəlləyi,
İçi silahnan dolu.
Gözləri qəm, kədərlə,
Könüllər ahnan dolu.

Mədə daşla, dəmirlə,
Qarın tamahnan dolu.
Üzür günah içində,
Dünya günahnan dolu.

Nə vaxtsa bu dolular
Çevrilməsə boşluğa,
Bu dünya qurşanacaq
Ən ağır sərxoşluğa!

ÇİÇƏKLƏR

Çəmən sağlığına badə qaldırır,
Şehi şərab kimi içir çiçəklər.
Könlünü şairə, rəssama verib,
Özünə sevgili seçir çiçəklər.

İndi sovqat vaxtı, pay vədəsidi,
Çəməndən-çəmənə hay vədəsidi.
Ana təbiətin toy vədəsidi,
Gəlinlik paltarı biçir çiçəklər.

Hər duyan könüldə bir insaf olar,
Hava işıqlanar, su şəffaf olar,
Bilir ki, şairin qəlbi saf olar,
Bir-bir ürəyimə köçür çiçəklər.

MƏNİ TƏLƏSDİRMƏ

Tünlüyə çevrilib şəhər, tünlüyə,
Çıxmışam qoynundan bircə günlüyə.
Dərmanı tapılan xəstələr kimi,
Təzəcə açılıb qanadım, qolum.
Məni tələsdirmə "dur gedək" deyə,
Məni tələsdirmə, qurbanın olum!

Bir yandan bağlayan, bir yandan açan,
Zaman qovan olur, insanlar qaçan.
Nə bilim nə zaman, kim bilir haçan
Bir də bu yerlərə düşəcək yolum.
Qoy dağlar qol açsın, dərələr qucaq,
Məni tələsdirmə, qurbanın olum!

Fikrim zirvələrin sorağındadı,
Sözüm bülbüllərin dodağındadı,
Göylərin sahilsiz qucağındadı,
Buludum, günəşim, yağışım, dolum.
Mehdə təzələnim, şehdə durulum,
Məni tələsdirmə, qurbanın olum!

Qəlbinə haqq nuru daman kövrəlir,
İnsana qoşulub zaman kövrəlir,
Şair kövrələndə yaman kövrəlir,
Qoy burda göy kimi boşalım, dolum,
Məni tələsdirmə, qurbanın olum!

Gözəllik mülkündə taxt ələ düşmür,
Taxtda əyləşməyə vaxt ələ düşmür,
Vaxtı cilovlayan baxt ələ düşmür,

Ziyarət sağımdı, məhəbbət solum.
İki gözəlliyin arasındayam,
Məni tələsdirmə, qurbanın olum!

Başa yağış kimi damır gün daha,
Qəlbin dediyini demir gün daha,
Əyilir qüruba ömür-gün daha,
Baş-başa dayanır ölümlə olum,
Məni tələsdirmə, qurbanın olum!

Elə ki, ruh qalır candan uzaqda,
Söz ürəkdə donur, nəğmə dodaqda.
Allah götürərmi, dar bir otaqda
Dibçək gülü kimi saralım, solum.
Bu axşam payıma təbiət düşüb,
Məni tələsdirmə, qurbanın olum!

HEYİF Kİ

İnsan ürəyindəki ümidə bax, eşqə bax,
Yumruq boyda ürəkdə dünya boyda səs yaşar.
İnsanı ulduzların cərgəsinə qaldırar,
Tükənən bir ömürdə tükənməz həvəs yaşar.
Heyif ki, can atırlar dinəni susdurmağa,
Hər bülbülün yanında dəmir bir qəfəs yaşar.
Heyif ki, uçanları süründürən zaman var,
Azadlıq deyənlərin yolunda məhbəs yaşar!

YETİM

Yad əllərdə əsir qalan balam, hey,
Atan yetim, anan yetim, sən yetim.
Gecə-gündüz taleyinə, bəxtinə,
Ağla, yetim, alış, yetim, yan, yetim.

Allah vursun siyasətin oynunu,
Əjdahalar yaman açıb qoynunu,
Xəcalətlə zaman büküb boynunu,
Axşam yetim, səhər yetim, dan yetim.

Körpə kimi yanağından öpülmür,
Qədəminə gül-çiçəklər səpilmir,
Hələ səni xilas edən tapılmır,
Qohum yetim, qeyrət yetim, qan yetim.

Yoxa çıxıb ünümüzü ünləyən,
Ha danışım, kimdi məni dinləyən.
Yağıların tapdağında inləyən,
Tarla yetim, sünbül yetim, dən yetim.

Şir təklənib, çoxu tula-tazıdı,
Çox tulalar tulalıqdan razıdı.
Xəyanətlər kökümüzü qazıdı,
Şöhrət yetim, şərəf yetim, şan yetim.

Qolum çatmır qucum, çatmır, neyləyim?
Qu üçün gücüm çatmır, neyləyim?
Hücumlara hücum çatmır, neyləyim?
Könül yetim, ürək yetim, can yetim.

Ağlamalı günümüzdə gülmüşük,
Bu milləti tayfalara bölmüşük.
Bizə baxma, diri-diri ölmüşük,
Nə yada sal, nə bizləri an, yetim.

Dərd əlində yanasıyam, yanası,
Nədir axı bu yanmağın mənası?
Ölüb sözün atasıyla anası,
Dəftər yetim, qələm yetim, mən yetim.

MİLLƏT VƏKİLİNƏ

Bu gün sənin eşqinə açılıb doğan səhər,
Bu gün səndən danışır oba, oymaq, kənd, şəhər.
Yolun çətin olsa da, yükün ağır olsa da,
Çətinliklər önündə səni sıxmasın qəhər.
Enişləri enməyə, yoxuşları çıxmağa,
Yolların sinəsində şimşək kimi çaxmağa,
Hazırdı qulluğunda qızıl yallı bir kəhər,
Sənə meydan verdilər, dördnala çap atını!
Arxasıza arxa dur, kölgəsizə kölgə ol,
Toxunulmaz ərazim, topdağıtmaz ölkəm ol.
Qalxanda qasırğalar, çaxnaşanda buludlar,
Qaya kimi sal dayan, palıd kimi möhkəm ol,
Dalğalara döş vuran qayalı sahil kimi,
Tufanlar qarşısında sarsılmaz ol, ötkəm ol.
Uçrumların sərtliyi qırmasın inadını,
Göylərin ənginliyi yormasın qanadını,
Sənə qanad verdilər, yar göylərin qatını!

Hər kimdə sənə qarşı tərəddüd var, bəlkə var,
Hər kimdə sənə qarşı çaşqınlıq, səksəkə var,
Kimin dilində böhtan, əllərində ləkə var,
Kim halaldan uzaqdır, kimdə haram tikə var,
Göstər ona həddini,
Hər kimdə bu millətə zərrəcə təhlükə var,
Göstər ona həddini, əy alçağın qəddini,
Bildir ona yaxşının-yamanın sərhəddini,
Zatıqırıq kəslərə yaxşı tanıt zatını!

Təmizlənsin şübhələr, doğru çıxsın gümanlar,
Vətənin göylərindən qoy çəkilsin dumanlar.

Uçsun sevincə doğru qəm gölünə cumanlar,
Səndən bir dərya görsün bircə damla umanlar.
Kor olsun həqiqətə gözlərini yumanlar.
Köçkün, qaçqın, didərgin, şəhid, şikəst, xəstəhal,
Sən də duya bilməsən, bu milləti kim anlar?
Sənə diqqət verdilər, duy xalqın həyatını!

Solan qızılgül olmaq sənin bəxtinə düşdü,
Pörşələnmiş dil olmaq sənin bəxtinə düşdü,
Yana-yana kül olmaq sənin bəxtinə düşdü.
Yeddiillik davanın sonu görünmür hələ,
Şikəst olmaq, şil olmaq sənin bəxtinə düşdü.
Anam Azərbaycanın gör nə qədər dərdi var,
Hamısına yol olmaq sənin bəxtinə düşdü.
Unutma ki, bu torpaq damar-damar sızladı,
Unutma heç bir zaman Xocalını, Xatını!

Ancaq haqqa arxalan, haqqa söykə arxanı,
Mübarizə sevərmi döyüşlərdən qorxanı?
Qəfil bir zərbəsiylə ensə şərin qılıncı,
Titrəməsin əlində həqiqətin qalxanı!
İsmətini, haqqını qoruya bilməyən xalq,
Dərddən göz aça bilməz, qan gölündə çalxanı.
Deməsinlər "Millətin dərdini çəkənmi var,
Hər kəs özü üçündür, millət hanı, xalq hanı?"
Möhləti verən Allah səni sınağa çəkir,
Sənə fürsət verdilər, qazan mükafatını!

Özünü görmək üçün Şimala bax, Şərqə bax,
Damla ilə dəryanın arasında fərqə bax.
Böyüklük nurlandırır bu boyda Kainatı,
Günəşin varlığında işığa bax, bərqə bax.
Kimlər qalıb arxada, kim kimdən qabaqdadır,
Nəslə, soya, millətə, rəngə, ada, irqə bax.
Dərindən bir nəzər sal dədələr keçən yola,

Qollarınla qucaqla Doğu ilə Batını!
İyirminci yüz ilə beş-on addım yol qalıb,
Hara gedir bu millət? –
Hesabat ver özünə!
Həsrətli ellərimdə "kim qırılıb, kim qalıb",[1]
Bitəcəkmi bu həsrət? –
Hesabat ver özünə!
Qaçqınların hesabı gəldi milyonu keçdi,
Qalacaqmı bu töhmət? –
Hesabat ver özünə!
Millət yanıb qovrulur təmiz su həsrətində,
Su zəhərdi, ya şərbət? –
Hesabat ver özünə!
"Qürbətdə deyirdin ki, Zülali, vətənim var",[2]
Bu vətəndi, ya qürbət? –
Hesabat ver özünə!
Bu daşınmaz yükləri çiynində qaldırmağa,
Baş aparan düşməni ayağa saldırmağa,
Gücünü, qüdrətini, hökmünü bildirməyə,
İşinlə, əməlinlə könüllər güldürməyə,
Varmı səndə məhəbbət? –
Hesabat ver özünə!
Qüvvətim, zorum torpaq,
Ocağım, qorum torpaq.
Səndə bir iz qoymasam,
Alışsın gorum torpaq!
Meydanı yada vermə, fürsəti bada vermə!
Başdan uca saxla,
Bu xalqa, bu millətə vəkil olmaq adını,
Azı gündə yüz dəfə oxu bu bayatını!!!

1995, 13 dekabr

[1] Bu misra Seyid Əzim Şirvanidəndir.

[2] Dırnaq arasındakı ifadə M.Şəhriyarın "Heydərbabaya salam" poemasındandır.

ÖMRÜM

Çəkməlisən, çək yükünü dünyanın,
Şair ömrüm, ozan ömrüm, hac ömrüm.
Ömrü boyu qəm sarıdan gözü tox,
Bu dünyanın sevincinə ac ömrüm.

Kimdi qalan bu dünyada əbədi,
Məhəbbətdi insanlığın məbədi.
Qəmli könlüm məndən ötrü Kəbədi,
Öz dərdiylə dərdlilərə tac ömrüm.

Vaxtımızı qovur saat, qovur an,
Vaxt özüdü ömrü göyə sovuran.
Öz içimi öz yağımda qovuran,
Kösöv ömrüm, ocaq ömrüm, sac ömrüm.

Dada çatmır Məkkə, Məşhəd, Kərbəla,
Harda olsa məni tapır hər bəla.
Məndən ötrü göy bəladı, yer bəla,
Heç almadım bu dünyadan bac, ömrüm.

BƏNZƏTMƏ

Şair dostum Musa Yaquba

Qardaşıma bir bənzətmə tapmışam,
Musa Yaqub dağ kəlinə bənzəyir.
Başı zirvə, döşü yamac, özü dağ,
Şeriyyətin heykəlinə bənzəyir.

Qızıl qaya, yaşıl çəmən, göy meşə,
Qayalarda baş-başadır, döş-döşə.
Kövrələndə boynu bükük bənövşə,
Kükrəyəndə dağ selinə bənzəyir.

İlham ona, o ilhama anadı,
Təbiətdi duyğusunun qanadı.
Nəğmələri sığallanmış sonadı,
Hər misrası bir gəlinə bənzəyir.

Bir çiçəkdi, təravətin dilidi,
Halallıqdı, ləyaqətin dilidi.
Danışdığı təbiətin dilidi,
Süleymanın quş dilinə bənzəyir.

Acı deyil şan-şöhrətin, ad-sanın,
Dalğasıdı söz adlanan dəryanın.
Bir gözü tox balasıdı Şirvanın,
Öz yurduna, öz elinə bənzəyir!

BU KİŞİ

İstəkli həyat yoldaşını itirmiş 70 yaşlı bir kişini
zülüm-zülüm ağlayan gördüm

Bir yumaqdı ağrıların əlində,
Yavaş-yavaş çözələnir bu kişi.
Köhnə dərdi sinəsindən getməmiş,
Təzə dərdlə təzələnir bu kişi.

Talan olmuş könül adlı şəhri var,
Göz yaşından dəryası var, nəhri var,
Ağlamağın qaydası var, təhri var,
Ağlamır ki, özələnir bu kişi.

Fələk onu nə saymışdı, nə sayar,
Yüz harayla, gələn deyil səsə yar.
Dərdə sirdaş, qəmə yoldaş, yasa yar,
Hər üçünnən məzələnir bu kişi.

ÇƏKİR

Ömrü boyu insanları,
Nəsə dartır, nəsə çəkir.
Ölüm bizi səssizliyə,
Həyat bizi səsə çəkir.

Dərd ürəklə can arası,
Vaxt axşamla dan arası,
Evlə qəbiristan arası,
Yolumuzu kəsə çəkir.

Dünya şirin, həyat dadlı,
Ömür gödək, gün təzadlı,
Əcəl bizi qəbir adlı,
Qara bir qəfəsə çəkir.

ZAMAN

Axşam gözlərini yum,
Səhər gözlərini aç.
Vaxt yerisin, yürüsün,
Sən də arxasınca qaç.

Tanrıdan taxt dilərsən,
Taledən baxt dilərsən,
Həyatdan vaxt dilərsən,
Olmusan vaxta möhtac.

Vaxtın qiymətini bil,
Vaxtın hökmünə əyil.
Sənin başında deyil,
Vaxtın başındadır tac!

MƏRDLƏR İÇİNDƏ

Mən bir ömür yaşayıram,
Misralar, bəndlər içində.
Söz köhlənim yarışdadır,
Süzür səməndlər içində.

Dalğa kimi sal aşıram,
Düz keçirəm, yal aşıram.
Dərviş kimi dolaşıram,
Şəhərlər, kəndlər içində.

Vaxt ovçudu, ov gəmirir,
Saçı qar, qırov gəmirir,
Qəlbə bax, cilov gəmirir,
Çırpınır dərdlər içində.

Suda batdım, çəndə azdım,
Öz ömrümə qəbir qazdım,
Dağ olsam da dayanmazdım,
Dayandım mərdlər içində.

ÇIXIR

İlhamlı anlarım gəlib çatanda,
İlhamsız anlarım aradan çıxır.
Qarşımda ağ varaq, qara mürəkkəb,
Qismətim ağ ilə qaradan çıxır.

Sevinc naz eyləyər, çəkilər döşə,
Qəm yemək şairə əbədi peşə.
Yol gəlir ürəyi söz deşə-deşə,
Elə bil tikandı, yaradan çıxır.

Könül bir alovdu, şair ömrü şam,
Təzə bir əsərdi, hər gələn axşam,
Hər qələm tutanda haqqı çağırram,
Qarşıma həmişə Yaradan çıxır.

GÜNƏŞƏ BAX

Oğlum Şəhriyara və o yaşda olan bütün oğullarımıza

Dan sökülür, Günəş doğur,
Günəşə bax, mənim balam!
Varlığını nurdan yoğur,
Günəşə bax, mənim balam!

Parlasın göylərin zəri,
Süz doyunca üfüqləri,
Yığ qəlbinə şəfəqləri,
Günəşə bax, mənim balam!

İşığı bol olan ürək,
Yurda oğul, elə dirək,
Gözlərinə şəklini çək,
Günəşə bax, mənim balam!

Süzüləndə göydən işıq,
Dünya tapır bir yaraşıq.
Yerə vurğun, göyə aşiq,
Günəşə bax, mənim balam!

Günəş qədər istin olsun,
Günəş olmaq qəsdin olsun.
Günəş kimi dostun olsun,
Günəşə bax, mənim balam!

YAŞA

Buna ömür neyləsin,
Daş olsa da dayanmaz.
Buna dəmir neyləsin,
Oğulsan, arzuların,
Arxasınca çat, yaşa!

Milləti rüşvət yedi,
Xalqı siyasət yedi,
Haqqı xəyanət yedi,
Oğulsan, bu dərdləri,
Dağ boyda namərdləri,
Kürəyindən at, yaşa!

Yerə verilən – zəhər,
Tağdan dərilən – zəhər,
Hər gün dirilən – zəhər,
Oğulsan, bu zəhəri,
Çörəyinə qat, yaşa!

İçimizi çürüdən,
Qurd olar, bu boyda yox!
Torpağımız yadlara,
Yurd olar, bu boyda yox!
Dərmanı tapılmayan,
Dərd olar, bu boyda yox!
Oğulsan, bu həyatda,
Yaxşı bir həyat yaşa!

Sənin ki qismətinə,
Bu qədər ağrı çıxdı,

Bu qədər quldur, qaçaq,
Bu qədər oğru çıxdı.

Nə qədər yalançı var,
Nə qədər talançı var,
Nə qədər palançı var,
Yaşa, ey dəli könlüm,
Hər gün narahat yaşa!

OYAN DEYİR

İlahi, nə yaman gec oyanmışıq,
Günəş pəncərədən bizi göstərir.
Yatıb qalanlara, uyuyanlara,
Dərəni, təpəni, düzü göstərir.

Qızaran üfüqlər, yanan şəfəqlər,
Bizə can gətirir, bizə can deyir.
Dolur qoynumuza, qucağımıza,
Bahar hamımıza qalx, oyan deyir!

NƏ QƏDƏR ÖMRÜMÜZ VAR

İlk qanı Qabil töküb,
İlk günah Adəmindi,
O günah da, o qan da,
Hər gün doğdu, törədi,
Dünya həmin, həmindi.
Nə qədər gizləsək də,
Allahsız işimizdən
Allah özü əmindi.
Bu günahlar içində
Sevinc ola bilərmi?
Nə qədər ömrümüz var,
Həsrətindi, qəmindi.

GƏLMƏZ

Gecələrdən səhərlərə,
Şairlər əliboş gəlməz.
Ağ varaqlar qaralmasa,
Görüş Allaha xoş gəlməz.

NƏ YAXŞI

Ömrün on beş ilini dar komada keçirdim,
Nə yaxşı bu günümdə sığındığım otaq var.

Evsizlərin halına o qədər ağlamışam,
Gözümdə neçə-neçə göz-göz olmuş bulaq var.

Dünənki komada da, bugünkü otaqda da
Könlümdə öz əlimlə çatdığım bir ocaq var.

Əllərim qələmdədi, baxışlarım varaqda,
Şamdanda şam əriyir, başım üstə çıraq var.

Nə yaxşı öyrənmişəm qonaqsız darıxmağa,
Nə yaxşı bizim evdə hər gün əziz qonaq var!

BİLMİRƏM

Bu gün ayın neçəsidi?
Bilmirəm.
Gündüzüdü, gecəsidi?
Bilmirəm.
Yeridiyim hansı kəndin yoludu,
Hansı şəhrin küçəsidi?
Bilmirəm.
Ölən kimdi, qalan kimdi dünyada,
Qalasıdı, köçəsidi?
Bilmirəm.
Səni gördüm, unuduram hər şeyi,
Dağ nə, daş nə, qaç nə, köç nə bilmirəm.
Bildiyim tək bircə şey var dünyada,
Bilirəm ki, heç nə, heç nə bilmirəm!

MEŞƏDƏNDİR

Meşənin qucağında ağaca söykənmişəm,
Yazdığım misraların ətri bənövşədəndir.

Çeşmələrin gözündə şeirimin saflığı var,
Könlümə düşən işıq aldığım nəşədəndir.

Beşiyimin ağacı, tabutumun taxtası,
İlk varım, son dövlətim bu yaşıl meşədəndir.

HAQQIN GÜCÜ

Buz baxışlar sıxar, tökər,
Xıncım-xıncım əzər məni.
Bir körpənin təbəssümü,
Çiçək kimi bəzər məni.

Dağ başına duman gələr,
Yaxşı gedər, yaman gələr.
Haçansa bir insan gələr,
Əldə çıraq gəzər məni.

Sevgim dərdə qənim olsa,
Sünbüllərdə dənim olsa,
Haqqın gücü mənim olsa,
Yıxa bilməz nəzər məni.

KÖNLÜM

Daş atılıb aynasına,
Çilik-çilik olan könlüm.
Zəhərli oxlar ucunda,
Dəlik-dəlik olan könlüm.

Ömrə qıyma, yaşa qıyma,
Arzuları yolda qoyma.
Parça-parça, qıyma-qıyma,
Bölük-bölük olan könlüm.

Ay Zəlimxan, günün qara,
Dərdin səni çəkdi dara.
Dərdə yalvara-yalvara,
Axır ləlik olan könlüm.

DAŞ

Ay daş atan bəxtəvər,
Daşın da öz vaxtı var.

Can atma ağzıma qıfıl vurmağa,
Sən qıfıl olarsan, haqq açar, bala!
Mənim ürəyimdə olan sevgiyə,
Bütün qapıları haqq açar, bala!

Daş atma yastığı daş olmuş kəsə,
Səsimdən yer gələr, göy gələr səsə.
Ayağı altını hər kim görməsə,
Başının üstündən haqq qaçar, bala!

Haqqı oda tulla, atəşdə yanmaz,
Həqiqət yolçusu yoldan usanmaz.
Mən ona aşiqəm, o məni danmaz,
Etmişəm sevgimi haqqa car, bala!

BAŞ

Başım yaman ağrayır,
Kəsmək bilmir ağrısı.
Baş neyləsin, başdadı
Yerin, göyün ağrısı.

HƏLƏ

Qəlbinə el gücü yığa bilməsən,
Ruhuna sel gücü yığa bilməsən,
Dizinə fil gücü yığa bilməsən,
Ürəklə yeriyə bilməyəcəksən,
Qarşıda dərələr, diklər var hələ!

İnama uzanan yollar hazırla,
Yumruğa çevrilən əllər hazırla,
Ağırlıq qaldıran qollar hazırla,
Bərkit qaya kimi çiyinlərini,
Yerindən qalxası yüklər var hələ!

Nə gözdən yayına, nə iraq qala,
Haqqı əzilənlər gərək haqq ala.
Yaxın dur, həyan ol köməksizlərə,
Hər qəmli könüldə bir ocaq qala.
Tükənmir dünyanın ehtiyacları,
Qəriblər, yalqızlar, təklər var hələ!

Şimşək şaqqıldadı, bulud titrədi,
Göylərin bağrında sükut titrədi.
Tufan təbiəti çəkdi sınağa,
Qaya silkələndi, palıd titrədi.
Qovğa da görmüşük, qırğın da, qan da,
Qəm yemə, budaqlar təzələnsə də,
Torpaqda sağalmaz köklər var hələ!

İŞIQ

Mənim içərimdən boylanan işıq,
Qəlbimdən süzülən, ruhumdan gələn,
Məni sevənlərə paylanan işıq –
Günəşdən əvvəldi, torpaqdan qədim,
Çiçəkdən təzədi, yarpaqdan qədim,
Haqqın dərgahından gələn işıqdı.

Mənim içərimdən boylanan işıq,
Aydan maya tutub aylanan işıq,
Baş verib buludun altından çıxan,
Torpağın ən dərin qatından çıxan,
Sevən ürəklərin odundan çıxan,
Oğul dodağında oda çevrilən,
Gözəl yanağında yanan işıqdı.

Mənim içərimdən boylanan işıq,
Nazlanan, yazlanan, yaylanan işıq,
Tutqun duyğuları gözdən itirən,
Qayanın bağrında çiçək bitirən,
Daşın sinəsini dələn işıqdı.

Mənim içərimdən boylanan işıq,
Ulduzla, Günəşlə taylanan işıq.
Qurd-quşdan başlamış böcəyə qədər,
Toxumdan yarpağa, çiçəyə qədər,
İblisə, şeytana, mələyə qədər,
İnsandan başlamış fələyə qədər,
Nurunu hamıyla bölən işıqdı.
Mənimlə qalacaq mən öləndə də,
Qəbrimin üstündə çiçək bitirən,
Qəbrimin içində ürək bitirən,
Nur olub qəbrimə dolan işıqdı.

ATAMA, MÜƏLLİMİMƏ

Həyatın yolları yayla qış kimi,
İstidi, bürküdü, borandı, qardı.
Mənim taleyimi, gələcəyimi,
Düşünə-düşünə saçın ağardı.

Gözümdə eynək yox, əlimdə əsa,
İstədiyin qədər sağlamam, sağam.
Necə saçlarını ağartmışamsa,
Elə də üzünü ağardacağam!

BAŞKEÇİD

Sıxanda könlümü aran yerləri,
Quş olub çiyninə qonam, Başkeçid.
Yaşıl yaylaqlara yarım demişəm,
Dilbərim, istəklim, sonam, Başkeçid.

Yellərin əliylə açıla yaxam,
Dünyaya qoynundan boylanıb baxam.
Qarınla əriyəm, selinlə axam,
Buzunla bərkiyəm, donam, Başkeçid.

Bədbəxt o kəsdir ki, eşqi dayazdı,
Min dəfə başına dönsəm də azdı.
Adını ömürlük qəlbimə yazdı,
Çalanda laylamı anam, Başkeçid.

Vuruldu şəhərə, bağlandı kəndə,
İstəyim dayanıb durmadı gendə.
Uca zirvələrdən söhbət düşəndə,
Mən sənə gətirdim inam, Başkeçid.

Sözlə xatırlasın, söhbətlə ansın,
Zəlimxan eşqinlə yandıqca yansın.
Qoy sənin adınla qoşa dayansın,
Özülüm, şöhrətim, binam, Başkeçid!

BAŞKEÇİD YAYLAĞI

Bura yüz yaşında bir qoca gəlsə,
Göz işığa gələr, diz qüvvət tapar.
Baxar gözəllərin şux yerişinə,
Hər bulaq başında bir cənnət tapar.

Baxmaz baharına, qışına baxmaz,
Saçlar qar olsa da, başına baxmaz.
Təbiət insanın yaşına baxmaz,
Könül doxsanında məhəbbət tapar.

Şehlə dodaqlansın güllərin camı,
Yaşa ürəyincə arzunu, kamı.
Belə bir oylaqda gəzən adamı,
Nə dərd üstələyər, nə həsrət tapar.

"Qaytarma" üstündə dillənəydi saz,
Qayıda biləydim qoynuna hər yaz.
Burda aşıq olsa, şirin bir avaz,
Burda şair olsa, şeriyyət tapar.

Xoşdu bu yerlərdə duman da, sis də,
Meylin nə çəkirsə dağlardan istə.
Hər çay kənarında, hər bulaq üstə,
Ömür bir əbədi təravət tapar.

Zəlimxan, yaşama torpaqdan ayrı,
Közün nə ömrü var ocaqdan ayrı?
Sözün bu arandan, yaylaqdan ayrı,
Nə dildə səslənər, nə şöhrət tapar.

DÜNYA KİMİ

Baş vuraydım təbiətin qoynuna,
Göylərində ziya kimi qalaydım.
Ərişinə, arğacına dönəydim,
Xalısında boya kimi qalaydım.

Bir tarix var hər zirvənin adında,
Bir dünya var hər nemətin dadında.
Çiçək olub çiçəklərin yadında,
İsmət kimi, həya kimi qalaydım.

Danışaydım kaman kimi, ud kimi,
Alışaydım ocaq kimi, od kimi.
Yaddaşlarda qaymaq tutan süd kimi,
Könüllərdə maya kimi qalaydım.

Əcəl yenə işindədi, işində,
Şirə qalıb Əzrayılın dişində.
Səf çəkdiyim bu dağların döşündə,
Daşa dönüb, qaya kimi qalaydım.

Təmizlikdə yağan qardan ağ olub,
Təzəlikdə rəngi solmaz bağ olub,
Ucalıqda əlyetişməz dağ olub,
Bu dünyada dünya kimi qalaydım.

QALDI

Gəlmişdim, getməyə çatmadı gücüm,
Könlüm bu dağlarla baş-başa qaldı.
Ayın şöləsində, günün nurunda,
Gözlərim qamaşa-qamaşa qaldı.

Sellərnən, sularnan axdım, ağladım,
Döndüm şimşəklərə, çaxdım, ağladım.
Boylandım ağladım, baxdım, ağladım,
Yaş gözə qarışdı, göz yaşa qaldı.

Dağın dağlığından götürdüm bir az,
Qarın ağlığından götürdüm bir az,
Daşın sağlığından götürdüm bir az,
Yenə də dağ dağa, daş daşa qaldı.

Keçdi yuxu kimi, keçdi duş kimi,
Zaman əllərimdən uçdu quş kimi.
Baxdım yerə-göyə vurulmuş kimi,
Mənə bir quruca tamaşa qaldı.

TAPMIŞAM

Kövrəlmişəm hər çıxanda təbiətin qoynuna,
Şeriyyəti güllər üstə düşən nəmdə tapmışam.
Gur çayların, saf suların dinləmişəm səsini,
Ahəngimi qalxan zildə, enən bəmdə tapmışam.

Bir dastandı bu torpaqda tapındığım hər qarış,
Hər qarışda duymaq eşqi, hər addımda axtarış.
Hikmət dolu kitabımdı barlı payız, qarlı qış,
Nə gördümsə Vətən adlı bu aləmdə tapmışam.

Ömrün-günün mənasını anlayanda bilmişəm,
Bir gün açan çiçəkmişəm, bir gün solan gülmüşəm.
El yasında ağlamışam, el toyunda gülmüşəm,
Murazımı gah sevincdə, gah da qəmdə tapmışam.

Anam olub saz ətirli, söz qoxulu bir diyar,
Nəğməsində ölümsüzlük, nəfəsində ilk bahar.
Ürəyimdə od yurdunun elə sönməz eşqi var –
Bu sevgini nə Məcnunda, nə Kərəmdə tapmışam.

Səslənmişəm dodaqların söhbətində, sözündə,
Saflığıma qovuşmuşam bulaqların gözündə.
Hər bir kəsin dünyası var bu dünyanın özündə,
Mən dünyamı bir Vətəndə, bir qələmdə tapmışam!

ÖMRƏ YAZILAN DƏQİQƏLƏR

Çiçəyi sayrışan, gülü ballanan,
Vədəsi yaz olan dəqiqələrdi.
Nəğməylə dodağın, qızla bulağın,
Arası saz olan dəqiqələrdi.

Bu dəmlə hər saat görüşmək çətin,
Ola, ya olmaya bir də qismətin.
Amanı qırılıb qəmin, həsrətin,
Pərəni pozulan dəqiqələrdi.

Kaman xoş dillənib, ney xoş olubdu,
Yerin söhbətindən göy xoş olubdu.
Şair eşqə düşüb, meyxoş olubdu,
Heyf ki, az olan dəqiqələrdi.

Qapımı kəsməyə qış tələsməsin,
Başdaşım olmağa daş tələsməsin,
Zəlimxan, ötməyə yaş tələsməsin,
Ömrümə yazılan dəqiqələrdi.

BU SEVİNCİ ALMA MƏNİM ƏLİMDƏN

Düz addımla doğru yolu, gəncliyim,
Geri durma, yağsa dolu, gəncliyim.
Uzun yaşa, dəli-dolu gəncliyim,
Dil nəğməli, dodaq sözlü, ürək şən,
Bu sevinci alma mənim əlimdən!

Qarlı zirvə şöhrətimdi, tacımdı,
Dağ qardaşım, yaşıl yaylaq bacımdı.
Könlüm yenə yüksəklərdən bac umdu,
Çökən duman, enən bulud, gələn çən,
Bu sevinci alma mənim əlimdən!

Qoy bəzənsin Bakım, Gəncəm, Borçalım,
Eşqi ilə saz götürüm, tar çalım.
Yazmaq üçün bir ömür də borc alım,
Yavaş-yavaş saçlarıma düşən dən,
Bu sevinci alma mənim əlimdən!

Bu dünyada söhbətim var, dəmim var,
Bu dəryada ömür adlı gəmim var.
Bu torpaqda biçilməmiş zəmim var,
Vaxtsız əcəl, yetişməmiş hələ dən,
Bu sevinci alma mənim əlimdən!

Nəğmə qoşum tarixinə, yaşına,
Həmdəm olum baharına, qışına.
Qoy dolanım ana yurdun başına,
Son ayrılıq, nə sən tələs, nə də mən,
Bu sevinci alma mənim əlimdən!

QUŞLAR

Çör-çöpdən özünə dünya yaradıb,
Necə mehribandı yuvada quşlar.
Göylərin əbədi sakini kimi,
Necə havalandı havada quşlar.

Atası, anası təbiət olar,
Nəğməyə çevrilər, məhəbbət olar.
Yerlə də, göylə də həmsöhbət olar,
Çiçəkdə, budaqda, qayada quşlar.

Ölüm amansızdı, nə deyim ona,
Bir gün yetişəcək ömrümüz sona.
Gəlib məzarımın üstünə qona,
Hərdənbir şairi oyada quşlar.

NƏ QORXU

Bahar buluduyam, yaz yağışıyam,
Duyğular coşanda sellənəsiyəm.
Dərədə çay ollam, dağda şəlalə,
Sonalar eşqinə göllənəsiyəm.

Hər gələn səhərim bir yeni bəstə,
Əritdim ömrümü nəğmədə, səsdə.
Hər sözüm qonanda dodaqlar üstə,
Ürəkdən gül açıb güllənəsiyəm.

Tanrı kəfən biçsə buluddan mənə,
Torpaq hasar çəksə sükutdan mənə,
Nə qorxu ölümdən, tabutdan mənə,
Mən ki zaman-zaman dillənəsiyəm.

YADIMDA QALDI

Gəldim bu dünyanı seyr eləməyə,
Bulaqlar səsiylə yadımda qaldı.
Dəniz uğuldadı, dalğa oxudu,
Sular nəğməsiylə yadımda qaldı.

Yuxarı zirvədi, aşağı dərə,
Gözü gördüyünə vuruldu hərə.
Şikəstə ziliynən qalxdı göylərə,
Muğamat pəsiylə yadımda qaldı.

Düzdə kəli gördüm, dağda kəkliyi,
Köçürdüm könlümə gül-çiçəkliyi.
Sevdi zirvələrdə qartal təkliyi,
Durnalar dəsiylə yadımda qaldı.

Gözəlin əsli var, igidin soyu,
Gülləndi sevgisi, çalındı toyu.
Yaşamaq istədi min illər boyu,
Könül həvəsiylə yadımda qaldı.

Çiçək dəstə-dəstə, gül qucaq-qucaq,
Hər lalə çəməndə alışan ocaq.
Atamdı, anamdı bu ana torpaq,
İsti nəfəsiylə yadımda qaldı.

ATAM ÜZ QOYDUĞU TORPAQ

Üz sürtərəm ayağına,
Atam üz qoyduğu torpaq.
Qarışaram torpağına,
Atam üz qoyduğu torpaq.

Öz çiçəyim, öz arımsan,
Beşiyimsən, məzarımsan,
Ən müqəddəs güzarımsan,
Atam üz qoyduğu torpaq.

Könlümün nisgili, yası,
Qəlbimin qubarı, pası,
Borçalının bir parası,
Atam üz qoyduğu torpaq.

Taleyimin son ünvanı,
Son möhürü, son nişanı,
Kəpənəkçi qəbiristanı,
Atam üz qoyduğu torpaq.

Varım sənsən, yoxum sənsən,
Bərəkət sən, toxum sənsən.
Yatsam, şirin yuxum sənsən,
Atam üz qoyduğu torpaq.

ARXADA

Gələn gündən heç nə deyə bilmərəm,
Gedən illər, aylar qaldı arxada.
Birmi, beşmi... saymaq ilə qurtara,
Saya gəlməz saylar qaldı arxada.

Biçinçilər qayıdardı biçindən,
Yol gülərdi el-obanın köçündən,
Bahar vaxtı kəndimizin içindən,
Daşıb gedən çaylar qaldı arxada.

Bulaq üstə görünəndə mələklər,
Sinələrə sığışmazdı ürəklər,
Dəmir ellər, qaya kimi kürəklər,
Çinar kimi boylar qaldı arxada.

Qızlar açmır oğulların kefini,
İtirmişik gözəllərin səfini,
Unutmuşuq zurnasını, dəfini,
Toyçu getdi, toylar qaldı arxada.

Bu nə gündü, o günlərə tay hanı,
Ürək açan həftə hanı, ay hanı,
Eldən-elə, evdən-evə pay hanı,
Şirin-şirin paylar qaldı arxada.

Göz yaşımı damla-damla süzmüşəm,
Çox dözülməz itkilərə dözmüşəm,
Bu nəsildən əllərimi üzmüşəm,
O nəsillər, soylar qaldı arxada.

BU GÜN

Nə soyuqdu, nə istidi,
Havalar həlimdi bu gün.
Çiçəklər qızıl külçəli,
Ləçəklər ləlimdi bu gün.

Şirəsini çəkir arım,
Dağ sevgilim, çəmən yarım.
Bala batıb barmaqlarım,
Ballanan əlimdi bu gün.

Yerə-göyə gözəllik tən,
Eşq bir toxum, gözəllik dən.
Bu ilahi gözəllikdən,
Ayrılmaq ölümdü bu gün.

APARMA

Mən ki təzə bir dünyaya düşmüşəm,
Qurban olum, məni burdan aparma.
Qışdan yaza, yazdan yaya düşmüşəm,
Qurban olum, məni burdan aparma.

Yaylaq olum, yamac olum, döş olum,
Qaya olum, mamır olum, daş olum.
Bir qayanın yanağında yaş olum,
Qurban olum, məni burdan aparma.

Çiçək olub öpülmüşəm bu yerdə,
Toxum olub səpilmişəm bu yerdə,
Dünya nədir, mən bilmişəm bu yerdə,
Qurban olum, məni burdan aparma.

Çəmən olum, qədəmlərə sərilim,
Meyvə kimi şirinləşim, dərilim,
İnsaf elə, yavaş-yavaş dirilim,
Qurban olum, məni burdan aparma.

Azım qalım, itim qalım bu yerdə,
Bir bucaqda bitim qalım bir yerdə,
Yalqız qalım, yetim qalım bu yerdə,
Qurban olum, məni burdan aparma.

Ömür təkcə şöhrət deyil, ad deyil,
Çaxnaşmalar görən könlüm şad deyil,
Bu yerlərdə heç nə mənə yad deyil,
Qurban olum, məni burdan aparma.

Tufan qopsun, köklərimi qoparsın,
Dəniz coşsun, sinəm üstə qabarsın,
Aparanda ölüm gəlsin aparsın,
Qurban olum, məni burdan aparma.

ÇIX DÜNYANIN SEYRİNƏ

Çıx dünyanın seyrinə
Dan yeri sökülməmiş.
Səhərin almaz şehi
Yarpaqdan tökülməmiş.
Təbiətin tərtəmiz,
Günün bakirə vaxtı,
Gülün ləçəklərindən
Çəkilən şirə vaxtı
Çəmənin kəpənəyi,
Çölün arısı sən ol!
Bu dünya başdan-başa,
İtsə sevinc içində,
Onun yarısı sən ol!
Körpəcə budaqların
Qönçələri açmamış,
Gün dəyib, tumurcuğun
Dodaqları qaçmamış,
Yerdə vaxtı qabaqla,
Göydə günü qabaqla.
Təbiətin eşqinə,
Çal-çağırı qabaqla,
Toy-düyünü qabaqla.
Hər gün Günəşdən qabaq,
Çıx dünyanın seyrinə.
Qoy beləcə yaşasın
Dünya sənin xeyrinə,
Sən dünyanın xeyrinə!

NİZAMİ DÜNYASI

Ağlın genişliyi, qəlbin səsidir,
Varlığın ən böyük xəritəsidir.
Fikrin qollarıyla qucub cahanı,
Beş əsər dünyanın beş qitəsidir!

Könül dünyasında söz heykəlləşər,
Yayınmaz gözlərdən nə xeyir, nə şər.
Minlərlə xəzinə doldu, boşaldı,
"Sirlər xəzinəsi" tanıyır bəşər!

Saralmaz bağçası xəzan əlində,
Pozulmaz nizamı, pozan əlində.
Tilsimlər, əfsuslar sındıran qələm,
Hər şeyə qadirmiş yazan əlində!

Fərhad məhəbbətdə dünyada təkdi,
Şirinin rəsmini daşlara çəkdi.
Nizami şeirindən söhbət açmağa,
Allah ucalıqda şair gərəkdir!

Yandı, söz adlanan gur ocaq üçün,
Eşqi çiçəkləndi bu torpaq üçün.
Yeddi şair ömrü çatmaz bəlkə də,
Tək "Yeddi gözəli" yaratmaq üçün!

Tanrısı ölümsüz təbiət oldu,
Qəlbində tükənməz min hikmət oldu.
Gecələr ulduzla dindi, danışdı,
Gündüzlər Günəşlə həmsöhbət oldu!

Üzdü, inciləri dərində tapdı,
Fikri məqamında, yerində tapdı.
İsgəndər axtaran "abi-həyat"ı,
Nizami sözündə, şeirində tapdı!

Kəlamı alışıb yandı zər kimi,
Böyüdü dünyası üfüqlər kimi.
Batmadı əsrlər qaranlığında,
Parladı ən aydın şəfəqlər kimi!

Sirdaşdır qocaya, gəncə Nizami,
Nizami Gəncədir, Gəncə Nizami!
Əyləşib dahilər səltənətində,
Bütün şairlərdən öncə Nizami!

SƏNƏ BAĞLI XATİRƏLƏR

Səməd Vurğun haqqında xatirə kitablarını oxuyarkən

Əlli ildə əlli ömrü,
Yaşamağı bir heyrətmiş.
Əfsanəyə oxşasa da,
Deyilənlər həqiqətmiş.
Duyan bilər bu böyüklük,
Nə hünərmiş, nə qeyrətmiş.
Zaman-zaman nəsillərin,
Ürəyinə işıq çilər,
Sənə bağlı xatirələr!

Körpəliyin qəm üstündə,
Köklənən bir telli sazdı.
Cavanlığın havalanmış,
Dəli Kürdü, xan Arazdı.
Qocalığın, şeiriyyətin
Gözlərində gülən yazdı.
"Nələr deyir bizə, nələr!"
Sənə bağlı xatirələr!

Əsil oğlu sən olmusan,
Ən müqəddəs duyğuların.
Neçə tale çiçəklənib,
Gül açanda qayğıların.
Baxışların ocaq çatıb,
Ortasında buzun, qarın.
Başımızdan çiçək kimi,

Hörmət səpər, xətir ələr,
Sənə bağlı xatirələr!

Ağır yeriş, mətin addım,
Dalğalı saç, qaynar baxış,
Açılanda aydın səma,
Tutulanda – leysan, yağış.
Görənlərin yaddaşında
Zərli yazı, qızıl naxış.
Bu torpağın hər daşında,
Səsə düşər, dilə gələr,
Sənə bağlı xatirələr!

Arxan ilə gəzmədiyi
Nə dağ qaldı, nə də binə.
Ölüm fürsət yoxsulutək,
Səni gəzdi sinə-sinə.
Ayrılığın dağlar çəkdi
Nəsillərin sinəsinə,
Quzu kimi qaldı mələr,
Sənə bağlı xatirələr!

Gur məclislər keçirələr,
Bir-birindən qəşəng ola,
Hər məclisin yaraşığı,
Xatirədən çələng ola,
Hər söhbətin dünyasında,
Könül açan min rəng ola,
Süfrəmizə dürlü-dürlü
Min bir nemət gətirələr!
Hamısından şirin olar,
Sənə bağlı xatirələr!

ƏLƏSGƏR OCAĞINDA OXUNAN NƏĞMƏLƏR

I

Ən müqəddəs bir istəyə can verib,
Sazın, sözün ocağına gəlmişəm.
Bir anadı, qollarını gen açıb,
Bala kimi qucağına gəlmişəm.

Könül verdim bir günəşli səhərə,
Dan atmamış hazırlaşdım səfərə.
Neçə gündü vida deyib şəhərə,
Bir ustadın oylağına gəlmişəm.

Belə həvəs görməmişəm yaşımda,
Çiçək açıb torpağım da, daşım da.
"Göyçəgülü" havası var başımda,
O havanın sorağına gəlmişəm.

Söz bəzədi sarayını, taxtını,
Söz güldürdü taleyini, baxtını
Görəmmədim Ələsgərli vaxtını,
Bu vaxtına, bu çağına gəlmişəm.

Qovrulmuşam harayında, ünündə,
Olmamışam ən gərəkli günündə
Dayanmışam bir məzarın önündə,
Səcdə üçün ayağına gəlmişəm.

Havasında zil olmağa dəyərmiş,
Bağçasında gül olmağa dəyərmiş,
Atəşində kül olmağa dəyərmiş,
Pərvanəyəm, çırağına gəlmişəm.

Gənclik eşqi həvəsimi bol verib,
Uçmaq üçün qanad verib, qol verib,
Qarlı dağlar sinəsindən yol verib,
Qədim Göyçə torpağına gəlmişəm.

II

Nə Kərəmtək yaş axıdıb ağlayan,
Nə Məcnuntək ürəkləri dağlayan,
Yeri gəlsə, çaylar kimi çağlayan,
Yeri gəlsə, nərə dönüb qızandı.

III

Gəzdim yay günündə, yay axşamında,
Oldum taleyindən halı Göyçənin.
Təzədən gül açdı daşı, torpağı,
Sevindi yamacı, yalı Göyçənin.

Laylası çalındı, şeiri oxundu,
Ellərin yanında dərdi yox indi.
Cinas ilmələndi, təcnis toxundu,
Süzüldü dodaqdan balı Göyçənin.

Duydum Ağkilsəni, tanıdım Zodu,
Gözümü doldurdu könlümün odu,
Qurumaz çeşmədi, bulanmaz sudu,
Tükənməz yaşılı, alı Göyçənin.

Bir dəstə çiçəkdə yeddi rəngə bax,
Suların səsində xoş ahəngə bax,
Ustadı xatırla, Qızılvəngə bax,
Şöhrəti Alıdı, Alı Göyçənin.

Sevən sevgisindən düşdü aralı,
Ovçular ağlatdı neçə maralı.
İman itkin oldu, Nəcəf yaralı,
Pozuldu bir zaman halı Göyçənin.

İllərin zəhməti getmədi zaya,
Döndü yavaş-yavaş bulaqlar çaya,
Dədə Ələsgəri verdi dünyaya,
Gətirdi naxışı, xalı Göyçənin.

Zəlimxan, bu yeri qarış-qarış gəz,
Bir də bu günlərə tapılmaz əvəz.
Bir gün şirinliyi azala bilməz,
Yüz il kəsilməsə balı Göyçənin.

KƏLBƏCƏRDƏ OXUNAN NƏĞMƏLƏR

I

Deyirlər doxsanı qoyub arxada,
Yüzdə də qıymasın vədə Şəmşirə!
Şimşəklər oynaşır dağlar başında,
İldırım vurmasın zədə Şəmşirə!

Ən cavan ustaddır, ən qədim ozan,
Bu ulu şərəfə neyləyər xəzan.
Çox döymə döşünə, ay şeir yazan,
Yeri, öz borcunu ödə Şəmşirə!

Şeirində, dilində sözün xası var,
Hər şair qəlbində bir qalası var.
Onun Zəlimxantək yüz balası var,
Çatdırar özünü DƏDƏ ŞƏMŞİRƏ!

II

Bu yerlərdə kağız gərək olmadı,
Hər gədiyə, qaşa yazdım şeirimi.
Cəhcəhini eşidəndə kəkliyin,
Bir xınalı daşa yazdım şeirimi.

Qələm çəkdi qəmə-dərdə gözəllər,
Çaldı məni pərdə-pərdə gözəllər,
Seyrə çıxdı Kəlbəcərdə gözəllər,
Gözə baxdım, qaşa yazdım şeirimi.

Heç qoymadım dərd üstümə şəklənə,
Can ağrıyla, könül qəmlə yüklənə.

Vay o gündən şair ömrü təklənə,
Şəmşir ilə qoşa yazdım şeirimi.

III

Kəlbəcər dağları, salamat qalın,
Meylimi düzlərə salıb gedirəm.
Zirvələr önündə əyib başımı,
Dərin bir xəyala dalıb gedirəm.

Dünya yarıtmadı məni payından,
Nə ilindən doydum, nə də ayından.
Ceyran bulağından, Tərtər çayından,
Vurğunun ətrini alıb gedirəm.

Zəlimxan, alışıb-yanmaqdır peşəm,
Gərək Fərhad olub qayalar deşəm.
Qurban ocağında közə dönmüşəm,
Şəmşirin sazını çalıb gedirəm!

IV

Təbiətin ürəyindən od aldı,
Həm Fərhadı, həm Şirini dağların.
Sinəsində enər, qalxar avazlar,
Zil şöhrəti, bəm şirini dağların.

Bulağı var, gözlərimdə dənizdi,
Çiçəyi var, bir solmayan bənizdi,
Mənə iki gözüm qədər əzizdi,
Həm acısı, həm şirini dağların.

Nə yorular, nə bu yoldan bezərəm,
Ömrü-günü nəğmələrlə bəzərəm,
Ana yurdu Vurğun deyib gəzərəm,
Unutmaram Şəmşirini dağların!

V

Qartallar itirir qarlı zirvələr,
Dağ həsrət çəkəndə düzə dərd olur.
Ürəklər üşüyür od azalanda,
Külün çoxalmağı közə dərd olur.
Gədələr su tökür gur ocaqlara,
Bu da ağır gəlir, bizə dərd olur,
Dədələr azalır, ay Dədə Şəmşir!

Nərə Koroğluyla gedir dünyadan,
Kişnərti Qıratla bitir, deyəsən.
Eyvazı seyrəlir Çənlibellərin,
Həmzəsi cücərir, bitir, deyəsən.
Yol var, yoxa çıxır gedən ucundan,
İz var, birdəfəlik itir, deyəsən,
Dədələr azalır, ay Dədə Şəmşir!

Kəmər də qurşayır, papaq da qoyur,
Papaq da on dəfə başından baha.
Dünəni, keçmişi bilməyən aşıq
Görəsən nə üzlə gedir sabaha?
Dayazlar o qədər artır, çoxalır,
Dərinlər meydanda görünmür daha,
Dədələr azalır, ay Dədə Şəmşir!

Hünər göstərənə kim ad verəcək,
Bir də yetirməsə vədə, Qorqudu.
Ağsaqqal qədrini ağsaqqal bilər,
Başa tac bilərmi gədə, Qorqudu.
Bəlkə əlac tapa bəd əməllərə,
Sən özün danışdır Dədə Qorqudu,
Dədələr azalır, ay Dədə Şəmşir!

Kəlbəcər Qurbanı bir də yetirməz,
Qızılvəng elindən Alı gedibdi.

Axşamdan sabaha çəkən məclisin,
Şərbəti azalıb, balı gedibdi.
Ələsgər köçəli qoca dünyadan
Söhbətin naxışı, xalı gedibdi,
Dədələr azalır, ay Dədə Şəmşir!

Əlliyə çatmamış Vurğunum gedib,
Otuz beş yaşında Cəfərim mənim.
Yormaq istəmişəm uzun yolları,
Üzümə gülməyib səfərim mənim.
Ömür uzatmağa, qanad verməyə,
Çatmır cəsarətim, hünərim mənim,
Dədələr azalır, ay Dədə Şəmşir!

Hər gün bayram olmur, dərd yalqız qala,
Ömrün yollarında ağrı, acı var.
Qayğısız kim çatar ucalıqlara,
Yaxşı ki, həyatda ana-bacı var.
Nəvələr nə qədər şöhrət tapsa da,
Ulu babalara ehtiyacı var,
Dədələr azalır, ay Dədə Şəmşir!

DÜNYANIN ÖLÜMÜ

"Ölən dünyam" romanını göz yaşları içində birnəfəsə oxudum. Sarsıldım. Bu əsəri yazana kimi nə qədər ağrılar, əzablar çəkmisən. Gorun nurla dolsun, ruhun şad olsun, İsmayıl müəllim.

Göz yaşı içində oxudum, ustad,
Sənin gözlərində ölən dünyanı.
Bizi qıyma-qıyma kəsən, doğrayan,
Bizi parça-parça bölən dünyanı.

Allahı çağırıb yola çıxanda,
Bu xalqın bəxtinə tək səbir düşüb.
Əli qismətinin üstə çatmamış,
Payına gah Sibir, gah qəbir düşüb.

Çatmaq istəyəndə xoş diləklərə,
Qanadı qırılmış quş olmuşuq biz.
Güllə gözümüzün içindən keçib,
Qızıl güllələrə tuş olmuşuq biz.

Nə zaman bir toya hazırlaşmışıq,
Bizim qarşımıza ancaq vay çıxıb.
Sakit bir həyatı duymaq istəsək,
Həmişə ortaya hay-haray çıxıb.

Qansızlar qan saldı, doymadı qandan,
Yasa caladılar xalqın yasını.
Kəsdilər ellərin zümzüməsini,
Kəsdilər dillərin qımqımasını.

Qaçağa saz çalıb, aşığa güllə!
Düşmən toxmağıdı, uşağa güllə!
Müzür ünsürüdü, qoçağa güllə!
Saymır hökuməti, qaçağa güllə!
Xəstəyə, halsıza, naçağa güllə!
Kişiyə dəyirmiş hər açılanda,
Dəymirmiş satqına, alçağa güllə!
Gəlinin namusu, qızın isməti,
Gözəlin həyası güllələnirmiş.
Millətin gözündə şam-çıraq olan,
Gözlərin ziyası güllələnirmiş.
Tüstüsüz qalırmış evin bacası,
Tüstülü bacalar güllələnirmiş.
Sözü güllə kimi daşdan keçənlər,
Qeyrəti ucalar güllələnirmiş.
Bəstəboy oğullar, katta kişilər,
Ağsaqqal qocalar güllələnirmiş.

Millətin izini bu yer üzündən,
Silmək yuxarının göstərişiymiş.
İcazə lazımmış ağlamaq üçün,
Gülmək yuxarının göstərişiymiş.
Həyatda yaşamaq olar, ya olmaz,
Ölmək yuxarının göstərişiymiş.

“Troyka” adıyla xalqın canına,
Birələr daraşıb, zəlilər düşüb.
Çıxardıb gözünü ağıllıların,
Ortaya həlləhuş dəlilər düşüb.
Keçəl Xondulular at oynadanda,
Evlərə günahsız ölülər düşüb.

Allah nə vermişdi bəndələr aldı,
Güllü xanımları gülsüz qoydular.
Arxalı, dayaqlı, elli-obalı,

Ömər koxaları elsiz qoydular.
Diliylə bülbülü mat qoyanları,
Lal-kar elədilər, dilsiz qoydular.

Nə gözdən yayınar, nə yaddan çıxar,
Hər dövrün özünün cinayəti var.
Atın etibarı, itin vəfası,
Tülkünün, çaqqalın xəyanəti var.

Müsavat əsgəri Çapıq Əmrahı,
Rusların qılıncı çapıq elədi.
Sayı çoxaldıqca bu çapıqların,
Millətin gözünü qıpıq elədi.

Pələng ovlananda, şir tutulanda,
Tülkünün quyruğu işə düşürmüş.
Haqqın, ədalətin məhkəməsi yox,
Kiminsə buyruğu işə düşürmüş.

Kimin nə işi var fərsizlə, kütlə,
Kimlər ki fərlidi, kökünü kəsin!
Kimin boyu uca, başı papaqlı,
Sözü kəsərlidi, kökünü kəsin!

Sapı özümüzdən olan baltalar,
Onda da çox olub, İsmayıl qağa!
Zamanın fitnəsi halay bəylərə,
Tuşlanan ox olub, İsmayıl qağa!

Sən bizə göstərdin müəllim kimi,
Heç yerdə addımı çaş atmaq olmaz.
Qan üstə qurulan bir cəmiyyəti,
Güllələr gücünə yaşatmaq olmaz.

İndi dərk elədim, sən bu dərdləri,
Necə daşımısan, İsmayıl qağa!

Görüb zaman-zaman bu namərdləri,
Necə yaşamısan, İsmayıl qağa!

Kişilər özünə kişi deməyib,
Tüfəngsiz, qadınsız, papaqsız, atsız.
Ondakı kişilər qollu-qanadlı,
İndiki kişilər qolsuz-qanadsız.

Mən səni görəndə dərk eləmişəm,
Çiynində dağ boyda yük nə deməkdi.
Buludla öpüşən budaqlar bilər,
Torpaq nə deməkdi, kök nə deməkdi.

İndi dərk edirəm, İsmayıl qağa,
Sənin dözümlüyünü, mətinliyini.
İndi dərk edirəm kişi olmağın,
Cahandar olmağın çətinliyini.
İsmayıl olmağın, Şıxlı olmağın,
Ağsaqqal olmağın çətinliyini.

Gəl, indi oğulsan, döz bu dərdlərə,
Gəl, indi oğulsan, yaşa dünyada.
Gəl, indi oğulsan, yol yeri, iş gör,
Çatdır arzuları başa dünyada.

Əlimin qabarı, belimin yükü,
Çiynimin kəndiri, şələsi dünya.
Hərə bir iş gördü ağ günə çıxdı,
Mən oldum dünyanın köləsi, dünya.

Qanım ovuc-ovuc içilib mənim,
Boyum qırış-qırış kiçilib mənim.
Elə bil boyuma biçilib mənim,
Satqının, alçağın tələsi, dünya.

Ciyərim sızladı, canım üyüşdü,
Elə hər günümüz qandı, döyüşdü.
Dilimin ucunda təhqir, söyüşdü,
.....beləsi dünya.

Yalanlar köhnədi, böhtanlar qədim,
Birdimi, beşdimi yamanım, bədim.
Göz açıb dünyaya baxmaq istədim,
Töküldü gözümün giləsi, dünya.

Sinələr üstündən çəkdilər xışı,
Min qəlbi göynətdi bir ömrün qışı.
Yaxşı dağıtdılar bu dağılmışı,
Çoxdan öləsiymiş öləsi dünya!

ƏMRAH DAYI

Qışın oğlan vaxtı bir hava çaldın,
Açıldı könlümdə yaz, Əmrah dayı.
Bulaqlar qaynadı, gözlər süzüldü,
Gözəllər elədi naz, Əmrah dayı.

Min ömür uzadıb, ömür üzməyib,
Yersiz oynamayıb, yersiz süzməyib.
Usta bağlamayıb, zərgər düzməyib,
Sənə haqdan gəlib saz, Əmrah dayı.

Adın bir şöhrətdir obaya, elə,
Zəlimxan adına nə yazıb hələ.
Yüz il yaşasan da sən indən belə,
Az olar yenə də, az, Əmrah dayı.

AŞIQ KAMANDARA MƏKTUB

Ağrını, azarı qoyma yaxına,
Durma, usta tərpən, usta Kamandar.
Tutular gözlərim, yanar ciyərim,
Görsəm o telləri pasda, Kamandar.

Bəzəsin məclisi söhbətin xası,
Qoyma göz açmağa nisgili, yası.
Amandı, quyudan qurtar Abbası,
Saxlama Gülgəzi yasda, Kamandar.

Sazdı, havacatdı könlümün yarı,
Odur Zəlimxanın dövləti, varı.
Beş gün ömrüm olsa, bölərəm yarı,
Verrəm sənin kimi dosta, Kamandar.

ÖLDÜRÜR

Bu şeir Ağdaş rayonunda, böyük şairimiz ***Maqsud Şeyxzadənin*** *anadan olmasının 85 illik məclisində xanəndə Ağaxan Abdullayevin ilahi dərəcədə gözəl çıxışından sonra yazılmışdır*

Ellər, məni ürəyimdən axıb gedən qan öldürür,
Muğam adlı bir sehrkar, səs adlı bir can öldürür.

Nə dünənin həsrətində, nə sabahın eşqindəyəm,
Məni bu gün yaşadığım müqəddəs bir an öldürür.

Atəş kimi qarsaladı "Segah"ın fəryadı məni,
Bu atəşdən yayınmağa yoxdu bir imkan, öldürür.

Bu nə səsdi, bəlkə, bu gün Həzrəti-Davud dirilib,
Heyranların heyranıyam, məni bu heyran öldürür.

Allah belə ölümləri duyanlara çox görməsin,
"Şüştər" bu gün verib yenə qətlimə fərman, öldürür.

Məni sevən dostuma bax, çevrilib cəlladım olub,
Vallah, Zəlimxan ölməzdi, onu Ağaxan öldürür.

HÜSEYN ARİF HAQQINDA XATİRƏ ŞEİRLƏRİ

I

Hüseyn Ariflə, ustadımızla,
Hər yerdə Kərəmlə Lələ kimiydik.
Baş-başa verərdik eldə-obada,
Ruhlara saçılan şölə kimiydik.

Sərbəst dolanardıq, azad yaşardıq,
Kövrək duyğularla dolub-daşardıq.
Vurğundan deyəndə vurğunlaşardıq,
Günəş ətrafında halə kimiydik.

Kür üstə Yəhya bəy Dilqəm olardıq,
Qəmli könüllərə həmdəm olardıq.
Ağrıya, acıya məlhəm olardıq,
Yaralar üstündə pilə kimiydik.

Əzizlər yanında əzizdən əziz,
Dənizlər yanında dalğalı dəniz.
Meh kimi ətirli, şeh kimi təmiz,
Çiçəklər üstündə jalə kimiydik.

Ürək geniş olsa, sığmaz darlığa,
Saçar işığını bütün varlığa.
Saxtalar içində saxtakarlığa
Tərsinə açılan şillə kimiydik.

Ağrılar çökəndə xalqın canına,
Kədərdən qolları düşdü yanına,
Qanımız dönəndə şəhid qanına,
Çöllərdə qızaran lalə kimiydik.

Oğul dağı gördük, qız dağı gördük,
Dərd yükü daşıdıq, duz dağı gördük.
Canda qar qalağı, buz dağı gördük,
Ürəklər yandıran nalə kimiydik.

Qəlbimiz odluydu, ruhumuz sərin,
Sözümüz dadlıydı, eşqimiz dərin.
Bir azca turşməzə, bir az da şirin,
Narın pərdəsində gilə kimiydik.

Uymadıq sərvətə, baxmadıq zərə,
Gəzdik könüllərdən gül dərə-dərə.
Baharla qarışdıq çəmənliklərə,
Qışda qar-boranlı çillə kimiydik.

Uçardı şəhərə, qaçardı kəndə,
Dünyası sığmazdı bərəyə, bəndə.
Şirin arzulardan söhbət düşəndə,
Göylərə yüksələn pillə kimiydik.

Bilən tanıyardı izlərimizdən,
Arı bal çəkərdi sözlərimizdən.
Yağışlar yağardı gözlərimizdən,
Şehlə dodaqları silə kimiydik.

Tez-tez xatırlardı igidi, əri,
Gahdan Zal qızını, gah İsgəndəri.
Nişana alanda böhtanı, şəri,
Bir qoşalülədə güllə kimiydik.

O mənə ataydı, mən ona oğul,
Mən ona ürəkdim, o mənə ağıl.
Uzun bir dastandı, şirin bir nağıl,
Damladan yağışa, selə kimiydik,
Orta yol yoxuydu istəyimizdən,

Ürəkdən dodağa, dilə kimiydik.
Yol gedən mən idim, yol göstərən o,
Hər yerdə Kərəmlə Lələ kimiydik.
Qağam bu dünyadan köçüb getsə də,
Allah yaxşı görür, yaxşı göstərir,
Obaya kimiydik, elə kimiydik.

II
SƏNİ MƏNDƏN SORUŞURLAR, AY QAĞA

Xatirələr dindirəndi, dinəndi,
Hər nə varsa, xatirəyə dönəndi.
Şair ömrü ölümləri yenəndi,
Gözlərimdən heç getmirsən uzağa,
Səni məndən soruşurlar, ay qağa!

Ağacların albalısı, alçası,
Yaylaqların yaşıl çəmən xalçası,
Bulaqların lilpar adlı dolçası,
Həsrət ilə baxıb dosta, qonağa,
Səni məndən soruşurlar, ay qağa!

Bu, ömürdü, dolu keçir, boş keçir,
Yaxşı keçir, yaman keçir, xoş keçir.
Yavaş-yavaş yaş üstündən yaş keçir,
Qocalar da dönüb kövrək uşağa –
Səni məndən soruşurlar, ay qağa!

Qarışqalar kol dibində iz açır,
Bənövşələr baş qaldırır, göz açır.
Ana torpaq hər gün səndən söz açır,
Nəğmələrin düşür dilə-dodağa –
Səni məndən soruşurlar, ay qağa!

Qatarlanıb durna gəlir yanıma,
Cərgələnib sona gəlir yanıma.
Oğul dərdli ana gəlir yanıma,
Səndən ötrü düşüb səsə, sorağa,
Səni məndən soruşurlar, ay qağa!

Çiçək dərən qız, gəlinə bir də bax,
Buz üstündə dağ kəlinə bir də bax.
Gözəlliyin heykəlinə bir də bax,
Cüyür enir, ceyran gəlir bulağa,
Səni məndən soruşurlar, ay qağa!

Qartaldımı qayalara ün salan,
Həsrətdimi saçlarıma dən salan,
Əcəldimi səni məndən gen salan.
Bülbül ötür, qumru qonur bulağa –
Səni məndən soruşurlar, ay qağa!

Sızıldasa arı, şanım neyləsin,
Dərdi dərdə qarışanım neyləsin.
Neçə könlü pərişanım neyləsin,
Gözəllərin yaşı axır yanağa –
Səni məndən soruşurlar, ay qağa!

Yazılmayan varaqların ağ qalıb,
Şükür haqqa, yazdıqların sağ qalıb.
Mən nə deyim bu bağçaya, bu bağa?
Mən nə deyim oxunmamış kitaba?
Mən nə deyim yazılmamış varağa?
Səni məndən soruşurlar, ay qağa!

Dağda qarım, sünbülümdə dənimsən,
Hər dərdimə, həsrətimə qənimsən.
El bilir ki, sən hər zaman mənimsən,
Baş əyirəm uyuduğun torpağa,
Məni səndən ayrı salmaq çətindir,
Səni məndən soruşurlar, ay qağa!

ƏDALƏTİ DİNLƏDİM

Kim keçərdi o keçdiyi yolları?
Kim aşardı o aşdığı yalları?
Kim vurardı o vurduğu xalları?
Əfsanəni, həqiqəti dinlədim,
Bir məclisdə Ədaləti dinlədim!

Barmağında köz olmuşdu təzənə,
Biz yanırdıq, ocağa nə, közə nə?
Daş deyərdim alışmayıb dözənə,
"Yandım" deyən təbiəti dinlədim,
Bir məclisdə Ədaləti dinlədim!

Tellərə bax, nə hikmətdi, nə sirdi?
Yenə qəlbim güllərinə əsirdi.
Qılınc kimi doğrayırdı, kəsirdi,
Pərdələrdə cəsarəti dinlədim,
Bir məclisdə Ədaləti dinlədim!

Heç bilmədi soyuq nədir, isti nə,
Baş endirdi telli sazın üstünə,
Talan etdi, durdu canın qəsdinə,
Neçə-neçə hekayəti dinlədim,
Bir məclisdə Ədaləti dinlədim!

Kərəm dağda Lələsini itirdi,
Abbas köçü yurddan-yurda ötürdü.
Qərib özün Şahsənəmə yetirdi,
Ayrılıqdan şikayəti dinlədim,
Bir məclisdə Ədaləti dinlədim!

Söhbətini baxış dedi, göz dedi,
Tahir yenə Zöhrəsinə döz, dedi,
Vaqif coşdu, gözəllərə söz dedi.
Dönə-dönə məhəbbəti dinlədim,
Bir məclisdə Ədaləti dinlədim!

Zili, bəmi bir-birindən təzə-tər,
Səs-sorağa gəldi Vurğun, Ələsgər!
Min nəfərə layla çaldı bir nəfər,
Ölməz olan bir sənəti dinlədim,
Bir məclisdə Ədaləti dinlədim!

MƏMMƏD ARAZ VAR

Adını soruşub, hardadır demə,
Yurdun hər dağında Məmməd Araz var.
Ərənlər səsidi "Ərimgəldi"də,
İsa bulağında Məmməd Araz var.

İlham qanındadı, söz mayasında,
İzi var vətənin hər qayasında.
Gəlin ismətində, qız həyasında,
Körpə dodağında Məmməd Araz var.

Hər sözün başına bir sığal çəkər,
Başı söz üstündə qeylüqal çəkər.
Zəhmətkeş arıdı, sözdən bal çəkər,
Gülün budağında Məmməd Araz var.

Dünya şairidi dünya yaşında,
Dilini biləndi dilsiz daşın da.
Qaya mamırında, daş yaddaşında,
Palıd yarpağında Məmməd Araz var.

Baxışı buluddan nəm çəkən oldu,
Ürəyi sükutdan qəm çəkən oldu.
Qəmli könüllərə sim çəkən oldu,
Saçların ağında Məmməd Araz var.

Yetişib Təbrizə, qovuşub Qarsa,
Eşitsin dünyanın qulağı karsa.
Harda Araz üstə bir körpü varsa,
Onun hər dağında Məmməd Araz var.

Ömür naxışına vurulan həvə,
Get-gəl bazarında yük çəkən dəvə,
Nizamiyə oğul, Sabirə nəvə,
Vaxtın hər çağında Məmməd Araz var.

Qəmli fikirlərin çənində azar,
Ata bir məzardı, ana bir məzar.
Bacısı Gülsümə məktublar yazar,
İnfil ocağında Məmməd Araz var.

Dönüb sərvətimə, dönüb zərimə,
Misrası dərmandı dərdi-sərimə.
Sol gözüm yuvadı əzizlərimə,
Gözümün sağında Məmməd Araz var.

Vurduğu rəngə bax, açdığı izə,
Şöhrəti zamanı gətirər dizə.
Allah! Bu vətəni çox görməz bizə,
Vətən torpağında Məmməd Araz var!

1995, 3 sentyabr

XƏLİL RZAYA AĞI

1994-cü il iyunun 23-ü günü Xəlil Rzanı Fəxri xiyabanda torpağa tapşırdıq. Bütün günü öz-özümə gümüldənə-gümüldənə oxşama deyib, ağı deyib, onun ömrünü-gününü bayatıya, laylaya tutmuşam.

Sənə necə layla çalım,
Din-imanım, Xəlil Rza!
Sənsiz ötüb-keçən deyil,
Bircə anım, Xəlil Rza!

Altım üstümə çevrildi,
Duman tüstümə çevrildi,
Dünya qəsdimə çevrildi,
Axdı qanım, Xəlil Rza!

Can əriyən şama döndü,
Saraylarım dama döndü,
Zülmət bir axşama döndü,
Nurlu danım, Xəlil Rza!

Sənsiz necə dağlar yarım,
Bütöv idim, qaldım yarım.
Güldən şirə çəkməz arım,
Dolmaz şanım, Xəlil Rza!

Ovçu vurmuş bir ovsanmış,
Saçımdakı qrovsanmış,
Canımdakı alovsanmış,
Yandı canım, Xəlil Rza!

Dərdi yalqız çəkə-çəkə,
Saldın bizi dərdə, Xəlil!
Min kişinin gücü vardı,
Sənin kimi ərdə, Xəlil!

Əllərində əsa gəlib,
Yollar basa-basa gəlib.
Axıb bu gün yasa gəlib,
Təbriz, Gəncə, Bərdə, Xəlil!

Könülləri yapanıydın,
Köhlənini çapanıydın,
Xəzinələr tapanıydın,
Alnındakı tərdə, Xəlil!

Könlümüzdə dünya vardı,
Səsimizdə ziya vardı.
Üzümüzdə həya vardı,
Aramızda pərdə, Xəlil!

Duman çatıq qaşım olsun,
Dəryalar göz yaşım olsun,
Qurban mənim başım olsun,
Sənin kimi mərdə, Xəlil!

Səni necə haraylayım,
Rzasanmı, Təbrizsənmi?
Təbriz əldən gedən gündən,
Saralmış bir bənizsənmiş!

Sürdüyün bu dövran nədi,
Açdığın bu meydan nədi,
Başındakı tufan nədi,
Şahə qalxan dənizsənmi?

Ölən insan, uçan evdi,
Ömür sudu, əcəl devdi.
Ölüm səni nə tez sevdi,
Əzizlərdən əzizsənmi?!

Firəngizin göz yaşları,
Xəzərmi görən, ay Xəlil?!
Bircə addım səndən ayrı
Gəzərmi görən, ay Xəlil?!

Ona qəbrin daşı yarmı,
Həsrət yükü daşıyarmı,
Həyat deyib yaşıyarmı,
Bezərmi görən, ay Xəlil?!

Axtarandı hər itirən,
Tapar sərvət, zər itirən,
Xəlil kimi ər itirən,
Dözərmi görən, ay Xəlil?!

Xəlil Rza öldü desəm,
Ağzımda dilim qurusun,
Ağacda yarpağım yansın,
Budaqda gülüm qurusun.

Döyüşdə şiri yoxdusa,
Səcdəsi, piri yoxdusa,
Yurdun şairi yoxdusa,
Çəmənim, çölüm qurusun.

Xəlil Rza, elə çax ki,
Elə yandır, elə yax ki,
Sərt baxışla elə bax ki,
Qorxudan ölüm qurusun!

Sən deyirdin dəyirmanlar –
Gərək bizi üyütməsin.
Sevgimizə qənim olub,
Dərdimizi böyütməsin.

Yıxıldı yalançı miflər,
Heçə döndü qəlbi kiflər,
Nə təriflər, nə təltiflər,
Ruhumuzu uyutmasın.

Xalqa sadiq olan kəslər,
İçində bir vətən bəslər,
Bayquş səslər, buz nəfəslər,
Əlimizi soyutmasın.

Gördün zülüm, çəkdin ağrı,
Sənsən xalqın yanan bağrı.
Sən qayıtdın xalqa doğru,
Kim qayıtmır qayıtmasın!

Zaman-zaman torpağına
Gül səpəllər yaş yerinə.
Təmiz ruhun, pak nəfəsin,
Yaz gətirər qış yerinə.

Can ağrılı, qulaq səsdə,
Ellər gəlir dəstə-dəstə.
Qardaş, bu gün qəbrin üstə,
Dayanmışam daş yerinə.

***

Bu ağır həsrətdən sellərə dönüb,
Tökülən yaşlara qurbanam, Ustad!
Qalxan yumruqlara, enən əllərə,
Çatılan qaşlara qurbanam, Ustad!

Saralan üzlərə, solan gözlərə,
Bükülən bellərə, əsən dizlərə,
Nəmli kirpiklərə, ağ bənizlərə,
Küskün baxışlara qurbanam, Ustad!

Necə təmizlənim dərdin pasından,
Gözümüz açılmır xalqın yasından.
Atalı-balalı öz yuvasından
Perikən quşlara qurbanam, Ustad!

Keçirdin ömrünü tufan içində,
Min qada içində, min qan içində,
Tək bircə gecədə zindan içində,
Ağaran saçlara qurbanam, Ustad!

Nisgil ürəkləri dağıdır, sökür,
Dərd ağır gələndə dağ da diz çökür,
Dəfnində göylər də göz yaşı tökür,
Yağan yağışlara qurbanam, Ustad!

Bu ölməzlik hara, bu ölüm hara,
Heç kəs bu gedişdən geyməsin qara,
Fəxri xiyabanda fəxri məzara,
Əyilən başlara qurbanam, Ustad!

1994, 23 aprel

HABİL

Yandıra-yandıra yaşadır ömrü,
Ümiddi, şübhədi, gümandı Habil.
Açılsa dağlarda açılan Günəş,
Tutulsa, dağlarda dumandı Habil.

Əriyir dağların minillik qarı,
Olma, yar həsrəti göynədir yarı.
Yaxşıdan yaxşıdı, Sarıdan sarı,
Yamandan min dəfə yamandı Habil.

Yaradır xallarda saflıq, dərinlik,
Qoşadır qəlbində odla sərinlik.
Nəğmədən həzinlik, səsdən şirinlik,
Həyatdan ölməzlik umandı Habil.

Kimdi son ümidin əlində qalan,
İçməsin dərmanı yalandır, yalan.
Xəstəni ölümün əlindən alan
İzindi, möhlətdi, amandı Habil!

NƏ TƏMİZ YARADIB

Əsil insan, gözəl alim, ağsaqqalım,
qayğıkeşim, xeyirxahım ***Camal Mustafayevə***

Özütək incədir, zərifdir deyə,
Çiçəklər baş əyir duyğularına.
Təbiət istəyir al-əlvan geyə,
Güllər də güvənir qayğılarına!

Alışanda Kərəm, sızlayanda saz,
Göy kimi ağlayan görmüşəm səni.
Duyan bir ürəkdə qüdrət azalmaz,
Həmişə çağlayan görmüşəm səni!

Görmüşəm səni də salıb sehrinə,
Cığalı müxəmməs, cığalı təcnis.
Sevgidən, fərəhdən qabarıb sinə,
Çəkəndə ruhuna sığalı təcnis.

Gəncliyəm, eşqimi yaşatmaq üçün,
Yaz gülüm olarsan, qış qarım mənim.
Adın şöhrət olar qarlı dağ üçün,
Bir boy da ucalar Qoşqarım mənim!

Deyir peyğəmbərdi eşidən, bilən,
Qoy öpsün hər çiçək, hər yarpaq səni.
Qara palçığına qurban olum mən,
Nə təmiz yaradıb bu torpaq səni!

DANIŞAR

Bu gün mənim dilim dinməz,
damarda qanım danışar,
Susar dilim, baxar gözüm,
ruhum və canım danışar.

Düşən axşam, gələn gecə,
doğan səhər şeirə dönər,
Ulduzlarla pıçıldaşar,
sökülən danım danışar.

Məni görüb sevincindən
yer də, göy də şeirə dönər,
Hər çiçəyin bir nazı var,
olar bir xanım, danışar.

Danışdıran bir kişi var,
mən kiməm ki, söz danışam,
İlham gələr, qələm yazar,
sözüm, dastanım danışar.

Dənizlər, dağlar eşqimdir,
düzlər, çəmənlər istəklim,
Adına torpaq dediyim,
dinim, imanım danışar.

ÜRƏYİ YOXDURSA, ÖLÜDÜR ŞAİR

Gözümü yumuram, qəlbin gözüylə
Böyük dünyalara göz açmaq üçün.
Gözümü yumuram, qəlbin diliylə
Ulu dünyalardan söz açmaq üçün.

Gözümü açanda özgələşirəm,
Gözümü yumanda özüm oluram.
Ancaq öz içimə güvənəndə mən,
Bərəkət oluram, dözüm oluram.

Ürəyin gözünü bağlı saxlasam,
Lal olar qəlbimin dili, danışmaz.
Ürəyi yoxdursa, ölüdür şair,
Heç zaman diriylə ölü danışmaz.

GƏTİRRƏM

Qəlbindən keçəni gizlətmə məndən,
Nə desən, gözümün üstə, gətirrəm.
Bir gülün eşqinə min gül bağlaram,
Dərib çiçəkləri dəstə gətirrəm.

Axtarıb dayazı, gəzib dərini,
Seçib gövhərini, tapıb zərini,
Dünyanın ən gözəl nəğmələrini,
Zildə haraylaram, pəsdə gətirrəm.

Haqqın peyğəmbəri dindən ötrüdü,
Tanrının tarlası dəndən ötrüdü,
Allah nə veribsə, səndən ötrüdü,
Mən də öz sevgimi səsdə gətirrəm.

Gözüm nura baxar, könlüm işığa,
Zəlimxan heyrandı bu yaraşığa.
Çevrilləm ozana, dönnəm aşığa,
Dünyaya təzə bir bəstə gətirrəm.

1998, 16 mart

BİR SƏNİ SEVİRƏM,
BİR DƏ HƏYATI

İstər sevinc olsun, istər qəm olsun,
Dünyanın hər yeri cəhənnəm olsun,
Sənin eşqin ilə gəldi dünyaya
Sinəmdən süzülən qoşma, bayatı,
Bir səni sevirəm, bir də həyatı.

Sevgim Peyğəmbərim, eşqim Allahım,
Sevgiyə nökərəm, sevgidi şahım.
Sevda yolçuları yola çıxanda,
Yorulmaz köhləni, yorulmaz atı,
Bir səni sevirəm, bir də həyatı.

Dağ varmı, önündə əyməsin başı,
Daş varmı, gözünün axmasın yaşı.
Sevginin əbədi səcdəsindədi,
Göylərin qübbəsi, yerlərin qatı,
Bir səni sevirəm, bir də həyatı.

Həm qışım, həm yayım, həm yazım oldun,
Qibləmə çevrildin, namazım oldun.
Hər kim üz döndərsə öz Allahından,
Çürükdür mayası, qırıqdır zatı,
Bir səni sevirəm, bir də həyatı.

1998, 30 mart

BİR GÖZƏLİN SAÇLARI

Təkcə Günəş, hava yox,
Quşların oxumağı,
Böyüdür ağacları.
Gözəllik qarşısında
Allah özü endirir,
Şahlar qoyan tacları.
Çörək acı doysa da,
Zaman doydura bilmir
Eşq sarıdan acları.
Yaradan oğul gərək,
Yazmaq üçün bəs edər
Min şairin önündə,
Bir gözəlin saçları.

1998, 3 may

BAX

Çox baxdın uzaqlara,
Bir az da yaxına bax.
Yanında gül açılıb,
Budağın şaxına bax.

Bağrımı yarıb gedir,
Köksü qabarıb gedir,
Məni aparıb gedir,
Selə bax, axına bax.

Alovam, canındayam,
Sevgiyəm, qanındayam,
Qılıncam, qınındayam,
Qılınca bax, qına bax.

1998, 18 may

SEVƏNƏ YOL VER, ALLAH

Eşq ucundan dağları,
Ovana yol ver, Allah.
Məcnunu səhralara
Qovana yol ver, Allah.

Haqdan qanad aldılar,
Haqqa körpü saldılar.
Qocalar qocaldılar,
Cavana yol ver, Allah.

Sevən – əli çıraqlı,
Sevən səsli-soraqlı.
Hər şey sevgiyə bağlı,
Sevənə yol ver, Allah.

1998, 17 iyun

BƏY – GƏLİN

Yer üzü oğlandı, göy üzü qızdı,
Nazdı, gözəllikdi göy üzü boyda.
Yer göyü hər axşam bağrına basar,
Alar öpüşünü göy üzü boyda.

Dönər əfsanəyə, dönər nağıla,
Dönməz öz yolundan, dünya dağıla.
Ay işıq apara qızdan oğula,
Sevgiyə çevrilər bəy özü boyda.

1998, 12 noyabr

BƏSDİR, MƏNİ GƏL ÇIXARMA ÖZÜMDƏN

Nə gücüm var, nə dözümüm, nə səbrim,
Bəsdir, məni gəl çıxarma özümdən.
Allahımı, vallahımı unutdum,
Bəsdir, məni gəl çıxarma özümdən.

Bu, güləşdi, yıxılmışam, yıxmışam,
Axır gəlib meydanına çıxmışam,
Dişlərimi bir-birinə sıxmışam,
Bəsdir, məni gəl çıxarma özümdən.

Çaya dönsən, çırmalanıb keçərəm,
Dəniz olsan, ovuc-ovuc içərəm,
Birdəfəlik varlığına keçərəm,
Bəsdir, məni gəl çıxarma özümdən.

Bir səs ilə sonalansın könlüm hey,
Yeri-göyü yandırmasın çölüm hey,
Bu savaşdı, öldürüm hey, ölüm hey,
Bəsdir, məni gəl çıxarma özümdən.

Qiymətimi axır bilib çıxmısan,
Dağı yarıb, daşı yarıb çıxmısan,
Əlli ildən sonra gəlib çıxmısan,
Bəsdir, məni gəl çıxarma özümdən.

Güclülərə güc gəlməyin mübarək,
Tərs boylanıb, öc gəlməyin mübarək,
Taleyimə gec gəlməyin mübarək,
Bəsdir, məni gəl çıxarma özümdən.

1999, 7 yanvar

OLMAZ

Dodaqların olan kimi,
Püstə olmaz, badam olmaz.
Yön çevirsən mənə sarı,
Ağrım olmaz, qadam olmaz.

Zəhmətimi zay eylədin,
Məcnunlara tay eylədin,
Sən məni rüsvay eylədin,
Daha məndən adam olmaz.

Eşqə həsrət, yara ləlik,
Bağrım oldu dəlik-dəlik,
Kəs başımı birdəfəlik,
Belə çətin edam olmaz.

1999, 20 yanvar

HƏSRƏTDƏN SÜZÜLƏN

Bir zaman dağ mənim, daş mənimiydi,
Mən eşqin dağından enib gəlmişəm.
Gözümün işığı gözümdən düşüb,
Canımın sağından enib gəlmişəm.

Güc ola, zamanı alam atından,
Tutam yaxasından, salam atından.
Ömrümün-günümün salamatından,
Ən şirin çağından enib gəlmişəm.

İndi nə iştaham, nə də ki aşam,
Bir himə bəndəm ki, büdrəyəm, çaşam,
Heyrətdən süzülən bir damla yaşam,
Yarın yanağından enib gəlmişəm.

1999, 7 iyun

SEVƏ-SEVƏ

Sevə-sevə göylərə bax,
Ulduzu, Ayı çoxalsın.
Sevə-sevə yerlərə bax,
Çeşməsi, çayı çoxalsın.

Sevə-sevə səhraya bax,
Od içində qum göyərsin.
Xoş nəzərlə torpağa bax,
Çürümüş toxum göyərsin.

Sevə-sevə gora getsən,
Gor işığa çevriləcək.
Yaraşıqsız hər nə varsa,
Yaraşığa çevriləcək.

Nifrət ilə baxırsansa,
Yazın dönüb qış olacaq.
Dediklərin dedi-qodu,
Qazancın qarğış olacaq.

Nifrət ilə baxırsansa,
Ağı qara görəcəksən.
Bütövləri, böyükləri,
Parça-parça görəcəksən.

Sevgiylə bax cəhənnəmə,
Dönsün yaşıl bir cənnətə.
Nifrət səni ömrü boyu,
Hey çəkəcək məşəqqətə.

1999, 1 oktyabr

BAĞLAMIŞDI

Mən sizə gələndə donmuşdu yollar,
Dərələr, təpələr buz bağlamışdı.
Hər tərəf süd kimi ağ görünürdü,
Sular qaymaq tutub, üz bağlamışdı.

Canımdan keçərdim bu həyat üçün,
Sənlə olduğum bu saat üçün,
Mənimlə bir şirin zarafat üçün,
Tilsimi bir gözəl qız bağlamışdı.

Mən kimə danışım dərdimi, kimə,
Nəm düşüb mizraba, qar düşüb simə.
Məndən tez tərpənib mənim bəxtimə,
Qapılar üzünü tez bağlamışdı.

2005, 20 mart

MƏN GETDİM, MƏNİ GÖZLƏMƏ

Daha bu yer çiçəklənməz,
Çiçəkləri ləçəklənməz.
Kifir olar, kafir olar,
Gözəlləri göyçəklənməz,
Mən getdim, məni gözləmə.

Ruha sirdaş olammadın,
Haqqa qardaş olammadın.
Mən hönkürüb ağlayanda,
Gözümdə yaş olammadın,
Mən getdim, məni gözləmə.

Məni əzən əzab haqqı,
Oxuduğum kitab haqqı,
Mən verdiyim suallara
Vermədiyin cavab haqqı,
Mən getdim, məni gözləmə.

Ruh uçar, bədən qayıtmaz,
Çıxar cərgədən, qayıtmaz.
Aylar, illər təzələnər,
Qayıtmaz, gedən qayıtmaz,
Mən getdim, məni gözləmə.

Lal olmuş bir bulud gözlə,
Daş olmuş bir sükut gözlə,
Mismarlanmış, möhürlənmiş
Taxta gözlə, tabut gözlə,
Mən getdim, məni gözləmə.

Göy yetirməz, yer bitirməz,
Sünbülü, dəni gözləmə,
Mən getdim, məni gözləmə.

Səs olub neyə çəkilləm,
Ah olub göyə çəkilləm.
Yaradanın özü bilir,
Göylərə niyə çəkilləm,
Mən getdim, məni gözləmə.

Damar döyür, qan çağırır,
Günəş doğur, dan çağırır.
Sən gecikdin, çağırmadın,
Məni çağıran çağırır,
Mən getdim, məni gözləmə.

2005, 27 fevral

AY SƏPİR NURUNU

Gəzib-dolaşırıq çöldə, bayırda,
Ay səpir nurunu yarın üstünə.
Gedirik yan-yana, nəfəs-nəfəsə,
Qoşa iz salırıq qarın üstünə.
Mən də isinirəm, o da qızınır,
Əlim uzandıqca narın üstünə.
O bir bərəkətdi, mən bir sərvətəm,
Tanrının bu nurlu qış gecəsində
Nə qədər var gəlib varın üstünə.

1997

GEDƏRƏM

Alovlar içində alışar ömrüm,
Qəlbimi odlara yaxıb gedərəm.
Dünya yanağında yaşı saxlamaz,
Dönüb göz yaşına, axıb gedərəm.

Varlığı dəyişib yoxluğa, heçə,
Kim istər həyatda başından keçə.
Baxranam bağlanıb yüklənər köçə,
Şələmi-şüləmi yığıb gedərəm.

Əkdiyin gülləri dərib gəlmişəm,
Hər kimə borcum var, verib gəlmişəm.
Həyat qapısından girib gəlmişəm,
Ölüm qapısından çıxıb gedərəm.

1997, 27 dekabr

SEVGİDƏNDİ

Sənsiz quşlar uçarmı?
İnana bilmirəm mən!
Sənsiz dağlar, dərələr,
Bir-birini qucarmı?
İnana bilmirəm mən!
Sənsiz güllər açarmı?
İnana bilmirəm mən!
Sənsiz gözəl, gözəllik
İşığını saçarmı?
İnana bilmirəm mən!
Harda yaxşı nə görsən,
Bil ki, onun mayası,
Sevgidəndi, sevgidən!

1996, 4 sentyabr

OLSUN

Ən gözəl bir nəğməyə dön,
Dilimdə əzbərim olsun.
Əllərin ağ göyərçinim,
Tellərin məxmərim olsun.

Alışıb yanmasın şamım,
Gözlərimdə qalsın kamım.
Sənsiz mənim bir axşamım,
Nə də bir səhərim olsun.

Qoy düşməsin məndən iraq,
Gözün atəş, sözün çıraq.
Aç sinəmi varaq-varaq,
Yazmağa dəftərim olsun.

Bulud altdan gün kimi çıx,
Torpaq altdan dən kimi çıx,
Qarşıma bir din kimi çıx,
Təzə peyğəmbərim olsun.

1997, 31 mart

İNSAN NƏFƏSİ

Qurumasın bulaqların gözü,
Solmasın çiçəklərin yanağı,
Susmasın dərdlərin nəğməsi!
Büdrəməsin şairin qələmi,
Qırılmasın rəssamın fırçası,
Tükənməsin alimin mürəkkəbi,
Sınmasın ümidin qanadı,
Sönməsin ürəyin həvəsi!
Qələmin, dəftərin yaraşığı,
Fırçanın, əsərin yaraşığı,
Dərdin-qəmin, toyun-yasın,
Sevincin, kədərin yaraşığı,
Külli-kainatın yaraşığı,
Yaşasın insan eşqi!
Var olsun insan nəfəsi!

1996, 10 sentyabr

SƏNDƏ NƏ GÜNAH VAR

Bu qədər ehtiyat eyləmə, gözəl,
Bil ki o gözlərin giləsi mənəm.
Sənin gözəlliyin şahlıq taxtıdı,
Onun qulu mənəm, köləsi mənəm.

Özüm də bilmirəm sənsiz mən kiməm,
Sən mizrab, mən isə titrəyən siməm.
Dodağın qaçanda baş təbəssüməm,
Ürəyin yananda şöləsi mənəm.

Dünya qul bazarı, apar sat məni,
Gah oynat, gah güldür, gah ağlat məni.
Əgər yarıtmırsa bu həyat məni,
Səndə nə günah var, öləsi mənəm.

1996, 14 sentyabr

ŞAİRDƏN XATİRƏ QALSIN

Gəl, ay pir olmuşun qızı,
Sevgi pirdən-pirə qalsın.
Dodağından çıxan sözlər,
Dilimdə bir şirə qalsın.

Nə qızıl gəz, nə də gümüş,
Ucalardan aşağı düş.
Səndən ötrü qoy bu görüş,
Şairdən xatirə qalsın.

SEVGİNİN GÖZÜYLƏ BAXSAN DÜNYAYA

Sevginin gözüylə baxsan dünyaya,
Ulduzu böyüdüb Ay görəcəksən,
Çeşməni böyüdüb çay görəcəksən.
İnsanı qaldırıb ucalıqlara,
Bəndəni Allaha tay görəcəksən.

Damlada dəryanı tanıyacaqsan,
Zərrədə dünyanı tanıyacaqsan.
Bir ovuc torpaqda, bir damla suda,
Bütöv bir cahanı tanıyacaqsan.

Sevginin gözüylə baxsan dünyaya,
Qəlbində bir zərrə kin olmayacaq.
Tanrının işığı yanan ürəkdə,
Şeytan olmayacaq, cin olmayacaq.
Dinlərin içində səndən ötəri,
Sevgidən müqəddəs din olmayacaq.

Qayna çeşməsində, çağla selində,
Qarış sularında, ax, gözəl olsun.
Çirkin də görünər, gözəl də dünya,
Sevginin gözüylə bax, gözəl olsun.

2001, 5 noyabr

TƏBİƏTİN QOYNUNDA

Dan sökülür, gül açılır, şeh düşür,
Acı sözdən, bəd sifətdən xəbərsiz.
Qartal süzür qayaların qaşında,
Köləlikdən, əsarətdən xəbərsiz.

Bir daş olam, dönəm burda kaş daşa,
Arxa durur, dayaq olur daş daşa.
Min illərdi dağlar verib baş-başa,
Xəbislikdən, xəyanətdən xəbərsiz.

Könül sevir, göz oxşayır, can təpir,
Yaddaşlara möhür vurur iz, ləpir.
Ulu göylər yer üzünə nur səpir,
Yer üzündə cinayətdən xəbərsiz.

İnsan bilir çətin nədir, zor nədir,
Diri-diri yaşadığın gor nədir.
Gül nə bilsin hiylə nədir, tor nədir,
Ətir saçır siyasətdən xəbərsiz.

İnsan oğlu zilin, bəmin içində,
Gah sevincin, gah da qəmin içində.
Ömür sürüb cəhənnəmin içində,
Kim olubsa, bu cənnətdən xəbərsiz.

SALAM,
SARVAN DAĞLARI

Torpaq adı, daş adı, ocaq adı, yurd adı,
Haqqın nuru, işığı həmişəlik burdadı.
Dağa çıxıb Zəlimxan, Musa kimi Turdadı,
İlahi bir eşq ilə baxır sizlərə sarı,
Salam, Sarvan dağları.

Əlli yaşımda çıxdın ürcahıma, uğruma,
Yüz ilin həsrətitək basdım səni bağrıma.
Şır-şır axan suların məlhəm oldu ağrıma,
Göy yaylaqlar başında sən çiçəksən, mən arı,
Salam, Sarvan dağları.

Yaddaşında ellərin neçə qəmli dastanı,
Əbədi sükutdadı Sarvanın qəbiristanı,
Torpaq burda şehlə yox, göz yaşıyla istanı.
Möhürlənib daşlara yurdun ötən çağları,
Salam, Sarvan dağları.

Aşırımlar, bələnlər ömrün-günün sınağı,
Xınayaxdı yeridi qayaların yanağı,
Qızlar təpəsindədi gözəllərin yığnağı.
Pərvazlanır bəy-gəlin, sığallanır qız, qarı,
Salam, Sarvan dağları.

Borçalı mahalının sərvətisən, zərisən,
Neçə-neçə dostumun dilinin əzbərisən,
Ovsunlu bir gözəllik, sehrli bir pərisən.
Ruhumun yaraşığı, eşqimin şirin barı,
Salam, Sarvan dağları.

Min illərlə kişnəyib babamın atı burda,
At üstündə keçirib, ömrü, həyatı burda,
Nağıl, dastan, oxşama, qoşma, bayatı burda.
Yenə də arzuların yamyaşıldı tağları,
Salam, Sarvan dağları.

İrvahımlı, Qavıllı, Gərəkməzli, Bədəlli,
Xaccaoğlu, Dəlallar, Talıblı, xalqa bəlli,
Hay Vəlinin bulağı könlümüzə təsəlli.
Bu adları qorumaq elin qeyrəti, arı,
Salam, Sarvan dağları.

Məmmədxanlı, Çıldırrı, Gərəkməzli, Kələlər,
Şair qədəmlərinə çiçək səpər, gül ələr,
Bu yerlər başımızdan qızıl tökər, ləl ələr.
Aşıb-daşar sel kimi elin dövləti-varı,
Salam, Sarvan dağları.

Qazı yurdu, Qarğalar, Güləmmədli, Qaralar,
Məhəmmədlər, Koxalar qəlbi qəmdən aralar,
Yurdun havası dəysə, tez sağalar yaralar.
Məlhəmimi özün qoy, yaramı özün sarı,
Salam, Sarvan dağları.

Niyə saydım dalbadal bir bu qədər adları,
Yazdım ki, gen açılsın yaddaşın qanadları.
Yurda sahib oğullar yəhərləsin atları,
Yaxına buraxmasın yağıları, yadları.
Millətim qucaqlasın karvan-karvan dağları,
Salam, arxam-dayağım,
Görüşümüz mübarək,
Salam, Sarvan dağları.

TƏBİƏTİN OVSUNUNA DÜŞƏNDƏ

Nə hirs, nə də acıq olur, İlahi,
Sinə necə varaqlanır, yumşalır.
Ürək necə açıq olur, İlahi,
Təbiətin ovsununa düşəndə.

Nifrət olmur, qəzəb olmur, kin olmur,
Dağda olur, baxışlarda çən olmur,
İnsaf, iman ürəklərdən gen olmur,
Təbiətin ovsununa düşəndə.

Çəmən sənin, çiçək sənin, quş sənin,
Yaddaş sənin, həvəs sənin, huş sənin,
Yaz sənindi, yay sənindi, qış sənin,
Təbiətin ovsununa düşəndə.

Yada düşməz ağrı-azar söhbəti,
Dedi-qodu, küçə-bazar söhbəti.
İlham gələr, qələm yazar söhbəti,
Təbiətin ovsununa düşəndə.

Qanqalsansa, dönüb çiçək olursan,
İblissənsə, dönüb mələk olursan.
Qayasansa, dönüb ipək olursan,
Təbiətin ovsununa düşəndə.

Lilpar adlı dolça yaşıl, cam yaşıl,
Dəyə yaşıl, daxma yaşıl, dam yaşıl.
Duyğuların dönüb olur yamyaşıl,
Təbiətin ovsununa düşəndə.

Arıya bax, bal süzür, şan yaradır,
Cana məlhəm, gözə dərman yaradır.
Hər mənzərə bir Zəlimxan yaradır,
Təbiətin ovsununa düşəndə.

KƏNDİRLİ QARTAL

Sənin ki məskənin dağlar başıdı,
Sən ki öyrənmisən hündürə, qartal.
Dərələr dibinə kim salıb səni,
Niyə ilişmisən kəndirə, qartal?

Gözün əllərdədi, baxışlardadı,
Gah ələ baxırsan, gah ətə, qartal.
Zirvələr sultanı nə günə qalıb,
Gəldim bu səhnədən dəhşətə, qartal.

Doğra o kəndiri caynaqlarınla,
Səmalar fatehi, qayalar şahı.
Hünərin çatmasa, çağır köməyə,
Yerdə Peyğəmbəri, göydə Allahı.

Mahir bir ovçunun baş tutub ovu,
Pusquya salıbdı, bəndə salıbdı.
Allah uçmaq üçün yaradıb səni,
Sürünmək kökünə bəndə salıbdı.

Bülbül qəfəsdə də coşub oxuyur,
Can dustaq olsa da, dili lal deyil.
Qartal buludları yarmaq üçündü,
Şığıya bilmirsə, o, qartal deyil.

UCAL QANADINDA BU NƏĞMƏLƏRİN

Sənə ki yaradan güc-həvəs verib,
Tanrıdan pay olan bir həvəs verib.
Sənin ki səsinə göylər səs verib,
Sevgisi yerlərdən göylərdən dərin –
Ucal qanadında bu nəğmələrin!

Sığalı, naxışı, mərməri, tülü,
Təzə bir dünyadı hər səsin gülü.
Ruhunla sığalla, oxşa bülbülü,
Bağlar zümzüməli, bağçalar sərin –
Ucal qanadında bu nəğmələrin!

Gah zili xoş gəlir, gah da ki pəsi,
Haqq sevər nəğmələr yaradan kəsi,
Gəlin qəhqəhəsi, gözəl cilvəsi,
Qoşa qanadıdı kişinin, ərin –
Ucal qanadında bu nəğmələrin!

Hər nəğmə haqq sözü, Quran ayəsi,
Söz varı-dövləti, həm sərmayəsi.
Tanrının nəzəri, haqqın sayəsi,
Qıra qanadını böhtanın, şərin –
Ucal qanadında bu nəğmələrin!

Dünyada nə qədər ah çəkən olub,
Məcnun bəxtəvərin ahı başqadı.
Dünyaya nə qədər şah gəlib-gedib,
Sevginin sultanı, şahı başqadı.
Baş vermə ötəri parıltılara,
Ömrü beş günlükdür sərvətin, zərin.
İnsan avazında Allah eşqi var,
Ucal qanadında bu nəğmələrin!

YOL

Yola çıx, yola çıx,
Yolları yollara dola, çıx!
Eniş en, yoxuş qalx,
Sağa çıx, sola çıx!
Yaxanı yelə ver,
Ömrünü yola ver,
Baş açıq, qol açıq!
Səfərdən qalana
Həmişə yol bağlı.
Səfərə çıxana,
Həmişə yol gözəl,
Həmişə yol açıq!!!

GECƏLƏRİN SAYI

Neçə gündü içimdə bir qaranlıq gecə var,
Üzünə daş yamanıb, doğmur Ayı, Günəşi.
Heç özüm də bilmirəm burda nə bilməcə var,
Elə bil söndürüblər qəlbimdəki atəşi.

Yol versin sinəsində yeriyəndə yer mənə,
Axtarım öz ömrümün ulduzunu, ayını.
Gülüşü güllər saçan gündüzləri ver mənə,
Allahım! Çox eyləmə gecələrin sayını!

KƏND OCAĞI

Ruhumuza sığal vurar, rəndə çəkər,
Kənd yerində korun-korun yanan ocaq.
Duyğumuzu kökə bağlar, rəndə çəkər,
Kənd yerində korun-korun yanan ocaq.

Söhbətini işlədərik qənd yerinə,
Min illərlə möhür olan kənd yerinə.
Dönər bizim dilimizin and yerinə,
Kənd yerində korun-korun yanan ocaq.

Dövrəsində neçə oğul-qız saxlayar,
Yaddaşında babalardan söz saxlayar.
Yolçulara kül altında köz saxlayar,
Kənd yerində korun-korun yanan ocaq.

Düz otuz il işığından düşdüm uzaq,
Yurddan ayrı qəlbim şaxta, ruhum sazaq.
Məni hər gün həsrətiylə yandıracaq,
Kənd yerində korun-korun yanan ocaq.

DAĞLAR QONAQLIQ VERİR

Qonaq gəlib dağlara, sazlı-sözlü, qələmli,
Sevincindən kövrəlib baxır gözləri nəmli.
Yenə də bulaq başı tamaşalı-sənəmli,
Şair gəlib dağlara, dağlar qonaqlıq verir.

Yenə qaynar çeşmədən bir gözəl su gətirir,
Yenə çoban sürüdən qumral quzu gətirir.
Yerdən, göydən, havadan tanrı ruzu gətirir,
Şair gəlib dağlara, dağlar qonaqlıq verir.

Cığır tutub əlindən yüksəklərə qaldırır,
Qaya dirsəklən deyir, çəmən xalı saldırır.
Sellər, sular dil açıb saz havası çaldırır,
Şair gəlib dağlara, dağlar qonaqlıq verir.

Gah açılır, nur yağır, gah tutulur, çən gəlir,
Duyğumuz, düşüncəmiz zirvələrə tən gəlir.
Üzündə gül haləsi neçə gülbədən gəlir,
Şair gəlib dağlara, dağlar qonaqlıq verir.

Baxır göyün rənginə, baxır qarın ağına,
İnsan burda qovuşur ömrün zirvə çağına.
Ürəyini süfrətək açıb öz qonağına,
Şair gəlib dağlara, dağlar qonaqlıq verir.

Qaya, mamır, daş-kəsək, yağış, bulud, çən, çisək,
Nurlu gün, təmiz hava, yumşaq meh, sərin külək.
Havalanıb coşanda sinəyə sığmır ürək,
Şair gəlib dağlara, dağlar qonaqlıq verir.

OXU TƏBİƏTİN NƏĞMƏLƏRİNİ

Ətirli bahar ol, çiçəkli yaz ol,
Dillənən kaman ol, tellənən saz ol.
Təpədən-dırnağa eşq ol, avaz ol,
Çiçəklə, qönçəylə, yarpaqla danış,
Torpağı danışdır, torpaqla danış.
Oxşa çiçəklərin təzə-tərini,
Oxu təbiətin nəğmələrini!

Arxalan palıda, dirsəklən daşa,
Ver bu qayalarla yenə baş-başa,
Sel ömrü, çay ömrü, dağ ömrü yaşa.
Səs ol, hərəkət ol, sükuta sığma,
Yağış ol, leysan ol, buluda sığma,
Qəlbinə od versin suyun sərini,
Oxu təbiətin nəğmələrini!

Gülə bax, zərifləş, körpə uşaq ol,
Məxmərdən sığallı, tüldən yumşaq ol.
Suya bax, dumduru qaynar bulaq ol,
Oxu, dağ yerinə səda düşəndə,
Oxu, cavanlığın yada düşəndə.
Oxu, bir gözəlin baxışlarında,
Bir oğul ürəyi oda düşəndə.
Sev, ilham dediyin nazlı pərini,
Oxu təbiətin nəğmələrini!

TƏBİƏT ALLAHIN ŞAH ƏSƏRİDİ

Yenə təbiətlə üz-üzəyəm mən,
Döş-döşə, baş-başa, göz-gözəyəm mən.
Çıxmışam dünyanın adiliyindən,
Gözəllik adlanan möcüzəyəm mən.
Belə duymamışdım gözəllikləri,
Dünyaya gəldiyim gündən bəridi.
Bir səs dalğalandı qulaqlarımda,
Təbiət Allahın şah əsəridi.

Gəlir ildırımlar kəllə-kəlləyə,
Şimşəklər döyüşür hey kəllər kimi.
Hər zaman döyüşlər sərkərdəsidi,
Qayalar dayanıb heykəllər kimi.
Bilinmir tarixi, bilinmir yaşı,
Buluddan nəm çəkir dağların başı.
Tanrıdan gəlmədi nəqşi, nəqqaşı,
Günəş qızıldandı, şəfəq zəridi,
Günəş də dilləndi, şəfəq də dedi:
– Təbiət Allahın şah əsəridi!

Çeşməsi çağlayır min illər boyu,
Dərədə çay axır, dağda qar durur.
Qartalı zirvənin, kəkliyi daşın,
Dağ kəli qayanın yaraşığıdır.
Arısı çəmənin, quşu havanın,
Balığı dəryanın yaraşığıdır.
Nazlanır bəxtəvər gözəllər kimi,
Çiçəklər xanımdı, güllər pəridi.
Böcək də, arı da səs-səsə verdi:
– Təbiət Allahın şah əsəridi.

Vurula-vurula gördüklərinə,
İnsan şair oldu, peyğəmbər oldu,
Oğul igid oldu, kişi ər oldu.
Bulaqdan sağlığı götürə bildi,
Sudan şəffaflığı götürə bildi,
Qayadan sərtliyi götürə bildi,
Palıddan mərdliyi götürə bildi.
Qolları yollara bənzətdi dünya,
Cığırlar qollarda əzələ kimi.
Şimşəkdən öyrəndi qəzəbi insan,
Coşdu tufan kimi, zəlzələ kimi.
Dalğanı görəndə daldı xəyala,
Dəniztək qabardı, çəkildi insan.
Qara şuma baxdı, qara torpağa,
Şum kimi, yer kimi əkildi insan.
Rəssamdı dağların şəklini çəkən,
Daşlara can verən heykəltəraşdı.
Dağı görməyənin gözləri bağlı,
Daşı duymayanın ürəyi daşdı.
Təbiət eşqinə, sənət eşqinə,
Nə qədər ürəklər yandı, əridi.
İnsan əsər dedi yaratdığına,
Təbiət Allahın şah əsəridi.

Əli baltalılar ayaq saxlasın,
Yaşını kəsənlər başını kəsər.
Qurudar suyunu gen dərələrin,
Yazını, yayını, qışını kəsər.
Qışda qarı yağmaz, yazda yağışı,
Naləsi kamana, neyə çəkilər.
Bir parça yaşıllıq görmək istəsə,
Yağlı əppək olub göyə çəkilər.
Qaynar çeşmələri duru saxlamaq,
İşığı qorumaq, nuru saxlamaq,
Yer üstə ocağı, piri saxlamaq,
Torpağın ruhunu diri saxlamaq,
İnsanın ən böyük cavabdehliyi,
Bəşərin ən böyük dərdi-səridi.
Allahı qoruyar şahı qoruyan,
Təbiət Allahın şah əsəridi.

DANIŞIRAM

Öz-özümlə danışmaqdan yorulanda,
Öz içimə çəkilməkdən yorulanda,
Qələm olub, dəftər olub, varaq olub,
Torpaq kimi əkilməkdən yorulanda,
Üz tuturam müdriklərin söhbətinə,
Düşüncəli başlar ilə danışıram!

Şər qarışır, axşam düşür, sabah olur,
Şair dönür ovçu olur, səyyah olur.
Könül dostum Tanrı adlı dərgah olur,
Harda olsam, başım üstə Allah olur,
Göy üzündə quşlar ilə danışıram!

Kərəm məni danışdırır güllər ilə,
Keşiş məni boğur qara əllər ilə.
Vaxt olur ki, ötürəm bülbüllər ilə,
Vaxt olur, bayquşlarla danışıram!

Alışıram, od yenə sözümə düşür,
Dayanıram, zor yenə dözümə düşür.
Ağlayıram, güc yenə gözümə düşür,
Gözümdəki yaşlar ilə danışıram!

DAĞLAR OĞLU

Dağ çeşməsi istərəm, dodağından öpməyə,
Dağ yağışı istərəm, ürəyimə səpməyə.
Dağ zirvəsi istərəm, qanadlanıb süzməyə,
Dağ yolları istərəm, sinəsində gəzməyə.
Dağ çiçəyi istərəm, ətriylə məst olmağa,
Dağ qartalı istərəm, könlümcə dost olmağa.
Dağları səsləməkdən dilimdə dağ bitdi, dağ,
Dağsız dağlar oğluna çətin olub yaşamaq!!!

PIÇILDA, YARPAQ, PIÇILDA

Səhər düşən şehdən danış,
Axşam əsən mehdən danış.
Bu qövsü-qüzeydən danış,
Pıçılda, yarpaq, pıçılda.

Üzündə Günəşin nuru,
Rəngin yaşıl, kefin duru.
Bu yaşıl dünyanı qoru,
Pıçılda, yarpaq, pıçılda.

Budaq üstən qopanacan,
Qopub yerə hopanacan.
Qəbir yeri tapanacan,
Pıçılda, yarpaq, pıçılda.

Ötən günlər gəlməz ələ,
Düşüb dönərsən xəzələ.
Payıza çox qalıb hələ,
Pıçılda, yarpaq, pıçılda.

Baharın gül açan vaxtı,
Bu da bir kefdi, damaqdı.
Səninki pıçıldamaqdı,
Pıçılda, yarpaq, pıçılda.

BU ÇEŞMƏNİN BAŞINDA

Gözəl bir yuxu gördüm,
Yuxumu yozan ola,
Bu çeşmənin başında.

Kor gözlər işıq tapa,
Dünya yaraşıq tapa,
Şirin bir ozan ola,
Bu çeşmənin başında.

Solmaya çiçəkləri,
Uça kəpənəkləri.
Hamıya sirdaş ola,
Sevindirə təkləri.
Nə qar, nə xəzan ola,
Bu çeşmənin başında.

Qarışa sevənlərin
Sevincinə, qəminə.
Dil verə ilhamına,
Güc verə qələminə.
Yaxşı bir yazan ola,
Bu çeşmənin başında.

Qarışam bu saflığa,
Bürünəm şəffaflığa.
Qovuşam cənnətimə,
Qəbrimi qazan ola,
Bu çeşmənin başında.

TƏBİƏT – İNSAN

Ən böyük təbiəti Allah insana verdi,
Uca-uca zirvələr ucalan başımızdı.
Alın qırışlarında tale yazıları var,
Qat-qat olan qayalar çatılan qaşımızdı.

Qarşı yatan dağları mehvərindən laxladıb,
Zaman nə dağlar basıb, nə sinələr dağladıb.
Tanrı tarixlər boyu çox analar ağladıb,
Yağan yağışlar deyil, tökülən yaşımızdı.

Ovlarımız ovlanıb, quşlarımız quşlanıb,
Bağrımızın başına qanlı oxlar tuşlanıb.
Xırmanımız döyülüb, torpağımız xışlanıb,
Gördüyümüz nə varsa, canlı yaddaşımızdı.

QAYTAR ALDIQLARINI

Mən bir kənd adamıyam, sığmıram şəhərlərə,
Allahım, qaytar məni, geniş düzlərə qaytar.
Gecələr ulduz dərim göylərin yaxasından,
Dan yerinə qovuşdur, saf gündüzlərə qaytar.

Dünyaya quru gələn, dünyadan quru getdi,
Uğursuz ömürlərin əldən uğuru getdi.
Asfalt döşəmələrdə gözümün nuru getdi,
Şehdən düşən işığı sönən gözlərə qaytar.

İllər əldən çıxanda yellərdən yeyin gedir,
Çaxnaşmalar içində baş gedir, beyin gedir.
Tanrı, nə itirirsən, mayadan nəyin gedir?
İşıqlı çöhrələri solmuş üzlərə qaytar.

Düşüb ömrün axşamı, səhər gedib, dan gedib,
Qandakı təpər gedib, damardakı qan gedib.
Hər dəfə dərd gələndə canımızdan can gedib,
Qaytar gücü, qüvvəti, heysiz dizlərə qaytar.

Gör nə tez başa çatdı tamaşamız, seyrimiz,
Üstümüzü qar aldı, isinməmiş yerimiz.
Yox, deyəsən, sənlə baş tutmur alverimiz,
Qaytar aldıqlarını, qaytar bizlərə qaytar.

BİR KÖHLƏN AT MİNDİM QARABULAQDA

Qarlı Başkeçidin göy yaylaqları,
Çəkdi xəyalımı dağlara sarı.
Yarısın sevgidən hamının yarı,
Mənim də sevgim var odda-ocaqda,
Bir köhlən at mindim Qarabulaqda.

İfçin yəhərləndi sevdiyim bir at,
At üstə başqa cür görünür həyat.
Şimşəkdən kişnərti, küləkdən qanad,
Dədə kişilərin sözü dodaqda,
Bir köhlən at mindim Qarabulaqda.

Bəynişan oğullar çapdı atları,
Dəydi bir-birinə göyün qatları.
Yarışa çağırdım yelqanadları,
Nisgilim, həsrətim qaldı uzaqda,
Bir köhlən at mindim Qarabulaqda.

Mən dəli bir ovçu, dağ dəli bir ov,
Əlimi yandırdı çəkdiyim cilov.
Burnundan od çıxdı, ağzından alov,
Səyirtdim yağışda, çapdım quraqda,
Bir köhlən at mindim Qarabulaqda.

Dilimdə söz yandı, əllərimdə saz,
Cilvələndi bahar, çiçəkləndi yaz.
Oldum Dəmirçoğlu, oldum Xan Eyvaz,
Koroğlu nərəsi dindi qulaqda,
Bir köhlən at mindim Qarabulaqda.

Bu Söyünçayıdı, bu Salammələk,
Birinə həsrətəm, birinə ləlik.
Dağlar dilə gəldi: – Qal həmişəlik!
Səhərin ayazı gəzdi yanaqda,
Bir köhlən at mindim Qarabulaqda.

Qızıl üzəngili, gümüş yəhərli,
Cilovu qızıldan, naxışı zərli,
Tərlan tamaşalı, meydan təpərli,
Uçan qartallarla səsdə, soraqda,
Bir köhlən at mindim Qarabulaqda.

Üz tutun müqəddəs torpağa sarı,
Döşdə gülü öpün, zirvədə qarı.
Gəlin, Borçalının mərd oğulları,
Borçalı qalmasın gözdən iraqda,
Bir köhlən at mindim Qarabulaqda.

SARIBAŞ KƏNDİ

Bu kənd haqqında çox eşitmişdim. Axır ki, bu yeri ziyarət eləmək mənə də nəsib oldu. Rəşid Behbudovun, İsmayıl Şıxlının, Məmməd Rahimin, Hüseyn Arifin yurdumuzun bu dilbər guşəsi ilə bağlı xatirələri, görüşləri, məclisləri yenidən kitab kimi varaqlandı. Bu kəndin görkəmi, təbii mənzərəsi qədim və məğlubedilməz qalaları xatırladır. Çox şirin və mehriban camaatı var. Qocalı-cavanlı hamısı poeziya vurğunudu. Hüseyn Arifə xüsusi heyranlıqları var. Bu gün bütün Sarıbaşlıları minnətdarlıq duyğuları ilə yad edirəm.

Güldü, gülüstandı, baldı, ətirdi,
Bu gün ziyarətim olan SARIBAŞ.
Məni də qoynuna çəkdi, gətirdi,
Nur olub qəlbimə dolan SARIBAŞ.

Kitabdı tarixi öyrənən kəsə,
Bura ulu kənddi, qədim şəhərdi.
Hər kim ucalığa çıxmaq istəsə,
Cığır üzəngidi, qaya yəhərdi.

Qayalar üstündə qayaya bənzər,
Əllərdə danışıb kərpici, daşı.
Yapılan evlərə yetirsən nəzər,
Bir tarix görərsən hər addımbaşı.

Dərə qoynundakı dərinliyə bax,
Çeşmə başındakı sərinliyə bax.
Bu yerdə əbədi yurd salanların,
Dilində dil açan şirinliyə bax!

Adına nə deyim mən bu cənnətin,
Bir gözəllik yurdu, bir heyrət yeri.
Görüşmək gözəldi, ayrılmaq çətin,
Bura insanların ziyarət yeri.

Zirvəyə çevrilib bu dağ başında,
Rəşid zirvələrdə oxuyub gedib.
Ana təbiətin daş yaddaşında,
Bir sənət xalısı toxuyub gedib.

Nəfəsi dil verib hər dilsiz daşa,
Bura məndən əvvəl qağa[1] gəlibdi.
Məğrur dağ kəliylə verib baş-başa,
Dağlar nəğməkarı dağa gəlibdi.

Rəngsiz, boyasızdı elin tərifi,
Könlümü nə qədər şad elədilər.
İsmayıl Şıxlını, Hüseyn Arifi,
Sevgilər içində yad elədilər.

Bu sevgi ötərgi bir həvəs deyil,
Gücünü torpaqdan alan sevgidi.
İtən soraq deyil, batan səs deyil,
Zamandan zamana qalan sevgidi.

Kimlərin adıyla kəsdi çörəyi,
Kimlərin eşqiylə çatdısa ocaq –
Onlara bağlıdı xalqın ürəyi,
O adlar həmişə xatırlanacaq.

Mən də bu sevdanın yoluna düşdüm,
Eşqim yarı canda, yarı başdadı.
Çiçəklə öpüşdüm, güllə görüşdüm,
Gördüm bir sevgim də SARIBAŞDADI!

Dağlara bağlıdı şairin canı,
Gülü ətəkdədi, qarı başdadı.
Bağrıma basıram Azərbaycanı,
Mənim bir sevgim də SARIBAŞDADI!

[1] Hüseyn Arifə işarədir

İLİSU

Eşitmişdim, görməmişdim üzünü,
Salam olsun dərgahına, İLİSU!
Ürəyim od içində yananda
Sərinlətdi dodağı su, dili su,
Salam olsun dərgahına, İLİSU!

Cənnət bildim, könül verdim kəndinə,
Dağlarında dinə gəldim, mən dinə.
Bahar vaxtı çaylar sığmaz bəndinə,
Payız vaxtı ağıllanar dəli su,
Salam olsun dərgahına, İLİSU!

Sərt qayalar kəsə bilməz önümü,
Sənə sarı çevirmişəm yönümü.
Ömrə yazdım səndən keçən günümü,
Gözlərimin işığı su, ləli su,
Salam olsun dərgahına, İLİSU!

Dağ kəndinin işi daşdan keçərmiş,
Dağ yolunda igid başdan keçərmiş.
Dağ yolların Sarıbaşdan keçərmiş,
Sənə sarı uzanarmış əli, su,
Salam olsun dərgahına, İLİSU!

Dövrəsinə yığar oğul-uşağı,
"Səngər bulaq" "Beşbulaq"dan aşağı.
Dada çatar gözəllərin qurşağı,
Mis səhənglər incidəndə beli, su,
Salam olsun dərgahına, İLİSU!

Zəlimxan da bu gün belə köklənib,
Coşan suya, açan selə köklənib.
"Ruhani"yə, "Sarıtel"ə köklənib,
Ürəyimin damarı su, teli su,
Salam olsun dərgahına, İLİSU!

TƏBİƏTİN ÖZÜ KİMİ

Çən dağıla, dan sökülə, gün doğa,
Yağış kəsə, ara verə, əylənə.
Dəli külək qamçısını yellədə,
Qara bulud teyim-teyim teylənə.

Saz misralar ruhumuzda sazlana,
Düşüncələr baharlana, yazlana.
Tər çiçəklər gəlin kimi nazlana,
Tər cavanlar kişiləşə, bəylənə.

Saf duyğular toxum ola, cücərə,
Hər kəs gələ öz bağını becərə.
Qış içində yaz olmağı bacara,
İnsan eşqi yaşıllaşa, göylənə.

Şeh içində tanıyasan izləri,
Nəfəsinlə əridəsən buzları.
Bulaq üstə dindirəsən buzları,
Eşqi dildə dastan ola, söylənə.

Qadir Allah verdiyini gec ala,
Qızıl Günəş başımızda tac ola.
Göylər baxa, gördüyündən güc ala,
Heysiz adam qüvvət tapa, heylənə.

Gün döşənə, zirvə qarı əriyə,
Yaşıl çəmən dönə nazlı pəriyə.
Şair baxa irəliyə, geriyə,
Gözəlliyə boylandıqca boylana.

Zəlimxan da söz yolunda şam ola,
Hər kəlməsi sevgi dolu cam ola.
Təbiətin özü kimi tam ola,
Əsillənə, nəsillənə, soylana.

BAX, GÖZLƏRİM

Bax, gözlərim, doyunca bax bu yaşıllığa,
Duyğularım toxum olub cücərə bilsin.
Yerə vurğun, göyə vurğun şair ürəyi,
Öz şeirini bu güllərtək becərə bilsin.

Bax, gözlərim, doyunca bax bu yaşıllığa,
Yaşıl zolaq, yaşıl yarpaq, yaşıl budaqdı.
Zaman burda öz işində, öz axarında,
Dünya burda çək-çevirdən çox-çox uzaqdı.

Bax, gözlərim, doyunca bax bu yaşıllığa,
Yaşıl sözə, yaşıl şeirə yaşıl işıq var.
Zirvə başlı, qaya döşlü, çəmən ətəkli,
Təbiətdə haqdan gələn bir yaraşıq var.

Bax, gözlərim, doyunca bax bu yaşıllığa,
Çiçəklərin dodağında şeh görəcəksən.
Nə qədər ki, təbiətlə nəfəs alırsan,
Şairliyi söz taxtında şah görəcəksən!

BAHARIN GƏLİŞİ

Yenə təbiətin gəlhagəlidi,
Torpağın tükənməz sərvətinə bax!
Arının çiçəklə öpüşməsinə,
Bülbülün budaqla söhbətinə bax!

Açılıb dağların çatılan qaşı,
Sevincdən süzülür gözünün yaşı.
Toxum dimdiyində qaldırır daşı,
Darının dağ boyda qüvvətinə bax!

Allah vergisidir hər gül, hər çiçək,
Öpür şeh damlası, oynadır külək.
Baxırsan, qızarır qız yanağıtək,
Gülün həyasına, ismətinə bax!

İsinir qayanın, daşın nəfəsi,
Geriyə çəkilir qışın nəfəsi.
Çör-çöpə can verir qışın nəfəsi,
Leylək yuvasının hikmətinə bax!

Can verir ovçuya, qan verir ova,
Tərpənir yaz yeli, durulur hava.
Gör necə bərkiyib qurduğu yuva,
Quşun dimdiyində kəlbətinə bax!

Əlləşər, can verər xəstə nar üçün,
Zirvə qar üçündü, bağça bar üçün.
Nə qədər yol gəlib bir bahar üçün,
Qaranquş ömrünün həsrətinə bax!

Yerin sirdaşıdır, göyün həyanı,
Torpaqdan götürür gücü, mayanı.
Palıdın kökləri yarır qayanı,
Yaşamaq eşqinin qüdrətinə bax!

Yerlə pıçıldaşır, göylə danışır,
Sazla söhbət edir, neylə danışır.
Nələri dindirir, nəylə danışır,
Sən bir Zəlimxanın qismətinə bax!

ÖMRÜN UZUN OLSUN

Mənim ömrüm göz qırpımı,
Sənin ömrün uzun olsun.
Hər nemətin bir dadı var,
Sənin də öz duzun olsun.

Açsın gülün, yağsın qarın,
Fikir kövrək, misra narın.
Üz qoynunda misraların,
Haqdan gələn ruzun olsun.

Əyilmə, dərd taxta çıxsa,
Ərit, yola şaxta çıxsa.
Bircə sözün saxta çıxsa,
Tale qarın, buzun olsun.

Öz axarın, öz bayatın
Duy qəlbini bu həyatın.
Nuruna dön Kainatın,
Öz Ayın, ulduzun olsun!

BƏNDƏNİN ALLAHA DUASI ANAM

Yaman darıxırsan kənddən ötəri,
Səni yaman çəkir bu kənd yolları.
Üzür ürəyini illərdən bəri,
Ömrün bir-birinə peyvənd yolları.

Dua, gözmuncuğu, üzərlik, nəzir,
Məni hər xətərdən qoruyan anam.
Bütün ömrü boyu mənə müntəzir,
Yolumda ağactək quruyan anam.
Könlümü qüssədən, gözümü yaşdan,
Ruhumu əzabdan, başımı daşdan,
Qəlbimi kədərdən qoruyan anam.

İxtiyar çağında, kövrək günündə,
Mən necə qoruyum səni, bilmirəm,
Acizəm zamanın, vaxtın önündə.
Bir əsim küləyə çevirə bilsəm,
Qalxarmı gözlərin çəni, bilmirəm.

Bu, dərman deyil ki, alam gətirəm,
Bu, həkim deyil ki, çağıram, gələ.
Vaxtı dayandıran, anı saxlayan,
Bir oğul anadan olmayıb hələ.

Səni qocalığa çəkir ömür-gün,
Gözümün işığı, şüası anam.
Oğlunu nəzərdən qorumaq üçün,
Bəndənin Allaha duası anam.

Sevgiylə yaşadıq vaxtı, vədəni
Mən əlli, sən yetmiş yaş arasında.
Gözümdən uzağa qoymaram səni,
Ölüm var göz ilə qaş arasında.

ANAMIN GİLEYİ

Ay oğul, evə gələndə bir imkan tap, bizlə də söhbət elə. İçəri girən kimi çəkilirsən otağına. Bu qədər yazmaqdan, oxumaqdan, telefonla danışmaqdan nə tapmısan?

Sənlə az danışıb, az dinirəm, ay ana,
Sən bunu məndən ötrü günah sayma, savab say.
Öz-özümlə o qədər dərdləşib danışmışam,
Ömrümü əyləncə yox, başdan-başa əzab say.

Sinəm güllə hədəfi, könlüm dərdlər önündə,
Ömrüm çətin sınaqlar, ağır şərtlər önündə.
Hələ ki, dayanmışam bu namərdlər önündə,
Odda yanan bağrımı köz üstündə kabab say.

Ağrılar eşir məni kotan kimi, xış kimi,
Dərd dondurur buz kimi, qəm üşüdür qış kimi.
Suallar başım üstə hey yağır yağış kimi,
Hər an keçən vaxtımı bir suala cavab say.

Məni qəmli görəndə gözü dolanlar da var,
Məndən ötrü gül kimi açıb solanlar da var.
Qanımı içmək üçün hazır olanlar da var
Göz yaşımı mürəkkəb, al-qanımı şərab say.

Şeiri mən yazmıram ki, eşqin şahı yazdırır,
Sözün öz tanrısı var, öz Allahı yazdırır.
Yazılan hər kitabı eşqin ahı yazdırır,
Hər günümü bir varaq, hər ilimi kitab say.

Gecə-gündüz qovrulur ürək yağın içində,
Can möhnətin, göz yaşın, sinə dağın içində.

Elə bilmə gəzirəm kef-damağın içində,
Mənə verilən ömrü ən böyük iztirab say.

Əyləşib dincəlməyə taxtımmı var, ay ana?
Əylənməyə, söhbətə vaxtımmı var, ay ana?
Vaxt sarıdan qismətim, baxtımmı var, ay ana?
Vaxtı gəzib tapmağı ən müşkül bir hesab say.
Sənlə qoy sözlərim, şeirlərim danışsın,
Qəlbimin hər telini bir könüllü rübab say!

UMACAĞIM

Gecə keçir gecədən, gözlərimi yumuram,
Yuxu adlı dəryanın ağuşuna cumuram.
Bütün yatmışlar üçün Tanrımdan, Allahımdan,
Sakit axşam, xoş gecə, nurlu sabah umuram.

GƏLMİŞƏM

Alıb çiyinlərimə ömür adlı bir yükü,
Qışdan yaza çıxmışam, yazdan yaya gəlmişəm.
Yağış kimi hopmuşam torpağın ciyərinə,
Süzülüb çeşmələrə, axıb çaya gəlmişəm.

Şimşəklə, ildırımla döyüşüm, davam olub,
Könlümdə tufanlarım, başımda havam olub.
Qarlı zirvə, dağ döşü, mənim ilk yuvam olub,
Gülləri-çiçəkləri saya-saya gəlmişəm.

Dən-dən olub, ələnib, ələyindən keçmişəm,
Çərxində fırlanmışam, fələyindən keçmişəm.
Beşiyindən çıxmışam, bələyindən keçmişəm,
Haqqın mənə verdiyi haqqı-saya gəlmişəm.

Ağladım, gözlərimin yaşını sildi dünya,
Qədir ağacı əkdim, qədrimi bildi dünya.
Mən ki doğulmamışdım, mənim deyildi dünya,
Dünya mənim olanda mən dünyaya gəlmişəm.

MƏNİM ÖMRÜM

Mənim ömrüm bir nəğmədi, oxunur,
Mənim ömrüm bir xalıdı toxunur.
Nəğmədə də, xalıda da işıq var,
Günlərimin çoxu işıq, çoxu nur.

Mənim ömrüm birlə yüzün arası,
Bütövündən qalıb ancaq parası.
Əlli keçib, altmış hələ qabaqda,
Gətirmədim heç kəsə üz qarası!

YAŞAMAZ

Tale yetirməsə, Tanrı verməsə,
Bərəkət sünbüldə, dəndə yaşamaz.
İlahi sevgilər, təmiz nəfəslər,
Səndə qərar tutub, məndə yaşamaz.

Dalğa da, dəniz də yaşaya bilər,
Dənizdə bir iz də yaşaya bilər.
Allah bəndəsiz də yaşaya bilər,
Allahsız bircə gün bəndə yaşamaz!

SƏN DEMƏ

Yüyürürəm arxasından,
Sallanıram çuxasından,
Yapışıram yaxasından,
Zamanı saxlamaq olmur,
Vaxt axar suymuş, sən demə!

Göz açmağa aman verməz,
Addımbaşı ağrı-azar.
İki daşın arasında,
Yazdığını fələk yazar.
Baha alar, ucuz satar,
Öz başına dəysin bazar.
Aç gözünü, yum gözünü,
Bu gün beşik, sabah məzar.
Gördüm illər əldən çıxıb,
Ömür yuxuymuş, sən demə!

Ömür birlə yüz arası,
Qayğı dağla düz arası.
Ortada bir oğlan durar,
Eşq, oğlanla qız arası.
Qızılgüllər solub getdi,
Bir də çətin qızarası.
Zaman mənə yığış deyir,
Göz də vurur sözarası.
Nə yatdım, nə yuxu görəm,
Yaşamaq buymuş, sən demə!

YAXŞIDI

Oxu, bülbülüm, oxu,
Canda həvəs yaxşıdı.
Nəğmələrə can verən,
Qaynar nəfəs yaxşıdı.

Kiminin gözündə çən,
Kiminin saçında dən.
Lal olub dinməməkdən,
Yenə qəfəs yaxşıdı.

Dindiyin dilə qurban,
Vurduğun xala qurban,
Qalxdığın zilə qurban,
Endiyin pəs yaxşıdı.

Torpaq qədim, yer əzəl,
Gülər gül, ağlar xəzəl.
Məzardan beşik gözəl,
Sükutdan səs yaxşıdı!

VAXTSIZ DÖYMƏ QAPIMI

Yenə nə taqqıltıdı?
Vaxtsız döymə qapımı.
Nə axşamdı, nə sabah,
Vaxtsız döymə qapımı.

Oğul toyu, qız toyu,
Yol gəlir illər boyu.
Yaşamaqdan kim doyu?
Vaxtsız döymə qapımı.

Oğul gözümün ilki,
Ömrün sərvəti, mülkü.
Otuz yeddi deyil ki,
Vaxtsız döymə qapımı.

Polad gördüm, əyilmiş,
Dəmir gördüm, yeyilmiş.
Ay qapısı döyülmüş,
Vaxtsız döymə qapımı.

Səndə ətək, məndə əl,
Adın amansız əcəl.
Gəlirsən vaxtında gəl,
Vaxtsız döymə qapımı!

ZAMAN GƏLƏR

Yoxuşlarda bərkə-boşa düşəndə,
At igidi, igid atı tərpədər.
Haqqa çatar igidlərin nərəsi,
Yeri-göyü, yeddi qatı tərpədər.

Kim kiridər mənim kimi ağları?
Gözüm gördü keçib gedən çağları.
Zəlzələlər tərpətməyən dağları,
Zaman gələr, bir bayatı tərpədər.

RUHUM

Nə vaxt sakit olacaqsan,
Narahat, nigaran, ruhum?
Bir bucağa çəkilməklə,
Yoxmu sənin aran, ruhum?

Tərs durub yana çəkdilər,
Hər gün meydana çəkdilər.
Qansızlar qana çəkdilər,
Sağalmazmı yaran, ruhum?

Sən zirvədə görünən qar,
Sən budaqda yetişən bar.
Bir yerdə tutmadın qərar,
Gah dağsan, gah aran, ruhum.

Ulduza yaraşıq olub,
Günəşə sarmaşıq olub,
Dan yerinə işıq olub,
Qaranlığı yaran ruhum.

Keçilməz hədləri keçib,
Qorxulu sədləri keçib,
Bütün sərhədləri keçib,
Varılmaza varan ruhum.

SUÇ MƏNİM

Aldanmışam sərvətinə dünyanın,
Ömrüm-günüm yalan mənim, puç mənim.
Nahaq yerə yaxasından yapışdım,
Təqsir mənim, günah mənim, suç mənim.

Beş-altı gün yas paltarı geyərlər,
Hərdən yaxşı, hərdən yaman deyərlər.
Ehsanımı şirin-şirin yeyərlər,
Qırxa qədər yeddi mənim, üç mənim.

Qələm alsın baş daşımı yazanlar,
Bel götürsün məzarımı qazanlar.
Ay Zəlimxan, ağı desin ozanlar,
Kəfən mənim, karvan mənim, köç mənim.

SÖZ

Ürək kökü, səs qanadı, el gücü,
Zərif sözdü, kövrək sözdü, incə söz.
Bal dillərdə qaymaqlanar, ballanar,
Lal dillərdə qısılandı küncə söz.

Ovu quşun qanadından saldırar,
Hökmü ilə çay dayanar, sal durar.
Söz yıxanı Tanrı çətin qaldırar,
Şillə sözdü, yumruq sözdü, pəncə söz.

Könül ovlar, qəlb ovsunlar, dil açar,
Gülləkeçməz qayalara yol açar.
Səpiləndə pardaqlanar, gül açar,
Xam torpaqdı qoyulanda dincə söz.

İlahidən gələn nurdu, şüadı,
Tanrıların dilindəki duadı.
Şəhər-şəhər yaratmışıq bu adı,
Təbriz sözdü, Dərbənd sözdü, Gəncə söz.

Onsuz ömrün nə balı var, nə şanı,
O qaynadır qaynayanı, daşanı.
Söz Allahın yer üzündə nişanı,
Allah özü, məncə, sözdü, məncə, söz.

ÇOX ŞÜKÜR

Yerdən göyə İlahidən razıyam,
Özüm üçün yaşamadım, çox şükür.
Kimə bəxtəm, kimə qismət, yazıyam,
Özüm üçün yaşamadım, çox şükür.

Qaş-qabağım qara bulud görmədi,
Qəlbim zülmət, könlüm sükut görmədi.
Evim qıfıl, qapım kilid görmədi,
Özüm üçün yaşamadım, çox şükür.

Elim-günüm elli-günlü-nəsilli,
Səs arxalı, səs obalı, səs elli.
Bir ömürdən bircə budur təsəlli,
Özüm üçün yaşamadım, çox şükür.

Ömrü boyu şər uduzan, haqq udan,
Çox dedilər haqqı unut, haqqı dan.
Bəndəlikdən yol yeridim haqqatan,
Özüm üçün yaşamadım, çox şükür.

Ömür yolu öz məsləkim, öz andım,
El dərdini sözə tutan ozandım.
Rahat ölmək xoşbəxtliyi qazandım,
Özüm üçün yaşamadım, çox şükür.

BU YURDU, VƏTƏNİ SEVƏN HƏR KƏSİN...

Bu yurdu, torpağı sevən hər kəsin,
Baxsanız, gözündə od görərsiniz.
Soyuq sifətləri, buz baxışları
Vətən sevgisinə tay görərsiniz.

Ürəkdə sevginin toxumu varsa,
Gözdə işartısı boy verəsidir.
Torpağın yolunda can qoyanların,
Bu torpaq hayına hay verəsidir.

Ucalıq gətirən ulu sevgilər,
Süzülər, ən təmiz diləkdən gələr.
Ətdən qana keçər, süddən sümüyə,
Beşikdən süzülər, bələkdən gələr.

Bu yurdu, torpağı sevən kəsləri,
Elə Babək gördüm, Nəsimi gördüm.
Dünənə boylandım, sabaha baxdım,
Nərəmi eşitdim, səsimi gördüm.

Yara var, məlhəmi məndən istəsin,
Gedərəm yolunda qurban olmağa.
Bu yurdu, torpağı sevən hər kəsin,
Dərdi var, hazıram dərman olmağa!

BAX, BU YAŞAMAQDI, BAX, BU HƏYATDI

Mənə gəl-gəl dedi bu axşam, bu dan,
Aldım qüvvətimi torpaqdan, sudan.
Yetişdim istəkdən, bitdim arzudan,
Elə ki, bu dünya qəlbimə yatdı –
Ürəklə dilləndim, ürəklə dedim,
Bax, bu yaşamaqdı, bax, bu həyatdı!

Mehlə mayalandı, şehlə yuyuldu,
Sözümdən həyatın ətri duyuldu.
Şeirim ki güllərin ətrinə batdı –
Bax, bu yaşamaqdı, bax, bu həyatdı!

Köklər zolaq-zolaq budağa bağlı,
İnsan yurda bağlı, dağ dağa bağlı,
İgidlər həmişə yarağa bağlı,
Cığırlar kəmərdi, qayalar atdı,
Köhlən səyirdirəm belədən-belə –
Bax, bu yaşamaqdı, bax, bu həyatdı!

Elə ki, ömrümü güldürdü baxtım,
Elə ki, zirvədən dünyaya baxdım,
Elə ki, ucada quruldu taxtım,
Səsim də tanrının səsinə çatdı,
Allahdan bir özgə umacağım yox –
Bax, bu yaşamaqdı, bax, bu həyatdı!

Nə kamandan gəlir, nə neydən gəlir,
Avaz haqdan gəlir, səs göydən gəlir.
Təravət güneydən, quzeydən gəlir,

Qəlbim də, ruhum da donub elə bil,
Gözəllik önündə heyrandı, matdı.
Bir günün ləzzəti bir ömrə dəydi –
Bax, bu yaşamaqdı, bax, bu həyatdı!

Zirvələr ucadı, dərələr dərin,
Yaylaqlar havalı, çeşmələr sərin.
Yaşamaq həvəsi şirindən şirin,
Torpaq yer üzündə gör neçə rəngdi,
Bulud göy üzündə gör neçə qatdı.
Yerlərlə, göylərlə əlləşə bilsən –
Bax, bu yaşamaqdı, bax, bu həyatdı!

Seli də, çayı da, arxı da gördüm,
Ölüm də, həsrət də, qorxu da gördüm.
Ömür pilləsində qırxı da gördüm,
Bu yarı yaşımda işığa dönüb,
Nur verə bildimsə, bir çıraq qədər,
Bar verə bildimsə, bir budaq qədər,
Od verə bildimsə, bir ocaq qədər,
Desələr Zəlimxan həyat yolunda,
Hər gün addımını inamla atdı,
Düşmən də dost olub deyər ürəkdən:
– Bax, bu yaşamaqdı, bax, bu həyatdı!

DAHA

Bir dəfə verilir vergi insana,
Qədrini bilmədin, verilməz daha.
Kökünü şaxtalar vuran ağacın,
Budağı bar tutub gərilməz daha.

Bağlanan qapını bir də kim açar,
Nə qəlb işıqlanar, nə göz nur açar,
Ayağın altından daş-torpaq qaçar,
Güllər qədəminə sərilməz daha.

Açılmaz səhəri, sökülməz danı,
Baxanda adamın qaralır qanı.
Elə soldurmusan bağı, bağçanı,
Solmuş çiçəkləri dərilməz daha.

Zərif duyğuları azara qoydun,
Eşqi sata-sata bazara qoydun.
Qəbirə salladın, məzara qoydun,
Dirilməz o sevgi, dirilməz daha.

MİRVARİD XANIM

"Səməd Vurğun – 80" təşviqat qatarında, ongünlük Azərbaycan rayonlarına səfər zamanı Xalq şairi Mirvarid Dilbazini daha yaxından tanıdım, aramızda ana-bala, nənə-nəvə sevgisi yarandı.

Ömründə payızdı, könlündə bahar,
İncədən incəsən, Mirvarid xanım.
Payız bar gətirər, bahar gül açar,
Bəhərsən, qönçəsən, Mirvarid xanım!

Çiçək zərifliyi, gül kövrəkliyi,
Qəlbində, ruhunda, nəfəsindədir.
Qayada qartalı, daşda kəkliyi,
Şeirin ovsunlamaq həvəsindədir.

Mən nə Məhsətini, nə Natəvanı,
Nə də ki Heyranı görə bilmişəm.
Sənin gözlərinlə onlara baxıb,
Dünyanı, cahanı görə bilmişəm.

Duymaq istəyirdim şirin ləhcəni,
Yaxın olmamışdıq dünənə kimi.
Həmişə şairtək sevirdim səni,
İndi də sevirəm bir nənə kimi!

Yazıb yaddaşlara hər şirin səsi,
Ömrü gözəlliyə vermək yaxşıdı.
Uzaqdan-uzağa sevdiyin kəsi,
Yaxından-yaxına görmək yaxşıdı!

OXU, AŞIQ KAMANDAR

Göz açandan vurğunam,
Avazına, səsinə.
Qaynayıb-qarışmışam,
Hər zilinə, pəsinə.
Eşidəndə ürəyim,
Sığışmır qəfəsinə.
O alışan ürəklə,
O qaynayan baxışla.
Sazın, sözün ömründən,
Bizə ömür bağışla,
Bizə həyat bağışla.
Sehirli havaları,
Yüz yerindən ilmələ,
Min yerindən naxışla.
Təzə bir söz xalası,
Toxu, Aşıq Kamandar!
Bir fürsətdir ömür də,
Oxu, Aşıq Kamandar!

Sən ki qadirsən buna,
Sənətin qüdrətinə,
Qul olan şahı göstər.
"Kərəmi"ni çalanda,
Kərəmin özünü yox,
Çəkdiyi ahı göstər.
Qəbri tikan bitirən,
Keşişin boynundakı,
Ağır günahı göstər.

Döyüşlərə girəndə,
Sözdən kəskin yarağı,
Sazdan silahı göstər.

Qüdrətinlə var eylə,
Yoxu, Aşıq Kamandar!
Azərbaycan eşqinə,
Bütün cahan eşqinə,
Oxu, Aşıq Kamandar!
Dilini yanan ocaq,
Ürəyini şam eylə.
Hər sözü, hər mətləbi,
Duyan könüllər üçün
Şərbət dolu cam eylə.

Ovsunlu nəfəsinlə,
Parçalanmış bir eli
Bütöv elə, tam eylə!
Təbriz bizi gözləyir,
Şəhriyarın ruhunu
Şad eləmək xətrinə
Səsini nizam eylə,
Sözünü nizam eylə.
Hələ çox arzular var,
Qarşıdadır işlərin
Çoxu, Aşıq Kamandar!
Həsrətimdən, qəmimdən,
Oxu, Aşıq Kamandar!
Sözdən bir dəstə bağla,
Diləfruzun adına,
Gəmiçidən yol istə,
Məsimi sal yadına.
Şahsənəmin toyudu,
Çat Qəribin dadına.
Qanad ver insanların,
Qəmlisinə, şadına.
Yurdumun ustad oğlu,
Min rəhmət ustadına!
Qırx gün, qırx gecə keçsə,

Sən çalıb oxuyanda,
Getməz sevən gözlərə,
Yuxu, Aşıq Kamandar!
Bir arzumuz var sənə,
Elə yüz yaşında da
Oxu, Aşıq Kamandar!
Oxu, Aşıq Kamandar!!!

SƏNƏTKAR DOSTUMA

Çal, yazığın gəlməsin,
Nə pərdəyə, nə simə.
Qaytar məni özümə,
Qaytar məni hissimə.

Ucuz tutar ucuzlar,
Naməd yaramı duzlar.
Üşüdüb qəlbi buzlar,
Bəlkə qəlbim isinə.

Sellərə dönüm, axım,
Şimşəyə dönüm, çaxım.
Baxım, təzədən baxım,
Öz yaxşıma, pisimə.

Nəğməsiz eşqim solar,
Yaşla gözlərim dolar.
Qoca dağlar qərq olar,
Dumanıma, sisimə.

İlham düşsün payıma,
Hay ver mənim hayıma.
Hoy ver mənim hoyuma,
Səs ver mənim səsimə.

AŞIQ ƏMRAH

Çox ustadlar gördü gözüm,
Əmrah bir gəldi, bir getdi.
Telli sazın meydanında,
Əmrah şir gəldi, şir getdi.

Gah qış oldu, gah yaz oldu,
Həm ney oldu, həm saz oldu.
Təbi daşqın Araz oldu,
Əmrah gur gəldi, gur getdi.

Pərdə-pərdə, xana-xana,
Hopdu ruha, keçdi qana.
Ocaq oldu yana-yana,
Əmrah pir gəldi, pir getdi.

Başımıza gəldi nələr,
Ay Zəlimxan, qaldıq mələr.
Açıldı çox möcüzələr,
Əmrah sirr gəldi, sirr getdi.

QAYITDIM

Gördüm uşaqlığım keçən günləri,
İlk şeiri yazdığım günə qayıtdım.
Qayalar qoynuna, dağlar başına,
Saldığım haraya, ünə qayıtdım.

Qaynadım çiçəyə, qarışdım gülə,
Döndüm çəmənində məxmərə, tülə.
Torpağın qoynunda sarı sünbülə,
Sünbülün ovcunda dənə qayıtdım.

Alışdım, görmədi yadlar tüstümü,
Könül incidimi, xəyal küsdümü?
Gördüm qəm buludu alır üstümü,
Qarışdım dumana, çənə qayıtdım.

Dağıldı başımdan hisim, dumanım,
Min il yaşamağa gəldi gümanım.
Obalar dinimdi, ellər imanım,
Qayıtdım, imana-dinə qayıtdım.

Ayrılıq çox yerdə boynumu burdu,
Körpəlik beşiyim cənnətdi, nurdu.
Ey ana nəfəsi, ey ata yurdu,
Axır ki, axırda sənə qayıtdım!

GETDİLƏR

Babalar var idi, aqil babalar,
Haqqın dərgahına enib getdilər.
Ayağa düşmədi elin namusu,
Yenilməz ordular yenib getdilər.

Arxa yarandılar elə, obaya,
Çapdılar atları belədən-belə.
Bir əlçim buluda, bir əsim yelə,
Bir çaxım şimşəyə dönüb getdilər.

Qurd kimi gödənlər yırtan görəndə,
Dünyanı dağıdan, dartan görəndə,
Namərdin sayını artan görəndə,
Sozalıb getdilər, sönüb getdilər.

Halal süd əmdilər, halal dodaqdan,
Halal qız aldılar, halal ocaqdan,
Düzgün ayırdılar haqqı, nahaqdan,
Haqqın sədasıyla dinib getdilər.

Nəfsi aldatmadı nə gümüş, nə zər,
Gözdən yayınmadı nə xeyir, nə şər.
Kişilər varıydı, yaxşı kişilər,
Yaxşı köhlənləri minib getdilər.

GÖYLƏRƏ BAX, GÖYLƏRƏ

Bax, gözlərim, doyunca,
Göylərə bax, göylərə!
Boylan ömrün boyunca,
Göylərə bax, göylərə!

Günəşdən qızıl tacı,
Buluddan qara saçı,
Göysüz yaşamaq acı,
Göylərə bax, göylərə!

Gecə doğar Ayımız,
Gələr işıq payımız.
Ən uca sarayımız,
Göylərə bax, göylərə!

Göydə ulduz topası,
Nuru qəlbə hopası.
Nur heykəli yapası,
Göylərə bax, göylərə!

Özünü öyən deyil,
Döşünə döyən deyil,
Daş atsan, dəyən deyil,
Göylərə bax, göylərə!

Ucalanın baxtı var,
Ucalmağın vaxtı var.
Ucalıqdan taxtı var,
Göylərə bax, göylərə!

Ululardan uludu,
Qəlbi sirlə doludu.
Bu yol tanrı yoludu,
Göylərə bax, göylərə!

ZƏLİMXAN YAQUBUN ÇOXDU CƏZASI

Borçalıda olan dostum
Səttar müəllimin dilindən

Borçalı sazından yaradıb onu,
Ellər avazından yaradıb onu.
Çiçəklər çevrilib naxışlarına,
Çeşmələr nur verib baxışlarına.
"Cəngi"lər səslənib qulaqlarında,
"Misri"lər od olub dodaqlarında.
Zirvəylə danışıb qartal dilində,
Meşəylə danışıb maral dilində.
Görünüb ellərin yığnaq yerində,
Köz olub, alışıb ocaq yerində.
Yurda dinim deyib, imanım deyib,
Torpağa ümidim, gümanım deyib.
Hər gün bizim olub, bizlərnən olub,
Hər gün bu dağlarnan, düzlərnən olub.
Xeyli var gəlişi yaman seyrəlib,
Unudub şadlığı, unudub yası.
Gəlib günahını yuya bilməsə,
Zəlimxan Yaqubun çoxdu cəzası!
Burda heyran oldu Aya, ulduza,
Burda könül verdi gözəl bir qıza.
Burda vurğun oldu dağa, arana,
Gah bürküyə düşdü, gah da borana.
Quş kimi dağların çiyninə qondu,
İstidə isindi, şaxtada dondu.
Burda nəğmələrin dilinə döndü,
Burda pərdələrin telinə döndü.

Burda qanad verdi xəyallarına,
Məclisin şirini, söhbətin xası,
Bir də o məclislər təzələnməsə,
Zəlimxan Yaqubun çoxdu cəzası!

Gəlir səs-sədası qulağımıza,
Səsi neyləyirik, özü görünsün.
Öz ata yurdunda bir bina qursun,
Bir ocaq qalasın, közü görünsün.
Həmişə əsəndə ağ yellər əsmir,
Hərdən qara yelin əsməyi də var.
Soyuq baxışların cəllada dönüb
Qapının ağzını kəsməyi də var.
Bax onda görünsün gözlərimizə,
Girsin qapımızdan şad xəbər kimi.
Açaq sinəsini biz varaq-varaq,
Oxuyaq ən yaxşı bir əsər kimi.
Gəlsin Borçalının haqq şairləri,
Deyişmə meydanı qurulsun yenə.
Ataq çiynimizdən dünya qəmini,
Ruhlar çeşmə kimi durulsun yenə.
Açılar eynimiz dost məclisində,
Gəlsə qulaqların tökülər pası.
Gəlməsə, görməsə küssün özündən,
Zəlimxan Yaqubun çoxdu cəzası!

QOCA

Bir qocaya baxıram,
Alnında saysız qırış.
Yaman verib hökmünü,
Qar üstə yağan qar,
Qış dalınca gələn qış.
Bir qocaya baxıram,
İllər gedib əlindən,
Zaman su kimi axmış.
Sanki bütün şimşəklər,
Onun başında çaxmış!
Bir qocaya baxıram,
Bir sümükdü, bir dəri.
Yenə yaşamaq üçün,
Sanki imdad istəyir,
Ömrün gələn günündən,
Ömrün keçən günləri!

ULU DÜNYA

Saz üstə köklədin məni,
Ozan oldum, ulu dünya!
Söz üstə köklədin məni,
Yazan oldum, ulu dünya!

Çəkinmədim buzdan, qardan,
Keçirdim eşqimi dardan.
Damcı-damcı qayalardan,
Sızan oldum, ulu dünya!

Yaxşını əzdi zamana,
Verildi meydan yamana.
Şər dönəndə çən-dumana,
Azan oldum, ulu dünya!

Çox oldu yeyən, döşürən,
Yandım, olmadı düşürən.
Dərd qovuran, qəm bişirən,
Qazan oldum, ulu dünya!

Susdu qəlbin ötən simi,
İllər taladı səbrimi.
Öz əlimlə öz qəbrimi,
Qazan oldum, ulu dünya!

Çən salladı qaş-qabağı,
Kəsdi qaya, daş qabağı.
Gəlib çatdı qış qabağı,
Xəzan oldum, ulu dünya!

XƏSTƏXANADA YATAN BACININ QARDAŞA GİLEY MƏKTUBU

Sənə məktub yazıram, gözümün nuru qardaş,
Mənim ata yurdumun ocağı, qoru qardaş.
Sən iman yerimizsən, son güman yerimizsən,
Odu sönməyə qoyma, ocağı qoru, qardaş!
Sənə məktub yazıram dörd divar arasından,
Hər kəlməyə qan sızır qəlbimin yarasından.
Hər cümlənin nöqtəsi ürəyimin qanıdı,
Əl üzüb bu həyatdan ayrılmaq nişanıdı.
Dərdi mürəkkəblə yox, göz yaşımla yazıram.
Gözümdəki bu yaşlar,
Qəlbimdəki tələşlər,
Ruhunu tərpətməsə,
Məktubu lap qanla da yazmaq üçün hazıram!
Bəlkə qanı görəndə qanın bir az çalxana,
Mənim xəstə halıma,
Bir az ruhun tərpənə, bir az ürəyin yana!
Nə əcəldən qorxuram, nə dərmandan, iynədən,
Sənin soyuqluğundu məni belə göynədən!
Tikan batsa əlinə,
Elə billəm ox olub sancılır ürəyimə.
Daş dəysə ayağına,
Elə billəm dağ uçub, daş düşüb kürəyimə.
Başın ağrıyan zaman,
Mənə gəlsin demişəm,
Səndə olan ağrılar, səndə olan acılar.
Qardaş ağrıyan zaman,
Dərdini yana-yana belə deyib bacılar:

Əzizinəm, ay qardaş,
Qaş-kirpiyi yay qardaş.

Ölsə, bacılar ölsün,
Heç deməsin vay, qardaş.

Yanımda xəstələr var,
Yanına qardaş gəlir, yanına bacı gəlir,
Evinin yaraşığı, başının tacı gəlir.
Bəs sən harda qalmısan, görünmürsən bir aydı?
Qardaş adı dilimi yandıran bir haraydı!
Ağsaqqaldan ar edib, böyükdən utanardın,
Qohumunu, dostunu,
Vaxtında xatırlayıb, vədəsində anardın.
Niyə kəsdin aranı, qəlbini buz eylədin!
O bahalı başını niyə ucuz eylədin?
Axı, səni duz kimi yalamaq istəyirəm,
Qollarımı boynuna dolamaq istəyirəm.
Qapı açılan zaman qəlbim qopur yerindən,
Görürəm sən deyilsən, köks ötürrəm dərindən.
Bəlkə gəlmək çətindi, yollarını qar basıb?
Bəlkə dəniz qabarıb, yeri dalğalar basıb?
Çöküb qatı qaranlıq, hər yanı kəsib duman?
Bəlkə körpülər uçub, keçməyə yoxdur güman?
Yersizdi bu suallar – nə qar var, nə boran var,
Hər şey öz qaydasında – yenə dağ var, aran var.
Dünya dolu sevgidi, dünya dolu məhəbbət,
Təkcə mənəm yataqda qardaş üzünə həsrət!
Yandırram yeri, göyü, yandırram bu həyatı,
Sənə təsir etməsə söylədiyim bayatı:

Əzizinəm, qar daşı,
Qarlı dağdan qar daşı.
Xəstə könlü nar istər,
Mənim könlüm qardaşı.

Kəsdirsə də üstümü, dərdə aman vermərəm,
Özün gəlib çıxmasan, ölümə can vermərəm!

Əgər gəlib çıxmasan son nəfəsdə, son anda,
Elə nalə çəkərəm,
Heç onu bilməz nə Məcnun, nə də Kərəm!
Bu naləni eşidib sən gəlməsən üstümə,
Bələnər uca göylər dumanıma, tüstümə!
Harda köçüm əyləşər, harda qəbrim qazılar,
Sənə dağ çəkmək üçün,
Bu dediyim kəlmələr,
Mənim vəsiyyətimtək başdaşıma yazılar:

Bir at mindim, başı yox,
Bir çay keçdim, daşı yox.
Burda bir bacı yatır,
Qohumu, qardaşı yox!

FİKİRLƏR İÇİNDƏ

Könül, alış, şam kimi yan,
Əri – fikirlər içində.
Dərk eylə bu sonsuz göyü,
Yeri, fikirlər içində.

Gecələri gündüzə qat,
Düşün, daşın, yaşa, yarat.
Addımını fikirlə at,
Yeri, fikirlər içində.

Fikir həyatın gülüdü,
Çiçəyidi, sünbülüdü.
Fikirsiz ancaq ölüdü –
Diri – fikirlər içində.

Sözün düzdü, özün haqsan,
Görəcəksən, yaxşı baxsan.
Duya-duya tapacaqsan,
Şeiri fikirlər içində!

VARIYMIŞ

Qonaq oldum Tovuz adlı mahala,
Hər sinədə min bayatı varıymış.
İndi bildim, bu torpaqda ellərin
Nə dövranı, nə həyatı varıymış.

Ağır ellər ustadıyla öyündü,
Könlü sazın havasıyla döyündü.
Şeirin tacı Bozalqanlı Söyündü,
Şairlikdə əsli-zatı varıymış.

Aşıqları oxuyanda Nəcəfdən,
Seçilmədi sözü dürdən, sədəfdən.
Bir kəlməsi yayınmadı hədəfdən,
Hər sözünün yeddi qatı varıymış.

Yaz eləyib ilin qarlı fəslini,
Sənətiylə çox ucaldıb nəslini.
Aşıq Mirzə yandıranda Əslini,
Od-alovun çataçatı varıymış.

"Yurd yeri"ylə dolan yurdu, yuvanı,
Dinlə burda meylin çəkən havanı.
Özüm gördüm yüz yaşında cavanı,
Xislətində polad qarı varıymış.

Ay Zəlimxan, qanadlansın şöhrətin,
Qoy çox olsun bu torpağa hörmətin.
Bil ki, burda şeirin, sözün, söhbətin,
Mirzə kimi bir Xəyyatı varıymış!

DİLİM

Füzuli zirvəli, Vaqif arxalı,
Mənim Qorqud dilim, Ələsgər dilim.
Ömrümün naxışı, bəxtimin xalı,
Dadda, şirinlikdə bal, şəkər dilim!

Gözümün nurusan, başımın tacı,
Sən yollar süpürən ətək olmadın.
Heç zaman çəkmədin söz ehtiyacı,
Heç zaman dinəndə pəltək olmadın.

Dərdli anaların bağrından qopan,
Neçə yol dağlanıb, əzilən dilim.
Ruhuma işləyən, qanıma hopan,
Sazın pərdəsindən süzülən dilim.

Düşmən döndərəndə toyları yasa,
Durub boylanmağın yeri vardımı?
Sənin qüdrətinə arxalanmasa,
Xətai qılıncdan yapışardımı?!

Bayatı beşiyi, layla yuvası,
Mənim tarlı dilim, kamanlı dilim.
Kiməsə həmişə bahar havası,
Kiməsə həmişə dumanlı dilim.

"Ənəlhəq" bayraqlı, "heyrət" nidalı,
Misri qılıncımtək kəsərli dilim!
Nərəli, ləhcəli, səsli, sədalı,
Şeirli, nəğməli, əsərli dilim!

Buluddan sıyrılıb, Günəşdən çıxıb,
Göylərin taxtından enib gəlmisən!
Ölməz dahilərin əlini sıxıb,
Tanrı qüdrətinə dönüb gəlmisən!

Hər gün çiçək açıb, bar-bəhər verib,
Dilimdən güc alıb elimin kökü.
Elimə, günümə gör nələr verib,
Sözümün şirəsi, dilimin kökü.

Dünyanın qəlbinə yatan dilimin,
Özülü bir ölməz ruhdadı, bəlkə?
Budağı bu günə çatan dilimin,
Kökü Adəmdədi, Nuhdadı, bəlkə?

Füzuli zirvəli, Vaqif arxalı,
Mənim Qorqud dilim, Ələsgər dilim.
Ömrümün naxışı, bəxtimin xalı,
Dadda, şirinlikdə bal-şəkər dilim!

ANALAR

Bizmi dönük çıxdıq, onlarmı küsdü,
Bizi öz başına yığmır analar.
Hərəsi bir dərdin dağına dönüb,
Öz sinə dağına sığmır analar.

Düşmən arxasızı, yalqızı təklər,
Didər ürəkləri şübhələr, şəklər.
Yeni Koroğlular, yeni Babəklər,
Yeni Üzeyirlər doğmur analar.

Ölən kişilikdi, yoxsa kişilər,
Haqqın qarşısında meydan açıb şər.
Qəhrəman oğullar yoxdusa, əgər,
Niyə atəş olub yanmır analar.

2002, 12 yanvar

NƏ ÇOXDU

İnsan bir-birini qırdı, tükətdi,
Xəyanət nə çoxdu, xiffət nə çoxdu.
Gözlə ki, gələcək gözəl günlərin,
Hicran nə uzundu, həsrət nə çoxdu.

Vətəndə sayı yox vətənsizlərin,
Qərib nə miskindi, qürbət nə çoxdu.
"Can-can" deyənlərin seyrəlir sayı,
"Qan-qan" deyənlərdə nifrət nə çoxdu.

2000, 5 dekabr

SON GÜNƏ DAVA SAXLARAM

Can çürüdü nəm əlindən,
Könül yandı qəm əlindən.
Ömrüm də tezbazar oldu,
Neçə bəxti kəm əlindən.
Məcnun kimi dərd gəzdirib,
Başımda yuva saxlaram.

Od-alovu ahdan olub,
Dərddən libas geyənlərə.
Bir loxma çörək yerinə
Öz içini yeyənlərə.
İçərimdə ömrüm boyu
Qəmli bir hava saxlaram.

Toy günüm var, yas günüm var,
Nəhs günüm var, xas günüm var.
Düşməndən heyif almağa,
Qisasa qisas günüm var.
Ömrümə bir gün qalsa da,
Qisasımı almaq üçün
Son günə dava saxlaram.

2000, 15 fevral

SƏN ALLAH, DİLİNƏ QEYBƏT GƏTİRMƏ

Ulduzdan danışaq, Aydan danışaq,
Çeşmədən, dənizdən, çaydan danışaq,
Sevgidən, sevincdən, toydan danışaq.
Palıd qətiyyətli oğullar görüb,
Çinartək ucalan boydan danışaq,
Sən Allah, dilinə qeybət gətirmə!

İşığam, sən məni zülmətə çəkmə,
Aşkaram, sən məni xəlvətə çəkmə.
Ayna ürəyimi, duru könlümü
Kinə, küdurətə, nifrətə çəkmə,
Sən Allah, dilinə qeybət gətirmə!

Əlvan çiçəklərin baxışına bax,
Çəməndə güllərin naxışına bax.
Günəşin tərtəmiz şəfəqlərinə,
Buludun dumduru yağışına bax.
Yağışdan təmizlən, Günəşdən durul
Sən Allah, dilinə qeybət gətirmə!

Məğrur sarayları yıxdı, dağıtdı,
Yurdun axırına çıxdı, dağıtdı.
Qeybət ürəkləri sıxdı, dağıtdı
Sən Allah, dilinə qeybət gətirmə!

Hər könül mülkündən bir sərvət gətir,
Ruzu, qismət gətir, hərəkət gətir.
Yerdən genişlik al, göydən ucalıq,
Dinəndə, dilinə təravət gətir,
Amandı, dilinə qeybət gətirmə.

2001, 21 mart

NEYLƏRƏM?

Dərdimin göyü var göylərdən geniş,
Qalsın öz yerində, göyü, neylərəm?
Yanımda od dilli sızıltılar var,
Kamanı neylərəm, neyi neylərəm?

Qovrula-qovrula istilənmişəm,
Alışa-alışa tüstülənmişəm.
Dərd yükü altında yastılanmışam,
Günbəgün qısalan boyu neylərəm?

Tale qılıncını çaldıqca çaldı,
Verdiyi nə varsa, əlimdən aldı.
Yasımı toyumdan qabağa saldı,
Yasımdan sonrakı toyu neylərəm?

2000, 10 mart

BÖLGÜ ALLAHINDI

Ağlaya-ağlaya güldük dünyaya,
Gördük göz dağından göz yaşınacan.
Bölgü Allahındı, bəndəlik nə var?
Hər kəs ömür sürər öz yaşınacan.

Hər addım başında qorxu ilişər,
Baxtına taleyin çarxı ilişər.
Otuzdan keçsə də, qırxı ilişər
Kimdi gedib çıxan yüz yaşınacan.

Ayrılıq kəmfürsət, Əzrayıl yağı,
Matəm say qaranı, bayram say ağı.
Yaşa öz ömrünü bayramsayağı
Kəfən yaşınacan, bez yaşınacan.

2000, 9 mart

SÖYKƏN,
TORPAĞA SÖYKƏN

Söykənmək istəyirəm!
Ağacamı söykənim,
yamacamı, daşamı?
İllərəmi söykənim,
taleyəmi, yaşamı?
Söykənmək istəyirəm!
Arzuyamı söykənim,
ümidəmi, eşqəmi?
Kim əridər, görəsən,
içimdə gəzdirdiyim
Daş sükutu, daş qəmi?
Söykənmək istəyirəm!
Qardaşamı söykənim,
bacıyamı, yaramı?
Kim məlhəm qoya bilər,
kim sağaldar yaramı?
Söykənmək istəyirəm!
Günəşəmi söykənim,
ulduzamı, Ayamı?
Dənizəmi güvənim,
dalğayamı, çayamı?
Günəş məni anlayar,
ulduz məni duyarmı?
İçimdəki dərdləri,
bostanıma, bağıma
Daş atan namərdləri
bu dənizlər, bu çaylar
Təmizlərmi, yuyarmı?
Söykənmək istəyirəm!

Dəftərəmi söykənim,
qələməmi, şeirəmi?
Bilmirəm bu söykəniş
ziyanamı, xeyrəmi?
Göydən axdı, bilmirəm,
yerdən çıxdı, bilmirəm,
Səs gəldi qulağıma,
ölümün əlindədi
hər bir dərdin dərmanı,
Ölümün əlindədi
insanın son fərmanı.
Söykən qara tabuta,
beş arşın ağa söykən!
Nə dağa düş, nə daşa,
Söykən, torpağa söykən!

ZÜLÜM

Dərd gəlməsinmi eynimə,
Qan sızmasınmı beynimə?
Paltar kimi yad əyninə
Geyilməkdən zülüm nə var?

Yazın döysə, qışın döysə,
Gözdən axan yaşın döysə,
Səni öz qardaşın döysə,
Döyülməkdən zülüm nə var?

İşıq saça qəlbin nuru,
Göz tox ola, könül duru.
Acqarına quru-quru
Bəy olmaqdan zülüm nə var?

Çağırdıq, çatmadın dada,
Ömrüm-günüm getdi bada.
Xeyrə-şərə, dosta-yada
Key olmaqdan zülüm nə var?

Qovrularsan od ağzında,
Qalmaz ləzzət, dad ağzında.
Tikə olub yad ağzında
Yeyilməkdən zülüm nə var?

2000, 29 fevral

GƏZ Kİ,
GƏZƏSƏN

İtən gəncliyini gəz ki, gəzəsən,
Tapılmaz, qardaşım, vallah, tapılmaz.

O elə həsrətdi, sal qaya kimi,
Çapılmaz, qardaşım, vallah, çapılmaz.

Ürək bir dağılmış saraya bənzər,
Yapılmaz, qardaşım, vallah, yapılmaz.

Ölümün gözündən sapmaq istəsən,
Sapılmaz, qardaşım, vallah, sapılmaz.

2000, 3 oktyabr

MİZRAB ÇƏKDİM ÜRƏYİMƏ

Mizrab çəkdim ürəyimə,
Saz yerinə, tar yerinə.
Səsim düşdü yaradanın
Qulağının kar yerinə.

Bu ürəyin yükü ağır,
Yüksüz ürək yazıq, fağır.
Ürəyimə qəmlər yağır
Qış fəslində qar yerinə.

Bu dərd hardan, bu dağ hardan,
Dərd şirəli bu dağ hardan?
Ömrüm boyu budaqlardan
Dərd dərmişəm bar yerinə.

2000, 30 mart

ZURNAÇI,
YORMA ÖZÜNÜ

O ki Allah isitmədi,
İsitməz bir yuva məni.
Sevinc qaçır, mən qaçıram,
Salıb qovhaqova məni.

Keçir sağıma, soluma,
Zəncir bağlayır qoluma.
Daş töküb hamar yoluma,
Qana çəkir dava məni.

Mən sərgərdan, baxt avara,
İnanmaram baxta, vara.
Palçıq kimi yax divara,
Daşlar üstə suva məni.

Müsibət deyib sözünü,
Yumub bəxtimin gözünü.
Zurnaçı, yorma özünü
Oynatmaz bu hava məni.

2000, 5 mart

VAY O GÜNDƏN

Vay o gündən, keyləşəsən,
Ocaq səni qızdırmaya,
Şaxta səni üşütməyə.
Göy üzündə şimşək çaxa,
Qulaqların eşitməyə.

Vay o gündən, keyləşəsən,
Bir gözəllik görən zaman
Ruhun nura qərq olmaya.
Hey baxasan, səndən ötrü
Gülnən külə fərq olmaya.

Vay o gündən, keyləşəsən,
Səni görən şükür deyə
Öküzünə, yabısına.
Günah, savab bilməyəsən,
Gedəsən bir günahkartək
Yaradanın qapısına.

Vay o gündən, keyləşəsən,
Ağlamağın dəmi gələ,
Gözlərindən yaş gəlməyə.
Bu keyliyin nə bəndəyə,
Nə Allaha xoş gəlməyə.

2001, 16 dekabr

SƏN NİYƏ QALDIRDIN YUXUDAN MƏNİ?

Sən niyə qaldırdın yuxudan məni,
Rahatca göylərdə uçub gedirdim.
Qara buludları, ağ ulduzları
Mərtəbə-mərtəbə qucub gedirdim.

Ucalıq eşqinin başqa sehri var,
Orda dərd yox imiş, ələm yox imiş.
Yuxuda gördüm ki, qəmsiz, qayğısız,
Uçmaqdan müqəddəs aləm yox imiş.

Arzular qanadı, ümidlər göyü,
Salar bu dünyaya nəzər, qayıdar.
Merac gecəsi var şair ömrünün,
Dünyanı başabaş gəzər, qayıdar.

Səs-səs, nəfəs-nəfəs ömrü boyunca,
Kövrək duyğulara hoparmış insan.
Yüzillik həyatda görmədiyini
Bir anlıq yuxuda taparmış insan.

2000, 10 aprel

ÖZÜNÜ PİS ELƏ MƏNİM YANIMDA

Özünü pis elə mənim yanımda,
Gözümün içinə həqiqəti de.
Bir damla xəbislik varsa qanımda,
Sən ona dünyanın xəyanəti de.

Tərifi söyləmək asandan asan,
Tənqidi söyləmək çətindən çətin.
Gərək həqiqətə yiyə durasan,
Saflıqdan su içə arzun, niyyətin.

Örtülü bazarda təhlükələr var,
Gizləmə bir damla nöqsanımı da.
Yalanla ömrümü uzatmasınlar,
Doğruyla alsınlar lap canımı da.

Doğruluq insanın başının tacı,
Eybimi üzə de, susma lal kimi.
Həqiqət olsa da acıdan acı,
Yeməyə hazıram onu bal kimi.

Görsən tərs işimi, tərs yerişimi,
Saxlama əlini tərs şapalaqdan,
Durum cəzalanmış bir uşaq kimi,
Qoy, bir dərs götürüm, dərs, şapalaqdan.

Sehrli güzgüm ol, sənə baxanda,
İçim də görünsün, çölüm də, qardaş.
Görüm ölmək nədir, yaşamaq nədir,
Nə var bu həyatda, ölümdə, qardaş.

Durulsun ürəyin, damarın qanı,
Varsa günahlarım, dərk elə bilim.
Yeraltı dünyaya səfər zamanı,
Həyatı günahsız tərk elə bilim.

Beşikdən məzara, bayramdan yasa,
Günah aparmayım, savab aparım.
Suallar-sorğular harda başlasa,
Ora sağ əməlli cavab aparım.

Gərəksiz olmasın bircə anım da,
Niyyətim nə tərif, nə xoş qılıqda.
Özünü pis elə mənim yanımda,
Bu, mənə ən böyük bir yaxşılıqdı.

2000, 1 fevral

QANUN

Qanun qəbul edirik,
Qanunsuzluq içində biz boğula-boğula.
Müqəddəs qanunların kitabını yazmağa,
Gərək bu millət üçün,
Ər kişilər yetişə, mərd oğullar doğula.

2000, 21 aprel

KAR EŞİDƏN GÜNÜ

Qəlbimdən qan damır, gur ocaqların
Yerində kül görüb, qor görən günü.
Varlıq gözlərimdə heçliyə dönür,
Gözlərim dünyanı tor görən günü.

Mələk ömrü yaşa, nə əzil, nə əz,
Baş vur bu dünyaya, hey gəzdikcə gəz.
Yaşamaq bir qara qəpiyə dəyməz,
İnsan ayaq üstə gor görən günü.

Məhəbbət işığım, sevgi şamımdı,
Dağ arxam, el gücüm, haqq ilhamımdı.
Mənim ən müqəddəs toy-bayramımdı,
Kar eşidən günü, kor görən günü.

2000, 2 fevral

DÜNYAM

Yalançı bir nağılsanmış,
Nağıl, ay dünyam, ay dünyam.
Hər kim səndən ağıl umur,
Yoxmuş onda zərrə qədər
Ağıl, ay dünyam, ay dünyam.

Kimlər vurdu aramızı,
Kimlər pozdu sıramızı?
Yağ verib yağlayan yoxdu,
Bağ verib bağlayan yoxdu,
Qan aparır yaramızı,
Dil deyib ağlayan yoxdu.
Nə ölüb, nə öləsidi
Çuğul, ay dünyam, ay dünyam.

Fəryad ilə ötdü neyim,
Dizlərimdən getdi heyim.
Dilim gəlmir, necə deyim,
Dağıl, ay dünyam, ay dünyam?

Yol aç, ərkim, nazım üçün,
Gül aç, fəslim, yazım üçün.
Könlümə bir hava düşüb,
Üç tel bağla sazım üçün.
Gəl, təzədən bizdən ötrü
Doğul, ay dünyam, ay dünyam.

2000, 14 fevral

QAYĞILAR

Ömrüm boyu əl çəkmədi yaxamdan,
Məni sıxan, məni əzən qayğılar.
Həm qocaldı, həm də məni qocaltdı,
Mən dözdüyüm, mənə dözən qayğılar.

Kar elədi, pambıq oldu qulaqda,
Lal elədi, qıfıl oldu dodaqda,
Şil elədi, qandal oldu ayaqda,
Baş ağrıdan, ömür üzən qayğılar.

Üzə yaşı, gözə nəmi tanıtdı,
Cana dərdi, qəlbə qəmi tanıtdı,
Diri-diri cəhənnəmi tanıtdı
Qəbrə qədər mənlə gəzən qayğılar.

2002, 19 iyul

GÖZÜMÜN ÖNÜNDƏ ADAM ÖLÜRDÜ

Ölümlə, əcəllə əlbəyaxaydı,
Gözümün önündə adam ölürdü.
Ata ölümünü görmüşdü gözüm,
Elə bil təzədən atam ölürdü.

Ağlaya bilmirdi, boşala qəlbi,
Solmuş gözlərində yaş qurumuşdu.
Çubuq barmaqları... taxta əlləri...
Çiyinlər üstündə baş qurumuşdu,
Gözümün önündə adam ölürdü.

Ah çəkir, uf deyir, nəfəs dərirdi,
Qəlbinin ahından kömək umurdu.
Yerdə bəndələrdən üzülür əli,
Göydə Allahından kömək umurdu,
Gözümün önündə adam ölürdü.

Solmuş baxışından, soyuq üzündən
Yerə də, göyə də qəm çilənirdi.
Əzrayıl əlində bir insan ömrü,
Bir insan taleyi qamçılanırdı,
Gözümün önündə adam ölürdü.

Allah uzaqdaydı, bəndə yaxında,
Bir ömrün min cürə mənzərəsi var.
Sonuncu mənzərə bu imiş demək,
Gözümün önündə adam ölürdü.

Qardaşım, ölümə həyatdır demə,
Desən də bu fikir boş təsəllidir.

Son mənzil, son səfər gəldi yetişdi,
Bu hökmün hamıya gücü bəllidi,
Gözümün önündə adam ölürdü.

Nə qızıl, nə gümüş, nə sərvət, nə var,
Nə polad, nə də ki dəmir aparır.
Torpağın ömrünə calamaq üçün
Hər gedən bir parça ömür aparır.
Mənim də gözümü qırırdı ölüm,
İçimdə səs batır, sədam ölürdü.

Qardaş itkisiydi, dost yarasıydı,
Gözümün önündə adam ölürdü.
Ata ölümünü görmüşdü gözüm,
Elə bil təzədən atam ölürdü.

2002, 8 iyul

BƏXTİMİ TANIMAQ İSTƏYİRƏM MƏN

Bədbəxtin ağısı

Bəxtimi tanımaq istəyirəm mən,
Falçı danışdırın, fal açın mənə.
Yollarım yoxuşa dirənib qalıb,
Yaradan özü bir yol açsın mənə.

Yandırmaq istədim, yanmadı bu şam,
İşıq gözləmişəm hey səhər-axşam.
Min dəfə Allaha ağız açmışam,
Tanrı qismətimi bol açsın mənə.

Mən kiməm, kimim var, kim qulaq asa,
Əridim, süzüldüm, qarışdım yasa.
Bəxtimin qolları qucaqlamasa,
Qəbrimin torpağı qol açsın mənə.

2002, 7 iyul

BƏDBƏXTLİK

Nədi bu hay-həşir, nədi bu qarğaşa,
Dilini kim öyrədib söyüşə,
Dodağını kim öyrədib qarğışa,
Ağzını kim öyrədib aha,
Səni kim batırıb
bu boyda günaha?

Sənin gözlərində
Çiçəklər hamısı qanqaldı,
Güllər hamısı tikan.
Hamı cəhənnəmlikdi,
Yoxdu bir cənnətməkan.
Sənin gözlərində
İnsanlar hamısı ayıdı,
Qayalar hamısı kaha,
Səni kim batırıb
bu boyda günaha?

Təzə heç nə yoxdumu,
Dünyanın lap axırıdımı,
Qızılı, gümüşü yoxdumu torpağın,
Qalan elə qazanın paxırıdımı?
Hər şey ucuzlaşdımı,
Qalmadımı dünyada nəsə
Çəkidən ağır, qiymətdən baha,
Səni kim batırıb
bu boyda günaha?

Ağa qara dediyin yetər,
Bütövə para dediyin yetər,

Sağlama yara dediyin yetər,
Bulaşma ləkəyə, bulaşma çirkaba,
Tüpürmə yediyin qaba.
Nifrətə, xəbisliyə,
Yamanlığa, pisliyə,
Bəsdir, nöqtə qoy daha.
Bir də soruşan olmasın
Səni kim batırıb
bu boyda günaha?

MƏĞLUBİYYƏT

Paslanmış bir qılıncam,
Çəkilmişəm qınıma.
Ordu yoxdu, qoşun yox,
Döyüş yoxdu, hücum yox!
Bir dağı qaldırardı
Eşqim, gücüm, həvəsim,
Bir daşı qaldırmağa
İndi mənim gücüm yox!

2002, 21 iyun

GÜNAHLAR YUYULMAZ GÖZ YAŞLARIYLA

Günahlar yuyulmaz göz yaşlarıyla,
Sanma, su günahı yuyub aparır.
Hər kəs öz suçunu, öz günahını,
Qara tabutuna qoyub aparır.

Qəlbi də qanadar, ələ də batar,
Qara tikan kimi bitər günahlar.
Yıxıb yanı üstə çox oğulları,
Üzrü günahlardan betər günahlar.

Bir köntöy baxışla, bir acı sözlə
Qabarır, çəkilir, dikəlir günah.
Əjdaha ağzından özünü gözlə,
Nifrət yeyə-yeyə kökəlir günah.

Çox gözlər aldanıb göz yaşlarına,
Aldadan sevinib, aldanan yatıb.
Şübhələr, yalanlar burulğanında,
Nə qədər insanlar qərq olub, batıb.

Yumaz göz yaşların günahlarını,
Ümid bir damladan asılı qalar.
Gecikən barışıq xəcalət olub
Yetimtək bir küncə qısılı qalar.

Daha göz yaşına ümid bağlama,
Deyirlər qozbeli qəbir düzəldər.
Deyirlər Allahın səbri böyükdür,
Düzəltsə, bu işi səbir düzəldər.

QƏNİMLƏR, VƏHŞİLƏR

Nəyin qənimi yoxdu,
görəsən, bu dünyada?
Varaqlanır xəyalım,
nələri sallam yada.
Vəhşiləşən küləklər
çiçəklərin qənimi.
Ovu qana bulamaq
ovçuların peşəsi,
Qızıl güllə quşların,
tüləklərin qənimi.
Vəhşilər öz yemini
qopardar çəngə-çəngə,
Quzuları qurd basar,
ceyran yemdi pələngə.
Tamah gözəlliklərin,
iştah ətin qənimi,
Təbiətin övladı
təbiətin qənimi.
Bir gül açılan kimi
şaxta buynuz göstərir,
Həyat "yanana atəş,
donana buz" göstərir.
Dedi-qodu, şər-xəta
təmiz adın qənimi,
Zindan, məhbəs, xəbislik
istedadın qənimi.
Peyğəmbərlik yolunda
çarmıx var, daşqalaq var,
Şairlik yollarında
min cürə badalaq var.

Hər imanın qənimi
bir yezitdi, şümürdü,
Qənimlər cəmiyyəti,
Vəhşilər təbiəti
ovuc-ovuc sümürdü,
parça-parça gəmirdi.
Yenə dözdü təbiət,
Yenə dözdü cəmiyyət,
Dözməsə neyləyəcək,
canı daşdı, dəmirdi.
Yaşayırıq dünyada,
bu da bir cür taledi,
bu da bir cür ömürdü.

2002, 28 aprel

ƏLVİDA DEMƏRƏM BU DÜNYAYA MƏN

Sözlərim mirvari dənələritək
Güllərin boynuna düzüləcəksə,
Dərdli misralarım göz yaşı kimi,
Yanaqdan-yanağa süzüləcəksə,
Əlvida demərəm bu dünyaya mən.

Mənim gedişimə dözə bilməyib,
Bir ağac ağlasa, bir daş ağlasa,
Dil verib sevdiyim bayatılara,
Bacı ağı deyib, qardaş ağlasa,
Əlvida demərəm bu dünyaya mən.

Bir əldə saz tutdu, bir əldə qələm,
Ruhunu eşq ilə çaldı desələr,
Ulu sevgisiylə, məhəbbətiylə,
Ətrilə, rəngilə, təravətiylə,
Ürəkdə, yaddaşda qaldı desələr,
Əlvida demərəm bu dünyaya mən.

Dağda şəlalə tək, daşda xına tək,
Qayada mamırtək qalası olsam,
Bu dağın, qayanın, daşın ruhunda
İkinci ömürtək qalası olsam,
Elə başdaşımla, məzarımla da
Bu yurdun, bu elin balası olsam,
Əlvida demərəm bu dünyaya mən.

2002, 6 aprel

SƏNDƏN DİLİ BİLƏN OLMAZ

"Nur" sözündən nurlanmasan,
"Qor" sözündən qorlanmasan,
"Bar" sözündən barlanmasan,
Səndən dili bilən olmaz.

Ruhunda "Heyratı" yoxsa,
Eşqin min bir qatı yoxsa,
Dilində bayatı yoxsa,
Səndən dili bilən olmaz.

Sözün yolu, izi nədir,
Sehrləyən bizi nədir?
Bilməsən ki, xəzinədir,
Səndən dili bilən olmaz.

Dərd duymasan, ah bilməsən,
Öz dilini şah bilməsən,
Ananı Allah bilməsən,
Səndən dili bilən olmaz.

Qanında bir səylik varsa,
Canında bir keylik varsa,
Ruhunda ögeylik varsa,
Səndən dili bilən olmaz.

Nə bir qəlbin alovusan,
Nə bir çaxmağın qovusan,
Özgə dillərin ovusan,
Səndən dili bilən olmaz.

Bir qəlbin min gülüstanı,
Bir ömrün neçə dastanı.
Duymasan "Şəbi-hicran"ı[1],
Səndən dili bilən olmaz.

O, Sabirin rübabıdı,
O, Cəlilin əzabıdı.
O, "Anamın kitabı"dı[2]
Səndən dili bilən olmaz.

Yada doğma, yaxına yad,
Dilim səndən dad çəkər, dad.
Yatmısan, ey dadi-bidad,
Səndən dili bilən olmaz.

[1] M.Füzulinin məşhur qəzəlinə işarədir.

[2] C.Məmmədquluzadənin "Anamın kitabı" əsərinə işarədir.

GÖZÜN GİLƏSİ KİMİ

Yalanlar həqiqətin
bağrını yara bilər,
Bədxahlar nuru zülmət,
ağı da qara bilər.
Bir gecənin içində
saçlar ağara bilər,
Xeyirxahlar qatmasa,
canına can millətin.

Ordular hazır olar,
oğullar durar səfə,
Ər igidlər can verər
tarixi bir şərəfə.
Gülləni sərrast atıb,
vura bilsə hədəfə,
Taleyini həll edər
o bircə an millətin.

Baş tapıb yağıların
əməlindən, işindən,
Haqqı saldırmaq gərək
yağıların dişindən.
Şeytan da baş açammaz
sağalmaz vərdişindən,
Özü öz taleyinə
böhtan atan millətin.

Hər kəs öz dinindədir
öyrənsə də hər dini,
Özü çəkə bilməsə,
kimdi çəkən dərdini.

Gözün giləsi kimi
qorumasa yurdunu,
Nə bəyi bəy olacaq,
nə xanı xan, millətin.

Səsinə səs verməsən,
dağlar yanar ahından.
Haqqını qaytarmasan,
haqq keçməz günahından.
İncisə tanrısından,
soyusa Allahından,
Ürəyinə dərd sızar,
beyninə qan, millətin.

Qarışıq bir zamandı –
kim oğru, kimi doğru.
Torpaq bütövləşməsə
getməz ürəkdən ağrı.
Elin gözü səndədir,
durma, ey Vətən oğlu,
Dərdinə dərman eylə,
halına yan millətin.

2002, 13 sentyabr

MƏNİM GÜLMƏYİM TUTUR

Xəstəlik bir-bir çıxır,
yerdən göbələk kimi,
Deyəcəklər dəlidi,
ağrılardan bağırsaq.
Həkimlər söylədikcə
mənim gülməyim tutur.
Nə ürək yerindədi,
nə ciyər, nə bağırsaq.
Zaman qəhqəhə çəkib,
güləcək üstümüzə,
Gəncliyi, cavanlığı
haray çəkib çağırsaq.

2002, 9 sentyabr

EŞQİN ÖLÜMÜ

Eşqin öldüyünü gördüm,
Bir gülün saralmağında.
Eşqin öldüyünü gördüm,
Bir qəlbin qırılmağında.
Eşqin öldüyünü gördüm.
İşığını itirən gözdə,
Ürəkdən yox, boğazdan gələn,
Adamı üşüdən sözdə.
Eşqin öldüyünü gördüm,
Göyərmiş dildə,
Qurumuş dodaqlarda,
Külü göyə sovrulan,
Sahibsiz qalmış ocaqda.
Eşqin öldüyünü gördüm,
Çiyinlərdə gedən tabutda,
Zənguləsi qırılan səsdə,
Qulağı batıran sükutda.
Nə qədər ölən-itən gördüm,
Səpdiyi toxumlar cücərməmiş
Ömrü yarıda bitən gördüm,
Yaralanmış torpaq gördüm,
Ruhu sınmış Vətən gördüm,
Hamısı eşq ölümüdü.
Nəyini deyim bu eşqin, nəyini
Allah heç kəsə göstərməsin
Eşqin, sevginin,
ümidin, inamın ölməyini!

2002, 29 avqust

KƏSİLƏR

Bu meydan qanlı meydandı,
Hey burda başlar kəsilər.
Nə ürəkdən dərd azalar,
Nə gözdən yaşlar kəsilər.

Üstümüzə qonmaq üçün,
Şaxtalarda donmaq üçün.
Başdaşını yonmaq üçün
Doğranar, daşlar kəsilər.

Qisməti qar, qrov bizik,
Əsir bizik, girov bizik,
Hər ovçuya bir ov bizik,
Bələnlər, qaşlar kəsilər.

2002, 21 iyul

BİLİRƏM

Mən necə nigaran olmaya billəm
Niyə nigarandı dağlar bilməsəm.
H. Arif

Bir əsim küləyin hökmünə bənddir,
Yel əssə, çəkilər səhər dumanı.
Yoğun baxışında bulud görürəm,
Çəkilmir üzündən kədər dumanı.
Kimdir günahkarı çatılan qaşın?
Kimdir səbəbkarı tökülən yaşın?
Dağılan saraymı, uçan qalamı?
Murazı gözündə köçən balamı?
Bir fürsət yoxsulu namərd əlində,
Alışan meşəmi, yanan talamı?
Mən yaxşı bilirəm, söz dağlarında
Qaya çapansınız, dağ yaransınız,
Ay ustad, siz nədən nigaransınız?!

Odlu döyüşlərdən keçib gəlmisən,
Döyüşsüz bir ömrün mənası nədir.
45-də qurtarıb qanlı davalar,
Hələ də qəlbində müharibədir!
Hələ tükənməyib niyyəti pislər,
Hələ azalmayıb qəlbi xəbislər.
Hələ də yurdumda bostan əkən var,
Hələ də ayaqdan geri çəkən var.
Şeirin sorağına düşəndən bəri,
Gülləyə tutmusan çirkinlikləri.
Sellər ahəngindi, çaylar ləngərin,
Qələm silahındı, dəftər səngərin.

Yenə o səngərdə atəş açırsan,
Yenə o səngərdən alov saçırsan.
Dostun baxışında bahar havası,
Düşmənin gözündə qar-boransınız,
Ay ustad, siz nədən nigaransınız?!

Kiminsə gözünü yaşlı görəndə,
Körpə uşaq kimi ağlayan oldun.
Seyrinə çıxanda gözəlliklərin,
Dəli sellər kimi çağlayan oldun.
Durdun yatağından dan sökülməmiş,
Ceyranı yuxudan özün oyatdın.
Qartal vurulanda sındı qanadın,
Yerlərin, göylərin yasına batdın.
Palıd yıxılanda, cökə sınanda,
Titrəyən sən oldun, inləyən meşə.
Səni övlad kimi bağrına basdı,
Səni ana kimi dinləyən meşə.
Şirə həmdəm oldun, pələngə sirdaş,
Tülkünü, çaqqalı aldın hədəfə.
Boşuna getmədi aylar, fəsillər,
Ömrün belə-belə çatdı şərəfə.
Elin yaddaşında, xalqın gözündə,
Həm qarlı dağsınız, həm aransınız,
Ay ustad, siz nədən nigaransınız?!

Nədir ürəyini sıxan, göynədən,
Gələn xəzandımı, yağan qardımı?
Qalxa bilmədiyin qarlı zirvələr,
Çıxa bilmədiyin yoxuşlardımı?
Başımdan "Dilqəmi"n havası getmir,
O niyə başdadı, o niyə bitmir?
Yazanda bir eşqin faciəsini,
Qələmmi sızladı, əlmi titrədi?
Yəhyabəy deyəndə, Dilqəm deyəndə,
Dodaqmı göynədi, dilmi titrədi.

Unutma Arifin vəsiyyətini,
Sən ara verəndə o, “yaz!” – deyərdi.
Atanı sınağa çəkərdi övlad,
“Necoldu Zal qızı Gülnaz?!” – deyərdi.
Yarımçıq yazılar hələ varaqda,
Yarımçıq arzular hələ qabaqda.
“Ömür gözləsinmi, gözləməsinmi?”
Kədər yaxındadır, sevinc uzaqda.
Bilirəm siz niyə pərişansınız!
Bilirəm siz niyə nigaransınız!

USTAD

Əbdüllətif Bəndəroğluna

Bakıdan Bağdada salamlar yetir,
Eşidən qulaqlar var olsun, ustad!
Fərəhlə sıxanda əllər əlləri,
İsinən barmaqlar var olsun, ustad!

Tez-tez xatırlanar, analar anan,
Verər qiymətini düşünən qanan.
İsti nəfəsində od alıb yanan,
Alışan ocaqlar var olsun, ustad!

Görüşdə keçəndə şirindi dəmlər,
Ayrılıq gələndə ağırdı qəmlər.
Yaxşı günümüzdən yazan qələmlər,
Yazılan varaqlar var olsun, ustad!

Biz ki bənzəmədik boş kötüklərə,
Verdik çiynimizi ağır yüklərə.
Sağlam gövdələrə, sağlam köklərə,
Güvənən budaqlar var olsun, ustad!

Qədim bir tarixdi şeirin hər qatı,
Tanıdar nəsili, tanıdar zatı.
Burda bayatını, orda xoyratı,
Oxuyan dodaqlar var olsun, ustad!

Dodaqda söz oldun, ay Bəndəroğlu,
Ocaqda köz oldun, ay Bəndəroğlu,
Torpaqda iz oldun, ay Bəndəroğlu,
Sənintək qonaqlar var olsun, ustad!

ƏZİZLİKDƏN ZƏLİLLİYƏ

Əzizliklə saxladığın aşığı,
Zəlilliklə imtahana çəkirsən.
Aşıq Ələsgər

Dağdan enər bir çıxılmaz dərəyə,
Əzizlikdən zəlilliyə gedən yol.
Bir gündüzün gecəsindən başlanar,
Əzizlikdən zəlilliyə gedən yol.

Ucalanı yavaş-yavaş endirər,
Alışanı dalğa-dalğa söndürər.
Cənnətləri cəhənnəmə döndərər,
Əzizlikdən zəlilliyə gedən yol.

Sərt ayaza, qar yağışa doğrudu,
Güllü yazdan qarlı qışa doğrudu.
Gur alqışdan bəd qarğışa doğrudu,
Əzizlikdən zəlilliyə gedən yol.

Görərsən ki, göylər çəndi, dumandı,
Duman varsa, hökmü verən zamandı.
Aydınlıqdan qaranlığa cumandı,
Əzizlikdən zəlilliyə gedən yol.

Atmaq olmur nə həsrəti, nə dərdi,
Hər sevincin sonu bir gün gedərdi.
Yer üstündən yer altına səfərdi,
Əzizlikdən zəlilliyə gedən yol.

Hər fağırı bir zalıma əzdirər,
Dilənçitək qapı-qapı gəzdirər.

Yolçuları yaşamaqdan bezdirər,
Əzizlikdən zəlilliyə gedən yol.

Yar bağında “ağlayan çox, gülən az”,
Ay Zəlimxan, gələn qışdı, gedən yaz.
Zəlillikdən əzizliyə qayıtmaz,
Əzizlikdən zəlilliyə gedən yol!

GETDİ

Ay ata, ürəyin od parçasıydı,
Oldu buz parçası, soyudu getdi!
Bu elə yuxudu, yatan ayılmaz,
Ruhun birdəfəlik uyudu getdi!
Yenə göz yaşlarım sellərə döndü,
Yenə başdaşını su yudu getdi!

SƏNƏ

Ağlama, dözmürəm ağlamağına,
Ağlama, gözünün yaşını saxla!
Sən mənim üzüyüm, mən sənin qaşın,
Sındırma, üzüyün qaşını saxla!
Mənim ki başımı ağrılar qatıb,
Qorxuya düşməsin balalarımız,
Mərd ol, sağ-salamat başını saxla!

MƏN DƏ GEDƏSİYƏM

Xəstəxanada mənə baş çəkməyə gələnlərin əksəriyyəti bir-birindən xəbərsiz eyni cümləni təkrar edirdilər: "Dur ayağa, xəstəlik sənə yaraşmır!"

Adam bir ağrıya üz göstərəndə,
Ağrının adamdan xoşu gələrmiş.
O ki boş damarı tanıdı səndə,
Birinin yerinə beşi gələrmiş!

Gəlir, ürəyini heç vaxt qırmıram,
Üzü bozaranda ağlı çaşdırır.
Mən onu özümə yaraşdırmıram,
O, məni özünə çox yaraşdırır.

Nə qədər toyları döndərib yasa,
Ağrının əlindən qaçanammı mən?
O, mənim qapımı gəlib açmasa,
Onun qapısını açanammı mən?!

İllərdi çiynimin ağrısı kəsmir,
Çiynimdə nə qədər tabut apardım.
Hər gün qəbristana sükut gətirdim,
Hər gün qəbristandan sükut apardım.

Min dəfə əssə də dağlardan külək,
Dağılan ürəyə, beynə neyləsin?
Loğmanı yerindən qaldırın, görək,
Dərman nə iş görsün, iynə neyləsin?!

Ahlar ürəkləri döndərir közə,
Gözlərin ağrısı yaşdan yaranır.

İnsan daş deyil ki, hər şeyə dözə,
Nə olsun torpaqdan, daşdan yaranır!

Günlər dərd üstünə dərd gətirməsə,
Hər gün insanların dərdi dağılar.
Hərdənbir evinə şadlıq girməsə,
Dərdi dağılmazın yurdu dağılar.

Dağıdır hasarı, yıxır barını,
Ömrün qalasını sökür aparır.
Ölənlər sağların şah damarını,
Özüylə torpağa çəkir aparır!

Gözün işığını gözdən aparır,
Dizin taqətini dizdən aparır.
Gedənin ağrıdan canı qurtarır,
Nəyi aparırsa bizdən aparır.

Necə yaraşmasın mənə xəstəlik,
Min dəfə ölmüşəm, görən olmayıb.
Neçə yol dünyaya deyib "hələlik",
Getmişəm, gəlmişəm, görən olmayıb.

Yaralı qəlbimdə qəm daşa-daşa
Mən dözüm olmuşam, səbir olmuşam.
Başdaşı görəndə dönmüşəm daşa,
Qəbirlər yanında qəbir olmuşam!

Tale qan uddurub, insan qan udub,
Ölmüşəm, fürsətim, çəmim öləndə!
Mən də gedəsiyəm, ürəyim susub,
Sevincim öləndə, qəmim öləndə!

CAN AĞRISININ CAVAN XƏSTƏYƏ SUALI

İstəyirdin bir nəfəsə yüz bələni aşasan,
İstəyirdin dəniz kimi qaynayasan, daşasan,
İstəyirdin yurddan-yurda, dağdan-dağa köçəsən,
Söylə görüm, cavan oğlan,
Söylə, indi necəsən?!

İstəmirdin tanıyasan canda dərd var, ağrı var,
İnsanların susan qəlbi, odda yanan bağrı var.
İstəmirdin əzab adlı bir körpüdən keçəsən,
Söylə görüm, cavan oğlan,
Söylə, indi necəsən?!

Nə enişi endirirdin, nə yoxuşu sayırdın,
Qıy vuranda zirvələrin şahına oxşayırdın,
Aşırımı, sıldırımı heç almırdın vecə sən,
Söylə görüm, cavan oğlan,
Söylə, indi necəsən?!

Yazın seli, qışın qarı heç gəlmirdi eyninə,
Hara gəldi yollanırdın, düşən kimi beyninə.
Harda gəldi qoşulurdun karvana sən, köçə sən,
Söylə görüm, cavan oğlan,
Söylə, indi necəsən?!

Hara qaçırsansa qaç, qəzanın, qədərinsən,
Sevincin, şadlığın yox, axırda kədərinsən.
Dünən nur parçasıydın, bu gün zülmət gecəsən,
Söylə görüm, cavan oğlan,
Söylə, indi necəsən?!

Ha istədi ki, versin ağrının cavabını,
Ağrı əlindən aldı dözümünü, tabını.
Çox əlləşdi, vuruşdu dərdə verməsin yaxa,
Ağrı elə bozardı,
Qaldı cavan oğlanın gözləri baxa-baxa!!!

MƏN ONDA BİLDİM

Bir dünya gözəli çıxdı qarşıma,
İnsan nə deməkdi, mən onda bildim.
Unutdum qəmimi, atdım dərdimi,
Dərman nə deməkdi, mən onda bildim.

Baxışı andırdı sökülən danı,
Üzünün şöləsi tutdu cahanı,
Ala gözlərinin oldum qurbanı,
Qurban nə deməkdi, mən onda bildim.

Ayrılıq sevincə, sevgiyə yağı,
Görüş ömrümüzün ən şirin çağı,
Söz dedim, tutuldu qaşı-qabağı,
Duman nə deməkdi, mən onda bildim.

Külək tərpədəndə başından şalı,
Baxdım, buxağında göründü xalı,
Qızardı, bozardı, dəyişdi halı,
Tufan nə deməkdi, mən onda bildim.

Ömür bağçasında göyərdi, bitdi,
Bir göz qırpımında tapıldı, itdi.
Necə gəlmişdisə, elə də getdi,
Hicran nə deməkdi, mən onda bildim.

MƏNİMDİ

Başdan-başa qara geymiş ay gəlin,
İtirdiyin oğuldumu, ərdimi?
Boynu sınsın vaxtsız gələn əcəlin,
Dərdin hələ təzədimi, tərdimi?

Lal dayanır, nə danışır, nə dinir,
Qurumuş dil, donmuş dodaq neyləsin.
Dil açmaqdan həyalanır, çəkinir,
Bahar vaxtı solan yarpaq neyləsin.

Mən duyuram gözlərindən hissini,
Yoxdu daha sabahına ümidi.
Mən görürəm dumanını, hisini,
Od ağızda yanan səhra kimidi.

Yaman olur vaxtından tez ağlamaq,
Təbiətin tufanında qar gəlir.
Gözəllərin sinəsini dağlamaq,
Görən necə əllərindən var gəlir?

Peşman olur kim bircə gül dərəndə,
Arsız kədər hər sevincə qənimdi.
Bir adamı gözüyaşlı görəndə,
Elə billəm bütün qəmlər mənimdi!

ŞAHIM OLAYDI

Gözümün önündən tez getməsəydin,
Göz olub baxardım yanaqlarına.
Duyğular qəlbimdə çiçək açardı,
Söz olub qonardım dodaqlarına.

Bəlkə, buludların arasındasan,
Bəlkə, mələklərin sırasındasan,
Bilsəydim dünyanın harasındasan,
Səs olub çatardım qulaqlarına.

Nə hürkən ceyranım, ahum olaydı,
Nə göylər yandıran ahım olaydı,
Sənintək sultanım, şahım olaydı,
Qul olub düşərdim ayaqlarına!

İTƏN SEVGİ

Nolar Allah adama qara xal verəndə,
Gözəl üz, incə qamət, göyçək camal verəndə.
Nolar adamın qaşı dönəndə ayparaya,
Gözüylə odmu vurar könül adlı saraya?!
Nolar adam tanrının boş vaxtına düşəndə,
Könlünün, qələminin xoş vaxtına düşəndə.
Nolar insan dönəndə gözəllərin şahına,
Batarmı bu dünyanın bir yığın günahına?!
"Harda olsam darıxma, gələcəyəm", – demişdin,
"Səndən ötrü sabaham, gələcəyəm", – demişdin!
O sabahım bəs hanı?
Ürəyimi titrədən o ilahi səs hanı?!
Nəfəsimi yandıran o isti nəfəs hanı?!
Bəlkə, könül doymamış köçən yazdı gözəllik,
Əlimizin bəxtindən əlçatmazdı gözəllik?!
Hara salım yönümü, mən səni hardan tapım,
Hansı eldən soruşum, hansı diyardan tapım?
İnsafmı həsrətinlə, xəyalınla yaşayım,
Sevginin daş yükünü sənsiz necə daşıyım?
Üzü bozdu həsrətin, sərt qayası çapılmaz,
Günü budur sevənin:
Gözlədiyi görünməz, axtardığı tapılmaz!!!

SƏNİ SEVMƏK...

Səni sevmək nəymiş, gülüm,
Səni sevən nə bəxtəvər bəymiş, gülüm.
Sevgi adı gələn yerdə,
Əyilməyən palıd belə,
Qamətini əymiş, gülüm.
Könül səni sevən gündən,
Məni təbrik etmək üçün,
Yer ilə göy, dağ ilə daş,
Bir-birinə dəymiş, gülüm!
Qoca dünya başdan-başa,
Toy paltarı geymiş, gülüm.
Gəl görüşək,
Görüşümüz saz havası,
Həsrətimiz dil-dil ötən,
Bir yanıqlı neymiş, gülüm!
Səni sevmək –
Bir ömürdə min bir ömür yaşamaqmış.
Səni sevmək –
Dağ yükünü quş tükütək daşımaqmış.
Səni sevmək –
"Kərəmi"ni Kərəm kimi çalmaq imiş.
Səni sevmək –
Məcnun kimi səhralarda qalmaq imiş.
Səni sevmək –
Tahir olub,
Dalğaların sinəsində sevda yolu salmaq imiş.

Leylisənmi, Əslisənmi, Zöhrəsənmi?
Ulu sevgilər içindən
Təzə çıxan pöhrəsənmi?

Səni sevmək –
Göydən uca, yerdən dərin olmaq imiş,
Sudan duru, baldan şirin olmaq imiş.
Günəş olub,
Dan yerindən doğmaq imiş.
İşıq olub,
Zülmətləri boğmaq imiş.
Səni sevdim,
Heç bilmədim ucuz nədir, baha nədir,
Daha nəyi demək olar,
Səni sevmək mən bilmirəm daha nədir!
Bircə onu bilirəm ki,
Səni görən gündən bəri
Ömrümüz də, günümüz də,
Sevgimiz də şahanədir!

ÖMRÜ GÖDƏK SEVGİ

Təzə vaxtı yumşaldılar ipək kimi,
Təzə vaxtı yaşadılar mələk kimi,
Təzə vaxtı açıldılar çiçək kimi,
Təzə günlər bala döndü, pətək oldu,
Bu sevginin ömrü yaman gödək oldu!

Bir-birini darta-darta, çəkə-çəkə,
Diddi-tökdü iki davar, iki təkə.
Ev içində gündə qopdu bir mərəkə,
Zurna oldu, qaval oldu, tütək oldu,
Bu sevginin ömrü yaman gödək oldu!

Hər cehizə gündə biri yiyə çıxdı,
Hər niyənin içindən bir niyə çıxdı.
Sevinc yağlı əppək oldu, göyə çıxdı,
Acı sözlər bir-birinə yedək oldu,
Bu sevginin ömrü yaman gödək oldu!

Duyğuları buz bağladı, qışa döndü,
Nisgilləri gözdən axan yaşa döndü.
Ürəkləri bir duyğusuz daşa döndü,
Təhqir oldu, ağac oldu, kötək oldu,
Bu sevginin ömrü yaman gödək oldu!

Acı sözdən acı-acı yellər əsdi,
Dedi-qodu qayçı kimi ömrü kəsdi.
Zaman axdı, vədə keçdi, vaxt tələsdi,
Qaya uçdu, zirvə döndü ətək oldu,
Bu sevginin ömrü yaman gödək oldu!

YOL DÜŞÜNCƏLƏRİ

Bir yola çıxmışam – uzaq bir yola,
Zəvvaram, getdiyim ziyarət yolu.
Xoşbəxtlik mənimlə girsə qol-qola,
Vüsalla bitəcək bu həsrət yolu.

Sınaqdan keçirir yollar adamı,
İnsan yol boyunca imtahan verir.
Bərkiyir bişmişi, təntiyir xamı,
Kimi cana gəlir, kimi can verir.

Dolama yolların vurğunuyam mən,
Min dağdan dolanır, min düzdən keçir.
Nə qədər qismətdən, bəxtdən, taledən,
Nə qədər gecədən, gündüzdən keçir.

Yeriyəndi ayaq, yaradandı əl,
Gəzmək də, getmək də xoşdur.
Yolların qoynunda yerimək gözəl,
Yolların qoynunda ölmək də xoşdur.

Yollar kənarında nəfəs dərməyə,
Yaşıl çəmən də var, gül-çiçək də var.
Hazır ol zülmünə sinə gərməyə,
Qarşıda tikan da, daş-kəsək də var.

Hələ ki cavanam, budur təsəlli,
Baxan saçımdakı qaradan bilir.
Yol hardan başlanır, özümə bəlli,
Yol harda bitəcək, Yaradan bilir!

SƏFƏR ÜSTÜNDƏ

Bir səfər üstündəyəm,
Qəlbim həvəslə dolu.
Gözüm neçə murazla,
Qulağım səslə dolu.

Dilimiz dilə bağlı,
Sazımız telə bağlı.
Pəsimiz zilə bağlı,
Zilimiz pəslə dolu.

Sel olub axmaq gərək,
Göz olub baxmaq gərək,
Qəfəsdən çıxmaq gərək,
Dünya qəfəslə dolu.

Çaxsa da ildırımlar,
Açılsa da şırımlar,
Tövşütməz aşırımlar,
Sinəm nəfəslə dolu.

Mən bilirəm güc nədir,
Səfər nədir, köç nədir.
Heç kəs ilə heç nədir,
Dünya hər kəslə dolu.

Türkiyə dəftəri

SARP QAPISI

Sarp qapısı, məni burda saxlama,
Orda məni gözləyən var, gəzən var.
Qapıları gəl üzümə bağlama,
Məndən ötrü ürəyini üzən var.

Sarp qapısı, dözümümü sınama,
Daha keçib dəyanətdən, dözümdən.
Dözəmmirəm burda, məni qınama,
Çox ləngisəm dünya düşər gözümdən.

İnsaf yoxdu nə tanrıda, nə dində,
Açıqlasam, demə həddi keçirəm.
Ay insafsız, qırx yaşımın içində,
İlk dəfədir bu sərhədi keçirəm.

Sarp qapısı, apardığım ərməğan,
Bir ürəkdi, bir qələmdi, bir varaq.
Sarsıntıya nə baş dözür, nə də can,
Bir aman ver, bu tilsimdən qurtaraq!

Yetmiş ildə bağlanmağın az imiş,
Açılmağa indi də can çəkirsən.
Axı sənin nə vecinə bu dünya,
Nə dərd gördün, nə də hicran çəkirsən.

Ağız bağlı, göz qapalı, dil də lal,
Zaman-zaman sandıq sandıq içində.
Qazancımız yalançı söz, boş xəyal,
Xalq alışdı, biz də yandıq içində.

Sarp qapısı, salma məni darlığa,
Duy qəlbimdə baş qaldıran həvəsi.
Qoy nur yağsın yerə, göyə, varlığa,
“Bayquşun da dar olmasın qəfəsi!”

Sarp qapısı, duman çökür gözümə,
Gözləməyə hövsələm yox, tabım yox.
Çox qapılar bağlı qalıb üzümə,
Daha mənim bağlanası qapım yox!

ZİYARƏTDƏ

Doğmaların nəfəsinə qurbanam,
Bir görüşü min bir dərdin əlacı.
Köhnə dünya təzələndi gözümdə,
Naxışlandı min ərişi, arğacı.

Daha bəsdir uzaqlardan baxdığım,
Göz yaşına qarışdığım, axdığım.
İllər boyu yandırdığım, yaxdığım,
Təşnə könlüm bu vüsalın möhtacı.

Bürünmüşəm yaşıllara, göylərə,
Qarışmışam kamanlara, neylərə,
İndi bildim ucalanda göylərə,
Nə deməkdi Məhəmmədin meracı!

Vətən cənnət, şükür olsun Allaha,
Körpü saldım dünənimdən sabaha.
Ölsəm belə "uf" demərəm mən daha,
Bu ziyarət, bu yer Məkkə, mən Hacı!

QARSIN DÜZÜNDƏ

Qars ayaz,
Bura gündü, Qars ayaz.
Qələm, qurbanın olum,
Qismətimi Qarsa yaz.
Nənəm belə deyərdi

Qars ayazdı,
Bura gündü, Qars ayazdı.
Qələmə qurban olum,
Qisməti Qarsa yazdı.
Mən belə deyirəm

Məni bu yerlərə qismət gətirdi,
Yazdılar yazımı Qarsın düzündə.
Yığıldı başıma yadlar, doğmalar,
Çəkdilər nazımı Qarsın düzündə.

Qara saçlarımdan küləklər öpdü,
Ucaldım, alnımdan mələklər öpdü,
Güllər naxışladı, çiçəklər öpdü,
Gül açan yazımı Qarsın düzündə.

Qayalar dinlədi, daşlar dinlədi,
Gözlərdən tökülən yaşlar dinlədi,
Lal oldu, dayandı, quşlar dinlədi,
Şirin avazımı Qarsın düzündə.

Qaldırdı səsini ney yana-yana,
Yeri qarsaladı göy yana-yana,
Həsrətlər görüşdü hey yana-yana,
Ağlatdım sazımı Qarsın düzündə.

Ömrümə yar bildim taleyi, baxtı,
Sinəmdən dumduru çeşmələr axdı.
Aşıq Qərib kimi günorta vaxtı,
Qıldım namazımı Qarsın düzündə.

Yaralı keçmişi mən duya-duya,
Qaynadım torpağa, qarışdım suya.
İlahi! Hamını çatdır arzuya,
Tapdım murazımı Qarsın düzündə.

ŞAHMƏT XOCA

Qarsın tanınmış xocası, Fövzi paşa okul müdiri hörmətli Şahmət Bilgirə ulu sevgilərlə

Dərədə selə döndüm, dağda yel kimi əsdim,
Min görüşdən yan keçib, bir görüşə tələsdim.
İlk dəfə duz-çörəyi sənin evində kəsdim,
Halal loxma canıma nuş oldu, Şahmət xoca!

Tarixi söhbətlərin şirin oldu bal kimi,
Səni sevdim ürəkdən el kimi, mahal kimi.
Qulluğumda dayandın əsil ağsaqqal kimi,
Duyğularım havalı quş oldu, Şahmət xoca!

Hey baxdım, pozulmadı gözəlliyin sırası,
Gördüyüm hər qarış yer gözlərimin qarası.
Qoşa gəzdik, dolandıq Qars – İstanbul arası,
Sənlə keçən günlərim xoş oldu, Şahmət xoca!

Qars ilə oyanırdım, Konya ilə yatırdım,
Ən şirin arzuların xoş ətrinə batırdım.
Bu torpaqla görüşə lap çoxdan can atırdım,
Yaxşı ki, ömrüm sənə tuş oldu, Şahmət xoca!

QAĞIZMANIN ALMASI

Qağızmanda alma dərdim budaqdan,
Nə şirindi Qağızmanın alması.
Şöhrətini eşitmişdim uzaqdan,
Nə şirindi Qağızmanın alması.

Dərə boyu uzanıbdı bağçalar,
Bağçalarda dürlü-dürlü boğçalar.
Yanaqları qızıl çalar, ağ çalar,
Nə şirindi Qağızmanın alması.

Doymaq olmur dərəsindən, dağından,
Bax ləzzət al qızıllaşan çağından.
Nə acıdı, ayrılasan bağından,
Nə şirindi Qağızmanın alması.

Ətrinə bax, çiçək dadır, gül dadır,
Şana dönür, pətək dadır, bal dadır.
Torpaq dadır, Vətən dadır, el dadır,
Nə şirindi Qağızmanın alması.

GECƏ KEÇDİM ƏRZURUMUN İÇİNDƏN

Çox can atdım Ərzurumu görməyə,
Hayıf oldu, səfasını görmədim.
Bağban olub dolanmadım bağını,
Güllərini yaylıq üstə sərmədim.

Çeşmə olub düzlərindən axmadım,
Ulduz olub göylərindən baxmadım,
Bir igidin əllərini sıxmadım,
Bir gözəlin saçlarını hörmədim.

Arzular çox, yol gəzdirən, biz keçən,
Bu yerlərdə dastan olub söz gəzən.
Sinəsində qırx incəbel qız gəzən,
Qızılgüllü bağçasına girmədim.

Yeri, göyü duman oldu bu yolun,
Nisgilləri yaman oldu bu yolun.
Günahkarı zaman oldu bu yolun,
Əl uzadıb güllərini dərmədim.

Keçəmmədim günahından, suçundan,
Baş açmadım Xan Əslinin köçündən.
Gecə keçdim Ərzurumun içindən,
Kərəm aşan gədiklərin görmədim.

QOCATƏPƏ CAMESİNDƏ

Könüllər titrədən nəğmələr oxu,
Naxışlar tacından xalılar toxu.
Gecələr gözünə getməsin yuxu,
Dünyanın ən gözəl əsərini yaz –
Bu heyrət önündə yenə azdır, az!

Dilindən dünyaya zər səpələ, zər,
Sözlərin bal olsun, söhbətin şəkər,
İsit yer üzünü bir Günəş qədər,
Odlu nəfəsinlə ərisin ayaz,
Bu sərvət önündə yenə azdır, az!

Bu nə yaratmaqdı, bu nə naxışdı?
Bu nə tamaşadı, bu nə baxışdı?
Bilmirəm payızdı, bahardı, qışdı,
Min il çiçək verə, gül bitirə yaz,
Bu hikmət önündə yenə azdır, az!

Ömrü haqq yolunda əridən şam ol,
Tanrı ucalıqda duran rəssam ol,
Çək bu dənizləri bəyazdan bəyaz,
Bu sənət önündə yenə azdır, az!

Dağların gurlayan selinə dönsəm,
Bütün çalğıların telinə dönsəm,
Ötən bülbüllərin dilinə dönsəm,
Dünyanı mat qoysa ötdüyüm avaz,
Bu qüdrət önündə yenə azdır, az!

Duyğum dənizlənə, eşqim çaylana,
Dağ olam, sinəmdə ellər yaylana.
Ömrüm ömürlərə nurtək paylana,
Verəm hər ocaqda bir nəzir-niyaz,
Bu qismət önündə yenə azdır, az!

GÖZƏLLƏR GÖZƏLİ

İstanbula baxmağa,
İki min göz gərəkdir, iki gözdən kar aşmaz.
Gözəllər gözəlini,
Bir dəfə görən kimi gördüm demək yaraşmaz!
İstanbulu gəzməyə,
Bir ömür bəs eləməz, ikinci ömür gərək,
Ürək poladdan mətin, iradə dəmir gərək!
İstanbulda qalmağa,
Vaxt gərək, zaman gərək həftələr, aylar qədər.
İstanbulu qucmağa,
Qollar uzanmalıdır ən uzun çaylar qədər!
İstanbulu duymağa,
Qəlbin zəngin olmalı, zəngin saraylar qədər!
Qəvvas olmaq gərəkdir sularında üzməyə,
Qartal olmaq gərəkdir göylərində süzməyə.
Dalğa nə qədər yaşıl, su nə qədər duruymuş,
İstanbul bu dünyanın gözlərinin nuruymuş!
Məndən soruşsalar ki, İstanbulda nə gördün,
Neçə sehrli saray, neçə xəzinə gördün?
Gördüyümü deməyə,
Dinməyə, danışmağa dilin qüdrəti çatmaz!
Tərifini yazmağa qələm aciz, söz kasıb,
Havasını çalmağa telin qüdrəti çatmaz!
İstanbulu çəkməyə,
Dünyanın ən ilahi, dahi rəssamı gələ,
Bir əlində çırağı, birində şamı gələ,
Olanı göstərməyə əlin qüdrəti çatmaz!
İstanbul bir qaladı,
Bir daşını salmağa
Qasırğanın, tufanın, selin qüdrəti çatmaz!
Tarixlərin şahidi, qədim, möhtəşəm, ulu,
İndi özünüz deyin:
Bircə dəfə baxmaqla,
Necə deyim görmüşəm, gəzmişəm İstanbulu!

İSTANBUL QIZI

İstanbul qızının teli darandı,
Dedi: – Gözəldimi?
Dedim: – Gözəldi!
Büllurdan töküldü, nurdan yarandı,
Dedi: – Gözəldimi?
Dedim: – Gözəldi!

Qulağın sırğası, saçın cunası,
Barmağın üzüyü, əlin xınası,
Elin yaraşığı, gölün sonası,
Dedi:– Gözəldimi?
Dedim: – Gözəldi!

Üzün təbəssümü, yanağın xalı,
Qəlbin hərarəti, dodağın balı,
Belin incəliyi, gərdənin şalı,
Dedi: – Gözəldimi?
Dedim – Gözəldi!

Sevgi yollarıyla çıxılan yoxuş,
Tanrı əlləriylə vurulan naxış,
Vurulan, durulan, süzülən baxış,
Dedi: – Gözəldimi?
Dedim: – Gözəldi!

Baxışı söndürdü odlanan şamı,
Görüşlər həyatın ləzzəti, tamı.
Nurlu İstanbulun aylı axşamı
Dedi: – Gözəldimi?
Dedim: – Gözəldi!

Ağlımı, ruhumu əlimdən aldı,
Ney kimi göynətdi, saz kimi çaldı.
Axırda bir şirin xəyala daldı,
Dedi: – Gözəldimi?
Dedim: – Gözəldi!

Ömürdən saymadı boş keçən ömrü,
Bahara döndərdi qış keçən ömrü,
İnsanın insanla xoş keçən ömrü,
Dedi: – Gözəldimi?
Dedim: – Gözəldi!

Qəlbimin anını sızan eylədi,
Məni eşqə saldı, yazan eylədi,
Şair Zəlimxanı ozan eylədi,
Dedi: – Gözəldimi?
Dedim: – Gözəldi!

İSTANBULDA QUŞLAR QONDU ÇİYNİMƏ

İstanbulda quşlar qondu çiynimə,
Aman Allah! Quşlara bax, quşlara.
Nə çəkinir, nə perikir, nə qorxur,
Necə qonur çiyinlərə, başlara.

İstanbulda quşlar qondu çiynimə,
Üz-gözümə sığal çəkdi lələklər.
Elə bildim xeyri-şəri yazmağa
Quş donunda göydən enib mələklər!

İstanbulda quşlar qondu çiynimə,
Səpələdim sevgini də, dəni də.
Nağıldakı şahlar düşdü yadıma,
Elə bildim şah seçirlər məni də!

İstanbulda quşlar qondu çiynimə,
Həvəsimdən havalandım quş kimi.
Heç bilmirəm o çağlara nə deyim,
Gəldi, getdi yuxu kimi, quş kimi!

MƏHMƏD AKİF ƏRSOYUN EV-MUZEYİNDƏ

Türk dövlətinin başçısı Mustafa Kamal paşa ölkənin himnini yazdırmaq üçün 724 şairin iştirak elədiyi bir şeir müsabiqəsi keçirir. Müsabiqənin qalibinə 5 min türk lirəsi pul mükafatı ayırır. Məhməd Akifin "İstiqlal marşı" şeiri birincilik qazanır. Ancaq ona veriləcək pul mükafatını qəbul etmir. "Türkiyənin ağır və çətin günləridir", – deyib həmin pulun ehtiyacı olanlara verilməsini xahiş edir. 1921-ci il martın 1-də "İstiqlal marşı" Böyük Millət Məclisində oxunur və uzun sürən alqışlarla qarşılanır.

Ankarada Məhməd Akif Ərsoyun ev-muzeyini ziyarət elədim. Türk dünyasının böyük şairi "İstiqlal marşı"nı bu evdə yazmışdır.

Adı əzizdən əziz hər nəsilə, hər soya,
Bizdən salamlar olsun Məhməd Akif Ərsoya!
Bu yer böyük şairin nəğmə dolu bağçası,
Sadə, təmiz otağı, yaşıl bağı, bağçası.
Ankarada yapılan bütün evlərdən uca,
Balaca bir evi var, yaşar dünya durunca.
Evi məscid yanında, Allah evinə yaxın,
Allaha yaxın olan şair qəlbinə baxın!
Öz yerində orucu, öz yerində namazı,
Haqqın bağrından qopub yaratdığı hər yazı!
Ömrü yarıda sönmüş şamdanın şamına bax,
Atəşi sönməz olan şair ilhamına bax!
Qəlbinin axan qanı, həm sevinci, həm yası,
Şüşələrin altında əlxətti, əlyazması.
Ömrünü gilə-gilə sözdə əridən ustad,
Bir ömrün sonunadək neçə şamlar əritdi,
Gah gecələr yandırdı, gah axşamlar əritdi.

Türkü əzilən görüb düşmən bayram edəndə,
Türkün qanlı köksünü qasırğalar didəndə,
Bir xalqın, bir millətin yeriyəndə üstünə,
On beş dövlət girəndə bir dövlətin qəsdinə,
Zərbədən baş bir yana, leş bir yana düşəndə,
Nifrət süngüyə dönüb sinələri deşəndə,
Dərdin, qəmin içində qovrulurdu, yanırdı,
Haqqa tapınan şair haqqa arxalanırdı!
Üç yüz min şəhid qanı, Çanaqqala savaşı,
Qəhrəman bir millətin nələr çəkdi gör başı!
Şair qəlbinə düşdü dərdin ağır tərəfi,
Bircə arzusu vardı:
Tapdanmasın Vətənin ləyaqəti, şərəfi!
"Çanaqqala" şeirini onda yazdı, yaratdı,
Sözü bütün dünyaya, səsi tanrıya çatdı!
Haqqa çatan səs oldu, göyə qalxan əl oldu,
Bu şeir şəhidlərə ən uca heykəl oldu!
Baxıram sənətkarın dördotaqlı evinə,
Gah qəmlənə-qəmlənə, gah sevinə-sevinə.
Yollarında həmişə boran oldu, qar oldu,
Dahilərin qisməti bu dar otaqlar oldu!
Ocaq yeri qaralıb, yerində külü qalıb,
Şairsiz çiçəklərin boynu bükülü qalıb.
Burda yazılan şeir dillərdə əzbər oldu,
Bir şeirin havasında millət səfərbər oldu!
"İstiqlal marşı" yazdı gözlərinin yaşıyla,
Ruhunun böyüklüyü, qəlbinin təlaşıyla!
Hər sətirdə duyuldu topun, tüfəngin səsi,
Şəhidlərin qəzəbi, ərənlərin nərəsi.
Ümiddən yapışan əl, bayraqdan öpən dodaq,
Zaman-zaman alışıb tüstülənən bir ocaq,
Haqqı qorumaq üçün torpaqdan fışqıran qan,
Vətən yolunda ölmüş minlərlə ölməz insan,
Dəliqanlı gəncliyin od yağdıran nəfəsi,
Keçmişə ehtiramı, gələcəyə həvəsi,

Vətənin göylərində süzən azadlıq quşu,
Döyüşdən çıxanların xilası, qurtuluşu,
Çevrilib kəlmələrin incisinə, xasına,
Dönüb Məhməd Akifin şeirinin mayasına!
İlhama bar-bərəkət, qələmə qüvvət verib,
Türkün dünyası boyda türkə məhəbbət verib.
Böyük ustad! Bu şeirin hopdu mənim qanıma,
Yağı at sürə bilməz bir daha meydanıma!
Mən də Azərbaycanın ucalan bir səsiyəm,
Torpağımın, yurdumun yaşamaq həvəsiyəm!
Zülmətə, ədalətə, xəyanətə qarşıyam,
Ruhumla, nəfəsimlə,
Mən bu gün başdan-başa bir
"İstiqlal marşı"yam!

QOŞA SƏTİRLƏR

Bu sətirləri böyük türk şairi
Nəcib Fazil Qısakürəyin ruhuna bağışlayıram

HƏYAT – ÖLÜM

Məni öldürən həyat, nifrət edirəm sənə,
Məni yaşadan ölüm, hardasan, tez gəlsənə!

DƏRD

Əzdikcə əzdi-tökdü, çeynədikcə çeynədi,
Günümüzə bax, Allah, gör dərd bizə neylədi!

AĞAC

Qol-budaqlı ağacam, yuvalarla doluyam,
"Kəsilmiş tut dalıyam", havalarla doluyam!

QIŞ VƏ YAZ

Öz ömrünə yas tutur qar əriyə-əriyə,
Yaz meydana girəndə qış çəkilir geriyə!

SEV

Hər qarışı müqəddəs aranı sev, dağı sev,
Məni sevmək istəsən, bu yurdu, torpağı sev.

SUAL

Göy üzünü bürüyür yer üzünün ahları,
İnsan necə götürür bu qədər günahları?!

PİLLƏKƏN

Hər gün məndən xəbərsiz mənim nazımı çəkən,
Endirən və qaldıran pilləkən var, pilləkən!

YAZI

Tale mənim baxtıma yazdı gözəl bir yazı,
Məndən ayrı salmadı nə qılıncı, nə sazı.

GÜNƏŞ

Gah bulud altdan çıxır, gah buludda gizlənir,
Göy kimi arxası var, oxşanır, əzizlənir!

SÖZ

Söz var daşa toxunub, söz də var daşdan keçib,
Bircə sözün üstündə kişilər başdan keçib!

İNSAN HƏYATI

Sirli bir nəsil yatır torpağın hər qatında,
Neçə nəslin payı var bir insan həyatında!

OXUYURAM
NAZİM HİKMƏTİ

Qəbri Vətənindən aralı,
Qəlbi Vətən sarıdan yaralı.
Cəbri hədsiz, səbri sərhədsiz.
Dodağı nəğməli, şərqili,
Sözünün əvvəli, axırı,
Şərq sözü, Şərq eli.
Həsrəti gözünün içinə qədər yeriyən,
Əriyə-əriyə bərkiyən,
Bərkiyə-bərkiyə əriyən.
İliyinə, qanına qədər,
Torpağına bağlı.
Millətinin döyünən ürəyi,
Kökünə, budağına bağlı.
Qəlbində Sokrat amalı,
Spartak qətiyyəti,
Oxuyuram Nazim Hikməti!

Başımın üstündə zamanın şimşəyi,
Qəlbində,
Dənizə dönməyin tükənməz istəyi.
Qulağında zindan gözətçisinin,
Addımlarının səsi,
Bir də Pol Ropsonun nəğməsi.
Gözündə yazmaq eşqi,
Yaratmaq həvəsi.
Beynində inqilabın dalğası,
Azadlığın havası.
Başında
Həqiqətə arxalanan xəyal.

“Biləyində qızıl bilərzik kimi
gəzdirdiyi” qandal.
Əyə bilmir,
Şərqin yenilməz oğlunu,
Ağrının əzabı, vərəmin illəti,
Oxuyuram Nazim Hikməti!

Qanadını qırırlar,
Qara buludları yarmaq istəyən,
Zirvə arzulu bir quşun.
Yolu bağlanır səadətin,
Önü kəsilir qurtuluşun.
Cilovlanır imkanları,
Ağlın, idrakın, huşun.
Boğazına qurğuşun tökülür
Həqiqəti deyənin, qurğuşun!
Gəzəndə, duranda,
Yeri dar olsa da,
Yatanda altı buz,
Üstü qar olsa da,
Həmdəmi, sirdaşı,
Dörd divar olsa da,
Dayanmır bircə an yerində,
Fikrin, düşüncənin,
Xəyalın vüsəti,
Oxuyuram Nazim Hikməti!

Kəsib qapıların ağzını,
Haqsız ölümlər, yersiz işgəncələr.
Xalqın gününü göy əsgiyə büküb,
Yırtıcı vəhşiliklər, qara pəncələr.
Şeir deyənin dilini kəsiblər,
Şəkil çəkənin əlini.
Neçə ocaq söndürüblər,
Göyə sovurublar,

Doğru danışanın külünü.
Qanla, qarğışla, günahla,
Ev dolu, eşik dolu, xana dolu.
Qovrulub dərd içində,
İstanbul, Ərzurum, Anadolu.
Kirpiyiylə od götürüb,
İstəkli anası – Ayişəsi.
Bir də canından çox istədiyi,
"İnfarkt"ım dediyi məmləkəti,
Oxuyuram Nazim Hikməti!

Şöhrəti dağlarla yanaşı dursa da,
Bir ömür nə qədər gödəlib Bursada!
Yatanda
Gözünün yuxusu gəlməyib.
Duranda, burnuna
Bir gülün, çiçəyin
Qoxusu dəyməyib.
Üşüyüb şaxtada,
Titrəyib sazaqda.
Nəfəsi ocağın
Oduna çatmayıb.
Əlləri sevdiyi
Qadına çatmayıb.
Vətənin dadına çatmaq istəyib,
Vətəni bircə gün dadına çatmayıb.
Dözülməz, çəkilməz bir dərd olub,
Xalqın faciəsi,
Şairin müsibəti,
Oxuyuram Nazim Hikməti!

"Sevilən bir kitab üstündə səhəri açan",
Nurunu
Oxuduğu kitab kimi hər yana saçan,
Ulduzların altında

Yatmağı xoşlayan,
Hər gecə təzə bir,
Nəğmə başlayan,
Zindan döşəməsində
Yastığını daş edən,
Dünyanın taleyini
Öz alovlu qəlbinə
Əbədi sirdaş edən,
Ucaldıb şeirin bayrağını
Odlu nəfəsi, üsyankar sənəti,
Oxuyuram Nazim Hikməti!

Heyf! Uzada bilmədi,
İllərin ömrünü.
Son ucu Sofiyada,
Parisdə, Moskvada,
Keçən bir ömür.
Ancaq bəşərin
Bir gözəl təsəllisi var –
Ölməz olan kəslərə,
Heç kəs "öldü" demir.
Sözü yazılır ürəklərə,
Nuru köçür bəbəklərə.
Tay olur, yoldaş olur,
Nəsimilərə, Babəklərə!
Kəndə, şəhərə çevrilir,
Dönür bir dan ulduzuna,
Nurlu səhərə çevrilir.
Sözünü deyir axırda
Əsrin sınağı, zamanın həqiqəti,
Oxuyuram Nazim Hikməti!

Sənətin qədrini bilənlər,
Şairin yurdundan gələnlər,
"Nazimə Türkiyə sovqatı" gətirir.

Kimisi bir ovuc torpaq götürür,
Kimisi bir ağız bayatı gətirir.
Məsləkin, əqidənin,
Dönməz əsgərinə,
Hər gəliş ölməzlik bəxş edir,
Dirilik həyatı gətirir.
Qələm əlimdə, dəftər qabağımda,
Bu misralar səslənir dodağımda:
“Mən yanmasam,
Sən yanmasan,
Biz yanmasaq
Necə çıxar
Qaranlıqlar aydınlığa!”
Girişmişəm işə,
Fikrimi bir yerə yığa-yığa.
Mənə təzə şeir yazdırır,
Nazim həsrəti, Nazim məhəbbəti,
Oxuyuram Nazim Hikməti!!!

KİŞİ

Məhəmməd Əmin Rəsulzadənin
məzarı başında düşüncələr

Yetmiş illik ayrılıq axır ki, çatdı sona,
Salam! Rəsul övladı Məhəmməd Əmin kişi!
Yordum uzaq yolları, səsinlə, sorağınla,
Qırdım axır belini həsrətin, qəmin, kişi!

Məzarına baxanın kirpiyində nəm gördüm,
Ağ mərmərin üzündə qara donlu qəm gördüm.
Sənin kimi yarımaz bir qisməti kəm gördüm,
Acıdım taleyinə min bəxti kəmin, kişi!

Sağ olsun məzarını ağ mərmərə tutanlar,
Dilindəki sözləri seçib zərə tutanlar.
Qoy tarixdən utansın səni şərə tutanlar,
Yaman getdi əlindən fürsətin, çəmin, kişi!

Tanrı səni yaratdı, bir də çətin yarada,
Sən qurtuluş istədin, qanlar axdı arada.
Beşiyin Bakıdadır, məzarın Ankarada,
Sənin Vətəndən özgə kimin var, kimin, kişi!

Nələr çəkib başımız, dərdimizdən halıydın,
Yaralı bir nəğmənin unudulmaz xalıydın.
Sən də bizim torpağın Mustafa Kamalıydın,
Heyf! Sünbül tutmamış biçildi zəmin, kişi!

Sizdən sonra gələnlər qara yeltək əsdilər,
Bizi bizdən almağa coşdular, tələsdilər.
Məğrur saraylar yapan düz əlləri kəsdilər,
Daşı düz qoyulmadı özülün, himin, kişi!

Ana öz övladını qoymaz gözündən yana,
Vətənin ölməz oğlu, gedək Azərbaycana.
Millət "İstiqlal!" deyə yenidən gəlir cana,
Özün çal havasını köklənən simin, kişi!

Kəsilməz xalqın kökü, dərindədir, dərində,
Zaman çəkib oturdar hər kəsi öz yerində.
İllər gəlib keçsə də, sən xalqın nəzərində
Yenə həmin oğulsan, yenə də həmin kişi!
Bu böyük həqiqətə əmin ol, əmin, kişi!
Salam! Rəsul övladı, Məhəmməd Əmin kişi!!!

ÇAMLICA

İstanbula baxırsansa, Çamlıcadan bax,
Qoy görünən gözəlliyin taxtı görünsün.
Ən istəkli nəğməsini oxusun dodaq,
Qoy tarixin ən işıqlı vaxtı görünsün.

İstanbula baxırsansa, Çamlıcadan bax,
Baxışında bu şəhərin baxışı qalsın.
Ürəyində Günəş boyda yansın çilçıraq,
Yaddaşında sarayların naxışı qalsın.

İstanbula baxırsansa, Çamlıcadan bax,
Qəlbin dəniz laylasına qoy qulaq assın.
Fatehlərə, sultanlara açılan qucaq,
Bir gecəlik qoy səni də bağrına bassın.

İstanbula baxırsansa, Çamlıcadan bax,
Türkiyənin göz bəbəyi gözdə nur olsun.
Elə bax ki, sinən altda alışsın ocaq,
Doğma səslər qaynağında səsin gur olsun.

İstanbula baxırsansa, Çamlıcadan bax,
Yoxuş çıxıb, yol yerisən zəhmətə baxma.
Az da olsa ucalığa qonaq ol, qonaq,
Bu bir Tanrı fürsətidir, əldən buraxma!

İstanbula baxırsansa, Çamlıcadan bax,
Heyran qalıb hər baxışa uyursan onda.
Nə deməkdi kişilərin qoyduğu papaq,
Türkün gücü nə deməkdi, duyursan onda!

ZİYARƏTİN QƏBUL OLSUN, İNSAN OĞLU

Bir od axdı ürəyimdən dodağıma,
Sətir-sətir sözlər düşdü varağıma.
Pıçıltılı bir səs gəldi qulağıma,
Ziyarətin qəbul olsun, insan oğlu!

Bu səfərdə şərəf, zəhmət, yorulmaq var,
Bir inama min inamla vurulmaq var.
Bu səs dedi çalxalanıb durulmaq var,
Ziyarətin qəbul olsun, insan oğlu!

Niyyət elə, arzuların seç xasını,
Təmiz saxla qəlbin, ruhun aynasını.
Duyğuların sil tozunu, aç pasını,
Ziyarətin qəbul olsun, insan oğlu!

Məzar-məzar xatırladın ölənləri,
Səndən əvvəl bu dünyaya gələnləri.
Sən də aşdın Kərəm aşan bələnləri,
Ziyarətin qəbul olsun, insan oğlu!

Bu Qars oldu, bu Qağızman, bu Ərdahan,
Bu Konyadı – Mövlanası nurlu cahan.
Dolmabağça – qızıl tağlı bir asiman,
Ziyarətin qəbul olsun, insan oğlu!

Sadiq olub haqdan enib gələn əmrə,
Dadaloğlu, Qaracoğlan, Yunus Əmrə.
Nurun yağsın neçə qəlbə, neçə ömrə,
Ziyarətin qəbul olsun, insan oğlu!

Heyran qaldım bu sevgiyə, bu heyrətə,
Dağ baş əyər dağdan ağır məhəbbətə,
Sən özün də çevrilərsən ziyarətə,
Ziyarətin qəbul olsun, insan oğlu!

Bir qaydadı, baxan görər, gəzən tapar,
Eşqin gücü birnəfəsə dağlar çapar.
Yoluna göz dikənlərə işıq apar,
Ziyarətin qəbul olsun, insan oğlu!

Ömür keçər, bir qırpımdı, bircə andı,
Mən bilirəm səni çəkən ruhdu, qandı.
Mən ocağam, sənin adın Zəlimxandı,
Ziyarətin qəbul olsun, insan oğlu!

YAXŞI Kİ...

Yaxşı ki, zirvələr sal buzdu,
Hər saat çıxmaq olmur.
Yaxşı ki, üfüqlər sonsuzdu,
Başabaş baxmaq olmur.
Yaxşı ki, saysızdı ulduzlar,
Barmaqla saymaq olmur.
Yaxşı ki, ucadı dağlar,
Yaxşı ki, dərindi dərələr,
Yaxşı ki, doyulmazdı mənzərələr,
Baxmaqla doymaq olmur.
Yaxşı ki, genişdi dünya,
Ayağın tutduqca gəz,
Min il yerisən belə,
Yollar bitib-tükənməz!
Başımızın üstü göydü,
Ayağımızın altı torpaqdı,
Torpağın qoynu sudu.
Zirvələrə çıxmaq da,
Dənizlərdə üzmək də,
Üfüqlərə baxmaq da,
Buludlarda süzmək də
İnsanın ən böyük diləyi,
Ən gözəl arzusudu!
Bunların hamısı,
Təbiətin insana verdiyi,
Ən dadlı nemətdi,
Ən şirin paydı.
Həyat bir qəpiyə dəyməzdi,
Bu ucalıq,
Bu dərinlik,
Bu genişlik,
Bu sonsuzluq olmasaydı!!!

MEMAR SİNAN

Türkün sehrkar oğlu, möcüzələr ustadı,
İnsanı daş eylədi, daşdan insan yaratdı!
Dindirdi tarixləri naxışların diliylə,
Nəfəs qatdı rənglərə, ruh verdi, can yaratdı!

Bu qüdrət necə sığıb bir ömrün sərhədinə,
Bir cahanın içində min-bir cahan yaratdı!
Harda heyrətə gəldim, harda ki heyran oldum,
Soruşanda dedilər: Memar Sinan yaratdı!

TAPŞIRIQ

Türkiyəyə gedirsən, uğurlar olsun sənə,
Dumanlı suallara aydın bir cavab gətir!
Biz nəyi düşünürük, bizi nə düşündürür,
Lap yerin deşiyindən axtar onu, tap gətir!

Hələ çıxa bilmirik qanlı qadalı yasdan,
Balalarımız şəhid, dərdimiz dildə dastan.
İstanbuldan, Bursadan, Ərzurumdan, Sivasdan,
Yaramızı tikməyə iynə gətir, sap gətir!

Qondarma yazıların ləzzət gəzmə dadında,
Ölməz kitablar qalır nəsillərin yadında.
Burdan bir kitab apar Azərbaycan adında,
Ordan Türkiyə adlı ulu bir kitab gətir!

Yunusu nə ucaldıb söz mülkünün taxtına,
Mövlana hardan doğub millətimin baxtına.
Atilladan ayna tut Atatürkün vaxtına,
Qayalar sirr verməsə, sinəsini çap gətir!

Bu ürək səndə yoxsa, o meydana girmə sən,
Ömrünü hədər verib, vaxtını itirmə sən.
Türkün ürəyi boyda Türkiyə gətirməsən,
Nə özünə zəhmət ver, nə bizə əzab gətir!

SALAM, İSTANBUL!

Salam, İstanbulum, işığım, nurum,
Hüsnünə könlümü verdiyim şəhər.
Dolmabağçasına, Çamlıcasına,
Nəğmələr çələngi hördüyüm şəhər.

Dərələr içində, təpələr üstə,
Dənizlər qoynunda, ləpələr üstə,
Naxışlar, xalılar, gəbələr üstə,
Ruhumu çəməntək sərdiyim şəhər.

Yerin ləngəriymiş, göyün səsiymiş,
Bir görüş insanın min il bəsiymiş.
Dünyanın ən qədim əfsanəsiymiş,
Tez-tez yuxularda gördüyüm şəhər.

Gəzirəm könlümə nur yağa-yağa,
Hər baxış qəlbimi döndərir dağa.
Gülxanə parkıymış başdan-ayağa,
Zərif güllərini dərdiyim şəhər.

İstanbul, 1994, yanvar

“TÜRK OCAĞI”NDA GÖRÜŞ

Meydan bizim, şəhər bizim, yurd bizim,
Biz nə küncdə, nə bucaqda görüşdük.
Özül daşı min il əvvəl qoyulmuş,
Ağ sarayda, gen otaqda görüşdük.

Öz elimdi türkün eli, ulusu,
Ulu tarix, ulu torpaq, ulu su.
Görə bildik gözlərimiz dolusu,
Sevgi adlı bir bulaqda görüşdük.

Kitabım bir, imanım bir, dinim bir,
Süsənim bir, sünbülüm bir, dənim bir.
Olacaq bir, dönəcək bir, dönüm bir,
Bir kök üstə min budaqda görüşdük.

Görüşənlər bir-birinə yovuşdu,
Bir olanda dərd bizlərdən sovuşdu.
Dünənimiz, bu günümüz qovuşdu,
Həm yaxında, həm uzaqda görüşdük.

Öz ömründən ömürlərə pay verən,
Bayrağına ulduz verən, Ay verən,
Gündoğandan günbatana hay verən
Möcüzəli bir torpaqda görüşdük.

“Türk ocağı” beşiyidir türkümün,
Türküm oddu, türküm səsdi, türküm ün.
Tarixidi görkəmimin, görkümün,
Bax bu yurdda, bu ocaqda görüşdük.

İstanbul, 1994, yanvar

QAN DAMLATSAN, CAN BİTƏR

İstanbulda bizi – bir qrup Azərbaycan ziyalısını "Zaman" qəzetinin redaksiyasına dəvət etmişdilər. Xalqımızın, torpağımızın ağrılı-acılı taleyindən qızğın və göynərtili söhbətlər gedirdi. Qəzetin baş redaktoru ***Nacib Tosun*** *"Azərbaycan torpağına qan damlatsan can bitər", – deyib ağladı. Ürəkləri titrədən bu mənzərədən hamının gözləri yaşardı. Bu unudulmaz görüşdən mənə kövrək misralar yadigar qaldı.*

Gözəl dedin, arkadaşım, qardaşım,
Bu torpağa qan damlatsan, can bitər!
Könüldaşım, məsləkdaşım, qandaşım,
Yer şumlanar, toxum düşər, dən bitər,
Bu torpağa qan damlatsan, can bitər!

Ala bilməz nə müxənnət, nə yağı,
Qeyrətimdi millətimin dayağı.
Palıd durar sal qayalar sayağı,
Çinar qalxıb zirvələrlə tən bitər,
Bu torpağa qan damlatsan, can bitər!

Bu torpaqdı, hey yoğrular, yapılar,
Hər qarışı məbəd kimi öpülər.
Haqqın sözü cərgələnər, səpilər,
İnsaf bitər, iman bitər, din bitər,
Bu torpağa qan damlatsan, can bitər!

Düşmən sayar hər yamanı, hər bədi,
Tutduğu yol haqsızlığa zərbədi.
Hər məzarı bir müqəddəs türbədi,
Bu torpağa qan damlatsan, can bitər!

Dağlarından dözüm alıb sehrimiz,
Sinəsində ruhum naxış, qəbrim iz.
Qucağında çiçək açar qəbrimiz,
Bu torpağa qan damlatsan, can bitər!

Aya, günə tən yeriyəm dünyanın,
İşığıyam, dan yeriyəm dünyanın,
Bir tükənməz dan yeriyəm dünyanın,
Kim becərsə, şöhrət bitər, şan bitər,
Bu torpağa qan damlatsan, can bitər!

Ondan ayrı saçlarıma dən düşər,
Bulud enər, gözlərimə çən düşər,
Hansı alma budağından gen düşər,
Hansı budaq gövdəsindən yan bitər,
Bu torpağa qan damlatsan, can bitər!

Amanımı payız kəsər, qış qırar,
Ruhum yenə "Vətən" deyib qışqırar.
Hər zərrədən şəhid qanı fışqırar,
Bu torpağa qan damlatsan, can bitər!

Hədər yerə vaxtı, anı itirməz,
Canda ruhu, ruhda canı itirməz,
Öldürsə də Zəlimxanı itirməz,
Sabah yenə xan göyərər, xan bitər,
Bu torpağa qan damlatsan, can bitər!

İstanbul, 1994, yanvar

GÖYQURŞAĞI

Gözüm gördü, könlüm sevdi, vuruldu,
Taxtım-tacım göy üzündə quruldu.
Duyğularım çeşmə kimi duruldu,
Eşqin nuru, bəxtin ağı göründü!
İstanbulda göyqurşağı göründü!

Allah dedim, tapınmadım bütə mən,
Ucalıqda Aydan, Gündən ötə mən.
Atilla mən, Alparslan mən, Mete mən,
Yurdun neçə yanar dağı göründü!
İstanbulda göyqurşağı göründü!

Osman kimi ər ad gəldi dünyaya,
Orxan gəldi, Murad gəldi dünyaya,
Fateh ilə həyat gəldi dünyaya,
Sarayların qızıl tağı göründü!
İstanbulda göyqurşağı göründü!

Üfüqləri çiyni üstə saxlayan,
At üstündə sellər kimi çağlayan,
Gündoğanı günbatana bağlayan,
Ürəklərin bəndi, bağı göründü!
İstanbulda göyqurşağı göründü!

O nur türkün səhəriydi, danıydı,
Çanaqqala şəhidinin qanıydı,
Ömrümüzün ən mənalı qanıydı,
Türk əsrinin gülən çağı göründü!
İstanbulda göyqurşağı göründü!

Yer də, göy də çiçək oldu gözümdə,
Gözəl oldu, göyçək oldu gözümdə.
Gördüklərim mələk oldu gözümdə,
Məscidlərin güllü bağı göründü!
Yer üzünün nemətindən doymamış,
Gözlərimə göyqurşağı göründü!

İstanbul, 1994, yanvar

MƏKKƏ YOLU

Bu yol Məkkə yoludu,
Bu yol şərəf-şan yolu.
İnsana, insanlığa,
Nurlu Kəhkəşan yolu.

Göydən gələn səslərin,
Səsi duyan kəslərin,
Əsil müqəddəslərin,
Əbədi nişan yolu.

Ürəkdən gələn sözün,
Sözdən yaşaran gözün,
Gözdə alışan közün,
Həddini aşan yolu.

Arzuların, kamların,
Sevgi dolu camların,
Haqqa qul adamların,
Qaynayıb daşan yolu.

Fürsət verər duyana,
Canı haqqa qıyana.
Günahını yuyana,
Ən böyük imkan yolu.

Gedən dost, gələn Hacı,
Peyğəmbərin meracı.
Bütün yolların tacı,
Din yolu, iman yolu.

Bu yol Məkkə yoludu,
Duyğuların saf yolu,
Tövbə, etiraf yolu,
Mərhəmət, insaf yolu.

Fikirlərin, hisslərin,
Su kimi şəffaf yolu!
Haqq yolu, vicdan yolu,
Din yolu, iman yolu!

Gözsüzlərə gur işıq,
Cansızlara can yolu!
Əbədiyyət yolunda
Əbədi nişan yolu!!!

Bakı-Ciddə, 1994, iyul

MƏKKƏDƏ

Çağırdıq qadir Allahı,
Yazıldı qismət Məkkədə.
Çəkdi bizi ziyarətə,
Ulu bir qüdrət Məkkədə.

Həftələr aya qovuşdu,
Çeşmələr çaya qovuşdu.
Damla dəryaya qovuşdu,
Yox oldu həsrət Məkkədə.

Şəkər imiş sözdən ötrü,
İşıq imiş gözdən ötrü,
Zəmzəm suyu bizdən ötrü,
Oldu bir şərbət Məkkədə.

Fikir fikrə heyran oldu,
Səsimizi yayan oldu.
Baxanlara əyan oldu,
Əsil həqiqət Məkkədə.

Yerdən göyə məhəbbət var,
Göydən yerə mərhəmət var.
Haqqa doğru hərəkət var,
Bircədi sifət Məkkədə.

Nur yaranıb, zor doğulub,
İmam, peyğəmbər doğulub.
Əli kimi ər doğulub,
Kəbəsi Hikmət Məkkədə.

Dilində Quran ayəsi,
Üstündə haqqın sayəsi.
Allahdandı sərmayəsi,
Tükənməz sərvət Məkkədə.

Geyindik ehram paltarı,
Ağlığı dağların qarı.
Yeridik qibləyə sarı,
Qıldıq ibadət Məkkədə.

Sevgi çələngi, gül toxuduq,
Ətir daddıq, gül qoxuduq.
İmama rəhmət oxuduq,
Yezidə lənət Məkkədə.

Aydınlığı haqqın nuru,
Təmizliyi sudan duru.
Bu şöhrəti, bu uğuru,
Yaradıb qeyrət Məkkədə.

Əl vuranda qara daşa,
Az qalır ki, ağlın çaşa.
Nə gördüksə başdan-başa,
Heyrətdi, heyrət, Məkkədə.

Nahaq yerə ürək yarma,
Haqq olmasan, haqqa varma.
Ey insan, cənnət axtarma,
Gəzdiyin cənnət Məkkədə.

Baxışlardan nur tökülür,
Dodaqlardan dürr tökülür.
Hər yerdən şükür tökülür,
Yoxdu şikayət Məkkədə.

Tarix qədim, dərgah ulu,
Torpaq odlu, çeşmə sulu.
Kim olsa Allahın qulu,
Çəkməz xəcalət Məkkədə.

Baxın Kəbənin yaşına,
Dünya dolanır başına.
Toz qonsa bircə daşına,
Qopar qiyamət Məkkədə.

Ən uca dövlət kimidir,
Ən dadlı qismət kimidir,
Allaha xidmət kimdir,
Kəbəyə xidmət Məkkədə.

Hər ürək bir dolu camdı,
Hər könül bir yanan şamdı.
Sabaha bir ehtiramdı,
Dünənə diqqət Məkkədə.

Bir tanış ol, yaxşı tanış,
Qələmim, yaz, dilim, danış.
Allah əli toxunmamış,
Yoxdu bir sənət Məkkədə.

Ər demişik ərənlərə,
Haqqa könül verənlərə.
Məhəmmədi görənlərə,
Var bir şərafət Məkkədə.

Yaxın gəlməz ağrı-acı,
İman olsa başın tacı.
Zəlimxan da oldu Hacı,
Tapdı səadət Məkkədə!

Məkkə, 1994, iyul

ŞAİRİN ANDI

Ey qadir Allah! Sənə ona görə səcdə eləmirəm ki, Sənin cənnətinə tamahım var, ona görə səcdə eləmirəm ki, Sənin cəhənnəmindən qorxuram. Sənə ona görə səcdə edirəm ki, Sən bu səcdəyə layiqsən.

Həzrəti Əli

Allah evi! And içirəm,
Ərənlərin canı haqqı!
Məni sənlə görüşdürən,
Vaxtın xoşbəxt anı haqqı!

Ürəklərin dolu camı,
Könüllərin yanan şamı,
Gecələrin dadı, tamı,
Sübhün nurlu danı haqqı!

Fikri səf-səf olanların,
Haqqa tərəf olanların,
İşi şərəf olanların,
Ölməz adı-sanı haqqı!

Düzün gülü, dağın qarı,
Göyün nuru, yerin barı,
Güldən şirə çəkən arı,
Bal süzdürən şanı haqqı!

Təmizlərin təravəti,
Halalların ləyaqəti,
Zirvələrin əzəməti,
Otun, suyun sanı haqqı!

Doğan günün, xoş saatın,
Üzə gülən bir həyatın,
Yerin, göyün, Kainatın,
Əbədi nişanı haqqı!

Mənim fikrim, mənim hissim,
Haqq yolundan dönməyəcək!
Əqidəmin qulluğunda,
Məhəbbətim sönməyəcək!

Əl vurub Kəbə daşına,
Olmuşamsa haqq aşığı –
Mənim süfrəm indən belə,
Haqq xörəyi, haqq qaşığı!

Ey evimə gələn qonaq,
Süfrəmdə şərab görməzsən.
Canımda bir narahatlıq,
Ruhumda əzab görməzsən.

Haqqı səpə bilməyənlər,
Həqiqəti dərə bilməz.
Heç kəs məni əqidəmdən,
Yolumdan döndərə bilməz!

Qarışqa məndən inciməz,
Danışaram, dilim təmiz.
Yatanda yatağım halal,
Qalxanda mənzilim təmiz.

Özünü yormasın şeytan,
Onu yaxına qoymaram.
Ömrüm boyu haqq yolunda
Qılıncı qına qoymaram!

İnanıram, mən əl vursam,
Əlim qumu göyərdəcək.

Nəfəsim daşlar üstünə,
Düşən tumu göyərdəcək!

Minadan ucalan eşqim,
Kəbədən güc alan eşqim,
Məkkədə hac olan eşqim,
Saf toxumu göyərdəcək!

Mən ki qırx beş yaş içində,
Zəvvar oldum ziyarətə,
Girdim Kəbə qapısından,
Durdum haqqa ibadətə.

Mən ki Zəmzəm bulağında,
Əl-üzümü yuya bildim,
Göz gördü, qulaq eşitdi,
Həqiqəti duya bildim.

Mən ki ehram paltarına,
Cənnət ətri səpə bildim.
Dilim "Allah!" deyə-deyə,
Qara daşdan öpə bildim.

Mən ki Məkkə xatirəli,
Bir səfərin zəvvarıyam.
Peyğəmbərin Mədinəsi,[1]
Bir şəhərin zəvvarıyam.

Bulaqların gözü kimi,
Ruhun təmiz olmalıdı.
Könülləri isitməyə,
Eşqin dəniz olmalıdı!

[1] Məhəmməd Peyğəmbər 622-ci ildə Məkkədən Mədinəyə hicrət etmiş, burada müsəlman icması (ummu) yaratmışdır. Peyğəmbərin qəbri də Mədinədədir.

Gələn gəlmiş axın-axın,
Daha mənə indən belə.
Hamı doğma, hamı yaxın,
Hamı əziz olmalıdı!

Bu söhbəti mən demirəm,
Bu Hikməti Quran deyir.
Haqqın ulu dərgahına,
Öz evitək varan deyir.

Meraca çapıb atını,
Dində tapıb həyatını,
Göyün yeddinci qatını,
Bir gecədə yaran deyir.

Ziyarəti qəbul olan,
Hekayəti məqbul olan,
Allahına Rəsul olan,
İman əhli iman deyir.

Ulu tanrım! Varlığımı,
Bu imana layiq eylə!
Peyğəmbərin damarından,
Axan qana layiq eylə!

Daha mənə ölüm yoxdu,
Daha mənə zaval yoxdu.
Daha mənim dəftərimdə,
Həqiqət var, xəyal yoxdu!

Daha mənim yeriyəndə,
Büdrəməyə haqqım yoxdu.
Daha mənim danışanda,
Titrəməyə haqqım yoxdu!

Əlin harama haqqı yox,
Dilin yalana haqqı yox.
Qəlbin kinə-küdurətə,
Nəfsin talana haqqı yox,

Qadir Allah, daha mənim,
Günahımı bağışlama!
Bir nemətə əyri baxsam,
Tamahımı bağışlama!

Şair könlüm, indən belə,
Günah sənin işin deyil.
Alan alsın, verən versin,
Tamah sənin işin deyil!

Çəkil xəlvət bir guşəyə,
Qələm olsun, varaq olsun.
Qəlbin, ruhun haqq yolunda,
Şölələnən çıraq olsun!

Dözüm min-bir əzabına,
Hər haqqına, hesabına.
Canım qurban kitabına,
Canı cana layiq eylə!

Haqqın yerdə nişanıyam,
Övliyalar mehmanıyam.
Hər kimin ki heyranıyam,
O heyrana layiq eylə!

Dərk elədim hikmətini,
Bildim ki, nəyə layiqsən.
Səcdə qılır bəşər sənə,
Sən bu səcdəyə layiqsən!

Qayaların sinəsindən,
Qalxan atəşə layiqsən.
Gedən vaxta, gələn günə,
Doğan Günəşə layiqsən!

Buludların yağışına,
Çiçəklərin naxışına,
Ulduzların baxışına,
Göyün rənginə layiqsən!

Bu qurğunun, bu nizamın,
Öz əlinlə yanan şamın,
Bu əbədi ehtişamın,
Xoş ahənginə layiqsən!!!

Məkkə-Bakı, 1994, avqust

ALLAH EVİNDƏ

Uçur, qanadlanır Allaha doğru,
İnsan bir quş olur, Allah evində!
Duyduğu, gördüyü, fikirləşdiyi,
İnsana nuş olur, Allah evində!

Qüdrətdən xəlq olub, nur doğulubdu,
Möcüzə yaranıb, sirr doğulubdu,
Burda Əli kimi şir doğulubdu,
Könüllər xoş olur, Allah evində!

Quşun lələyindən yüngül olur can,
Durulub damarda nura dönür qan.
İncəlir, kövrəlir, saflaşır insan,
Yanaqlar yaş olur, Allah evində!

Allahdan güc alır hər yanda insan,
Cahandan böyükdü cahanda insan.
Qara daş sehrini duyanda insan,
Heyrətdən daş olur, Allah evində!

Qızıl qapılarla öpüşən günü,
Ən uca arzuyla tapışan günü,
Kəbənin qulpundan yapışan günü,
Bir ömür beş olur, Allah evində!

Şərəfdi insanın dağlar aşması,
Ruhun kükrəməsi, qəlbin daşması.

Bəndənin Allahla yaxınlaşması
Ən böyük iş olur, Allah evində!

Doymazsan, bir dəfə baxsan da azı,
Silinməz tarixdi, pozulmaz yazı.
Kəbənin içində qılsan namazı,
Hər şeydən baş olur, Allah evində!

Məkkə – Bakı, 1994, avqust

ULU MƏKKƏ

Ulu Məkkə gələnlərə deyir ki,
Təmizlən get, çalxalan get, durul get!
Dinimizin qüdrətini dərk elə,
Yerin, göyün hikmətinə vurul get!

Doyma heç vaxt adamından dünyanın,
Nə dadından, nə tamından dünyanın,
Dala qalma nizamından dünyanın,
Kəbə üstə saat kimi qurul get!

Baha saxla bu görüşü, bu andı,
Əqidəsiz könül mülkü virandı.
Ömrə düşən bir fürsətdi, bir andı,
Qollarınla Qara daşa sarıl get!

Məkkə, 1994, iyul

İŞIQLAN KƏBƏNİN NURUNDA, KÖNLÜM

Bu da bir fürsətdi baxtına düşüb,
Baxtın ucalığın taxtına düşüb.
Zamanına düşüb, vaxtına düşüb,
İşıqlan Kəbənin nurunda, könlüm!

Sirdaş ol ulduzla, Günəşlə, Ayla,
Yoldaş ol çəmənlə, çeşməylə, çayla.
Aldığın işığı dünyaya payla,
İşıqlan Kəbənin nurunda, könlüm!

Amandı, çökməsin sis ürəklərə,
Qaranlıq gətirir his ürəklərə.
Allah nuru payla pis ürəklərə,
İşıqlan Kəbənin nurunda, könlüm!

İmanı olanlar dumandan çıxar,
Şübhədən sıyrılar, gümandan çıxar.
Nə çıxsa yenə də imandan çıxar,
İşıqlan Kəbənin nurunda, könlüm!

Sığın bu dünyanın yaraşığına,
Peyğəmbər nuruna, haqq işığına.
Çevril sevə-sevə haqq aşığına,
İşıqlan Kəbənin nurunda, könlüm!

Tanrı işığında hamı nurlanar,
Dünyanın sarayı, damı nurlanar.
Yanar ürəklərin şamı nurlanar,
İşıqlan Kəbənin nurunda, könlüm!

Hər kim Qara daşı əyilib öpər,
Dizinə güc gələr, qəlbinə təpər.
Yaxşılıq yağdırar, aydınlıq səpər,
İşıqlan Kəbənin nurunda, könlüm!

Süd kimi təmiz ol, qar kimi ağ ol,
Çırpınma şübhənin torunda, könlüm!
Alış ömrün boyu müqəddəsliyin,
Odunda, közündə, qorunda könlüm!
Bəndənin şöhrəti Allah nurudu,
İşıqlan Kəbənin nurunda, könlüm!

Məkkə, 1994, iyul

KƏBƏNİN QARA DAŞI

Allahın əliylə göylərdən düşüb,
Bəndənin gözləri görüb bu daşı.
Görən zəmanənin peyğəmbəriydi,
Kəbə divarına hörüb bu daşı.

Mərmər çiçəklənib, daşlar göyərib,
Xalıya, xalçaya, gəbəyə dönüb.
Bir daşın eşqinə qumların üstü,
Məkkəyə çevrilib, Kəbəyə dönüb.

"Birləşin!" – nidası Allah yolunda,
Çağırır qardaşı qardaşa doğru.
Qara daş islamın üz ağlığıdı,
Bir dünya üz tutur bir daşa doğru.

Min dörd yüz ildir ki, ziyarətdədir,
Min dörd yüz ildir ki, öpülür bu daş.
Ətrə, təravətə, nura çevrilib,
Bütün yer üzünə səpilir bu daş!

Üzümü döşədim, alnımı qoydum,
Üstündə dualar oxunan daşa.
Mənim də əllərim dəydi, toxundu,
Peyğəmbər əlləri toxunan daşa!

Sözümə baxmadı gözümün yaşı,
Ürəyim içəridən oyuldu getdi.
Mən elə bildim ki, bir an içində,
Bütün günahlarım yuyuldu getdi!

Dizlərim torpaqda, əllərim Haqda,
Zamanım Tanrıyla vəhdətdə keçdi.
Çəkildim Kəbənin bir bucağına,
Dilim Allahımla söhbətdə keçdi.

Bu vəhdət – özünə müsəlman deyən,
Bütün könüllərin birləşməsiydi.
Adəmin, xatəmin, əvvəlin, sonun,
Bir insan qəlbinə yerləşməsiydi!

Bu görüş taleyin, vaxtın, zamanın,
Yatmış duyğuları oyatmasıydı.
Allahı əlindən alınanların,
Yenidən Allaha qayıtmasıydı!

Kəbənin köksündə çarpan ürəkdi,
Gözün rəngi kimi qaradır bu daş.
İslam bayrağını qaldırıb göyə,
İslam birliyini yaradır bu daş!

Məkkə, 1994, iyul

PEYĞƏMBƏRİM

*Həzrəti peyğəmbərimiz **Məhəmməd Əleyhissəlamın** məzarı önündə yaşadığım duyğular əbədiyyət duyğuları idi*

Ey ulu Tanrının əziz bəndəsi,
Allahın diliylə danışan insan.
Yerlərin ləngəri, göylərin səsi,
Varlığı Allahdan bir nişan insan!

Ey ulu göylərin yeddi qatıyla,
Könül dostu kimi dil tapan insan.
Ömrünün, gününün hər saatıyla
Nurlu könüllərə yol tapan insan!

Məkkə möcüzəsi, Kəbə memarı,
Sehrdən yoğrulan, sirr olan insan.
Miskinlər həmdəmi, yetimlər yarı,
İşığı dünyayla bir olan insan!

İlki də, sonu da bilən, bildirən,
Ey bəşər nəslinin son peyğəmbəri.
Dünyanın üzünü haqqa döndərən,
Qiblə peyğəmbəri, yön peyğəmbəri!

Allahdan bəndəyə müjdələr verən,
Ən uca elçisən, ya Rəsulallah!
İnsana insanlıq yolu göstərən,
Ən böyük ölçüsən, ya Rəsulallah!

Sənə salam üçün, ehtiram üçün,
Pak əllər üzlərin xidmətindədir.
Eşqinlə yaranmış bir inam üçün,
Günəş gündüzlərin xidmətindədir!

Eşqinlə çırpındı, yandı, əridi,
Haqqın işığına bürünən mələk.
Bütün mələklərin bəxtəvəridi,
İlk dəfə gözünə görünən mələk.

Dilində dil açar Quran ayəsi,
Könlündə çalxanan dərya yaratdı.
Düşəndə üstünə haqqın sayəsi,
Dünyada ikinci dünya yaratdı!

İşıqdı məscidin, nurdu məzarın,
İşıq peyğəmbərim, nur peyğəmbərim!
Quran ayəsində, haqq kəlamında,
Düzülüb saplara dürr peyğəmbərim!

Bərəkət sünbüldən, dəndən başlanıb,
Ucalıq Tanrıdan, dindən başlanıb.
Mənimçün bu dünya səndən başlanıb,
Eşqi dənizlərdən gur peyğəmbərim!

Bəndələr dəyişir haqq yazanları,
Qaytar həqiqətə yol azanları.
Eşit çəkdiyimiz bu əzanları,
Qurğunu yenidən qur, peyğəmbərim!

Möminlər üzünü qardan ağ eylə,
Əyilən başları qarlı dağ eylə.
Adillər yolunu çilçıraq eylə,
Qatillər boynunu bur, peyğəmbərim!

İstəkli bəndənə verməzsən əzab,
Müşkül suallara səndədir cavab.
Quranın Qurandı, kitabın kitab,
İsrafil çalsa da sur, Peyğəmbərim!!!

Mədinə, 1994, iyul

KƏBƏNİN

Tale yazdı, bəxt oyandı, gün doğdu,
Dərgahında qonaq oldum Kəbənin.
Səcdəsinə əyildikcə əyildim,
Qarşısında yumaq oldum Kəbənin.

Dövrəsində yeddi dəfə dolandım,
Hər baxara, hər tərəfə dolandım.
Ən müqəddəs bir şərəfə dolandım,
Kitabında varaq oldum Kəbənin.

Üstümüzə göydən yağan ətirdi,
Ululara ulu hörmət, xətirdi.
Qadir Allah çəkdi məni gətirdi,
Paklığında uşaq oldum Kəbənin.

Gecələri gündüzlərə qataram,
Ən işıqlı diləklərə çataram.
Torpaq altda şirin-şirin yataram,
Torpağında torpaq oldum Kəbənin!

Mədinə, 1994, iyul

ALLAHU ƏKBƏR

Yaxşı dinlə əzanı,
Yaradanı, yazanı.
Yerin-göyün mizanı,
“Allahu Əkbər!”dədir.

Dan yerindən gələn səs,
Ulu söz, isti nəfəs,
Ürəkdən gələn həvəs,
“Allahu Əkbər!”dədir.

Söz aydın, fikir qəti,
Uca saxla niyyəti.
Dinin əbədiyyəti,
“Allahu Əkbər!”dədir.

Mədinə, 1994, iyul

AÇILDI ÜZÜMÜZƏ KƏBƏNİN QAPILARI

Ulu bir ziyarətin yolunda zəvvar olduq,
Allah bizim yarımız, biz Allaha yar olduq.
Dünyaya təzə gəldik, biz təzədən var olduq,
Ürəklər sudan duru, könüllər aydan arı,
Açıldı üzümüzə Kəbənin qapıları!

Sanki quru səhralar yumşaldı, məxmər oldu,
Göz gördü bu hikməti, ürəyə xəbər oldu.
Dilimizin nidası "Allahu-Əkbər!" oldu,
Fikrimiz, düşüncəmiz dağların dümağ qarı,
Açıldı üzümüzə Kəbənin qapıları!

İllərlə vaxt gəzmişik bu qapını açmağa,
Bu məbədin nurunu ruhumuza saçmağa.
Allah verdi fürsəti, qanadlanıb uçmağa,
Yüz illərin arzusu yetirdi şirin barı,
Açıldı üzümüzə Kəbənin qapıları!

Burda iki tərəf yox, hamı birtərəf oldu,
Durna qatarı kimi möminlər səf-səf oldu.
Ehram paltarı geymək ən böyük şərəf oldu,
Yeridi ağ dalğalar üzü qibləyə sarı,
Açıldı üzümüzə Kəbənin qapıları!

Ağrıların dərmanı, dərdlərin əlacıymış,
Gözün, könlün istəyi, ruhun ehtiyacıymış.
Görüşlərin, yolların, səfərlərin tacıymış,
İllərdi yar gəzirdim, tapdım həqiqi yarı,
Açıldı üzümüzə Kəbənin qapıları!

Mədinə, 1994, iyul

ÇİN SƏFƏRİ

Arzusu tükənməz şair könlümün,
İldə min tərəfə min səfəri var.
Bu dəfə Çin səddi aşılmalıdır,
Bu dəfə qarşıda Çin səfəri var!

Axmaz varaqlara qaynar misralar,
Sevincim, fərəhim çevrilər yasa.
Mənim duyan könlüm, sevən ürəyim
Gündə bir səfərə hazır olmasa!

Şanxay, 1994, mart

PEKİNDƏ GÖRÜŞ

7 mart. Doludur könlüm maraqla,
Coşan vədəsidir damarda qanın.
Pekin sarayında bir təmtəraqla,
Himni qanadlanır Azərbaycanın!

Goru nurla dolsun Əhməd Cavadın,
Qəbri nurla dolsun Üzeyir bəyin.
Ritmini, səsini nə gözəl tapıb,
Ağlın, düşüncənin, qəlbin, ürəyin.

Bəstəkar eşqinin, şair qəlbinin,
Nə yerdə, nə göydə sərhədi yoxmuş.
Allah qüdrəti var sözün canında,
Sözün qarşısında Çin səddi yoxmuş!

Baxıram, sevincdən gözlərim dolur,
Ruhumda, könlümdə uşaq heyrəti.
Ən uca zirvələr fəth etmək olar,
Səfərbər olanda xalqın qeyrəti!

Səsim dalğalanır, sözüm səslənir,
Göyün sinəsində, yerin təkində.
Xalqıma ən böyük hörmət bəslənir,
Bakı havası var bu gün Pekində!

Sevgiylə doluyam başdan-ayağa,
Yaylım atəşiyəm, marş sədasıyam.
Mən bu sevincimlə verib səs-səsə,
Bütün əsrləri, qərinələri,
Bütün nəsilləri oyadasıyam!

Eheey! Qarı düşmən, ayıl, fikirləş,
Baxma Azərbaycan od içindədir!
Onun ağsaqqalı qalxıb ayağa,
Dünən Londondaydı, bu gün Çindədir!

Seçilir gurlayan səslər içində,
Demə ki, əriyib batır səsimiz.
"Hər sözün siqləti dönür bir tona!"
Parisə, Dehliyə, Vaşinqtona,
Pekinə, Şanxaya çatır səsimiz!
Demə ki, əriyib batır səsimiz!

Bu səsdən güc alıb, Azərbaycanın
Dərdini dən kimi üyütmək olar!
Bu yurdun mənəvi sərhədlərini
Dünyanın ən uzaq nöqtələrində,
Dünyanın üzütək böyütmək olar!

Bu səs min illərin dərinliyindən,
Torpağın ən dərin qatından gəlir.
Qədim bir millətin qədimliyindən,
Əslindən, kökündən, zatından gəlir!

Ey bu gün mənimlə dost olan ölkə,
Döndər yollarını Çin ipəyinə.
Ürəkdən inanım mən bu dostluğun,
Nurlu sabahına, gələcəyinə!

Düşməni çox olan bir məmləkətin,
Dostu da həmişə çox olmalıdır.
Sevgilər, istəklər qucaqlaşanda,
Arada Çin səddi yox olmalıdır!

Siyasət elmində sərkərdələr var,
Yeni qat qaldırır, təzə lay açır.

Oğul var, dünyanın qapılarını,
Dünyanın üzünə taybatay açır!

Allaha yaxındır şairin səsi,
Sən bu qapıları bağlama, Tanrım!
Dost-düşmən içində sındırıb bizi,
Sonra bizdən ötrü ağlama, Tanrım!

Qartalam dünyanın xəritəsində,
Fikrimə, arzuma sınmaz qanad ver.
Sinəm dar gələndə duyğularıma,
Eşqimə hüdudsuz bir kainat ver!

Şairin qüdrəti dahiliyində,
Sözün ləyaqəti kəsərindədir.
Min illik heykəli Çin gözəlinin,
Dahi Nizaminin əsərindədir!

Yatmır dahiləri qoca dünyanın,
İlham zaman-zaman iş başındadır.
Bu ulu torpaqla Azərbaycanın,
Dostluğu tarixin yaddaşındadır!

Uzaqdan çağırdı ziyarətinə,
Qədim məbəd bizi, qara daş bizi.
Yenidən bağladı bir-birimizə,
Nizamidən gələn bu yaddaş bizi!

Çin səddi yol verdi öz sinəsindən,
Keçilməz keçidlər keçilən oldu.
Min görüşə dəydi bir görüş günü,
Bütün görüşlərdən seçilən oldu!

Atılan imzalar, sıxılan əllər,
Duyğular selində aşıb-daşırdı.

Hər sözün başında iki məmləkət,
İki qardaş kimi qucaqlaşırdı!

Alışır qoynunda alın-qumaşın,
Bu yer başdan-başa sərvətdi, zərdi.
Çinin ipəyini yollara sərsən,
Dünya başdan-başa ipəkləşərdi!

Gözüm işıqlandı bu mənzərədən,
Gördüm qələmimdə güc, hərəkət var!
İlhamın gözüylə baxdım dünyaya,
Harda ilham varsa, orda sənət var!

"Susma, nə durmusan, din" – dedi mənə,
"Sözün Qıratını min" – dedi mənə.
Ən böyük hikməti Çin dedi mənə,
Gördüm dünya boyda bir səltənət var!

Torpaqda zəmidi, sünbüldə dəndi,
Nəfəsim yerlərə, göylərə təndi.
Dilimin əzbəri yurddu, vətəndi,
Dediyim hər sözdə bar-bərəkət var!

Eşqim qanadlansın şair sözündə,
Yurdum naxışlansın rəssam gözündə.
Qoy dünya görsün ki, bu yer üzündə,
Azərbaycan adlı bir məmləkət var!

Pekin-Şanxay-Bakı,
1994, mart

DOĞULAR

Böyük Şəhriyarımızın öz səsiylə yana-yana oxuduğu yanğılı misraları çox dinləmişəm. Tanrının əlinin boş, könlünün xoş vaxtına düşən bir gün idi. Cənubi Azərbaycanda qonaq idim. Hörmətli şair dostumuz Sönməz məni Tehrandakı evinə dəvət eləmişdi. O taylı tanınmış ziyalılarımızdan bir neçəsi də mənimlə birlikdə idi. Söhbətin şirin yerində Sönməz ayağa durdu. "Zəlimxan, səni indiyə qədər heç kəsin bilmədiyi, heç kimin eşitmədiyi bir yeniliklə tanış edirəm. 70 yaslı Şəhriyar bizdə qonaq olarkən özündən xəbərsiz lentə aldığım "Mahur" və "Çahargah" muğamlarına qulaq as", – dedi.

Hamıya bəllidir ki, Şəhriyar nə sən deyən müğənni, nə də məşhur xanəndə idi. Ancaq Şəhriyar oxuyurdu. Ömrünü-gününü oxuyurdu. Özünü, dərdini oxuyurdu. Paralanmış Azərbaycanını oxuyurdu. Oxuya-oxuya qulaqlarıma bir həqiqəti pıçıldayırdı. Şeirləri milyonların dilində əzbər olan, Heydərbaba duyğularını könüllərə toxum kimi səpən, bərəkət kimi göyərdən, musiqini ilahi bir məhəbbətlə sevən, duyan, qəlbən yaşayan bir şair Şəhriyar şöhrətinə yüksələ bilərdi. Mən indi bildim ki, könülləri ovsunlayan Şəhriyar şeriyyəti hansı duyğulardan süzülüb gəlirmiş.

Həssas qəlbin nəğmələri kövrək olar, həzin olar,
Dağdan qopan səsin ömrü dağlar qədər uzun olar.
Allah ilə söhbət üçün ilahidən izin olar,
Nəğmə könül yanğısıdır, coşan həvəsdən doğular!

Yetim olandan soruşun, desin ki, "Segah"da nə var,
"Şüştər" nədir, "Şur" nə deyir, "Rast"da,
"Cahargah"da nə var?

Şeiri duyan yaxşı bilər, şair çəkən ahda nə var,
Sənət zindanda bərkiyər, dəmir qəfəsdən doğular!

Ney tutuşar, tar alışar, sim gərilər, pərdə yanar,
Çəkdiyimiz müsibətə, düşdüyümüz dərdə yanar.
Od ağzından çıxan sözün nuru könüllərdə yanar,
Doğma əsər, doğma kitab, doğma nəfəsdən doğular!

Min-bir nəğmə deyən gələr, mini gedər, biri qalar,
Bir olanın səcdə üçün hər ürəkdə piri qalar.
Haqqa qulaq asan kişi zaman-zaman diri qalar,
Ölümsüzlük hava üstə süzülən səsdən doğular!

Ellər üçün əriyən kəs yana-yana neyə dönər,
Genişlənər dünya kimi yerə dönər, göyə dönər.
Hay-küy ilə gələnlərin axırı hay-küyə dönər,
Ulu nəğmə, ulu hava həmişə pəsdən doğular!

Haqdan enib gələn səsi boğsalar da boğulmazdı,
Dəniz kimi, dərya kimi qurumazdı, soğulmazdı.
Hər oğuldan Heydərbaba nəğmələri doğulmazdı,
O da bir Şəhriyar kimi istəkli kəsdən doğular!

Tehran, 1992, iyul

TƏBRİZ, XOŞ GÖRDÜK SƏNİ

Ruhumu çəmən kimi yoluna sərməliydim,
Çiçəyini qoxlayıb, gülünü dərməliydim.
Özümü görmək üçün mən səni görməliydim,
Təbriz, xoş gördük səni!

Bilmirəm maşındayam, qatardayam, atdayam,
Ya bir dağ ətəyində, ya yeddinci qatdayam.
Bilmirəm yuxudayam, yoxsa ki, həyatdayam,
Təbriz, xoş gördük səni!

Bu qədər də dünyada şirin şəhər olarmı,
Bu qədər də dünyada ağrı, qəhər olarmı?
Bu qədər uzun çəkən ağır səfər olarmı?
Təbriz, xoş gördük səni!

Danışıram, dinirəm, sözümə inanmıram,
Boylanıram, baxıram, gözümə inanmıram.
Bu mənəmmi, ilahi, özümə inanmıram,
Təbriz, xoş gördük səni!

Sildi zərif duyğular ürəklərin yasını,
Tökdü şirin nəğmələr qulaqların pasını.
Axır ki, qucaqladı övlad öz anasını,
Təbriz, xoş gördük səni!

Qurbanam bu görüşün hər gününə, ayına,
Gündə bir kərpic düzər ömrümün sarayına.
Nə ki həsrətlilər var, Allah yetsin hayına,
Təbriz, xoş gördük səni!

Yedirtmişdi zəhəri, içirtmişdi ağını,
Həsrət yaman yemişdi gözümüzün yağını.
Axır ki, sındırmışıq şeytanın ayağını,
Təbriz, xoş gördük səni!

Bu tale fürsətidi, ən qiymətli an gəlib,
İllərdi gözləməkdən gözümüzdən qan gəlib.
Bu gün ziyarətinə şair Zəlimxan gəlib,
Təbriz, xoş gördük səni!!!

Təbriz, 1992, iyul

TƏBRİZDƏN AYRILANDA

Ayrılıq anları gəldi, yetişdi,
Vaxtı zərrə-zərrə böl, ay Zəlimxan!
Çox qala bilməzsən bu şəhərdə sən,
Göz yaşın olsa da göl, ay Zəlimxan!

Mən kimə yalvarım, kimə diz çöküm,
Sərhədi nə qədər dağıdım, söküm?
Başıma haranın daşını töküm,
Nə qədər bağlanar yol, ay Zəlimxan?!

Hicran sinən üstə çökər qış kimi,
Göynədər qəlbini buz baxış kimi.
Yaman qaralmısan, yağ, yağış kimi,
Qara bulud kimi dol, ay Zəlimxan!

Qoyur sapandına, daş kimi atır,
Tale insanları talayır, çatır.
Elə bil dünyanın bir yanı batır,
Əldən üzüləndə əl, ay Zəlimxan!

Sevinc yanımızdan sallanıb ötər,
Yandıq Füzulidən, Sabirdən betər.
Min ildən sonra da hamıya yetər,
Boldu həsrətimiz, bol, ay Zəlimxan!

Vaxt çatır, zamanın səbri daralır,
Gedənin gözündə dünya qaralır.

Ayrılıq gələndə solur, saralır,
Çəmən, ay Zəlimxan, çöl, ay Zəlimxan!

Yenə gözündə yaş, qəlbində kədər,
Gəlişin hədərmiş, gedişin hədər.
Sənin ki dərdin var bir Təbriz qədər,
Niyə yaşayırsan öl, ay Zəlimxan!

Təbriz, 1992, iyul

ARZU

Bir də gəzəm Savalan ətəklərində,
Yusif ola, Səfər ola, Süleyman ola!
Aşdığımız bələnlərin rəngi yamyaşıl,
Üzdüyümüz lalələrin bağrı qan ola!

Bir də minəm Səreyndə köhlən atları,
İldırımdan iti gedən yel qanadları.
Könül açа Hüseynin zarafatları,
Hər keçən gün ömrümüzdən bir nişan ola!

Zəmilərə, sünbüllərə qarışam, itəm,
Çəmənlərdə çiçəklərlə göyərəm, bitəm.
Hay deyəndə dostlarımın hayına yetəm,
Allah verə, bəxt gətirə, bir imkan ola!

Saf duyğular işıq sala qəlbə, ağıla,
Başımızdan çən çəkilə, duman dağıla.
Həsrət sözü, nifrət sözü dönə nağıla,
Bizi bizdən ayıranlar pərişan ola!

Körpə sevinc əl-qol ata, bələkdən çıxa,
Ürəyimiz yasdan çıxa, göynəkdən çıxa.
Telli sazlar qoşalaşa, köynəkdən çıxa,
Təbriz ola, Çingiz ola, Zəlimxan ola!

Təbriz, 1992, iyul

BAKIDAN GƏLMİŞƏM, ŞƏHRİYAR BABAM

Üzünü heç zaman görəmmədiyin,
Bircə çiçəyini dərəmmədiyin,
Qoşa qapısından girəmmədiyin,
Bakıdan gəlmişəm,
Şəhriyar babam!

İllərlə qovrula-qovrula qaldın,
Aylarla qıvrıla-qıvrıla qaldın,
Günlərlə sovrula-sovrula qaldın,
Bakının üzünü görə bilmədin,
Bakıdan gəlmişəm,
Şəhriyar babam!

Kəlbəcər ətirli, Göyçə diləkli,
Naxçıvan qeyrətli, Gəncə ürəkli,
Borçalı ətirli, Xəzər havalı,
Qarabağ nisgilli, Şuşa davalı,
Bakıdan gəlmişəm,
Şəhriyar babam!

Özümüz çatmadıq səs çatan yerə,
Nur gələn, Ay doğan, Gün batan yerə.
Bu gün baş qoymuşam sən yatan yerə,
Bakıdan gəlmişəm,
Şəhriyar babam!

Vurğun məzarıyam, Sabir qəbriyəm,
Cavid dözümüyəm, Cavad səbriyəm.
Ana ağısıyam, şəhid qanıyam,
Ağrılı fikirlər burulğanıyam!

Bizim başımızı yaman qatdılar,
Bizi zaman-zaman çox aldatdılar.
Vaxtında hayına çata bilmədik,
Toyuna, vayına çata bilmədik.
Əzrayıl yollarda gecikəydi kaş,
Səni əlimizdən aparmayaydı!
Şəhriyar ölümü Azərbaycanın,
Başında tufanlar qoparmayaydı!
Bakıdan gəlmişəm,
Şəhriyar babam!

Gecikən gəlişin gedişi ağır,
Üzdən dərd tökülür, gözdən qəm yağır.
Ayıran zalımdı, ayrılan fağır,
Bakıdan gəlmişəm,
Şəhriyar babam!

Sevinclə gəlmişdim bura gələndə,
Gedirəm, özümlə dərd aparıram.
İçərim doludu ağrı-acıyla,
Baxma ki, özümü mərd aparıram.
Ay ustad, belə də ölüm olarmı?
Ay ustad, belə də zülüm olarmı?
Min yol torpağından öpmək yerinə,
Bircə yol üzündən öpə biləydim!
Qəbrinə göz yaşı səpmək yerinə,
Başına gül-çiçək səpə biləydim!
Bax onda deyərdim indi mən mənəm!
Bütün ölümlərə meydan oxuyub,
Bütün ölüləri dirildən mənəm!
Gör bir nə gündəyəm, bu görüşə də,
Şükür söyləyirəm, şükür deyirəm.
Açır qanadını görüş dəmləri,
Həsrət dizlərini bükür, deyirəm.
Bakıdan gəlmişəm,
Şəhriyar babam!

Dərin dərələrə torpaq doldurub,
Qayalı dağları düz eləmişəm.
Tikanlı məftillər əritmək üçün,
İsti nəfəsimi köz eləmişəm.
Tilsimlər sındırıb, qıfıllar açıb,
Polad dirəkləri mum eləmişəm.
Yolumda dikələn daşları belə,
Əzib tikə-tikə qum eləmişəm.
Qəzəbim yığılıb yumruqlarıma,
Dilimi dişimə sıxıb gəlmişəm.
Min ilə bərabər yüz səksən illik,
Bir həsrət dağını yıxıb gəlmişəm.
Bakıdan gəlmişəm,
Şəhriyar babam!

Ağsaçlı Şəhriyar qulluğundadı,
Saçları qapqara şəvə Zəlimxan!
Bu gün səcdədir, ziyarətdədir,
Baba Şəhriyarı nəvə Zəlimxan!
Bakıdan gəlmişəm,
Şəhriyar babam!
Bakıya gedirəm,
Şəhriyar babam!!!

Təbriz, 1992, avqust

SAVALAN MƏNDƏDİR, MƏN SAVALANDA

Bu gün Savalanın zirvəsindəyəm,
Bu gün Savalanın ətəyi mənəm.
Arıyam, qonmuşam çiçəklərinə,
Dağın balı mənim, pətəyi mənim.

Cığırlı, çəhlimli, çaylı, çeşməli,
O çayın, çeşmənin biriyəm indi.
Yüz səksən ildir ki, ölmüşdüm, babam,
Gördüm Savalanı, diriyəm indi!

Sinəmə min yerdən min dağ çəkdilər,
Bir dəfə bu dağı görənə kimi.
Getdim o dünyanı gördüm, qayıtdım,
Sevincin barını dərənə kimi.

Daşında mamıram, döşündə qaya,
Ruhumla mən ona bağlıyam daha.
Nə ki ətəklərdə süründüm, yetər,
Qarlı zirvələrin oğluyam daha!

Bildi ki, ilk dəfə görürəm onu,
Yolumu kəsmədi çən Savalanda.
Nəfəslə can kimi doğmalaşmışıq,
Savalan məndədir, mən Savalanda!!!

Savalan dağı, 1992, avqust

GÖRÜŞ-AYRILIQ

Səndən xatircəməm, Füzuli babam,
Qəbrinin daşından öpüb gedirəm.
Gözümün yaşını çiçəklər kimi,
Məzarın üstünə səpib gedirəm.

Kim deyir məzarın dağılıb sənin,
Kim deyir torpağın külə çevrilib.
Ən yaxın həmdəmsən İmam Hüseynə,
Nəfəsin çiçəyə, gülə çevrilib.

Milyonlar doğulur, milyonlar gedir,
Hamı belə yerdə uyumur, babam!
Düz beş yüz ildir ki, xalqın, millətin,
Sənə məhəbbəti soyumur, babam!

Kərbəla taleli, Kərkük haraylı,
Nəcəf xatirəli ustadım mənim.
Min dağı qoparıb bir dırnağilən,
Söz dağı ucaldan Fərhadım mənim.

Süzülə-süzülə sözə çevrilib,
Əriyə-əriyə qəlbin şəm oldu.
Səhrada Məcnuna qurduğun saray,
Bütün saraylardan möhtəşəm oldu!

Dünyaya gələndən dünya şeirinin
Ağrı damarısan, ah damarısan.

Bir qəlbin içində yerləşir bəşər,
O qəlbin, ürəyin şah damarısan!

Ömür bağışladın, ölməz eylədin,
Leyli də, Məcnun da yaşar sinəndə.
Zamandan-zamana axar, dayanmaz,
Dəclə də, Fərat da daşar sinəndə!

Gəzdiyin yerləri gəzdim, dolandım,
Yatdığın torpaqda yata bilmədim.
Şöhrətin o qədər yüksəklərdədir,
Bircə pilləsinə çata bilmədim!

Təzə pöhrəsiyəm Azərbaycanın,
Sözün sünbülündə dənəm, ay ustad!
Vidadi xəstədən Bağdad elinə,
Nişanə yetirən mənəm, ay ustad!

Gecəli-gündüzlü yollarda qalıb,
Neçə yol düşsəm də bərkə, çətinə,
Məni qovuşmağa qoymadı eşqin,
Axır ki, qovuşdum məhəbbətinə!

Mən indi bildim ki, Bakıyla Bağdad,
Onda bir-birinə həsrət deyilmiş.
İndi bizim üçün qürbətə dönüb,
O zaman bu yerlər qürbət deyilmiş!

Təbrizə, Hələbə, Bağdada, Şama,
Nə qədər köç gedib, axın olubdu.
İndi yaxınları uzaq salmışıq,
O zaman uzaqlar yaxın olubdu!

Sevgini ən dadlı bir şərbət kimi
Bütün nəsillərə içirən babam.

Ərəbin dərdini türkün dilində,
Dünyanın qəlbinə köçürən babam!

Baş əyib ölümsüz misralarına
Qəbrinin daşından öpüb gedirəm!
Gözümün yaşını çiçəklər kimi,
Məzarın üstünə səpib gedirəm!!!

Kərbəla, 1994, sentyabr

KƏRBƏLA TORPAĞI

Kərbəla düzündən torpaq götürdüm,
Axdı damarımda qan oldu torpaq.
Qəlbimdə qaynadı, ruhumda yandı,
Canımda ikinci can oldu torpaq.

Kərbəla düzündən torpaq götürdüm,
Gördüm ki, sərasər qandı Kərbəla!
İmam Hüseynin ahına döndü,
Ovcumda od tutub yandı Kərbəla!

Çəkdi xəyalımı olub-keçənlər,
Səhrada küləklər əsən günüydü...
Yezidin qılıncı Həzrət Abbasın,
Qələm qollarını kəsən günüydü...

Şəhidlik zirvəsi dağlardan uca,
Düşmənin hiyləsi qırx arşın quyu.
Körpələr "Su!" – deyib qovrulan zaman,
Şırhaşır axırdı Dəclənin suyu...

Gözümə körpəcə Əliəkbərin,
Dümağ avazıyan rəngi göründü.
On minlik orduyla yetmiş adamın,
Döyüşü, qovğası, cəngi göründü.

"Beyət et!" – dedilər İmam Hüseynə,
O, təslim olmadı, olmazdı, bəli!
Onu qoyardımı rüsvay olmağa,
Babası Məhəmməd, atası Əli!

Gözünün önünə gəldi Hüseynin,
Ağrıdan qəddini əydiyi gecə.
Zəhərli qılıncı ibn Mülcəmin,
Məsciddə Əliyə dəydiyi gecə.

Gəldi, gözlərinin önünə gəldi,
Acı göz yaşları, təəssüf, qəhər...
Məkkənin içində İmam Həsənə,
Mərvanın əliylə verilən zəhər...

Kufədən Məkkəyə məktublar gəlir,
Onu çağırırdı xəlifəliyə.
Hanı o məktubu yazan "kişilər"?
Onun köməyinə yetişmir, niyə?!

İşini görmüşdü hiylə, xəyanət,
Dərd sinə üstündə kotandı, xışdı.
Məkkədən Kufəyə gələn Hüseyni,
Düşmən Kərbəlada qarşılamışdı...

İki yol var idi qarşıda bu gün,
Ya ölüm, ya qalım – hansını seçsin?
Ölsə, əqidəsi diri qalacaq,
Öz şirin canından bəs necə keçsin?!

O təslim olsaydı yezid əmrinə,
Düşmən lovğalanıb, yekələnərdi.
Şəhidlik hüsnünü bəzəməsəydi,
İslamın tarixi ləkələnərdi!

Ulu peyğəmbərdən bir səs ucaldı,
Səs nura çevrildi, nur səsə döndü.
Çatdı qulağına İmam Hüseynin,
Canında bir eşqə, həvəsə döndü!

“Ey mənim istəklim, ey mənim nəvəm,
İşıqsan, zülmətə əyilmə!” – dedi.
“Allahın yolunda şəhid olursan,
Tapın o qüdrətə, əyilmə!” – dedi.

“Kimin nəvəsisən, kim olub atan,
Günahdan çəkinmir günaha batan.
İlantək qıvrılan, iblistək yatan,
Kinə, küdurətə əyilmə!” – dedi.

“Sevgidi insanın Məkkəsi, piri,
Əqidən yolunda yan diri-diri.
Şəhid ol, belədir haqqın tədbiri,
Bağlan o qüvvətə, əyilmə!” – dedi.

Nərəsi titrətdi Həzrət Əlinin
Sonsuz səhraları, saysız qumları.
İlahi, mən necə sözə çevirim,
Qələmə gəlməyən bu duyumları!

“Bağrımın parası, gözümün nuru,
Tez sarıl silaha, əyilmə!” – dedi.
“Şərə əyiləni haqq bağışlamaz,
Batarsan günaha, əyilmə!” – dedi.

“Sarsılma, düşsən də bərkə, çətinə,
Qoy tanrım yar olsun mərdə, mətinə.
Peyğəmbər güvənir sədaqətinə,
Sadiq ol Allaha, əyilmə!” – dedi.

“Bilirəm, ay oğul, işin dardadır,
Demə gücüm hanı, qüvvəm hardadır?
İslamın sabahı sabahlardadır,
Boylan o sabaha, əyilmə!” – dedi.

Bu səsdən güc alan əyilərdimi,
Əyilməz kəslərə tarix baş əymiş.
Mən indi bildim ki, bu qətiyyətin
Kökü hardan gəlir, səbəbi nəymiş!

O yana boylanma, bu yana baxma,
Məni duy, məni sev, mənə bax dedi.
Qalın kitabların demədiyini,
Ovcumda tutduğum bu torpaq dedi.

Kərbəla düzündən torpaq götürdüm,
Tapdım sərvətimi, tapdım zərimi.
Dəftərdən, qələmdən, kitabdan əvvəl,
Bu torpaq danışdı dediklərimi!

Kərbəla, 1994, sentyabr

HƏZRƏTİ ƏLİYƏ QƏSD OLAN GECƏ

O gecə gözünə getmədi yuxu,
Fikri, düşüncəsi getdi dərinə.
Bəndənin Allaha ağ olmağından,
Şikayət eylədi peyğəmbərinə.

O gecə zülmətlə əlbəyaxaydı,
Nur kimi dünyaya dağılan kişi.
Kəbənin içində dünyaya gəlib,
Allahın evində doğulan kişi.

Onun gözlərində, baxışlarında,
İşıqlar sozaldı, şamlar əridi.
Bilmirdi o gecə son gecəsidi,
Bilmirdi o səhər son səhəridi.

Qəlbinə danmışdı nəsə elə bil,
Qəlbindən, ruhundan al-qanlar axdı.
Özü də bilmədi, sonuncu dəfə
Həsənə boylandı, Hüseynə baxdı.

O hardan biləydi qarşıda nə var,
Evindən çıxanda gecə yarıydı.
Bağlanan həyatın nurlu gözləri,
Açılan ölümün qapılarıydı.

Kufə məscidinə gedirdi evdən,
Bilmirdi bu gediş son gediş idi.
Ağlına gəlməzdi başına gələn,
Neyləsin, hamısı Allah işidi.

Burda tamamlandı ömür dəftəri,
Son arzu, son istək, son həvəs oldu.
Dilindən düşmədi Allahın adı,
Son gecə, son namaz, son nəfəs oldu.

Daşıdı yükünü daşınmaz qəmin,
Getdi güdazına bir ağlı kəmin.
Qılıncı enəndə ibn Mülcəmin,
Dünya gözlərində dar qəfəs oldu.

Başından almışdı qəfil zərbəni,
Nurlu saqqalına axırdı qanı.
Tanıdı gözləri sataşan kimi,
Qatil Mülcəm oğlu Əbdülrəhmanı!

Əbu Süfyan oğlu Müaviyənin,
Qurduğu fitnəyə, felə gedirdi.
Allahın aslanı, Allahın şiri,
Bu qoca dünyadan belə gedirdi.

Arxadan adama yara yetirmək,
Alçağın, namərdin işi sayılıb.
Döyüş meydanında döş-döşə gəlib,
Üz-üzə gələnlər kişi sayılıb.

Kişilik hardaydı Müaviyədə,
Öndə kişi durar, daldada gədə.
O heç istərdimi cənab Əliylə,
Döş-döşə dayansın, üz-üzə gəlsin.
Gücü çatardımı qara bayquşun,
Günəşin nuruyla göz-gözə gəlsin!

Kədər bir dəryadı, sevinc qətrədi,
Dinmək istəyənin dili büdrədi.
Məkkə silkələndi, Kəbə titrədi,
Həzrəti Əliyə qəsd olan gecə!

Qaya parçalandı, daş quma döndü,
Axdı göz yaşları, daşqına döndü.
Çaşdı eşidənlər, çaşqına döndü,
Həzrəti Əliyə qəsd olan gecə!

Kufənin köksündə qanlı yaradı,
Bağrı didim-didim, para-paradı.
Tarixin yanında üzü qaradı,
Həzrəti Əliyə qəsd olan gecə!

Kufə, 1994, sentyabr

KƏRBƏLA SƏFƏRİ

Yol yoldaşım, səfər dostum,
şərqşünas alimimiz
Hacı Vasim Məmmədəliyevə

Bakıdan Bağdada karvan gedirdi,
Sərvəti söz olan maşın karvanı.
Beş yüz il əvvəldən çıxıb bu yola,
Tarixin, zamanın, yaşın karvanı.

Bu yolu nə qədər gedənlər olub,
Dəvəylə, qatırla, ayaqla, atla.
Arzu böyük olub, amal müqəddəs,
Beləcə bağlanıb insan həyatla.

Bir yerdə duranda bulanıb qalır,
Səfərə çıxmasa durulmur insan.
Yorulur yollarda dizdən, ayaqdan,
Arzudan, həvəsdən yorulmur insan.

Çöllər od verirdi nəfəsimizə,
Yollar güc verirdi ayağımıza.
Qayalar mütəkkə, çəmənlər döşək,
Daşlar çevrilirdi dayağımıza.

Kültək açılırdı ürəklərimiz,
Tez-tez yaxamızı külək açırdı.
Qupquru səhralar, sapsarı düzlər,
Bizim gözümüzdə çiçək açırdı.

O tərəf, bu tərəf yoxuydu burda,
Hamı bir cərgəydi, bir tərəfiydi.

Ziyarət həmişə əziyyət sevib,
Bu yolda yorulmaq bir şərəfiydi.

Bilirdik, qarşıda hər birimizi,
Kərbəla gözləyir, Kərkük gözləyir.
Uzaqdan eşidib sorağımızı,
Füzuli nəfəsli hər türk gözləyir.

Səhralar qoynunda su tapmayanda,
Füzuli şeirini içib gedirdik.
Körpülər Füzuli misralarıydı,
Zamandan-zamana keçib gedirdik.

Çatdırdı ən böyük murazımıza,
Bizi öz qoynuna alan Kərbəla.
Zaman yaddaşında, tarix yadında,
Şəhid yurdu kimi qalan Kərbəla.

Ruhunu bənzədib sızlayan şama,
Qalıb gözlərindən yaş dama-dama.
Nisgilli şairə, şəhid imama,
Şirin laylasını çalan Kərbəla.

Ağılar içində görüb aşını,
Töküb gözlərinin qanlı yaşını.
Min dörd yüz ildir ki, çatıb qaşını
Dərin xəyallara dalan Kərbəla.

Ucalar urvatda, qiymətdə qaldı,
Görən gördüyünə heyrətdə qaldı.
Kim desə Füzuli qürbətdə qaldı,
İnanma, yalandı, yalan, Kərbəla!

Bağdad – Bakı,
1994, sentyabr

Almaniya dəftəri

SƏYYAH NƏĞMƏSİ

Eyni adlı şeirin müəllifi,
dahi alman şairi
İohan Volfqanq Höteyə

"Səyyah nəğməsi"ni yazan nəğməkar,
Bu yurdu görməmək günah olarmış.
Ürəkdə duyğular tanrılaşanda,
Nə qüssə, nə kədər, nə ah olarmış.
Qaya kölgəsində axşam düşərmiş,
Ağac kölgəsində sabah olarmış.
Göy çəmən qucağı, gur bulaq başı,
İnsana ən ulu dərgah olarmış.
Ətəkli meşələr, zirvəli dağlar,
Gözəllik taxtında bir şah olarmış.
Ən böyük səyyahlar şairlər olub,
Ən güclü şairlər səyyah olarmış.
İnsan gəzə-gəzə peyğəmbərləşər,
İnsan duya-duya Allah olarmış!

HEYİF SƏNDƏN

Dəyərini duymamaq
Bağışlanmaz suç imiş.
Bircə quruşa dəyməz,
Sənsiz dünya heç imiş.
Sənsizliyin ünvanı
Bu dünyada köç imiş, –
Heyif səndən, ay ürək.

Hər gün ağrıtdım səni,
Ağır bir cəza verdim.
Sudan oda tulladım,
Oddan ayaza verdim.
Heyif, çox gec anladım,
Çox tez güdaza verdim, –
Heyif səndən, ay ürək.

Gündə bir arzudasan,
Gündə bir həvəsdəsən.
Döyünüb çırpınırsan,
Can adlı qəfəsdəsən.
Ürəyimə toxunur,
Deməsinlər xəstəsən, –
Heyif səndən, ay ürək.

Gecə-gündüz çəkdiyin
Bu ahlar yıxıb səni.
Dirigözlü açdığın
Sabahlar yıxıb səni.

Zəhərlənmiş kimsələr,
Timsahlar yıxıb səni.
Allahdan xəbəri yox
"Allahlar" yıxıb səni, –
Heyif, min dəfə heyif,
Heyfi səndən, ay ürək.

Almaniya, Bilefild,
2004, 7 noyabr

BETHOVEN TORPAĞINDA DOST SAZİ DİLLƏNİRDİ

Payızın son ayının ilk günlərində Almaniyanın Bilefild şəhərində şair dostum, Aşıq Ələsgər yaradıcılığının tədqiqatçısı, folklorşünas alim Nizaməddin Onkun qonağıydım. Nizaməddin bəy mənim şərəfimə könül dostlarını, ziyalıları, vaxtilə Azərbaycandan və Türkiyədən getmiş adamları evinə dəvət etmişdi.

Şeirdən, sənətdən, Vətəndən, qürbətdən yüz ilin həsrətliləri kimi şirinli-acılı söhbətlər edirdik. Məclisin şirin yerində Nizaməddin bəy köynəkdə bir saz gətirdi. Gözlərimə inanmadım. Almaniya hara, saz hara? Mənim heyrətimi görən şair dostum: "14 ildi köynəkdəydi, bu illər ərzində onu dilləndirəni gözləyirdim, bu, sənin qismətindir, buyur, çal!" – dedi. Bu təklifdən qəhqəhə çəkib gülməyə başladım. Dedim, ay rəhmətliyin oğlu, 7 illik ayrılıqdan sonra Aşıq Qərib Tiflisə gələndə onun sazında salamat bir tel qalmamışdı. 14 ilə telmi qalar, mən onu çalam, siz də ləzzət ala, kövrələsiniz? Könülsüz-könülsüz sazı köynəyindən çıxartdım. Nə görsəm yaxşıdır? Elə bil saz bu gün tellənib, sığallanıb köklənmişdi. Tufarqanlı Abbasın dediyi kimi: "Dinlə Abbasın səsini, tökər könüllər" deyib saz öz-özünə oxumaq istəyirdi.

İndi fikir verin: qürbət ola, saz ola, həsrət ola, üstəlik də meydanda Zəlimxan ola! Bir Allah bilir burda saz nə tufan eylədi... Bu sazın dil-dil ötməsinin sirrini – səbəbini anlamağa çalışdım.

Məlum oldu ki, bu hədiyyəni Aşıq Ələsgərin nəvəsi, hörmətli alimimiz İslam Ələsgərli bağışlayıb. Demək, bizi həm də Ələsgər ocağının müqəddəs ruhu belə coşdururmuş.

Sanki bir ceyran gəlib
oylağıma, binəmə,
Həsrətli bir yar kimi
basdım onu sinəmə.
Zilini zil eylədim,
bəmini bəm eylədim,

Sazı ağrıya əlac,
dərdə məlhəm eylədim.
Ürəyimdə nə varsa,
tellərinə yüklədim,
Odunu alışdırıb,
qorunu körüklədim.
Dillənmək istəyirdi,
yaman darıxırdı saz,
Əllərimi vurantək
özündən çıxırdı saz.
Qalxırdı dalğa-dalğa,
enirdi pərdə-pərdə,
Son qoymaq istəyirdi
qəmə, həsrətə, dərdə.
Aran bilir, dağ bilir,
yayla bilir bu sazı,
Hər kəs öz taleyinə
layla bilir bu sazı.
Hərə öz ömrü kimi,
günü kimi baxırdı,
Qibləsi, səmti kimi,
yönü kimi baxırdı.
Sevinc-kədər qarışıq
duyğular tellənirdi,
Bethoven torpağında
dost sazı dillənirdi.

Hansı ağacdan qopub
öz kökünü anırdı,
Yaralı ceyran kimi
Göyçəyə, Borçalıya,
Təbrizə boylanırdı.
Bəlkə Qarsın, İqdırın
xiffətini çəkirdi,
Bəlkə Azərbaycanın
həsrətini çəkirdi?

Bəlkə Qarabağ idi
onu belə yandıran,
Havanı sızıldadıb
səsi dalğalandıran?
Bəlkə Tiflisdə onu
bir Şahsənəm gözləyir,
Ürəyində intizar,
qəlbində qəm gözləyir?
Parçalanmır yer nədən,
silkələnmir göy nədən,
Bəlkə də Ələsgərin
Tapdanan məzarıdır
onu belə göynədən?
Bir sazın kürəyinə
gör nə qədər yük düşüb,
Bəlkə onun yadına
Bu gün alışıb-yanan
yaralı Kərkük düşüb?
Neçə yaylıq islanıb
göz yaşı göllənirdi,
Bethoven torpağında
dost sazı dillənirdi.

Burası Almaniya,
bura alman torpağı.
Körpəlik yaddaşımın
qan udan qan torpağı.
Min-min könül sazını
atəş ilə qırıblar,
Burda mənim xalqımın
qəlbini sındırıblar.
Bu yerdən üstümüzə
qara kağızlar gəlib,
Gözləri göynərtili,
ürəyi sızlar gəlib.
Əlli ildən çox keçib
o gündən bu zamana,

Gül kimi gəlinlərin
qəddi dönüb kamana.
Analar var, kirimir,
hələ də ağlar qalıb,
Oğullar var, canında
sağalmaz dağlar qalıb.
Bəlkə bu gün dinən saz –
O vaxt susan sazların,
boğulan avazların,
Böyük müharibədə
böyüməyən boyların,
yasa batan toyların
Heyfini almaq üçün
belə aşıb-daşırdı,
Bu torpaqda can verən
Neçə ölməz igidin
ruhu qucaqlaşırdı?!
O qanlı tarixlərin
Göz yaşı xatırlanır,
yarası bəllənirdi,
Bethoven torpağında
dost sazı dillənirdi!

Havalanıb, dünyanı
saz almışdı başına,
Çatdırmışdı dünyanı
Dədə Qorqud yaşına.
Fikrin köhlən atları
min illəri haqlayır,
Hərə öz keçmişini
kitabtək varaqlayır:
Kim hansı nəsildəndi,
kim hansı soydan gəlib,
Kim hansı bayatıdan,
kim hansı boydan gəlib?

Kim sərkərdə, kim əsgər,
kim ulu xaqan olub,
Kimlər hansı savaşla,
ölməz qəhrəman olub?
Kişilik meydanında
ər oğlu, ər dünyası,
Yunuslar, Mövlanələr,
xatirələr dünyası,
Ustadlar, övliyalar,
ozanlar xatırlanar,
Sazın-sözün tarixi
hardan başlanıb gəlir,
Yazılanlar anılır,
yazanlar xatırlanır.
Budur sazın taleyi:
Harda dinirsə dinsin,
qürbətdə, ya Vətəndə,
Səsə dönür boğazda,
ruha dönür bədəndə.
İsinir, isindirir,
alışır ocaq kimi.
Cücərir, yaşıllaşır,
göyərir torpaq kimi.
Nə deməklə tükənən,
nə saymaqla bitəndi,
Qərib olan kəslərə saz
qürbətdə Vətəndi.
Sığallanıb, sevinib,
xallanıb güllənirdi,
Bethoven torpağında
dost sazı dillənirdi.
Dost sazı dillənirdi!!!

Almaniya, Bilefild,
2004, 6 noyabr

AZƏRBAYCAN

Adın çəkilən kimi
coşur damarda qanım,
Çay kimi ləngərlənib,
axın-axın oluram.
Nə sehr, nə möcüzə,
nə ovsundu, bilmirəm,
Səndən uzaqlaşdıqca
sənə yaxın oluram.

Almaniya, Bilefild,
2004, 7 noyabr

GÖRDÜM

Mən göylərdə süzərkən
yerdə bir ilan gördüm,
Əzmişdilər başını,
baş qarışıq qan gördüm.
Bu səhnəyə dözmədi
göydə insan ürəyi,
Bütün əzilmişlərə
ağrıyan vicdan gördüm.

Almaniya, Bilefild,
2004, 8 noyabr

GET

Burda durma, durmaq ölüm,
səfərlərə doğru get,
Ululara, ustadlara,
saf ərlərə doğru get.

Hər addımı qaranlıqdı,
çəkər səni zülmətə,
Gecələrə ümid olma,
səhərlərə doğru get.

Dinim, dilim, milliyyətim
sənə dayaq olmasa,
Onda məndən üz əlini,
kafərlərə doğru get.

Almaniya, Bilefild,
2004, 8 noyabr

YOL

Danışırsan yaxşı danış,
dilindəki təhqir nədir?
Hansı yazıq asılacaq,
əlindəki kəndir nədir?
Yenə kimi yandırırsan,
qaladığın təndir nədir? –
Tutduğun yol iblis yolu,
şər yolu, şeytan yoludur.

Yandıracaq körpüləri,
söndürəcək ocaqları,
Bayquş səsin, bəd nəfəsin
boş qoyaraq otaqları.
Hansı dağa ayaq bassan,
quruyacaq bulaqları,
Getdiyin yol adamlığın
yer ilə yeksan yoludur.

Dərvişim ol, aşığım ol,
şamanım ol, ozanım ol,
Tarixlərə ayna tutub
yozumları yozanım ol.
Həqiqətdən ilham alıb,
cəsarətdən yazanım ol,
Yaza bilsən, hər kişinin
ömrü bir dastan yoludur.

Könlünü al, yadında qal,
dilində bal, sev insanı,
Meylini sal, sazını çal,
seyrinə dal, sev insanı.
Əli halal, dili halal,
nəfsi halal, sev insanı,
Bu sevgidi, insanlığın
insana heyran yoludur.

Yerə tapın, göyə bağlan,
dağa-daşa vurul, gedək,
İçərini bulandırma,
çeşmə kimi durul, gedək.
Xəyanətə arxa çevir,
məhəbbətə vurul, gedək,
Sazdı, sözdü, şeriyyətdi,
bu yol Zəlimxan yoludur.

Almaniya, Bilefild,
2004, 11 noyabr

OLAYDI

Alman ordusunun əsgərlərinə baxarkən

Mən bu gücə güvənəydim,
Daş əlimdə qum olaydı.
Əriyəydi nəfəsimdən,
Polad dönüb mum olaydı.

Hər övladı gülüm, lalam,
Hər əsgəri doğma balam.
Yıxılmaz hasarım, qalam,
Dağılmaz yurdum olaydı.

Diz çökdürər zəhmət çəkən,
Qalib olmaz dizə çökən.
Köpəkləri qıran-tökən,
Basılmaz qurdum olaydı.

Dərd yatır ahın altında,
Batdıq günahın altında.
Kaş ki Allahın altında
Belə bir ordum olaydı!

TORPAQ

Bax buna deyərəm torpağa sevgi,
Sevəndə torpağı belə sevərlər.
Güvənib gövdəyə, bağlanıb kökə,
Ağacı, yarpağı belə sevərlər.

Burnunda çiçəyi, gülü qorunar,
Altında məxməri, tülü qorunar.
Ətəyi yellənər, əli qorunar,
Bar verən budağı belə sevərlər.

İpə də, sapa da, çöpə də sevgi,
Bu dağ da, bu daş da, təpə də sevgi.
Dalğa da, damla da, ləpə də sevgi,
Çeşməni, bulağı belə sevərlər.

Halal zəhmətindən bar dərə-dərə,
Xalqın taleyini tutarlar zərə.
Yurdunda bir cənnət yaradıb hərə,
Hər küncü-bucağı belə sevərlər.

Yaşıl tarlasında alaq görmədim,
Qara yollarında yalaq görmədim.
Nə gördüm bütövdü, calaq görmədim,
Qurulan növrağı belə sevərlər.

Çöllərə baxıblar, çöllər varlanıb,
İsti baxışlardan gül xumarlanıb.
Əllər sığal çəkib, daş tumarlanıb,
Yurd adlı çırağı belə sevərlər.

Allahı qanundu, tanrısı qayda,
Gözü yox heç kəsin verdiyi payda.
Dövlətsiz dövlətdən kimə nə fayda,
Sərhədi, bayrağı belə sevərlər!

ÜÇGÜNLÜK NAĞIL

Alman torpağında təbiət mənə,
Üç gün üç gecəlik nağıl danışdı.
Yerlər də, göylər də açdı sirrini,
Ürək pıçıldadı, ağıl danışdı.

Bu yaşıl dünyaya bax, gözlərimə bax,
Sular cilvələnmiş nazlı pəridi.
Qayalar döşündən süzülən bulaq,
Heynenin məhəbbət nəğmələridir!

Tanrı töhfəsidi hər qarış yeri,
Təmizdi, təzədi, tərdi, yenidi.
Dağlar bu torpağın qoca Şilleri,
Çaylar bu millətin Bethovenidi!

Duyğular baş vurur ənginliklərə,
Uçur, qanadlanır söz də, sənət də.
Allaha qovuşur insan övladı,
Dahilər yetirən bir məmləkətdə!

MÜNDƏRİCAT

Bu xalqın 5
Məhəbbət 7
Yaşamaq həvəsi 9
Burda 10
Dayanmaz 11
Salam yetir 12
Getmərəm 13
Xoşbəxtəm 14
Dünyadı 15
Sarıldığım sazdı mənim 16
Aralı 18
Bənzəyə 19
Arxalanmışam 20
Nişan verər 21
Gözəlləşdirər 22
Heç nədir 23
Göyçədə 24
Qoşalaşdırıb 25
Könlümü 26
Torpaq kimi 27
Ürəyim 28
Gileyli dostuma 29
Dünyanın yaşı 30
Mərd elə məni 31
Oxu 32
Yandı 33
Tellər 34
Bəlkə 35
Dindirə 36
Layla 37
Var 38
Qəhətdimi 39
“Mansırı” havası üstündə 40

Dur ayağa, məmləkətim! 41
Qələbə....43
Goranboydan gəlirəm....46
Tabut kimi....48
Axmayın, göz yaşları....49
Kəlbəcərdən gələn qarı....50
Əsgər qardaşıma məktub....54
Şeirim....56
Çıxış edir Xəlil Rza....59
Sən qalib gələcəksən....61
Şairlik....63
Şeir....65
Ulu söz....66
Yazdırır....67
Bu qatarla mən gedəsi olmadım....68
Ey dünya....69
Xoşbəxt eylə....70
Hər şey gözəl olacaq....71
Mən başıdaşlı....73
Şair ömrü....74
Doğuldu....76
Şeytana uzağam, Allaha yaxın....77
İman gətirin....78
Səhnə....80
İnsan....81
Mən gedərəm....82
Şairi qoysalar şair olmağa....83
Dünya öz işindədir....85
Gedir....86
Salavat çevir....87
Ürəkdə....88
Oynama, bala!....89
Təzə xəbər....90
Getmə....91
Kefli....92
Neyləsin....94
Niyə....95
Kim sağaldar....96

Hara qaçım 97
Çiçəklər 98
Məni tələsdirmə 99
Heyf ki 101
Yetim 102
Millət vəkilinə 104
Ömrüm 107
Bənzətmə 108
Bu kişi 109
Çəkir 110
Zaman 111
Mərdlər içində 112
Çıxır 113
Günəşə bax 114
Yaşa 115
Oyan deyir 117
Nə qədər ömrümüz var 118
Gəlməz 119
Nə yaxşı 120
Bilmirəm 121
Meşədəndir 122
Haqqın gücü 123
Könlüm 124
Daş 125
Baş 126
Hələ 127
İşıq 128
Atama, müəllimimə 129
Başkeçid 130
Başkeçid yaylağı 131
Dünya kimi 132
Qaldı 133
Tapmışam 134
Ömrə yazılan dəqiqələr 135
Bu sevinci alma mənim əlimdən 136
Quşlar 137
Nə qorxu 138
Yadımda qaldı 139

Atam üz qoyduğu torpaq 140
Arxada 141
Bu gün 142
Aparma 143
Çıx dünyanın seyrinə 144
Nizami dünyası 145
Sənə bağlı 147
Xatirələr 147

Ələsgər ocağında oxunan nəğmələr

I – "Ən müqəddəs bir istəyə can verib" 149
II – "Nə Kərəmtək yaş axıdıb ağlayan" 150
III – "Gəzdim yay günündə, yay axşamında" 150

Kəlbəcərdə oxunan nəğmələr

I – "Deyirlər doxsanı qoyub arxada" 152
II – "Bu yerlərdə kağız gərək olmadı" 152
III – "Kəlbəcər dağları, salamat qalın" 153
IV – "Təbiətin ürəyindən od aldı" 153
V – "Qartallar itirir qarlı zirvələr" 154
Dünyanın ölümü 156
Əmrah dayı 161
Aşıq Kamandara məktub 162
Öldürür 163

Hüseyn Arif haqqında xatirə şeirləri

I – "Hüseyn Ariflə, ustadımızla" 164
II – Səni məndən soruşurlar, ay qağa 166
Ədaləti dinlədim 168
Məmməd Araz var 170
Xəlil Rzaya ağı 172
"Bu ağır həsrətdən sellərə dönüb" 175
Habil 177
Nə təmiz yaradıb 178
Danışar 179
Ürəyi yoxdursa, ölüdür şair 180
Gətirrəm 181
Bir səni sevirəm, bir də həyatı 182

Bir gözəlin saçları 183
Bax 184
Sevənə yol ver, Allah 185
Bəy – gəlin 186
Bəsdir, məni gəl çıxarma özümdən 187
Olmaz 188
Həsrətdən süzülən 189
Sevə-sevə 190
Bağlamışdı 191
Mən getdım, məni gözləmə 192
Ay səpir nurunu 194
Gedərəm 195
Sevgidəndi 196
Olsun 197
İnsan nəfəsi 198
Səndə nə günah var 199
Şairdən xatirə qalsın 200
Sevginin gözüylə baxsan dünyaya 201
Təbiətin qoynunda 202
Salam, Sarvan dağları 203
Təbiətin ovsununa düşəndə 205
Kəndirli qartal 206
Ucal qanadında bu nəğmələrin 207
Yol 208
Gecələrin sayı 209
Kənd ocağı 210
Dağlar qonaqlıq verir 211
Oxu təbiətin nəğmələrini 212
Təbiət Allahın şah əsəridi 213
Danışıram 215
Dağlar oğlu 216
Pıçılda yarpaq, pıçılda 217
Bu çeşmənin başında 218
Təbiət-insan 219
Qaytar aldıqlarını 220
Bir köhlən at mindim Qarabulaqda 221
Sarıbaş kəndi 223
İlisu 225

Təbiətin özü kimi 226
Bax, gözlərim 227
Baharın gəlişi....228
Ömrün uzun olsun 230
Bəndənin Allaha duası anam 231
Anamın gileyi....232
Umacağım 234
Gəlmişəm 235
Mənim ömrüm....236
Yaşamaz....237
Sən demə 238
Yaxşıdı....239
Vaxtsız döymə qapımı 240
Zaman gələr....241
Ruhum 242
Suç mənim....243
Söz....244
Çox şükür 245
Bu yurdu, vətəni sevən hə kəsin....246
Bax, bu yaşamaqdı, bax, bu həyatdı....247
Daha 249
Mirvarid xanım....250
Oxu, Aşıq Kamandar 251
Sənətkar dostuma 254
Aşıq Əmrah 255
Qayıtdım....256
Getdilər....257
Göylərə bax, göylərə 258
Zəlimxan Yaqubun çoxdu cəzası....259
Qoca 261
Ulu dünya 262
Xəstəxanada yatan bacının qardaşa giley məktubu....263
Fikirlər içində 266
Varıymış 267
Dilim....268
Analar....270
Nə çoxdu 271
Son günə dava saxlaram....272

Sən Allah, dilinə qeybət gətirmə 273
Neylərəm? 274
Bölgü Allahındı 275
Söykən, torpağa söykən.....276
Zülüm 278
Gəz ki, gəzəsən.....279
Mizrab çəkdim ürəyimə 280
Zurnaçı, yorma özünü 281
Vay o gündən.....282
Sən niyə qaldırdın yuxudan məni?.....283
Özünü pis elə mənim yanımda.....284
Qanun 286
Kar eşidən günü.....287
Dünyam 288
Qayğılar.....289
Gözümün önündə 290
Adam ölürdü.....290
Bəxtimi tanımaq istəyirəm mən 292
Bədbəxtlik 293
Məğlubiyyət 295
Günahlar yuyulmaz 296
Göz yaşlarıyla.....296
Qənimlər, vəhşilər 297
Əlvida demərəm bu dünyaya mən.....299
Səndən dili bilən olmaz.....300
Gözün giləsi kimi 302
Mənim gülməyim tutur.....304
Eşqin ölümü.....305
Kəsilər 306
Bilirəm.....307
Ustad.....310
Əzizlikdən zəlilliyə.....311
Getdi.....313
Sənə 314
Mən də gedəsiyəm.....315
Can ağrısının cavan xəstəyə sualı.....317
Mən onda bildim 318
Mənimdi 319

Şahım olaydı....320
İtən sevgi....321
Səni sevmək....322
Ömrü gödək sevgi....324
Yol düşüncələri....325
Səfər üstündə....326

Türkiyə dəftəri

Sarp qapısı....327
Ziyarətdə....329
Qarsın düzündə....330
Şahmət xoca....332
Qağızmanın alması....333
Gecə keçdim Ərzurumun içindən....334
Qocatəpə camesində....335
Gözəllər gözəli....336
İstanbul qızı....337
İstanbulda quşlar qondu çiynimə....339
Məhməd Akif Ərsoyun ev-muzeyində....340
Qoşa sətirlər....343
Oxuyuram Nazim Hikməti....345
Kişi....350
Çamlıca....352
Ziyarətin qəbul olsun, insan oğlu....353
Yaxşı ki.......355
Memar Sinan....356
Tapşırıq....357
Salam, İstanbul!....358
"Türk ocağı"nda görüş....359
Qan damlatsan, can bitər....360
Göy qurşağı....362

Ərəbistan dəftəri

Məkkə yolu....364
Məkkədə....366
Şairin andı....369
Allah evində....375
Ulu Məkkə....377

İşıqlan Kəbənin nurunda, könlüm 378
Kəbənin qara daşı 380
Peyğəmbərim.....382
Kəbənin 384
Allahu Əkbər 385
Açıldı üzümüzə Kəbənin qapıları.....386

Çin dəftəri

Çin səfəri 387
Pekində görüş 388

İran dəftəri

Doğular.....392
Təbriz, xoş gördük səni 394
Təbrizdən ayrılanda.....396
Arzu.....398
Bakıdan gəlmişəm, Şəhriyar babam! 399
Savalan məndədir, mən Savalanda.....402

İraq dəftəri

Görüş-ayrılıq 403
Kərbəla torpağı.....406
Həzrəti Əliyə qəsd olan gecə.....410
Kərbəla səfəri 413

Almaniya dəftəri

Səyyah nəğməsi.....415
Heyif səndən.....416
Bethoven torpağında dost sazı dillənirdi.....418
Azərbaycan.....423
Gördüm.....424
Get 425
Yol 426
Olaydı 428
Torpaq.....429
Üçgünlük nağıl 430

“Şərq-Qərb” Nəşriyyat evində çapa hazırlanmışdır

Buraxılışa məsul:	***Rasim Müzəffərli***
Texniki redaktor:	***Rövşən Ağayev***
Üz qabığının dizaynı:	***Elşən Qurbanov***
Kompyuter səhifələnməsi:	***Xəqani Fərzalıyev***
Korrektorlar:	***Pərinaz Səmədova*** ***Elşad Çobanlı***

Çapa imzalanmışdır 26.07.2011
Formatı 60×90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 27.5
Sifariş N221. Tiraj 500

“Şərq-Qərb” Nəşriyyat evinin mətbəəsində çap olunmuşdur
AZ 1123, Bakı, Aşıq Ələsgər küçəsi, 17
Tel.: (+99412) 370 68 03; 374 83 43
Faks: (+99412) 370 68 03; 370 18 49
www.eastwest.az